AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# BORÇALI FOLKOR ÖRNƏKLƏRİ

## II KITAB

BAKI – 2013

**Azərbaycan Respublikası MEA**
**Folklor İnstitutu Elmi Şurasının**
**qərarı ilə çap olunur**

**TOPLAYANLAR:** **Valeh HACILAR**
*fil. ü. e. d. , professor,*

**Elxan MƏMMƏDLİ**
*filologiya üzrə fəlsəfə doktoru*

**TƏRTİB EDƏNİ:** **Elxan MƏMMƏDLİ**
*filologiya üzrə fəlsəfə doktoru*

**REDAKTORU:** **Mahmud ALLAHMANLI**
*fil. ü. e. d. , professor*

**RƏYÇİLƏR:** **Seyfəddin QƏNİYEV**
*filologiya üzrə elmlər doktoru,*
**Qalib SAYILOV**
*filologiya üzrə fəlsəfə doktoru*

**Azərbaycan folkloru antologiyası, XXV kitab (Borçalı örnəkləri), 2-ci kitab,** Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013. 328 səh.

Azərbaycan MEA Folklor İnstitutunun nəşr etdiyi "Azərbaycan folkloru antologiyası" silsiləsindən olan bu cildə tarixi Azərbaycan mahallarından olan Borçalıdan toplanmış folklor örnəkləri daxil edilmişdir.

B $\frac{3202050000}{098 - 2013}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2013.

# TƏRTİBÇİDƏN

Oxuculara təqdim etdiyimiz "Borçalı folklor örnəkləri" toplusu AMEA Folklor İnstitutunda nəşr olunan "Azərbaycan Folkloru Antologiyası" seriyasından növbəti kitabdır. Borçalı folklor örnəklərini özündə əks etdirən bu kitab say etibarı ilə ikincidir. Əslində bu kitabı üçüncü də hesab etmək olardı. Yəqin ki, bu sahənin mütəxəssisləri, xüsusən də folkorşünaslarımız yaxşı bilirlər ki, Borçalı folklor örnəklərindən bəhs edən I kitab Azərnəşr tərəfindən hələ 1966-cı ildə nəşr olunmuşdu. Kitabın toplayıcısı mərhum tədqiqatçı dostumuz Valeh Hacılar, tərtib edəni İsrafil Abbasov idi. Professor Valeh Hacıların nəşr etdirdiyi həmin antologiya onun vəfatından bir qədər təkmil şəkildə, bəzi əlavələrlə sonra 2011-ci ildə Folklor İnstitutu tərəfindən yenidən nəşr olundu. Mərhum dostumuz professor Valeh Hacıların son dərəcə dolğun, məzmun və mündərəcəsi etibarı ilə geniş əhatəli "Borçalı-Qarapapaq folklorunun təməl özəllikləri" adlı elmi oçerki regionun folklor mənzərəsini yüksək səviyyədə əks etdirdiyindən, oçerkindəki zəngin elmi ümumiləşdirmə, kifayət qədər dərin təhlil, əsaslı faktlara söykənən qənaətlər bizi tam arxayınlaşdırdı və biz nəsə yeni bir "müqəddimə" yazmaqdan vaz keçdik. Nəzərə alsaq ki, bu kitabımız həmin antologiyanın davamıdır, üstəlik, bu kitabımızın toplayıcılarından biri də Valeh Hacılardır.

Uzun illər Valeh Hacılarla Borçalı regionunun folkloru, aşıq yaradıcılığı, adət-ənənələri ilə müştərək məşğul olduğumuzdan əldə etdiyimiz folklor nümunələrimizi bir-birimizdən əsirgəməmişik. Bu mənada Valeh Hacıların vaxtı ilə şəxsən mənim ünvanıma göndərdiyi folklor nümunələri qovluğu əlimin altında olduğundan və qovluqdakı folklor nümunələrinin bir çoxunun əvvəlki nəşrlərə daxil olmadığını nəzərə alaraq həmin nümunələri də bu nəşrə əlavə etdik. Təbii ki, qədirşünaslıq baxımından kitabın toplayıcılarından biri kimi Valeh Hacıların bö-

yük haqqı vardır. Ona görə də onun adını toplayıcı kimi birinci yazmağı özümüzə borc bildik. Ruhu şad olsun.

Kitaba borçalıların soy kokü, onların bu müqəddəs torpağın aborigen bir xalq olmasını bir daha sübut etmək üçün yorulmaz tədqiqatçı-alim, tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin dosenti Kərəm Məmmədovun gərgin zəhməti bahasına yazıb xahişimizlə bizə təqsim etdiyi "Borçalı azərbaycanlılarının soy kökü" adlı elmi məqaləsini böyük məmnuniyyətlə daxil etdik. Şübhəsiz, bu yazı Borçalı tarixinin bir çox qaranlıq məqamlarını aydınlaşdırmaqda əvəzsiz xidmət kimi oxuculara çox dəyərli təsir bağışlayacaq.

Onu da qeyd etməyi lazım bilirik ki, Kərəm Məmmədov bu sahədə uzun illər tədqiqatlar aparmış, zəngin faktlar əsasında Borçalı həqiqətlərini özündə əks etdirən monoqrafiyasını yazıb başa çatdırmışdır. Dəyərli tədqiqatçı dostum Kərəm Məmmədova bu xeyirxah işində uğurlar diləyir, kitabımız üçün yazdığı məqaləsinə görə isə dərin təşəkkürümüzü bildiririk.

Kitabın tərtibi zamanı Valeh Hacıların hazırladığı birinci kitabda olduğu kimi, bu kitabda da çalışmııq ki, folklorumuzun çox çeşidli janrlarını əhatə edək, janrların adları təkrar olunsa da, nümunələrin təkrarına yol verməyək. Xüsusən də "Atalar sözü və məsəllər", "Tapmacalar", "Alqışlar", "Qarğışlar", "Bayatılar", "Sicilləmələr" kimi xırda janrlarda təkrarçılığın qaçılmaz olduğuunu nəzərə alaraq kitabı həm özümüz, həm korrektor, həm də redaktor və məsləhətçilər dönə-dönə oxuyandan sonra nəşriyyata təqdim etmişik. Kitaba daxil etdiyimiz folklor nümunələrinin çox böyük əksəriyyəti uzun illər (1965-dən 2012-ci ilə qədər – E. M. ) boyu topladığımız nümunələrdir.

Mərhum qardaşımız, tədqiqatçı dostumuz Valeh Hacıların bu sahədəki uğurlu işi ötən yüzilliyin səksəninci illərin ortalarından bu sətirlərin müəllfinin fəaliyyəti isə yenə də ötən əsrin 65-66-cı illərindən başlayıb. Kitabda təqdim etdiyimiz folklor nümunələrinin söyləyicilərinin böyük əksəriyyəti bu gün həyatda yoxdur, haqq dünyasına qovuşublar. Onların sinələrindən

topladığımız bu xalq incilərinin nəşri elə bilirik o behiştliklərin gecə də olsa ruhlarını şad edəcəkdir. Şübhəsiz ki, kitaba daxil etdiklərimiz bəzi nümunələri söyləyənlərin adları vaxtilə ya səriştəsizlik, ya da diqqətsizlik ucundan qeydə alınmayıb. Bunun üçün ilk növbədə özümüzü qınayır və həmin insanların ruhu qarşısında baş əyirik.

Kitabın "Deyişmələr", "Dastanlar" bölməsində bu gün də Borçalı aşıqlarının repertuarından düşməyən ustad sənətkarlarımızın tükənməz xəzinəsinə müraciət etmişik. Gələcək nəsillərə ərmağan olaraq kitabda oxuyacağınız deyişmə və dastanların hər birinin bir unikal sənət nümunəsi olduğunu yəqin ki, Siz oxucular özünüz dəyərləndirəcəksiniz.

Artıq kitabımız Sizlərin əlinizdədir, oxuyun, qiymətləndirin. Qüsurlarımız varsa onları da deməkdən çəkinməyin. Bizə bildirin.

Son olaraq, kitabın araya-ərsəyə gəlməsində mətnləri səbr və təmkinlə, yorulmadan bilgisayara köçürən, onları ustacasına korrektə edən, hər bir səhifədə dönə-dönə zəhməti olan şöbəmizin elmi əməkdaşı Vüsal Abiyevə, bu xeyirxah işdə Vüsal Abiyevə yaxından kömək edən Validə xanım Bədəlzadəyə, kitabın redaktoru professor Mahmud Allahmanlıya, "Borçalı azərbaycanlılarının soy kökü" elmi məqaləsini bizə təqdim edən tədqiqatçı-alim Kərəm Məmmədova, kitabın rəyçilərinə – f. e. d. Seyfəddin Qəniyevə, filologiya üzrə fəlsəfə doktoru Qalib Sayılova, İnstitutumuzun nəşriyyat işlərinə rəhbərlik edib tənzimləyən dostumuz, filologiya üzrə fəlsəfə doktoru Əziz Ələkbərliyə, öz səmimiliyi və xeyirxahlığı ilə bizə ruh verib şərait yaradan AMEA Folklor İnstitutunun direktoru f. e. d. Muxtar İmanova dərin minnətdarlığımızı bildiririk.

# REDAKTORDAN

Azərbaycanın müstəqililiyindən sonranın ən böyük uğurlarından biri, bəlkə də birincisi mənəvi mədəniyyətə sahib durmaqdır. Xalqımızın məişəti, tarixi, folkloru, bütünlükdə mədəniyyəti ilə bağlı görülənlər buna nümunədir. Son dövrün nəşrləri, toplama və tədqiq nümunələri, mətbuat səhifələrində gedənlər, eləcə də radio və televiziya kanallarında verilən verilişlər bu marağın artmaqda olduğunu göstərir. AMEA-nın Folklor İnstitutunun bu istiqamətdə gördüyü böyük işlər var. "Azərbaycan folkloru külliyyatı" seriyasından buraxılan "Naxçıvan folkloru", "İraq-Türkman folkloru", "Göyçə folkloru", "Ağbaba folkloru", "Qaraqoyunlu folkloru", "Şəki folkloru", "Ağdaş folkloru" və s. kitablar buna nümunədi. Bu yaxınlarda folklorşünas alimimiz Elxan Məmmədlinin Borçalı mahalının ustad aşığı Aşıq Aslan Kosalıdan toplayıb yazıya aldığı «Dastanlar»ını oxudum. "Dastanların toplanması haqqında məlumat"dan məlum olurdu ki, müxtəlif illərdə yazıya alınıbdır. "Aşıq Qərib-Şahsənəm", "Abbas-Gülgəz", "Tahir-Zöhrə", "Novruz-Qəndab", "Alıxan-Pəri", "Valeh-Zərnigar", "Ağcaquzu" epizod, təhkiyə, dil, söyləmə faktları və s. əlavələrlə maraqlıdır. Folklorşünaslığımızda bu cür işlərin görülmə gərəkliyini göstərən hadisədir. Məhz bu səbəbdən də bunu folklorşünaslığımıza töhfə kimi qiymətləndirdim. İndi isə qarşımda "Azərbaycan folkloru külliyyatı" seriyasından nəşrə hazırlanan "Borçalı folkloru örnəkləri" kitabının əlyazması var. Borçalı bizim tariximizin, mədəniyyətimizin beşiyi olan məkanlardandır. Orada türkün mövcudluğunun, genetik yaddaşının, sonrakı çağlarının gizlinləri daha çox qorunmuşdur. Bir mədəniyyət layı kimi müxtəlif istiqamətli araşdırmaları zəruri edir. Düzdü, dil faktları, toponimiyası, məişəti, tarixi, etnoqrafiyası ilə bağlı müəyyən araşdırmalar aparılmışdır. Və son dövrlərdə də bu istiqamətli işlər gedir. Əldə olanlar, aparılan araşdırmaların nəticələri, eləcə də folklorşünas E. Məmmədlinin çap olunan və çapa hazırlanan kitabları hələ daha gərəkli işlərin görülmə zərurətini aydınlaşdırır.

Borçalı məkan və mühit etibarilə hansı böyük sənətkarları yetirməyibdir? Aşıq Sadıq Sultanov, Aşıq Məhəmməd Sultanov, Xındı Məmməd, Aşıq Alxan Qarayazılı, Aşıq Musa Qaraçöplü, Aşıq Əmrah Gülməmmədov, Hüseyn Saraclı, Aşıq Kamandar və s. kimi ustadların keçdiyi yol bizə hələ çox-çox qədimlər haqqında düşünməni zəruriləşdirir. Bu dediklərimiz adları bəlli olanlardı. Tarixin daha dərinliklərinə getdikdə bunlara qədər bu yolu, sənəti, xalqın zəngin məişətini daşıyıb gətirənlər olmuşdu. Həmin ustadlarla "Kitabi-Dədə Qorqud"dakı ozanlar ozanı Dədə Qorqud arasında bir varislik ənənəsi görünür. Buraya "Kitabi-Dədə Qorqud" dastanının özünü də bütünlükdə əlavə etmək zərurəti yaranır. Bu ənənədə "Koroğlu" da var. Orada olanlar həm qəhrəmanlıq, həm də sənət xəttində, eləcə də digər istiqamətlərdə varislik hadisəsidir. Məsələnin əsas mahiyyəti isə onların açılmasındadır. Müasir folklorşünaslıq elminin üzərinə məhz bu səpkidə, müxtəlif istiqamətli araşdırmaların aparılması kimi gərəkli bir vəzifə düşür. Daha doğrusu, vətəndaşlıq borcu kimi görünür. Burada isə ən baş məsələni toplamaların aparılması və nəşri təşkil edir.

Folklorşünas E. Məmmədli həmin regiona möhkəm tellərlə bağlıdır. Orada böyüyüb boya-başa çatmışdır. Mühiti, harada nəyin olmasını yaxşı bilir. Xalq ədəbiyyatının xiridarlarındandır. Ruhu, düşüncəsi etibarilə də xalqa bağlıdır. Folklor, xalqın zəngin yaradıcı ruhu onun içindən keçir. Və uzun illərdi ki, toplamalar aparır. Həmin toplamalardan əldə olunan nəticələr bu işi daha da sürətləndirməyi, ardıcıl ekspedisiyalar etməyi aktuallaşdırır.

"Borçalı folklor örnəkləri" bir toplu kimi xalqın inam, etiqad, sınama, layla, bayatı, tapmaca, atalar sözü, rəvayət, dastan, nağıl dünyasını özündə ifadə edir. Burada maraqlı cəhət bu nümunələrdə ilkin düşüncədən bu yana olanların hamısının yaşarılığıdır. Məsələn, "Qara nər" adı ilə verilən mətn özlüyündə xalqın çox qədim inamlarını işarələyir. Azərbaycanın bir çox regionlarında (Qubada, Şamaxıda, Qusarda, Qazaxda, Qəbələdə)

bu adla bağlı sınaq yerləri olmuşdur. İnsanlar oraya diləklərinin çin olması ümidi ilə gəlmişlər. Bunun isə arxasında hansısa hadisə, hekayət, əhvalat durmuşdur. Ona görə də bu oxşar düşüncə hadisələrinin toplanması və müqayisəli araşdırmaların aparılması daha maraqlı nəticələrə gəlməyə şərait yarada bilər.

Topludakı sınamalar, ovsunlar bir-birindən rəngarəngliyi, insanların həyatının bir hissəsi olması təsəvvürü ilə maraqlıdır. Çünki bunların arxasında tarix, insanların böyük həyat təcrübəsi durur. Məsələn, axır çərşənbə ilə bağlı olanlar, xalq arasında yaşayanlar insanların həyatının bir parçası, istək və arzularının hadisəsi kimi təsir bağışlayır. Topludakı nümunələrin birində deyilir: “Deyərlər ki, ilin-ayın axır gecəsi (yəni axır çərşənbədə - red. ) söyüd ağacı başını yerə qoyur. Kim bu mənzərəni görsə nə niyyəti varsa baş tutar». Və yaxud da bir başqa müxtəliflikla dolu iki sınamaya diqqət yetirək. 1). “Sacın üstündə hərə öz adına bir buğda atır və hərə öz ürəyində bir arzu tutur. Kimin buğdası tez çırtlasa, onun niyyəti baş tutacaq”. 2). “Boylu gəlinin başına kirimişcə bir çimdik duz tökər, izdiyərlər. Əgər gəlin əlinİ-üzünə, alnına çəksə qızı, çənəsinə çəksə oğlu olacaq – deyərlər”. Göründüyü kimi, müxtəlifliklə nəzərə çarpan bu nümunələrin hər birisi insanların həyat haqqında düşüncələrinin ayrı-ayrı tərəflərini özündə ehtiva edir. Və bunlar həm də o düşüncəni doğurur ki, təsadüfi, hansısa bir olacağın faktı kimi yaranmamışdır. Əksinə, burada insanların həyat təcrübəsi, həyatın özünün dərslərinin nəticəsi var. O nəticə insanları, sınamaya ovsuna, inam və etiqadlara, mərasimlərə və s. -yə kökləmişdir.

Toplu atalar sözü, məsəl, rəvayət, bayatı, layla örnəkləri ilə zəngindir. Burada maraqlı cəhətlərdən biri hansısa folklor nümunələrinin arxasında hadisənin, reallığın durmasıdır. Bu, kitabdakı bayatı nümunələrində özünü göstərir. Belə bayatı, nəğmə örnəklərimiz kifayət qədərdir. Yazılı ədəbiyyatımızda da məhz bu cür nümunələr vardır. Məsələn, Ağabəyim Ağabacının, Mə-

həmməd bəy Aşiqin, Aşıq Pərinin, Qasım bəy Zakirin və başqalarının bir sıra bayatıları var ki, bunların arxasında hansısa hadisənin durması müşahidə olunur. Məhz folklorşünas alimimiz E. Məmmədlinin toplamalarında da bu ənənə var. S. Vurğun xüsusi olaraq vurğulayırdı ki, hər bir əfsanə, əsatir nümunəsinin arxasında bir reallıq cizgiləri yaşanır". Fikrimizcə, bütün folklor nümunələrinin arxasında bu və ya digər dərəcədə həyatiliyə, həyat reallığına söykənən məqamlar var. Bunlar ya üst qatda, ya da bir qədər alt qatda dayanır. Bayatı nümunələrində də bu hal özünü göstərmədədi. Arxasında hansısa əhvalat dayanan bayatılar bunu bir aydınlıqla təsdiqləyir.

"Borçalı folkloru örnəkləri" toplusunda müxtəlifliklə, zənginliklə nəzərə çarpan əfsanələr ("Maraluçan", "Xanada qaldı muncuğum" və s. ), lətifələr ("Koxa və Eyyub", "Otmu, bağmı", "Qırxında öyrənən gorunda çalar", "Hortu bir abbası", "Mən gedirəm, sən də gəl" və s. ), nağıllar ("Nurxatunun nağılı", "Bəhlul Danəndə", "Mahmudun nağılı", "Üç qardaş") deyimlər, inam və etiqadlar və s. hamısı regionun folklor mühitinin zənginliyini göstərən hadisədir. İnam və etiqadlarda xalqın müqəddəslik düşüncələri, tanrının yaratdığının qiymətləndirilməsi, uca tutulması var. Məsəəln, topluda çörək, su, odla bağlı deyilənlərdə oxuyuruq: "Çörəyi birəlli kəsmək günahdır", "Çörəyi isti-isti kəsməzlər", "Yerə düşən çörəyi üç dəfə öpüb gözün üstə qoyarlar", "Ocağa su tökməzlər. Bu, evdə soyuqluğa səbəb olar" və s. Bütün bu inam və etiqadlar, sınamalar, rəvayət, əfsanə, nağıl, bayatı, layla, oxşama, atalar sözü, məsəl, lətifə və s. hamısı Borçalı folklor mühitinin zənginliyinin göstəricisidir.

Borçalı folklor mühitində mühüm bir hissəni aşıqların, ustad sənətkarların yaradıcılığı təşkil edir. Elə kitabda da mühüm bir hissəni deyişmə və dastanlar tutur. "Şair Nəbi ilə Şair Abdullanın deyişməsi", "Ağacanın Türkiyə səfəri", "Aşıq Musanın Azaflı Mikayılla görüşü", "Aşıq Alxan Qarayazılının

Aşıq Musa ilə deyişməsi", "Faxralı şairləri Şair Rəhimlə İsmayıl Güllərin deyişməsi", "Şəhri-Mehri dastanı", "Zərqəm şah", "Mehdi bəy" Borçalı folklor mühitinin zənginlik faktlarıdır. Birada maraqlı olan bir məsələ də "Ağcaquzu" dastanının başqa bir variantının verilməsidir. Folklorşünas E. Məmmədli müxtəlif vaxtlarda Aşıq Aslan Kosalıdan dastanın üç variantını yazıya almışdır. "Dastanlar" külliyyatında onun 1989-cu il variantını oxumuşdum. Burada isə 2006-cı il variantını vermişdir. Folklorşünas alim qeydlərində yazır: "Koroğlu" dastanından geniş ictimaiyyətə tanış olmayan "Ağcaquzu" qolu ilk dəfə olaraq tərəfimizdən (E.M.) 1989-cu ilin dekabr ayında Qarayazı (Qardabani) mahalının Kosalı kəndində tanınmış el sənətkarı, ustad aşıq Aslan Kosalıdan yazıya alınıb. Bir qədər sonra ilk dəfə olaraq həmin qolu şərti olaraq iki başlıq altında "Ağcaquzu" və "Pərzad xanımn Çənlibelə gəlməsi" adı ilə "Qobustan" jurnalında və 1992-ci ildə Türkiyədə nəşr etdirmişik… Ustad sənətkarın istəyi ilə sonralar "Ağcaquzu" qollarını 2006 və 2012-ci illərdə yenidən yazıya almışıq. Bu gün əlimizdə Aslan Kosalının ifasında həmin qolların üç variantı mövcuddur. Qeyd edək ki, 2012-ci ildə ustadın repertuarına həsr etdiyimiz "Azərbaycan folkloru külliyyatı" seriyasının 30-cu cildində "Ağcaquzu" və "Pərizad xanımın Çənlibelə gəlməsi" qollarının I variantını da daxil etmişik. Bu kitabımızda isə aşığın ifasında II variantı təqdim edirik". Bunun özü folklor hadisəsi kimi maraqlıdır. Beləliklə, folklorşünas E. Məmmədli "Borçalı folkloru örnəkləri" və digər bu istiqamətli kitabları ilə Borçalını Azərbaycanımıza, bütünlükdə türk dünyasına təqdim etmişdir. Və son olaraq belə qərara gəlməyə əsas vermişdir ki, Borçalı bir region kimi bütün mahiyyəti, olanları ilə Azərbaycanın, türkün folklor kitabıdır.

**Mahmud ALLAHMANLI**
*filologiya elmləri doktoru, professor*

## BORÇALI AZƏRBAYCANLILARININ SOYKÖKÜ

Tarixi Borçalı mahalı dünyanın ən qədim insan məskənlərindən biridir. Hələ XX əsrin 30-cu illərində Ceyrançöldə Udabno kəndindən tapılmış primat qalıqları bölgənin antropogenez, yəni insanın yaranma yeri olduğunu sübut edir. Dünya alimlərinin diqqətini cəlb edən ən mühüm tapıntı isə 1999-cu ildə Dmanisi (1947-ci ilədək Başkeçid) rayonu ərazisində Xram çayı sahilindəki mağaradan aşkar edilmişdir. Arxeoloqlar burada yanaşı basdırılmış ər və arvadın bütöv skeletlərini tapmışlar. Antropoloqların fikrincə kəllə quruluşuna görə dolixokran (uzunbaş) olan bu insanlar Yer kürəsində evropoid irqinin ən qədim nümunələridir. Bütövlükdə Qafqaz əhalisi öz antropoloji quruluşuna görə evropoid irqinin cənub qolunun dörd tipinə aid olunurlar. Mərkəzi Qafqaz əhalisi və gürcülər girdəbaşlı, enlisifətli kavkasion, ermənilər yastıbaşlı, naziksifətli, əyriburunlu armenoid, Qara dəniz sahillərinin əhalisi qismən sarışın, əyriburunlu, qıvrımsaçlı, qismən girdəbaşlı Pont, azərbaycanlılar isə dolixokran (uzunbaşlı), nazik və düz burunlu, ortaboylu Kaspi tipinə aid olunurlar. Məsələyə aydınlıq gətirmək üçün XX əsrin əvvəllərində yaşamış görkəmli gürcü tarixçisi İ.A.Cavaxaşvilinin "Gürcü xalqının tarixi" əsərinə müraciət edək: "kəllələrin quruluşuna görə antropologiya elmi xalqları bir neçə yerə ayırır: onlardan biri qısa başlı, yəni braxikran, digəri isə uzunbaşlı və ya dolixokrandır. Qafqazdakı ən qədim qəbirlərdən tapılan kəllələrin ölçülməsi nəticəsində müəyyən edilmişdir ki, ilk olaraq bizim diyarda uzunbaşlılar, yəni dolixokefallar yaşamışlar. Professor Virxov qeyd etmişdir ki, indiki gürcülərin və ermənilərin Qafqazın ən qədim əhalisi ilə heç bir bağlantısı yoxdur. Demək onda gürcülər və ermənilər mahiyyətcə Qafqazın ilk yerli əhalisi deyillər. Onlar bu diyara (Qafqaza - *müəlllif*) gəldikdə, burada ayrı xalqın xələfləri yaşayırdılar».

Borçalı ərazisindən dünya arxeologiya elmində qəbul edilmiş bütün dövrləşmələrə aid abidələr aşkar edilmişdir. Yazılı

qaynaqlar burada məskunlaşmış ən qədim etnos kimi buntürklərin adı çəkilir: "İsgəndər şah Lot övladlarının törəmələrini sıxışdırıb yarımqaranlıq ölkəyə qovarkən … Kür vadisi boyunca dörd şəhərdə: Sarkine, Urbnisi, Kaspi, Odzrxedə yaşayan döyüşkən buntürk tayfaları ilə üzləşdi. Bu zaman xaldeylər tərəfindən köçürülmüş cəsur hunlar gəldi. Onlar buntürk hökmdarından yaşamağa yer istədilər və Zanavada yurd saldılar». Salnamənin naşiri Takayşvili, buntürkləri "ümumiyyətlə turanlılar" adlandırır ki, onun bu versiyası "Kartlis Sxovreba (Gürcüstanın həyatı)" salnaməsinin məlumatları ilə təsdiqlənir. Belə ki, salnaməçinin yazdığına görə "əvvəlcə Msxeta ətrafında yerləşən türklər onu çətin alınacaq istehkama çevirərək adını Sarkine qoydular". o biri səhifədə isə deyilir: "Sarkine sakinləri buntürklər". Təəssüf ki, yuxarıdakı qaynaqların məlumatları hələ də şübhə altına alınır, qaynağın müəllifi Leonti Mroveli "anoxronizmdə" ittiham edilir, Azərbaycan türklərinin bu ərazidə XVI əsrdən gec olmayaraq yaşadıqları iddia olunur.

Msxetadakı "Samtavro qəbristanlığı"nından aşkar edilən kəllələri tədqiq edən gürcü antropoloqu M. Q. Abduşelişvili erkən tunc dövründən I minilliyin ortalarına qədər bölgə əhalisinin dolixokran olduğunu, yəni Kaspi tipinə mənsub olduğunu qeyd edir. Rus-sovet antropoloqu V. P. Alekseev isə burada dəfn olunanların əsilzadələr və döyüşçülər olduqlarını yazır. Gürcü arxeoloqu Ş. A. Mesxia bilavasitə buntürklərə aid etməsə də m. ö. IV əsrdə indiki Gürcüstan Respublikasının cənub-şərqində, yəni Borçalı ərazisində yuxarıda adı çəkilən şəhərlərin olmasını təsdiq edir. Qazıntılar zamanı arxeoloqlar bu şəhərlərin ərazilərindən m. ö. I minilliyin ortalarına aid edilən tikili qalıqları tapmışlar. Salnamədə adı çəkilən digər şəhərlərə, o cümlədən Msxetaya gəldikdə isə Mesxia onun daha sonra, yəni "gürcü tayfalarının Arian - Kartlidən köçüb gəldikdən sonra yarandığını" güman edir.

Borçalı ərazisindəki ikinci türk etnik plastı bulqarlarla bağlıdır. Gürcü tarixçisi Z. V. Ançabadze hətta buntürklərin özlərini

«qara bulqarlar» hesab edir. Bulqarların Borçalı ərazisinə gəlişi barədə erməni salnaməçisi Moisey Xorenli belə bir məlumat verir: “Vaharşakın oğlu Arşakın vaxtında Böyük qafqaz dağı boyu Bulqar torpağında böyük iğtişaşlar oldu və onların çoxu ayrılaraq Koxanın (Kolxidanın) cənubundakı məhsuldar torpaqlarda yerləşdilər”. Bu məlumat da arxeoloji qazıntılarla təsdiq olunur. Belə ki, Dunay bulqarlarının xaqanı Asparuxdan 700 il əvvəl Cənubi Gürcüstanda onunla adaş olan «pitiaxş Asparux»un adı həkk edilmiş metal lövhə tapılmışdır. Onu da deyək ki, İç Oğuzdan Trabzona gedən yolda (Borçalı ərazisində - *müəllif*) Dədə Qorqud boylarından birinin qəhrəmanı Qazılıq Qoca oğlu Yeynək də “altı başlı bolqar bir ər” görür. Alban tarixçisi Musa Kalankatlı da II-IV əsrlərdə Cənubi Qafqaza bulqar tayfalarından birinin - barsillərin arasıkəsilməz hücumlarından xəbər verir. Müxtəlif mənbələrdə bu tayfanın adı da fərqli şəkillərdə verilir: barselt, barsil, borşalu və s. Orta əsr ərəb müəllifi Yaqut Həməvi isə yazırdı: “Borşalı Arranda yer adıdır”. Digər ərəb müəllifi Qardizi isə buranı Börüçölü adı ilə tanıyır. Bu isə Borçalı termininin həm toponim, həm də etnonim mənasında işlənildiyini göstərir. Borçalılılar erkən orta əsrlərdə Cənubi Qafqazda böyük siyasi rol oynamışdır. Yoxsa “Trdatın atası Xosrovun dövründə ermənilər qüdrətli barsillərlə dostluq” etməzdilər.

VII əsrdə Borçalı ərazisinə daha bir türk tayfası – göytürklər gəlmişlər. “628-ci ildə 2 aylıq mühasirədən sonra türkütlər Tiflisi tutaraq, şəhər hakimini ələ keçirdilər. Göytürk xaqanını təhqir etdiyi üçün onun dərisini soyub saman təpdilər və qala divarının üstündən asdılar”. “Göytürklər yeni qüdrətli türk xalqının xəzərlərin digər qohum tayfalarla birləşməsinə şərait yaratdılar. Xəzərlərdən başqa bu ittifaqa Suvar və Barsil (Borçalı - *müəllif*) tayfaları da daxil oldu”. Gürcüstan - Xəzər münasibətlərinə gəldikdə isə D. Baqrationi bu barədə yazırdı : «Gürcüstan və ona qonşu ölkələr, mənşələri barədə Degin (Fransa şərqşünası - Müəllif) tərəfindən bəhs edilən xəzərlər tərəfindən tutuldu. Onlar şimaldan, Hetariyadan Dərbəndi keçərək gəlmişdilər”.

552-ci ildə Xəzər xaqanının qızı ilə evlənən Sasani şahənşahı I Xosrov Ənuşirvan 1 il sonra 3 min türkü Dmanisi ərazisinə köçürməyə razılıq verdi. Türk tayfalarının Borçalı ərazisində məskunlaşması Cənubi Qafqazın Ərəb xilafətinin tərkibində olduğu illərdə də davam edirdi. "853 - cü ildə xilafət sərkərdəsi Buğa Türk öz orduları ilə vilayətdən vilayətə keçərək, Dərbənd qapılarını açdı və Dmanisiyə 3 min ailə köçürdü". Əgər nəzərə alsaq ki, bu dövrdə "darvazaların (Dərbənd nəzərdə tutulur - *müəllif*) o tayında şəhərləri olan bulqarlar yaşayırdı", onda bu köçürülənlərin də bulqarlar olmasına şübhə yeri qalmır.

Səlcuqluların Cənubi Qafqaza gəlişi ilə Cənubi Qafqazda, o cümlədən Borçalıda da İslam - Türk amilinin qəti şəkildə qələbəsinə gətirib çıxartdı. 1118-ci ildə Səlcuqlulara qarşı mübarizə aparmaq məqsədilə Abxaz - Kartvel hökmdarı David Baqrationi (Aqmaşanebeli ) 40 min qıpçaq türkünü Borçalı və ona bitişik bölgələrə yerləşdirdi. 1121-ci ildə bu qıpçaqların köməyilə Didqori ("Böyük donuz") döyüşündə Səlcuqlu ordusu üzərində qələbə qazana IV David Tiflis müsəlman əmirliyini ləğv etdi, Dmanisi və Ani müsəlman əmirliklərinin ərazisini işğal etdi. Bununla belə yerli əhalinin dini və etnik tərkibini nəzərə alan Baqratilər sülaləsindən olan gürcü hakimləri kəsdirdikləri pullarda Məhəmməd peyğəmbərin adını zərb etdirir, onların rəğbətini qazanmaq məqsədilə Cümə namazlarına gələrək xütbələrə qulaq asırdılar. Tiflisdə isə ümumiyyətlə donuz saxlamaq qadağan edilmişdi. IV David tərəfindən Tiflisə köçürülmüş xristian əhalisinin bir qismi 1226-cı ildə Xarəzmşah Cəlaləddin tərəfindən qovuldu, qalanları isə İslamı qəbul etdi.

XIII əsrin 20-ci illərindən başlayan monqol hücumları 60-cı illərdə bütün Cənubi Qafqazın, o cümlədən Borçalının da Elxanilər dövlətinin tərkibinə qatılması ilə nəticələndi. Başqa monqol ulusu olan Qızıl Orda ilə Cənubi Qafqaz uğrunda mübarizə aparan Elxanilər, Qızıl Ordada hakimiyyətdə olan Bərkə xanın yanından qaçıb gələn monqol feodallarını Dmanisidə yerləşdirdilər.

XIV əsrin sonlarında Cənubi Qafqaza gələn Əmir Teymur 1386-cı ildə Borçalıdakı Yağlıca düzənliyində ordugah quraraq, Tiflisdən şimalda yaşayan qıpçaq ellərini özünə tabe etdi.

XV əsrin 20-ci illərindən Azərbaycan Qaraqoyunlu dövlətinin tərkibinə qatılan Borçalı, bu dövləti əvəz edən Ağqoyunluların xüsusi diqqət yetirdikləri bir bölgə idi. Ağqoyunlu Həsən Padşah və onun oğlu sultan Yaqubun dövründə mühüm strateji məntəqə olan Ağcaqala daha da möhkəmləndirildi.

XVI əsrin I rübündən başlayaraq Osmanlı-Səfəvi müharibələrinin gedişində dəfələrlə əldən-ələ keçən Borçalı əsasən Səfəvilərin nüfuz dairəsində olmuşdur.

Borçalının həyatında ən mürəkkəb dövr XVIII əsr hesab olunur. Azərbaycanda mərkəzi hakimiyyətin zəifləməsi, feodal pərakəndəliyinin hökm sürməsi Borçalı elatlarının tez-tez yerdəyişməsinə səbəb olmuşdur.

XIX əsrin əvvəllərindən Rusiya ağalığının bərqərar olması Borçalı, ümumiyyətlə Cənubi Qafqazın müsəlman əhalisi üçün əsl faciə oldu. Bölgənin zorla Osmanlı və Qacarlı torpaqlarına sürgün edilən müsəlman əhalisinin (Qarapapaqlar, Ulaşlı və s. ) yerinə ermənilər, aysorular və urum yunanları yerləşdirildi ki, bu da Borçalının etnik tərkibini dəyişdirdi.

XX əsrin əvvəllərində Rusiya tərəfindən qızışdırılan ermənilərin Borçalıda müsəlmanların axırına çıxmaq arzusu gözlərində qaldı. Təkcə Başkeçiddə 400 atlıdan ibarət müsəlman hərbi birləşməsi erməni quldurlarının əl-ayaq açmalarına aman vermədi. Rusiyada Romanovlar sülaləsinin devrilməsindən sonra Qafqazda milli-azadlıq mübarizəsi daha da gücləndi. 1918-ci ilin mayında Cənubi Qafqazda müstəqil dövlətlər quruldu. Borçalı ziyalıları Osmanlının himayəsi altında "Qarapapaq" dövləti qurmaq qərarına gəldilər. Borçalı ilə bağlı Azərbaycan Gürcüstan danışıqlarının getdiyi bir dövrdə başı daim yad qoltuqlarda olan erməni siyasətbazları Borçalını qanlı müharibə meydanına çevirdilər. 17 dekabr 1918-ci ildə Borçalı üstündə başlayan erməni - gürcü müharibəsi mahlaın iki yerə bölünməsi ilə nəti-

cələndi. Bu bölgü Cənubi Qafqazda Sovet rejimi bərqərar olduqdan sonra rəsmiləşdirildi. Borçalının 2575 kvadrat kilometr ərazisi Ermənistan Respublikasına «hədiyyə edildi».

Hazırda Ermənistana verilmiş Borçalı torpaqlarında bir nəfər də olsun borçalılı qalmamışdır. Gürcüstanın tərkibindəki Borçalı torpaqlarına isə Svanetiya köçkünlərinin yerləşdirilməsi və Qamsaxurdiya rejiminin anti-azərbaycan siyasəti nəticəsində bölgənin etnik tərkibi xeyli dəyişdirildi. Gürcüstan Respublikasında E.A.Şevardnadzenin prezident seçilməsi ilə Borçalı azərbaycanlılarının vəziyyəti xeyli yaxşılaşsa da təəssüflə qeyd etmək lazımdır ki, 2001-ci ildən Rusiya Federasiyasının ölkəyə gələn Gürcüstan vətəndaşlarına viza rejimi tətbiq etməsi Borçalı azərbaycanlılarının Rusiyaya vizasız gediş-gəlişlərini təmin etmək üçün Azərbaycan Respublikasına axın prosesini xeyli gücləndirmişdir.

**KƏRƏM HƏTƏM oğlu MƏMMƏDOV**
***BDU-nun Arxeologiya və Etnoqrafiya kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru***

# I MİFOLOJİ MƏTNLƏR

* * *

Nəsir ulduzu Dan ulduzudu. Nəsir adında bir adama kömey eliyibmiş. Ona görə adına Nəsir ulduzu deyillər.

## SƏN KÜR, MƏN KÜR

Koroğlu hər yeri gəzif. Onun bir xəsyəti varıydı. Harya getsə orda bir iz qoyardı. Deyilənə görə bu tərəflərdə də oluf. Cavannar danışır. Deer, bir dəfə gəlif çıxıbmış bizim bu Sarf dərəyə. Yaman da yağışdı, çisəkli günüymüş. Elə indiki kimi bir az da artıx. Bular yığıler, ojax qalamax isdeyllər. Ama nə qalayasan. Ağac yox, kol yox, toz ağacınnan başqa bir şey bitməz oralarda. O vaxtatan bizimkilər bilmeyllərmiş tozağacının yandığını, höyüş olanda. Koroğlu adamlarına əmr eliyif bu tozağacını yığdırer, bir yekə ojax qalıyer. Elə onnan sora bizim çovannar da biler ki, tozağacı höyüş olanda da yaner.

Burdan keçer Gürcüstana. Uxarı tərəflərə getməy istiyirmiş. Neysə bular gəler çater Kürə. Adamlarınnan baravar bunun qırağında duruf baxeyr. Deyir, bir girem, çimem. Əyə, mən bunu üzüf keçdim, onda hamımız keçif gedərək, yox keçəmmədim – qayıdajeyx. O vaxt da çayın suyu çoxuydu. Üç-dörd bu yekəlihdə olardı. Burda çimir. Ama nə qədər eliyer üzüf keçəmmer. Çıxer qırağa deyir ki, sən kür, mən kür, biz bir yerdə yola gedəmmerik. O vaxtdan çayın adı qaler Kür.

## QARA NƏR

"Qara nər" dediyimiz ojaxdı. Orda ojax yeri varıymış. Bir dəfə ojax yananda içinnən bir yekə qara nər çıxır. Ora ziyarət olur. Adına da Qara nər deyillər.

Sonra buraya marallar dadanır. Hər gün gəlirmiş. Həmən Ocaxıllıda bir arvad olur. Bu gedif maralları sağırmış, südünü də öyə gətirirmiş. Gejə hamı yatannan sonra gedif danüzü tezdən qayıdırmış. Bir dəfə arvad qayıdanda kişi bilir. Deyir, paltarın höyüşdü, hardıydın? Arvad deyir ki, belə-belə. Kişi bir vaxt buna inanmır, deyir gərək gözümnən görəm. Genə bir gejə arvad gedəndə kişi də duruf bunun dalıncax gedir. Görür ki, arvad gəlif maralları sağır. Savax soruşur arvad, bu süd hardandı? Deyir, öz malımızdan. Kişi heç nə demir. O bir gün genə duruf arvadın dalıncax gedir. Gəlif görür ki, arvad genə maralları sağır. Arvad kişinin gəldiyini bilir, əyağə durur. Deyir, a kişi, a öyün yıxılsın, niyə gəldin? Demədimmi marala görühmə?

Kişi dedi, nədi ki? Arvad dedi, bir o yana bax. Kişi geri çöyrüldü ki, nə, arvad – bir marala dönüf getdi.

## QARA NƏR
*(II variant)*

Kəpənəkçi kəndində Qaranər deyilən bir ziyarət var. Qaranər ləqəbli həmən kəndin nüfuzlu bir ağsaqqalı olmuş, ölənnən sonra orda dəfn eləmişlər. Onun qəbri üstündə gümbəz var. Daha doğrusu, qəbir ev kimi bir dam içərisindədi. Deyillər, həmən kişi əslini tanımadığı bir qızla evlənir. Bunnarın uşaqları olmur.

Bir vaxt Qaranər baxır ki, arvadı gecələr öydən çıxıf səhərə yaxın qayıdır. Səbəbini soruşanda arvadı "heç bunu xəbər alma" deyir. Gecənin birində kişi görür ki, arvadı öydən çıxıf getdi. O da qalxıf dalınca gedir. Baxır ki, təpəlikdə bir sürü maral durur, arvadı da onnarı sağır. Arvad ərini görən kimi maral olur, marallara qoşuluf gedir. Kişi irəhmətə gedəndə onu gümbəzdə dəfn eliyirlər. O vaxtdan bəri kəndin camahatı bir maralın həmin gümbəzin yanına gəldiyini söyləyirlər.

Bu maral bir dəfə görünüfdü. Əhvalat belə oluf. Kənd camahatı görüf ki, maral bir neçə dəfə gümbəzin yanında görünür. Bir dəfə itlər kəndin yaxınlığınnan onu qovurlar. Bir gün gedirlər ki, maral Qaranərin qəbri yanında uzanıf ağlıyır. Özü də heç kəsdən qaçmır. Camahatın üzünə baxır. Maralın tamaşasına hər tərəfdən adamlar gəlir. Maralda heç bir yara yoxuymuş. Həmən yerə bir xalça salırlar. Maral qalxıf həmən xalçanın üstünə uzanır. Heç kəs ona toxunmur. Üç gün elə qalır, sonra maral ölür. Kənd camahatı, Qaranərin qohumları maralı el adətiynən dəfn eliyirlər. Belə deyirlər ki, bu maral həmin arvadın ya özüydü, ya da ki, onun törəmələrinnəniydi. Ölümünü bilən vaxt gəlif öz istəklisinin yanında canını tapşırıf.

## QARA NƏR OCAĞI

*(III variant)*

Niqoy dağınının ətəyində safalı bir bulax var. Vəli kişinin nənə-babası özünün dörd qardaşıynan burya binə düşürlər. Vəli kişinin bavası kasıf bir şəxs olduğundan mal-qara saxlıyırmış. Kişi hər gün mal-qaranı çölə aparıf, axşamlar öyə

dönərmiş. Arvadı da eltiləriynən birrikdə Niqoy dağının ətəyindəki bulağa su gətirməyə gedərmiş. Dörd eltinin dördü də cüt gedər, ancax geri üçü qayıdar, biri orda qalarmış. Həmin bu qarı Vəli bavanın nəvəsiymiş. Bir ay belə bunnar suya gedər, eltinin üçü qayıdar, biri sonra gələrmiş. Bu zaman onun gözünə qeybdən maral sürüləri, çoxlu mal-qara, qoyun-quzu görünərmiş. Arvad bunnara qoşuluf kömək eliyərmiş. Bunu bir ay belə görən eltiləri şübhələnirlər. Əhvalatı onun ərinə xəvər verirlər ki, biz dördümüz bir yerdə suya gedirik, ancax üçümüz geri qayıdırıx. Sənin arvadın bizi irəli göndərir, özü sonra dözmür, ana südü istiyir, hey ağlıyır. Bunu belə görən kişi arvadını izləməyə başdıyır.

Günnərin bir günü eltilər genə suya gedəndə kişi bunnarın dalınca gedif bir ağacın arxasında gizdənir. Bir də gördü ki, üç elti üçü də suyu dolduruf getdilər, ancax bu arvad orda qaldı.

Arvadın qeybdən gözünə görünən şeylər kişinin də gözünə görünür, kişi görür ki, maral sürüləri, mal-qara gəldi. Arvadı adamlarnan birlikdə yuxa yaymağa, halva çalmağa başdadı. Bu vaxt qəfildən arvadı görür ki, əri ağacın dibində onu pusur. Arvad geri dönüf ərinə belə deyir: “Öyün yıxılsın, öyümü niyə yıxdın. Məni niyə pusursan, məni nə qədər günaha batırdın!” Kişi bu işdərə mətəl qalıf arvadının üzünə baxır, arvad əlində çaldığı halvadan bir çay qaşığı ərinə verif deyir: “Bunu apar qırx gün o körpə uşağa yedizdir”. Yanan ojağın külünnən də bir ovuc verir ki, bu külü apar saxla. Bu ojax oluf səni dolandırajax. Bu sözləri deyif arvad qeybə çəkilir. Kişi qeybdən mal-qaranın, buzoyların, maralların, qoyun-quzunun mələşməsini eşidir. Bir azdan sonra kişi özünə gəlir, görür ki, arvad qeybə çəkilib. Maral sürüsünə qoşuluf

gedif. Xeyli peşimançılıqdan sonra əhvalatı hamıya xəvər verir. Sonra arvadın verdiyi halvayı qırx gün uşağa yedizdirir. Bir ovuc külü də gətirib dəyənin aynına tökür.

Bu zaman görür ki, kül özbaşına yanmağa başlayır. Bunu eşidən kənd camahatı qocaya deyir ki, sən bu külü gətir evin yanında yerə tök. Qoja külü gətirir evin yanına. Ocağın adına Qaranər deyirlər. Çünki Vəli babaya yuxusunda deyirlər ki, ojağın adını Qaranər qoyun. Deyilənə görə, qeybə çəkilmiş qadın Maral sürüləri ilə birlikdə gəlif oranı ziyarət eliyif, genə də qeybə çəkilirmiş.

* * *

Bir qadın il-axır gecəsində atın çənəsinin altını kəsib gözləyir. Birdən at kövşəməyə başlayı[1]. Qadın tələsdiyindən dilək etməyə bir şey tapa bilmir. Odur ki, deyir:

– Ərim qızıl olsun!

Qadının söz ağzından çıxan kimi kişi qızıla çevrilir. Aradan neçə illər keçir. Qadın etdiyinə peşman olur. Hər il-başı gecəsində qadın atı gözləyir, at kövşəmir ki, kövşəmir. Ərsiz maddi çətinlik çəkən qadın ərinin barmağının birini kəsib satır və bu pulla bir neçə il də dolanır. Və nəhayət, at kövşəyir, qadın tez deyir:

– Ərim əvvəlki ikimi insan olsun!

Əri insana çevrilir, amma barmaqlarının biri əskik olur.

[1] İnanca görə atlar yalnız bir dəfə il-axır gecəsində göyşəyər. Bunu kim görüb dilək eləsə yerinə yetər.

## PƏRVANƏ GÖLÜ

Deyirlər Pərvanə gölünün qırağında, Sağamoy kəndindən xeyli aralıda bir dəyirman varmış. Dəyirman yerdən qaynayan su ilə işləyirmiş. Dəyirmançı Qor kişi ömür-gün yoldaşı Altun qarı, bir də gözünün ağı-qarası olan qızı Pərvanə ilə bu dəyirmanda kasıbçılıq içində ömür-gün sürərmiş.

Günlərin bir günündə Qor kişi Altun qarı ilə dəyirmanın bir tərəfində, günəqarşıda əyləşib olub keçənlərdən şirin-şirin söhbət edirlərmiş, Pərvanə isə yun darıyırmış. Ər-arvad bir də gördülər ki, dəyirmanın bir tərəfi yavaş-yavaş batır. Arvadla kişi çox səs-küy saldılar. Amma Pərvanə heç yerindən tərpənmirdi. Elə bil özününn könlü var idi suya qərq olmağa. Bəli, dəyirmanın bir yanı da batdı. Pərvanə də. Ata-ana çox ah-fəğan etdi, çox göz yaşı tökdü, xeyri olmadı. Onlar hər gün gölün qırağına gələr, göz yaşları axıdıb, sonra da qayıdarlarmış.

Aradan bir az keçəndən sonra göldə bir yaşılbaş peyda olur, ördəklər get-gedə çoxalır.

Amma bu yaşılbaş o biri ördəkləri yaxına buraxmır. Özü hey dalğın-dalğın üzərmiş. Ata-ana bir-birinə sarışıb Pərvanəni ağlaya-ağlaya axtaranda gölün kənarına yan alıban bərkdən səs salarmış.

Dəyirmana gələnlər burada dərin kalafalıq görəndə soruşardılar ki, niyə bu günə düşüb dəyirman. Qor kişi də başına gələnləri hamıya danışarmış.

Dünya görmüş el ağsaqqalları deyərlərmiş ki, ay Qor kişi, qızın dünyaya bəxtinə su yazılıbmış. Öz bəxtini, xoşbəxtliyini suda tapmalıymış. O yaşılbaş sənin qızın Pərvanədir. Ona görə də siz ağlayanda gölün kənarına gəlir. Qışqırıb hay-həşir salır.

Deyirlər elə o zamandan həmin gölün adına Pərvanə deyirlər. Pərvanə gölünü Avıl, Yemlikli, Qatıqlı, İlxı dağları qoynuna aıb sanki ona gözətçilik edirlər. Borçalının, Qarayazının doğma yurd yerləri olan bu dağlara hər il bir bir bölük el-elat yaylağa köçər. Vüqarına, əzəmətinə ta əzzəllərdən güvəndiyimiz bu dağlar Ələyəz, Babəkər və və Təbrizin Yanar dağı kimi ucalardan, uca, ululardan uludur...

* * *

Qədim zamanlarda göy lap alçaqda imiş. Yanında körpəsi oynayan bir gəlin fətir bişirirmiş. Uşaq özünü murdarlayır.

Başqa bir şey əlinə keçməyən gəlin uşağı “fətirləyib” göyə atır. Çörəkdən həya edən göy uzaqlaşıb ərşi-əlaya çəkilir. Bundan sonra qıtlıq başlayır. Əvvəllər buğda dəninin iriliyi quş yumurtası boyda imiş, bu hadisədən sonra əkilən buğda az məhsul verir, dənələri də balacalanır. Bəd əməldən göylərin qəzəbinə düçar oluruq – deyir ağbirçəyimiz.

## II OVSUN VƏ SINAMALAR

Dolu yağanda uşaxlardan biri doludan götürüf dişinin arasına qoyar, qırar, qırar və deyər:

Mən anamım ilkiyəm,
Ağzı qara tülküyəm,
Mən kəsdim, sən də kəs.

* * *

Yazda göy gurullamamış nə qulançar, nə də heç pencər yeyilməz. Göy guruldayanda uşaxlar bir yastı daşı, ya da kərpic qırığını başına qoyuf, bir əyəğinin üstündə hoppana-hoppana dəllər:

Tişim-başım ağrımasın,
Tişim-başım ağrımasın.
Müsəlmannan ölməsin,
Ermənidən qalmasın.

* * *

Hal anası zahı arvadın ciyərini çıxarıf aparır, suya salan kimi zahı ölür. Ona görə zahı heş vaxtı təh qalmasın.

Uşax doğulan kimi bir şiş götürüf zahının dörd tərəfini cızığa alıllar. Zahının yaxasına iynə, sancax taxıllar. Şişnən cızanda da deyər ki, zahıya otax tikirəm. Soruşanda deyər ki, allah mübarək eləsin.

Sora şişi qoyallar zahının yanına. Zahı eşiyə çıxanda bu şişi əlinə alar ki, hal anası ona toxunmasın.

* * *

Uşağı gözdəymədən, nəzərdən qorumaq üçün üzərrik yandırıllar. Üzərriyi yandıranda deyillər ki:

Çıxdım Savalan dağına,
Çağırdım ya Əli, ya Məhəmməd!
Dedi: nədi fağır biçarə?
Dedim: nədi bu dərdə çarə?
Başı börüklü üzərrik!
Üzərriksən havasan!
Yetmiş dərdə davasan!
Tökürəm səni oda
Göstər hökmünü üzərrik.
Bir, iki, üç, dörd,
Çırtdasın, pırtdasın,
Yaman gözdər pırtdasın.

***

Axır çərşənbə günü tövlənin pəncərəsinin ağzına bir yumurta, iki karandaş – qara və qırmızı qələmlər qoyarlar. Sabah həmin yumurtanın üstündə (üzərində xətt olar, guya Xıdır Nəbi xətt çəkir.

Əgər qırmızı qələmnən xətt çəkilərsə, yumurta kimin bəxtinə qoyuylubsa, o, xoşbəxt olacaq. Qara qələmnən xətt çəkilərsə tərsinə olacaqdır.

* * *

İtmiş bir şeyi tapmaq üçün (mal, qoyun, at, keçi və s. ) oxloyu səhəngə salıb deməlisən qurdun, quşun ağzıını bağlayıram. Belə eləsəniz itiyə heç yerdən xətər dəyməz və tapılar.

* * *

Sacın üstündə hərə öz adına bir buğda atır və hərə öz ürəyində bir arzu tutur. Kimin buğdası tez çırtlasa, onun niyyəti baş tutacaq.

* * *

İki qız üç qanadlı yarpaq götürər. Biri yarpağı əlində saxlıyır, hər yarpağa onların tanıdığı oğlan adı verərlər. Biri yarpağı çəkir. Üç dəfə bunu təkrar edirlər. Əgər hər üçündə eyni oğlan adı olan yarpaq çəkilsə, deməli qız həmin oğlana qismət olacaq.

* * *

Boylu gəlinin başına kirimişcə bir çimdik duz tökər, izdiyərlər. Əgər gəlin əlinİ-üzünə, alnına çəksə qızı, çənəsinə çəksə oğlu olacaq – deyərlər.

* * *

İlin axır çərşənbə gecəsi qızlar gələcək həyat yoldaşlarının kim olmasını bilmək üçün belə bir fal qurarlar; ərsəyə çatmamış qız uşağını çıxardarlar hündür bir yerə. Başına da örtük salarlar ki, ayrı tərəfə baxmasın, yalnız aşağı baxsın. Yerdə isə bir qab suynan güzgünü elə yerləşdirirlər ki, güzgüdə suyu görmək mümkün olsun. Qız o qədər baxır ki, həmən adam falda görünər. Əvvəlcə çöp atırlar, çöp qızların hansına düşdü falda görünən onun bəxtinə çıxır. Belə-belə qızlar növbə ilə sıradan çıxırlar.

* * *

Deyərlər ki, ilin-ayın axır gecəsi (yəni axır çərşənbədə - red. ) söyüd ağacı başını yerə qoyur. Kim bu mənzərəni görsə nə niyyəti varsa baş tutar.

* * *

Axır çərşənbə axşamı subay qızlar bir otağa yığılar, bəxtlərini sınamaq üçün iynə falı qurarlar. İynə falında da sərt beləymiş – qızlardan birisi səhəngi götürüb qaranlıqda bulağa gedər, heç kimnən kəlmə kəsmədən su doldurub lal-dinməz qayıdıb suyu tasa boşaltdıqdan sonra qızlar sıra ilə hərəsi iki iynə götürüb iynələrin deşiyinə təzə pambıq taxıb suya salarlar. Bu iynələrdən biri subay qızın özü, o biri isə sevdikləri oğlan kimi qəbul olunar. Bir qədər həmin iynələr camın içərisində o yan, bu yana hərəkət etdikdən sonra nəhayət ki, toqquşarlar. Bu o deməkdir ki, subay qız arzusuna çatacaq. Beləcə qızlar bir-biri bəxtini sınayar.

* * *

Mal-qaranı yetişmiş və ya göy taxıl zəmisinə buraxmazlar.

* * *

Çörəyi iri parçalarla itə atmazlar. Çünki itin ayaqları ilə çörəyi çığnaması çox böyük günahdır – deəyrlər.

* * *

Yaş (yaş ağac mənasında), kəsən, daş kəsən, baş kəsən, illah da balıqçı ən böyük günah işləyəndir – deyərlər.

## III ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR

**A**

Azacıq qan uddurar
Çox özünü güddürər.
Acla əcəli yetmiş danışar.
Ağıla gələn başa gələr.
Aclığını elə yerdə bildir ki, qarnın doysun.
Ac malım – var malım, tox malım – yox malım.
Arıq öküzdə ürək var, amma çəkməyə taqət yoxdur.
Adını çıxart, axurda yat.
Ayranı ver ayransıza,
Qalmaz bu dövran sizə.
Ağlına gələn dağlara-daşlara
Alma mənə, armud mənə, hər əlimə bir qoz da gərək.
Ayran iç,
Qulağı dinc.
At saxlayan atlı olar, don saxlayan donlu
Arığı gənə basağan olar.
Alma kimi malım olsun, satılmasa qax kəsərəm.
Armud saplaqsız olmaz, gözəl eybsiz.
Anlamaz yanından köç ötürür.
Anlayan bir tükdən anlar, anlamayan yaz anlar.
Ağac bir yerdə qalanda bar gətirər.
Ac mal puçura qaçar.
Alma arvadın dulunu,
Dalınca gələr qulunu.
Atın ayaqları özünə düşməndir.
Arvadın əri kişidir, kişinin əri borc.
Aslanı tülküyə boğdurmaq olmaz.

Atını-itini nallayıb düşüb dalınca.
Alannan satan bilər,
Gəlinnən yatan bilər.
Atlı qonaq sığışar, itli qonaq sığışmaz.
Ağız dilin zindanıdır.
Aralıq atı, kor Fatı.
At özgənin, çatı özgənin, vur çatlasın.
Ağzımıza dad oldu, qarnımıza vay-şüvən.
At yeyəni it yeməz,
İt yeyəni at yeməz.
Almacığın canıma,
Özün gəlmə yanıma.
Arvadın haralı, sən də oralı.
Adam yıxıldığı yerdən qalxar.
Arşın burda, bez burda.
Ayağıma yer eləyim, gör sənə nə elərəm.
Ağa sezdisə nökər də dezdi.
Ağıllı qoca arısından danışar, ağılsız qarısından.
Alqışın dibi yağdı, qarğışın dibi qan.
Aldı sazı çiyninə, qurban məzhəb dininə.
Ana arı – yana arış
Analı qızın özü böyüyər, anasız qızın sözü.
Arvad tufanı başlayanda Nuhun tufanı yaddan çıxar.
Ata hərəkət, qamçıya bərəkət.
Ağzın qan olsa yerə tüpürmə.
Ağzın yeyən aşı gözün tanısın.
Adam satanda qazanmaz, alanda qazanar.
Arıq ata dərisi də yükdü.
At cıdırda, igid meydanda, aşıq məclisdə sınanar.
Adamı imtahannan, silahı sınaqdan keçir.

Ana südünə duru, ata çörəyinə quru demə.
Arxa su gələnəcən qurbağanın canı çıxar.
Ağzının dad duz,
Hamısından ucuz.
Aşığı olan obanın
qaşığı yağlı olar.
Allah kora nejə baxırsa, kor da Allah elə baxar.
Aranda tutdan oldum,
Dağda qurutdan oldum.

**B**

Bağa "bağ" yox, "bax" deyiblər.
Boğazından kəsməsən artırmazsan.
Başımızı satıqlayıb it ağzına verdik.
Beldən gələn eldən gedər,
Birə kordan qorxar.
Bir almanın əvəzi bir at olar.
Başlığı başına, başmağı da ayağına.
Bu günki bağır-öfgə sabahkı quyruqdan irəlidir.
Bu arx bu suyu götürməz.
Birə nədir ki, büzüyü nə ola.
Qarğa nədir ki, qazığı nə ola.
Balığın burnu daşa dəyməsə geri qayıtmaz.
Bir məclisdə dost da oturar, düşmən də.
Borc elə gəlin gətir, borc gedər gəlin qalar.
Bələni bələdçi ilə aşarlar.
Bir oğul atadan artırsa varı, el içində ona tavar deyərlər
Başı yorğanda, dili duvada.
Bir qaranlıq dama bur baca bəsdir.
Bir qarına iki minnət yoxdur.

Bildir yağan qar kimi getdi.

Bardaq qayıranın özü bilir ki, qulpunu hansı tərəfdən qoymalıdır.

– Baba, bu darlıq çoxmu çəkər?

– Qırx gün, oğul!

– Baba, qırx gün keçdi,

– Alışdıq, oğul, alışdıq.

– Barama qurdu nədi?

Tor qurdu nədi?

Bir könlü tikənmirsənsə, yıxıb viran eləmə.

Bağban əli dəyməyən bağı alaq basar.

Ballı pətək, dadını görək.

Başmaq tikən ayrı, pinəçi ayrı.

Bir səbirsizlik yüz düşmən qazandırar.

Balıq deyər: qarnım dolu sözdü, ağzım dolu su.

Boğaz boydan aşağıdı.

**D**

Dövlətin üzünü nə gələndə görəsən, nə də gedəndə.

Deyənin də eşidəni gərək.

Dizəcən zığa batmasan, dirsəyəcən yağa batmazsan.

Dana damını tanıyar.

Dili duzlu, döymənci quru.

Dana alan dadanar,
Qulun alan qudurar.

Dərdi olan ağlar, kirir,
acığı tutan bağırar, kirir,
eşqi qalxan çağırar, kirir.

Dilənçinin yığdığını it aparır.

Dedilər dəli qız oyunçudur.

Divanın sabaha qalanı yaxşıdır.
Dostla ye, iç, amma alver eləmə.
Dazın dazla yatdığı,
Dazın da naz satdığı.
Dilin zəkəti xeyir söyləməkdir.
Dırnağı tutarlar ucundan, nəinki dibindən.
Dəyirmanda yatan üyüdər.
Dadı damaq yandırır.
Daz qız dabanını qartdar,
keçəl qız su dartar.
Düşmən düşmənə sözü satın alıb deyər.
Dəryada sicim ola, çəkməyə gücüm ola.
Dölü düz olanın yolu da düz olar.
Dağdan gələn bağdakını qovar.
Dişin varsa, malın ye.
Desəm xn öldürür, deməsəm qan öldürür.
Dazın daza baxdığı, dazın da naz satdığı.
Dəliyə belə ver, dalınca yel ver.
Dəvə durar dam yıxar.
Dumanlı qışın telli yazı olar.
Doğru danışanı doqquz kənddən qovarlar.
Dığ-dığ ev yıxar.

**C**

Cığal bəhanə axtarar.
Cadu yıxan evi fələk yıxanmaz.
Camaldan göyçək olan kamaldan da göyçək gərək.
“Can” deməknən cannan can əysiy olmaz.
Can yanmasa gözdən yaş çıxmaz.
Canavar cana varar.

Can gedər, cəsəd qalar.
Canına qıyanı Allah da sevməz.

**Ç**

Çınqıra çalar – kürd oynar,
Mən belə düyün görməmişəm.
Çay quşunu çay daşınnan vurarlar.
Çiy xörək ləms gətirər, çiy ət – ət gətirər.
Çiynənən saqqız çürüyər.
Çobanın adı, kababın dadı.
Çox yatanın gözü şişər, çox oturanın qarnı.
Çörəyim yeyildi, qonağım ağırlaşmadı.
Çuğul nə ölüb, nə də öləcək, biri öldümü beşi yerində bitəcək.
Çörək boğazında qaldı – su iç,
Su boğazında qaldı - yağ iç,
Yağ boğazında qaldı – kəfəni biç.
Çaqqal əniyi qurd olmaz.
Çoban yedi qoyuna getdi,
Gəlin yedi, oyuna getdi.

**E**

El bir olar, adət ayrı.
Elnən gələn toy-bayramdı.
El gücü, sel gücü.
El köçüb, adət köçməyib.
Evinə bax yükünü yığ, ərinə bax baş bəzə.
Elə bil alçax dağları bu yaradıb.
Eli ülküt, axsağından yapış.
Elə bil Astan bəyin irigətirənidir.

Eşşəyi minən tarpına dayanar.
Eşşək qurban deyil, bahası qurbandır.
Eşşəkdən yıxılan daş üstə düşər.
Eşşək eşşəyi borc qaşımaz.
El içində, öl içində.
Ellərə usta, bizə xəstə.
Elti əyrisi – balta əyrisi.
El sevdiyini aləm də sevər.
Ev yiyəsinin işinə qarışan qonaq urvatını itirər.

**Ə**

Ət yeyən quşun əti yeyilməz.
Ət yeyən quşun dimdiyi əyri olar.
Əti yeyilməz, gönü geyilməz.
Əl ağızı yaxşı tanıyır.
Əzrail oğlumu almasın, vermişcək var.
Əppəyi əppəkçiyə ver, beşini də üstəlik.
Əhli-kamil məclisində hər nə əksən dürr bitər.
Əhli-qanmaz məclisində dürr də əksən xar bitər.
Əvvəl arxı adla, sonra "bərəkəllah" de.
Əl ver mənə, gəlim sənə.
Əsaya söykənib gəzən bir qocaya bəzən bir el söykənər.
Ələ tikan batanda ürəyin başı göynər.
Ərinnən öyünməyən qadında namus, arvadından gileylənən kişidə qeyrət olmaz.
Əliynən qoyan Allahından yaxşı bilər.
Ərsiz arvad, yüyənsiz at.

**F**

Fikri Hələbdə qatır satır.
Fağırın qatırı da fağır olar.

Farağat adamın işi rahat olar.
Fağır malınnan yetim malı yeyənin yeri cəhənnəm olar.
Fələk bağladığı qapını bəndə aça bilməz.
Fərasətli oğul ata malına göz dikməz.
Fələyin nərdivanını hər kəs axıra qədər çıxa bilməz.
Fələyin nərdivanınnan qalxan gülər, yıxılan ağlar.
Fağırın malın yeyən o dünyada bağrın yeyər.

**G**

Gözü qarnında olanın başında ağıl olmaz.
Gödək öküzə kovxa dedikcə, quyruğunu dik qaldırır.
Gəlini gərdəkdə,
küçüyü dəlməkdə.
Kürək uzadan zibil atar.
Gecənin ərizəsini Həzrət Süleyman da yaza bilməz.
Gəzmək ömr artırar.
Gün vurur günüksüyür,
yel vurur yeliksiyir.
Gəlin atlandı, görək kimin qapısına düşəcək?
Gətirdiyi su tökdüyü zibili yumur.
Gəlin gəlin olmaz, düşdüyü yer gəlin olar.
Gəlini evdən qızırğalarsan oğru olar, çöldən qızırğalarsan pozğun olar.
Göz gördüyünnən qorxar.
Gedər bostan urası, qalar üzün qarası.
Gəlin mənnən yaşınır, səsi dağlar aşırır.
Gəlini gərdəkdə, küçüyü yedəkdə.
Gənclik bir quşdu, uçurtdun tutanmazsan.
Göz namərddi, əl comərd.

## H

Hər evin öz qibləsi var.

Həvəsin var, tükün gəlsin, tamaşa yolandadır.

Həm darımı yeyir, həm xor-xor eliyir.

Həleymənə hədik,
Süleymana düdük.

Hər quşa öz yuvası.
Hər körpəyə öz anası.

Hər almada çiyid olur, hər çiyiddən alma.

Həsən də qəlyan çəkir, Hüseyn də qəlyan çəkir. Tənbəki çox olanda nənəm də əqlyan çəkir.

Həvəçi çox olanda uşaq tərs gələr.

Hasand işi nənəm də görər.

## X

Xana arxasında oturan xalı kəsər.

Xana darda qalmaz, ölü yerdə.

Xeyri gələn yerə papağını tıxayır.

Xoruz banlamasa sabah açılmaz?

Xurma yeyənin yuxusu xurmayı olar.

Xallı qızın müştərisi doqqazda olar.

Xəyalda plov yeməkdənsə gerçəkdən küllü qartof ye!

## İ

İlanın ağına da, qarasına da nəhlət.

İlanın quyruğundan basmasan çalmaz.

İlqar imanın kirişidir.

İtə etibar elə, ağacını yerə qoyma.

İt hürər, öz qismətini kəsər.

İt hürər, karvan keçər.

İt otun üstündə yatar, nə özü yeyər, nə də özgəsini qoyar.
İt yalağı özü üçün qoruyar.
İt itin ayağını tapdamaz.
İt artığını qurd da yeməz.
İt nə qədər ölü olsa, yenə də bir dərini sürükləyib aparar.
İtli qonaq atlı qonağı qarşılayır.
İki şahıya it axtalayır, bir abbası verib əlinə su tökdürür.
İki evli pişiyin günündədir.
İgidin sağı, solu olmaz.
İpi suya veribdir.
İşdə işim yox, şahidlikdə başım ağrıyır.
İtirdiyin şeyi oturduğun yerdə axtar.
İstəyənin ağzını verən yumar.
İstəyənin bir üzü, verməyənin iki üzü qara.
İynə ildızı boyda yerdən, dəvə boyda soyuq gələr.
İrəli gedirəm, bic deyirlər,
Geridə qalıram, gic deyirlər.
İrəli çıxan öküzün qaşqasına döyərlər.
İnadkarlıxda kotanı yeddi qat yerə işləyir.
İtin alqışı qəbul olsa, göydən basdırma yağar.
İsmarıcnan donuz darıdan çıxmaz.
İtinki əppəkdi.
İki həkimi olan xəstə sağalmaz.
İlan vuran ala çatıdan qorxar.
İnsanın qorxusu ölüm deyil, aclıxdı.
İlan vuran yatar, başına eşq vuran yatmaz.
İnəyi südlü olanın uşağı gümrah olar.
İçgi içənin birinci düşməni özü, ikinci düşməni sözüdür.
İnsan qulağınnan, mal dırnağınnan ölər.
İşlə mənim üçün, öyrən özün üçün.

İmanımı satmışam ki, çörəyimə yavanlıq eliyim.
İtik itiyi tapar.

**K**

Kasıbın sözü,
Söyüdün közü.
Kar eyləyən ar eyləməz.
Kaman əyri olsa da, oxu düz atar.
Karın qulağına kərən girib, deyir nə taqqır-tuqqurdu.
Gələşdunun atı kimi geri gedir.
Keçinin ölümü qoy palıddan olsun.
Kərtənkələ başını qurtarmaq üçün quyruğunu qoyub qaçar.
Kaxının damı yalağ olmasa, oynamağa nə var!
Kim qazanıb, kim yeyər,
Əbləh odur, dünya üçün qəm yeyər.
Kövşənin külündən köz olmaz.
Kişi sel olar, arvad göl.
Kişinin salamı olar, eşşəyin palanı.
Kök demə, köküm ağrıyar.
Köç qayıdanda axsaq irəli düşər.
Kəndinə mail olanın fələk burnundan vurar.
Kəndin nejəliyi kalafasından manşır olar.
Kasıb kündəni kiçik tutar ki, çox görünsün.
Kasıbın sacı qızana qədər kündəsi quruyar.
Kişinin sözü də, sifəti də bir olar.
Kovxanı gör, kəndi çap.
Kovxa kəndi satar, kovxalığını satmaz.
Kafirin də məridnə heyranam.
Keçidən dövlət, toyuqdan bərəkət olmaz.
Küçük qulağını kəsənnən qorxar.

## Q

Qaranlıq yerdə kösöv bulayır.

Qatıq özünə qab tapar.

Qara malın qarnı doyanda torpağı başına sovurar.

Qurddan soruşdular ki, niyə yaylağa getmirsən, dedi mənimki elnəndir.

Qarı sudan qaymaq çəkir.

Qız deyər sən bilirsən,
Dul deyər mən bilirəm.

Ərdən boşanmış deyər: qaç, atım səni ayaqlar.

Qaranlığın loxması yekə olar.

Qorxulu baş salamat olar.

Qəlp mal sahibinin olar.

Qızıl qapılı qız taxta qapılı ata evindən pay umar.

Qorxu cana kafirdi.

Qarğa diddiyini bilir, udduğunu bilmir.

Qatığı tökülmüş qarı kimi donquldanır.

Qohumluğu kəssən - kəsilməz, üzsən - üzülməz.

Quzu deyər: qarnımı tox elə, qara basır.

Oğlaq deyər: qarnımı tox elə qora basır.

Qoyunu bərədə sayarlar.

Qaya qayadır ki, "can" desən, "can" deyər, "çor" desən "çor".

Qaladan qaçaqlıq yaxşıdır, qaçaqlıqdan ölüm.

Qarınınki qurandan keçib.

Qırx qazanın çalasısı.

Qonağın üzünə baxınca, izinə bax.

Qarı şələsini götürə bilmir, üstünə yenə yığır.

Qazanılmış malın yeyəsi çox olar.

Qız gərək, tez gərək.

Qara yel kimi hər tərəfə əsir.

Qarğanan qul çox yaşar.

Qarı dedi: xalqın şələ-şələ odunu yanır, mənim iki kösövüm yanmır.

Qulluq dediyin el atıdır, bir gün sən minərsən, bir gün başqası.

Qanqalı başqasının əli ilə yoldurur.

Qaçağın içi cəhənnəm olar, qırağı cənnət.

Qoçaq gəlinin iti kökələr, tənbəl gəlinin pişiyi.

Qoçağin yanında qorxaq, qorxağın yanında qoçaq kişidən qeyrət gözləmə.

Qələt elədik Maroya bacı dedik.

Qaynana gicdi kündəni sayır, gəlin bicdi kündədən kəsir.

Qaynana xaşıl qabını gəlninə, xəngəl qazanını qızına yudurdar.

Quru süfrəyə dua olmaz.

Qonaq umduğunu yox, bulduğunu yeyər.

Quşa öz yuvası vətəndir.

Qaşıq ilə yeyir, çömçə ilə baş əyir.

Qız dil anası yox, gərək el anası olsun.

Quzunu yaz otar, yaz otarmadın yüz otar.

Qapı itinnən qoyun iti olmaz.

**M**

Mart yağar, mayıs öyünər.

Martda mərək yarı gərək.

Molla evində toydur – yeddi adama bir fətir.

Mənim çörəyimin nə işi var ki, yarğan qaşında diyirlənə.

Mərdə minnət yoxdur.

Mollada pulun olsun, nə versin, nə də dansın.

Mənim adım Miri ola,
Unum dəyirmanda iri ola?
Mədinə ilə Məsimə,
Düşüb bir-birinin bəsinə.
Min tümən nağdı pulun olsa mərcə girmə,
Min tümən borcun olsa, alışmadan qalma.
Mallıya "bəli", malsıza "dəli" deyəllər.
Müdrikdən soruşdular: "Dünyanı necə bilirsən?"
"Qəlbim kimi" – deyə medrik cavab verdi.
Mayıs ayı – vayıs ayı.
Mart gəldi – dərd gəldi.
Mart çıxdı – dərd çıxdı.
Mərd özünnən görər, namərd qonşudan.
Mənsəbli atanın qızı göyçək olar.
Məni aparan suya Kür də deyərəm, Araz da.
Mal canın yonqarıdı.

**N**

Nəzir vermək qada qaytarar.
Nə işim işdir, nə əlim boşdur.
Nisyə verən iki dəfə keflənər.
Nə şeytana kösövdür, nə peyğəmbərə şəm.
Nə bizdəndi, nə sizdən,
Bu imansız nə dindən!?
Nə zalım ol asıl, nə fağır ol basıl.
Nökər kimi işlə, ağa kimi ye!

**O**

Oğurluğun başı dağca olsa, dibi qılca olar.
Ot saxlama, at saxla.

Ocaq közsüz olmaz, dil də sözsüz.
Oğurluxnan ...  lik qırx gün çəkər.
Ovçu Əhmədin dağarcığıdır – sən də xırtdat, mən də.
Ocağın içi cəhənnəm olar, qırağı cənnət.
Oğul düşmən toxmağıdır.
Od düşdüyü yeri yandırar.
Ocaq daşı ocaqda yaraşıqlı gərək.

**Ö**

Ölü camaatındır.
Ölü var çox diridən diridi.
Öküzün qocalanı dana ilə gəzər.
Öküzün çəkənini budarlar.
Öküzü yorulana yol göstərən çox olar.
Öküzü ölən kasıbın özü ölsə yaxşıdı.
Ömürdən xərclənənihamı bilir, gerdə qalanı bilən yoxdu.
Ölünü başlı-başına qoysan, kəfəni yırtar.
Ölənnən ölməzlər.
Ölü var, diridən də sağdı.
Ölən öldü, canın qurtardı, vay gerdə qalanın halına.
Örkəni uzun olan at tez ilişər.
Öküzdən pendir tutulmaz.
Öysüz öysüzə lağ eləməz.
Özü-özünü öyənin söyəni çox olar.
Ömürdü, gündü, gedər bir də qayıtmaz.

**P**

Paxılın yeri cəhənnəm olar.
Pis qonşu adamı hacatlı edər.
Pişiyin əli ətə çatmayanda

Adını ilənmiş qoyar.
Pişiyin könlü samanlıqda idi, tazı da qovub ora saldı.
Pendir sıxmaq – can sıxmaq.
Pis günün ömrü az olar.
Pisin üzü hər yerdə qaradı.
Papağı cırıq olanın işi frıx olar.
Pişiknən itin dostluğunnan heç olmaz.
Paltar boya biçilər, boy paltara yox.

**S**

Sən məni döşünəcən qaldır, mən də səni başımacan qaldırım.
Sənətkar günortayacan ac qalar.
Suda su çoxdu, evdə ki bərəkət yoxdu.
Sərçənin balacalığına baxma, caynaqlarının itiliyinə bax.
Sən xətadan qaçmaqla deyil, gərək xəta da səndən qaçsın.
Saat qayıran səbət hörənə mat qalıb.
Sən aldın dəndən,
Mən aldım undan,
Nə çıxdı bundan?
Sayı çox, sambalı yox.
Saydığına salam verir,
Saymadığına yan verir.
Sən baxma xalxa,
nehrəni çalxa.
Söymə, ağzın pis öyrənər, döymə - əlin pis öyrənər.
Sən tatlı, mən göyçəli, hardan olduq əmi oğlu?
Soğan soyunu itirməz,
Sarımsaq iyini.
Sağ canım – sultan canım, demə varlı-yoxluyam.
Sağsağan elə yorulmadı ki, bir də yağıra qona.
Su gedər, qum qalar.

Sarı kürən, dişi seyrək adamdan xeyir çıxmaz.
Sən də oldun bəyin bacanağı.
Zaman samanı satar.
Səbr etdim, oldum naçar.
Səbrsizdən dövlət qaçar.
Səbr dəmir qapı açar.
Səbr elə, könlüm səbr elə.
Söz altında kamal inci.
Sel tutan yerin şırımları, qəm tutan üzün qırışları əysiy olmaz.
Sərxoş sözü ilə gələn qonaq ya ac qayıdar, ya peşman.
Süddü qoyun sürüsünnən çıxmaz.
Sən balını hazırla, qonaq Bağdaddan gələr.
Sağlam qoz tez sınar, sağlam qız gec.
Su gələn arxdan bir də axar.
Südnən girən, sümüknən çıxar.

**T**

Tarla böyük, toxum az,
Yüz min öyrət – oxumaz,
Oxusa molla olmaz.
Tapma ağıl ağıl olmaz,
Ağıl başda gərək.
Tərəziynən qurban əti satmazlar.
Tava dəlik, tas dəlik, yağ da getdi üstəlik.
Təmiz işdən gül iyisi gələr.
Tazıdan hiyləlik olmasa, dovşan gəlib samanlıqda balalamaz.
Tuş (yuxu) görmək üçün yatmaq gərək.
Tat nədir, at nədir?
Təkəni oynadan buynuzlarıdır.

Toya “toy” yox, “doy” deyiblər.

Tikana dedilər: niyə evlənmirsən? dedi: hərədən bir çimdik qoparsam o da bəsdir.

Toxumunu yeyən ac qalar.

Toy-toy oldu,
Soy-soy oldu.

**U**

Usta ikən oldum şəyird, al bardağı suya şəyird.

Utananın oğlu olmaz.

Utanmazın üzünə tüpürsən, deyər yağış yağır.

Uzun saçlının ahı yerdə qalmaz.

Ustamızın adı Xızır, əlimizdən gələn budur.

**Ü**

Üz üzə açılmaqdansa, üz gora açılsa yaxşıdır.

Üşüyürsən – ocaq qala,
Təksən – ocaq qala,
Acsan – ocaq qala.

Üz-üzdən utanar.

Ümid axırıncı ölər.

Üst-üstə yığılan dərd ağır olar.

Üstü bəzək, altı təzək.

**V**

Ver, əllərim, alanda üzün utanmasın

Vurmadığını gör ki ağacın yekəsini götürür.

Vecinə deyil beş bazarın pendiri.

Vaxtında əkilən dürr bitər.

Vurmadığı ondan bəllənir ki, daşın yekəsini götürür.

Vəzifə insanın məhəng daşıdır.
Varını verən utanmaz, yoxdan verən dəlidi.
Varlı varından, kasıb arından qorxar.

## Y

Yağ yeyəni yağ saxlar,
Yağ yeməyəni haq saxlar.
Yaxşı eldən çıxar, hayıf olar,
Pis eldən çıxar, ayıb olar.
Ya işindən artır, ya dişindən.
Yarğan uçdu, toz qopdu.
Yetimə ay da qaradır, gün də.
Yetimə dedilər: kimi döyərsən, dedi: məni saxlayanı.
Yemək adamı iki eləməz, yekə eləyər.
Yeyənnən yeyir, deyənnən deyir.
Yüz gün gəzərsən çöldə, bir gün rast gələrsən qurda.
Yanlışı olar, yalanı olmaz.
Yalanın bir ayağı gödəkdir.
Yazıq yetimə də, yetimə baxana da.
Yaşadım iki otuz,
qazanmadım bir öküz.
Yeddi yolun ayrıcında qalmışam.
Yolu yoldaşla get.
Yalan yarğan deyildir.
Yalan ayaq tutar,
Amba yeriməz.
Yatanda möhkəm yatar,
duranda ara qatar.
Ya vur qurtar, ya qaç qurtar.

Yol gedəndə dayanma, dayandın oturma, oturdun – uzanma, uzandın yatma, yatdın öldün.

Yuvası bilinən gavır (kafir) yerini tez-tez dəyişər.

Yanıram ki, tüsdüm çıxa, bəlkə məni görsünlər.

Yanan da anadı, yaman da.

Yas yiyəsi kiridi, yasa gələn kirimədi.

Yetim yarımaz, yarısa da qarımaz.

Yüyrək at mənzildə bilinər.

Yetim quzudan qoç olmaz.

Yoxdan Allah da bezardı.

**Z**

Zor qapıya gələndə, şəriət bacadan çıxar.

Zəhmətdən qaçan töhmətdən qaça bilməz.

Zarafat qayçı kimi dostluğu kəsər.

Zəhmət çəkməyən bal yeməz.

## IV BAYATILAR

Əzizinəm, bir üzdü,
Ördək göldə bir üzdü,
Üz qoyum üzün üstə,
Görən desin bir üzdü.

Eləmi asan dağlar,
Qar başın basan dağlar,
Yetim qız çətin gülər,
Ağlasa asan ağlar.

Eləmi dağlar başı,
Qar yağar bağlar başı.
Gözəl aynanı neynər
Aynasız bağlar başı.

Əzizim, mən yazığı,
Mən yadı, mən yazığı,
Dərd verdin, dərman da ver,
İncitmə mən yazığı.

...Dəmə gəl
Söhbətə gəl, dəmə gəl,
Dərd bilən özü gələr,
Dərd bilməzə demə, gəl.

...Dolu gözlər
Göy üzü dolu gözlər,
Oğlu əsgər gedən ana
Hər səhər yolu gözlər.

...Dolu gözlər
Dağ başı dolu gözlər.
Yıxdı dədəm öyünü,
Səndəki dolu gözlər.

Eləmi dam arzular,
El köçər, dam arzular.
Qoynun cənnət bağıdı
Aç baxsın tamarzılar.

Əzizim kimsə sənə,
Kim yetər kimsəsinə!?
Nə göydə mələk bənzər
Nə yerdə kimsə sənə.

Əzizim kim səyada,
Tor qurub kim səyada?
Nə kimin kimsənəsiyəm,
Nə salmaz kimsə yada.

...Yer-yemiş,
Bağda bitər yer-yemiş,
Çox "mənəm" deəynləri
Torpaq udmuş, yer yemiş.

...Dağdanam
Arannanam, dağdanam.
Bostançıdan xəbər al,
Desin hansı tağdanam.

...Dağdağan
Dağda bitər dağdağan,
Ovçu bir maral vurub,
Göl-göl olub dağda qan.

...Min əngələ
Düşmüşəm min əngələ.
Mənim dərdli günümdə,
Düldülü minən gələ.

...Əli mindi,
Düldülü Əli mindi.
Sən məndən çox iraxda
Yetişmir əlim indi.

...Gəncə çəkər,
Gəncəni gəncə çəkər.
Əslini Qara keşiş,
Kərəmi Gəncə çəkər.

...Qars ayaz,
Bura gündü, Qars ayaz.
Qələm, qurbanın olum,
Qismətimi Qarsa yaz.

Mən aşıq Qaraçöpə,
Yol gedir Qaraçöpə.
Bu elə kəm baxanın,
Gözünə qara çökə.

Qaraçöpdə qar qalmaz,
Qönçəsində xar qalmaz.
Mərdlərə can sadağa,
Namərdə ilqar qalmaz.

Ağır elli Qaraçöp,
Şirin dilli Qaraçöp,
Mərifətdə, səxada,
Elə bəlli Qaraçöp.

Qaraçöpün düzündə,
Gözüm ceyran izində,
Mahir ovçu boş atmaz,
Doxsanında, yüzündə.

Qaraçöpün binəsi,
Yamyaşıldı sinəsi.
Bu el bu yurdu atmaz,
Axır sözün kəsəsi.

Dünyaya yayaq gəldim,
Yatmadım, oyaq gəldim.
Ömür dedi – “yüz oldu”,
Dil dedi – “bayaq gəldim”.

Eləmi qar sınadı,
Qar yağdı, qar sınadı,
Bir qannı qovğa qopdu,
Ucaldı Qarsın adı.

Maral çıxdı qalınnan,
Oyçu düşüb danınnan.
Mərdi namərd öldürür,
Qaçın, alın əlinnən.

...Ağlağandı,
Qaraxaç, Ağdağandı.
Gedək dərdli yanına,
Görək kim ağlağandı.

Yalqız ağac yaldadı,
Dağlar ona daldadı.
Demirsənmi, ay zalım,
Gözlərimiz yoldadı.

...Ala quzu,
Yeməyə ala quzu,
Nahaq yedən ev yıxar,
Alamın ala quzu. [1]

...Qurud aşı
Yeməyə qurud aşı,
İnsanın könlü olsa,
Göyərdər quru daşı.

...Belə meylər,
İçilməz belə meylər.
Sevən yar sevdiyinin,
Axırını bələm eylər.

...Bağda gül,
Bağçada gül, bağda gül.
Bülbül nakam ölüfdü,
Yas saxlayır bağda gül.

...Bağça pəri,
Bağ pəri, bağça pəri.
Çəpər bağı dolanmaqdan,
Dolanır bağ çəpəri.

Bu elin gur səsi mən,
Demirəm bircəsi mən.
Şahinlər şikardadı,
Budaxda sərçəsi mən.
***(Osman Əhmədoğlu)***

Borçalı gözəl yeridi,
Niyə nanay demirsən?
Dünyanın əzəl yeridi,
Yoxsa nanay bilmersən?
***(Osman Əhmədoğlu)***

* * *

Boz atım boza-boza,
Çiynində qızıl qoza.
Asta yeri, çər dəymiş,
Yarı batırma toza.

---

[1] Alaquzu – yaltaq, ikiüzlü adam

Qəbrimi uca qoydur
Ucadan uca qoydur.
Məni görmək istəsən
Qəbrimdən baca qoydur.

Qırqovul ala döymü,
Quyruğu qara döymü,
İki arvad, tək kişi
Başına bəla döymü?

Qardaş gedir qıraxnan,
Üstü dolu yaraxnan.
Dəmirdən çarıq geyib,
Mən gəzərəm soraqnan.

Əzizim, əli bağlar,
Əli bağça, əli bağlar.
İgid könlü düz olsa,
Kəmərin Əli bağlar.

Əzizim Qaracalar,
Ağ çalar, qara çalar.
Elə gözəl sevmişəm,
Yanağı qara çalar.

Şamama tağda dəyər,
Sulanar, tağda dəyər.
Yarın bir xoş baxışı,
Min tümən nağda dəyər.

Dərya qırağındayam,
Çeşmin çırağındayam.
Neçə tərlan itirdim,
Yenə sorağındayam.

...Betər ovlar.
Betər yay betər ovlar.
Çirkinin kamandarı,
Gözəldən betər ovlar.

Əzizim qoyun gözəl,
Quzu, həm qoyun gözəl.
Danışsan dilin şirin,
Yerisən, boyun gözəl.

…Yaman yara,
Nə deyim yaman yara,
Aralığı qatanlar
Çıxartsın yaman yara.

* * *

Ay qız adın var sənin,
Meyxoş dadın var sənin.
Hamı həsrətin çəkər,
Yoxsa cadın var sənin?

Eləmi üzə sancan,
Zülfünü üzə sancan,
Biləsən vəfasını,
Yolunda üzəsən can.

Kabab yanar köz olar,
Nəzər dəyər köz olar.
Qohumdan qız almayın,
Aralıqda söz olar.

Ağ çuxa, qara çuxa,
Yar geyib yara çıxa?
Sənə yaman baxanın,
Gözünə yara çıxa.

Eləmi, yatan qarı,
Dağların yatan qarı,
Kişini bərbad eylər,
Axşamdan yatan qarı.

Eləmi qızaranda,
Dan yeri qızaranda,
Qalırsa oğlan qalsın,
Qalmasın qız aranda.

Eləmi qızaranda,
Dan yeri qızaranda,
Nənələr çox sevinər,
Nəvələr qız alanda!

Əzizinəm yüz yerdən,
Əlli yerdən, yüz yerdən.
Əllərini boynuma sal,
Ayaxların üz yerdən.

Əzizinəm, budama,
Bu toyluya, bu dama.
Fələk məni çox döyüb
Sən bir yandan budama!

...Hayat-hayat,
Qurulmuş hayat, hayat.
Gəzərsən ömrün artar,
Yamarsan ha yat, ha yat.

...Sənəm-sənəm,
Səs verdi – mənəm, mənəm.
Dedim: ləbin kim əmsin,
Dedi: gəl sən əm, sən əm.

Sadaxlıda yaz yaxşı,
Payız yaxşı, yaz yaxşı.
Kimdə nə var bilmərəm,
Məhəmməddə saz yaxşı.

...Düyə damı...
Tikdirdim düyə damı.
Nə nökər oldum haqq aldım,
Nə də oldum öy adamı.

Ömrüm qalmaqaldadı,
Gündə min bir haldadı.
Bu günümə min şükür,
Pis gün hələ daldadı.

Sözə baxmır neyniyim,
Üzə baxmır neyniyim,
Eşqindən od tutmuşam,
Közə baxmır neyniyim.

Əzizim necə yaram,
Sızıldar necə yaram.
Sən bilmə, Allah bilir,
Mən sənə necə yaram!

Əzizinəm, gül başına,
Gəz, dolan gül başına.
Vətənsiz cibin güdən,
Gədanın kül başına.

* * *

...Az adamda,
Qulam da, azadam da.
Var-dövlət çoxunda var,
İnsanlıq az adamda.

...Ay Alxas,
Gendə durma, ay Alxas.
Ər başı ərşə dəyər,
Öydə olsa əyal, xas.

Ay baba dur sabahdan,
Çadrını qur qabaqdan.
Açılsın haqq qapısı,
Tökülsün nur qabaqdan.

Əzizim yaram nədi,
Dərdim çox, yaram nədi?
Düşmüşəm dərd əlinə,
Çəkirəm, çaram nədi.

Ahımdı, günahımdı,
Öz suçum, günahımdı.
Ulduz gecə sitəmim,
Gün gündüzlər ahımdı.

Aşıq deyər sərdə yox,
Qocalıqda pərdə yox.
Viran olsun yoxsulluq,
Ürəkdə var, əldə yox.

Bacım gələ sac tökə,
Kirpik çala, yaş tökə.
Bircə qardaş istərəm
Məzarımda daş tökə.

...Bu damaxda,
Bu kefdə, bu damaxda.
Hər maya sevdasında
Löh qanqal budamaxda.

...Qazan ağlar,
Od yanar, qazan ağlar.
Bel batmaz, külüng kəsməz,
Qəbrimi qazan ağlar.

...Qara yazı,
Sərt olar qar ayazı.
Məskənim lök dərəsi,
Oylağım Qarayazı.

...Qar altıdı,
Qar yağıb, qar altıdı.
Görən deyir adamdı,
Demir ki, qaraltıdı.

...Qar altına,
Qar düşüb qar altına.
Adın elnən bir olsun,
Sığınaq qaraltına.

...Kimsənəm var,
Kimim var, kimsənəm var.
Nə mən kimin kimsəsi,
Nə mənim kimsənəm var.

...Kİm sayada,
Tor qurub kim sayada?
Nə kimin kimsəsiyəm,
Nə salmaz kimsə yada.

...Gədə dərsin,
Oxumaz gədə dərsin.
Qoymayın dost bağınnan,
Hər yetən gədə dərsin.

Mən aşiqəm, kamana,
Bu tara, bu kamana.
Yaxşı yaxşıya getsin,
Yaman qalsın yamana.

...Min oxu,
At kamanla min oxu.
Bilənə bir pərdə çal,
Bilməyənə min oxu.

...Səksəndilər,
Yüzdülər, səksəndilər.
Kənddən qız qaçırıldı,
Subaylar səksəndilər.

...Su var gəl,
Dəhnəmizdə su var, gəl.
Buluda bel bağlama,
Bostanını suvar, gəl.

...Təkərim,
Öz köçüm, öz təkərim.
Qardaşlılar qayıtdı,
Harda qaldı tək ərim.

# TƏFSİLATİ BAYATILAR

Ouçu günlərin bir günü öz cavan oğlunu da özünnən götürüb ova gedir. O vaxtlar meşələrdə ov çox idi. Meşədə dovşana, cüürə, dağ keçisinə, marala tez-tez rast gəlmək olardı.

Əlqərəz, ovçu oğluna deyir ki, bala, mən bərədə durum, sən get qarşı tərəfdə səs-küy elə, ov mənim üstümə tərəf gəlsin. Cavan oğlan edir. Gedib qarşı tərəfdə hay-haray salır, o çöl heyvanları hərə bir tərəfə dağılır.

O vaxt qoca ovçu uzqda hərəkət eliyən bir qaraltı görür. Qaraltını ova bənzədən ovçu tüfəngi sinəsinə basmağı ilə atəş açmağı bir olur. Hədəfə dəqiq dəyən onu yerə yıxır. Ovçu sevinə-sevinə ov hesab etdiyi qaraltıya tərəf gedir. Həmən yerə çatanda gözünə inanmır. Huşu başınnan gedib yıxılır. Özünə gələndə oğlunu həqiqətən də qan içində görür. Başına döyə-döyə aşağıdakı bayatını uca səslə oxuyur, onun səsi dağa-daşa səs salır:

...dağdağan,
Dağda bitər dağdağan.
Ovçu vurub balasın,
Göl-göl olub dağda qan.

Bu bayatı belə yaranıb.

## BİR-BİRİ İLƏ BAĞLI İKİ BAYATI

Keçmişlərdə adlı-sanlı bir bəyin oğlansayağı böyütdüyü qızı atasınnan, anasınnan xəlvət sevdiyi bir istəklisi var imiş. Bunlar tez-tez görüşmək üçün qalın meşələrə, kənddən uzaq biçənəklərə gedər, aşiq-məşuq kimi əylənərdilər. Günlərin bir günü bu yerlərin ovçularından biri bəyin qızı ilə sevgilisini sevişdikləri yerdə görür. Ovçu bu vəziyyəti gördüyünü iki gəncə çatdırmaq istəyir. Əslində onlara bildirmək istəyir ki, elə bilməyin ki, mən sizi görmədim. Çünki qıznan oğlan əvvəlcədən ovçunu görmüşdülər. Bəyin pəhləvan cüssəli qızı oğlanı gizdəmək üçün yanı üstə uzanıb onu arxasında gizdəmişdi. Ovçu da olara çatdırmaq istəyir ki, mən hərif dəyləm, hər şeyi yaxşıca görmüşəm. Odur ki, ovçu götürür görək nə deyir, qız ona nə cavab verir:

Əzizinəm nərgizlər,
Bənövşələr, nərgizlər.
Ərsəmiş maya gördüm,
Daldasında nər gizlər.

Qız ovçunun hündürdən avaznan oxuduğu bayatını eşidir, götürüf görək ona nejə cavaf verir:

Əzizim gördü günü,
Ay doğdu, gördü günü.
Namərddə sir əylənməz,
Mərd deməz gördüyünü.

Ovçu da qızın bayatısını eşidir, kişi kimi heç kəsə bu sirri açmır.

* * *

Deyillər Məmməd xanın arvadı yaman zalımıymış. Günləri dava-dalaşnan keçirmiş. Bir belə, beş belə, başını götürüf İncəli kəndinə gedir. Arvad ha gözdüyür, kişi gələjək, axırı götürüf kişiyə bir namə yazır ki:

O tay, bu tay bir xana,
Qolları bəzmət xana,
Ərzə yazdım göndərdim
İncəli Məmməd xana.

Kişi naməni alır. Fikirləşir ki, day qayıtmasa olmaz. Amma bir az da gec gedəjəm, qoy mənim yerimi çəksin. Yazır ki,

Məmməd xanın qoşunu,
Aldı bulaq başını,
Qış gedərəm, yaz gəlləm,
Axıtma göz yaşını.

* * *

...Deyillər Məmməd xan adında varrı-hallı bir kişi varıymış. Xanın arvadı yaman zalımıymış. Xanın gününü göy əysiyə bürüyürmüş. Dava-dalaşdan başdarı açılmırmış. Bir belə, beş belə. Kişi dözə bilmiyif axırı başını götürüf arana, İncəli kəndlərinə gedir. Arvad çox gözdüyür kü, kişisi gələjək. Kiçşi gəlmir ki, gəlmir. Axırı götürüf kişiyə bir bayatıynan məktuf göndərir:

O tay, bu tay barxana,
Qolları bəzmənt xana,
Ərzim yazdım göndərdim
İncəli Məmməd xana.

Xan naməni alır, fikirrəşir ki, arvadın bu məktubunnan sora geri qayıtmasa olmaz. Öz-özünə der ki, bir az gej gedəjəm qoy mənnən ötrü bir az da darıxsın. Götürüf arvada bir məktuf göndərir. Belə bir bayatı da yazır:

Məmməd xanın qoşunu,
Aldı bulaq başını.
Qış getmişəm, yaz gəlləm,
Axıtma göz yazını.

* * *

Yolla gedən bir nəfərdən soruşurlar:
– Haralısan?
Sən demə Sadaxlıdanmış. Cavab verir:
Sadaxlıyam, mərdəm mən,
Vəfalıyam, hər dəm mən.
Dostlarıma can qurban,
Düşmənlərə dərdəm mən.

## V OXŞAMALAR-NAZLAMALAR

Ağrın alım, ax tanrı,
Gəl bacadan bax tanrı.
Kim balamı istəmir
Dam-daşını yıx, tanrı.

Alnı mina cidası,
At minib çapasım gəlir.
Qaşları qələm qarası,
Ərizə yazasım gəlir.

Gözləri qaynar bulaq,
Əyilib içəsim gəlir,
Burnu meşə fındığı
Qırıb yeyəsim gəlir.

Üzləri lop alması
Dərib gətirəsim gəlir.
Dodaqları süd qaymağı
Alıb yeyəsim gəlir.

Çənəsi bağ incili,
Dərib gətirəsim gəlir.
Boyu bostan şamaması
Götürüb qaçasım gəlir.

***

Qızım qızlar ağası,
Başında var tomağası.
Qızıma elçi gələr,
Elin böyük ağası.

A qızım, a qızım, dur oyna,
Tellərini bur oyna.
"Əşrəfi"yə qol qaldır,
Ağ otağa gir oyna.

Gəzdəkdəki yüz atdı,
Nə durufsan süz, atdı.

A gülüm, baban odurana,
Qara papax, boz atdı.

***

Matana qızım, matana qızım,
Çörək apardı kotana qızım.
Kotançılar üzündən öpüb,
Qalıb utana-utana qızım.

Həlli qızım, hüllü qızım,
Xanın, bəyin gəlini qızım.
Xanı, bəyi bəyənməsə
Kotançının gəlini qızım.

Ağacın küyü, dərdin alım,
Başının şüyü, dərdin alım,
Gözümü sənə dikmişəm,
Tezcə böyü, dərdin alım.

Ay dayısı, birini çal,
Birini sındır, birini çal,
“Comuş bağa girdi” çal
Tənəkləri qırdı çal.

Şələsi şəkər dərdin alım,
Bəylərə nökər, dərdin alım…

Ölüm, ölüm öndərim,
Səni bazara göndərim
Sən bazardan gələndə
Özümü daşa döndərim.

Balama qurban çiçəklər,
Balamı öpə göyçəklər.

Balama qurban bacısı
Heç olmasın acısı.

Balama qurban xalası,
Balam ceyran balası.

Balama qurban təkələr,
Balam nə vaxt dikələr.

Balama qurban quzular
Dişi nə vaxt düzülər.

Balama qurban qoyunlar
Balam, qəşəng boyun var.

Balama qurban bu atlar,
Balam nə vaxt boy atar.

Balama qurban keçilər
Balam güldən seçilər

Balama qurban cücülər,
Balam eldən güc alar.

Qızımın qız dostları
Oynamağa çağırır.
Bağa bir camış girib
Qoylamağa çağırır.

Dayısı yemiş alıb
Paylamağa çağırır.
Qardaşı gül gətirib
Qoxlamağa çağırır.

***

Hamanı, ay hamanı,
Hanı balamın tumanı?
Tumanı ağac başında
Dayısıgilin tuşunda.
Ağac gətrin endirək
Eşşək gətrin mindirək
Dayısıgilə göndərək.
Dayısı üzünə baxmasa
Özümüzü daşa döndərək.

***

Balama qurban quzular,
Balam nə vaxt düzülər.

***

Day dur,
Dayın gəlsin.
Çömçədə payın gəlsin.
Ölüm, ölüm öndərim,
Səni bazara göndərim.
Get bazardan incil al,
Sahadına zəncir al.

Başına dönüm, döndərim,
Səni bazara göndərim.
Sən bazardan gələndə
Özümü daşa döndərim.

Balam gəlir Ərəşdən,
Xəncəri var gümüşdən.
Balama şax bəzərəm,
Əlli cürə yemişdən.

Xırmançı vursun qıçına.
Yıxılsın arxın içinə.
Arxın içi çiçəkdi.
Balam hamıdan göyçəkdi.

***

Qızım qızlar ağası,
Başında var tomağası.
Qzıızma elçi gələr,
Elib böyük ağası.
Qızımı qız dostları
Oynamağa çağırır.
Bağa bir camış girib
Qoylamağa çağırır.

Dayısı yemiş alıb
Paylamağa çağırır.
Qardaşı gül gətirib
Bağlamağa çağırır.

***

Day dur, day dur,
Dayan gəlin,
Çömçədə
Payın gəlsin.

## VI LAYLALAR

Laylay dedim yuxula,
Çiçək dərim, qoxula.
Boya-başa çatınca,
Kaş düşmənin yox ola.

Layla dedim yat, bala,
Boya-başa şat, bala.
Sən narahat dünyada,
Olma qarabaxt, bala.

Beşiyin yırğalayım,
Sənsən həyatdan payım,
Qardaşımı görəndə,
Deyəsən, gəlir dayım.

Gurdu ananın səsi,
Alqış sənə nəğməsi,
Beşiyində rahat yat,
Ay Görarxı körpəsi.

Layla, quzum, yatginən,
Bir azca boy atginən.
Gəzmə gedib mil kimi,
Dərs oxu bülbül kimi.

## VII TAP-TAPMACA...

Ağacda daş,
Daşda can.
Zikr nədir,
Ustacan!
**(Güzgü)**

Bir damım var:
Ağzı yuxarıdan
Aşağıya kimi yarmaca.
**(Ağız, diş)**

Bəsdi, bəsdi, durun gedək,
Hörüyünü hörün gedək.
Min qapının açarını
Bir qapıya vurun gedək.
**(Ölü)**

Bir balaca misiri,
Bəylər onu yesiri.
**(Güllə)**

Yüz ağac,
İçində tapdım düz ağac.
Yay pambıq,
Qış ağac.
**(Qamış)**

O yanı taxta,
Bu yanı taxta,
İçində "alabaxta".
**(Beşik, uşaq)**

Qırx atım, kıxmıx atım,
Yük yükləsək, götürməz atım.
Çağırsaq, eşitməz atım.
**(Qarışqa)**

Anası beşikdə,
Balası oğlan doğdu.
**(Buğda)**

Yol üstə yoğun arvad.
**(Təndir)**

***

Sarı saqqal,
Uzun hoqqar.
Olsun çaqqal.

Dağdan gələr dağ suyu,
Heç kəs onu saxlaya bilməz.
Çulçu bir çul toxuyur,
Heç kəs onu toxuya bilməz.

Dağdan gəlir dağ kimi,
Qolları budaq kimi.
Əyilər su içməyə,
Bəyirər oğlaq kimi.
**(Araba)**

Bu gün adınadı,
İşlər ovandınadı,
Səksən ayaq, qırx buynuz,
Tap görüm adı nədi?
**(İyirmi boyun öküz qoşulmuş kotan)**

Bir balaca mil daşı,
Yandırar dağı, daşı.
**(İldırım)**

Səkkizə gəlməz,
Doqquza qalmaz.
**(Leylək)**

***

Düz ata **(Paya)**,
Əyri ana **(Tənək)**,
Göyçək bacı **(Üzüm)**,
Dəli qardaş **(Çaxır)**.

Atdım atmaz,
Yerə batmaz,
And içib,
Yəyəx getməz.
**(Güllə)**

O tayda gün gün doğdu,
Gün günü boğdu,
Anası beşikdəkən
Qızı bir oğul doğdu.
**(Ay)**

Hənir, hənir hanayım,
Sən nərdivan qoy,
Mən çıxım sanayım.
**(Ulduzlar)**

## CAVABINI SİZ TAPIN

Bir bülbülüm var qəfəsdə,
Dad-damağı nəfəsdə. (?)

***

Suya girər lillənər,
Sudan çıxar dillənər! (?)

***

Sabahdan durdum
Torpağa vurdum. (?)

***

Göydən gəlir gümür-gümür,
Yerə düşər həlqə dəmir,
Üzünü cır, qəlbini gəmir! (?)

***

Sarı-sarı sandıqlar,
İçi dolu fındıqlar! (?)

***

Nə işıqlı üzü var,
Alışmayır, közü var. (?)

***

Biri bitirər,
Biri yetirər,
Biri itirər,
Biri ötürər. (?)

***

Nizam ilə qurular,
Taxta üstə bənd alar.
Sinəsindən səs verər,
Qulağından burular. (?)

***

Torpaq ilə var işi,
Göz oxşayar bitişi. (?)

***

Can qırmızı, rəng göy,
Tamam qaradır dişi. (?)

***

Əzizim, adınadı,
Adnanın adı nədi?
Su sudan körpü salıb,
Tap, onun adı nədi. (?)

***

Əzizinəm, baş aşağı,
Su axar başaşağı.
Kökü yuxarıda bitib,
Başı aşağı.

***

Alaca ha, alaca,
Bulaca ha, bulaca.
Səpdirmişəm yamaca.
Düz dırmaşar ağaca.

Bizdə bir dodu var,
Əyricə bir budu var.
Gedəsən görəsən,
Gülməkdən öləsən.

Adam atam var mənim,
Yeddi xatam var mənim.
Dörd anadan olmuşam,
Doqquz atam var mənim.

Salam məlik, ay kişi,
Bilersənmi birnən beşi.
Söylə görəm kimdi kim,
Anası erkək, balası çişi?

A qara qədə nədəndi,
Bağrın zədən-zədəndi.
Özü aləm doydurar,
Göz doymaz nədəndi?

## VIII RƏVAYƏTLƏR

*(əhvalatlar, uydurmalar, söyləmələr və hekayətlər)*

### GƏLIN-QAYNANA

Bir zalım qaynana varıymış. Gəlinə göz verir, işıq vermirmiş. Hər savax o başdan gəlini yuxudan oyadırmış ki, qalx, get kalçanı eydir, comuşu sağacam. Bir belə, beş belə, gəlin də daş-qaya döy ha. Hər savax tezdən isti uorğan-döşəkdən qalxmax onu cana gətirmişdi. Bir gün gənə obaşdan qaynana qışqırır ki, ay filan-filankəs qızı, səni yatmğa ha gətirməmişəm?! Qalx kalçanı eydir. Gəlin gözünə döndüyüm qalxır, gedir qonşularının qoyun itini gətirir. Comuşun əyəğinə bağlıyır, qayıdıb yatır. Qaynana da obaşdan alatoranda gözünü oxalaya-oxalaya, donunun ətəyini yığa-yığa dama girir. Arvad vedrə əlində əyilir ki, əlini comuşun yelninə uzada, itdən yapışır. İt üstünə cumur, o, arxası üstə yıxılır. Qalxıb qışqıra-qışqıra eşiyə qaçır. Daa onun harayı hara çatajıydı. Amma bu əhvlaltı ört-basdır edir, sabah bir də gəlini oyatmır. Elə o zamandan qaynanalar faraş qalxır, amma gəlini oyatmırlar.

* * *

Nə vaxtsa deyilmiş ən böyük yalanın kişik həqiqəti elə onun nə vaxtsa deyilməsidir. Beləcə rəvayətlər öz bəzəmə və düzəmələri ilə bizi nə vaxtsa olmuş bir həqiqətə səsləyir...

### NƏNƏVAY...

Alget çayının sahilində ağbirçək tənha qarı yaşayırmış. Qızları, gəlinləri köçübmüş bu qarının. Oğlu olmadığına görə

qız nəvəsini yanında böyüdürmüş. İllər keçib gedir. Qız böyüyüb dünya gözəli olur. Elçi elçi dalınca gəlirmiş. “Nəvəm hələ körpədir” – deyə qarı nəvəsini heç kimə vermirmiş.

Günlərin birində qarı qızı evdə qoyub yolun kənarındakı bulağa gedir. Bundan istifadə eədn bir neçə cavan qızı atın üstünə qaldırıb qaçırır. Atlılar bulağın yanından keçərkən qızın ağzındakı dəsmal düşür. O nənəsini görən tək qışqırır ki, “Nənə vay, vay... ”

Elə o gündən bu günə kimi həmin yerə “Nənəvay” deyirlər.

## *SÖYLƏMƏLƏR*

Mədət kişi bizim Qaracalar kəndində adlı kişilərdən olub. O, müharibə illərinə qədər yaşayıb. Rəhmətlik savadsız olsa da çox dərin, söz bilən adam olub ki, onun söz-söhbəti indi də dillərdə əzbərdir. Bu söyləmələr də onundur.

## HƏLƏ AXŞAMA ÇOX VAR

Cıdır imiş. Biri bir şilxor yabını sürütləyə-sürütləyə yaxınlaşır Mədət kişiyə və üz tutur ona:

– A Mədət əmi, mənim bu ceyranım da gedib-gələrmi onlarla! – deyə cıdıra hazırlaşan atları göstərir.

Mədət kişi də bir baxır bu xoruzlanan adama, bir baxır onun “atına”, bir də baxır göyün üzünə və qayıdır:

– Qadan ürəyimə, niyə gedib-gəlmir, hələ axşama çox var...

## DEMƏSİNLƏR İTİYİ İTDİ...

Dağdan enəndə biri Mədət kişinin iki toğlusunu cinbat[1] eləyir. Az keçmir ki, itiyin yeri manşır olur. Mədət kişi həmin adama ismarıc göndərir ki, ödəyə iki qara toyuq gətirsin. Həmin adam deyiləni yarinə yetirir.

...Mədət kişi toyuqları alır əlinə, sanbayır və birini geri qaytarır ki, apar kəs, uşaqların yesin. Sonra da deyir:

– A bala, elə bilmə Mədət əmin dəlidi, simicdi... Bilirəm ki, o heyvanları da ac qalıb oğurlayıbsan. Yoxsa... Bu toyuqları ona görə gətizdirdim ki, deməsinlər: "itiyi itdi, tapa bilmədi..."

## ÜSTÜÖRTÜLÜ İŞARƏ

Böyük bir məclisdə plov yeyən ağasının bığına düyü dənəsi yapışdığını aşağı tərəfdə oturan nökər görür. O, tez ayağa durub deyir:

– Ağa, beş qardaşı göndər tövlənin həyətini təmizləsinlər.

Bu işarəni ağadan başqa heç kəs başa düşmür. Odur ki, əli ilə ağzını təmizləyir. (Nökər "beş qardaş" deyəndə əlin beş barmağını nəzərdə tuturdu).

## MƏNTİQ

Kəndçi sədrdən xahiş edir ki, meşədən odun gətirmək üçün ona bir cüt öküz, bir də bir araba versin. Kolxoz sədri onun xahişinə dərhal əməl edir.

---

[1] cinbat – oğurlamaq

Kişi meşədən odun gətirib evinə çathaçatda öküzün biri ölür, murdar olur.

Əhvalatdan xəbər tutan sədr kişinin üstünü alır.

– Öküzün tələf olduğu doğrudurmu?

– Doğrudu!

– Ödəməlisən!

– Şübhəsiz!

– Tələf olan öküzün gönünü soydunmu?

– Soydum. Gönü duzlayıb sərmişəm.

– Quruyandan sonra onu da kolxoza təhvil verməlisən.

Kişi bazardan tələf olan öküzdən də yaxşı bir öküz alıb kolxoza təhvil verir.

Bir neçə həftədən sonra sədr soruşur:

– Kişi, gön quruyubmu?

– Quruyub.

– Bəs niyə gətirib təhvil vermirsən?

– Gözləyirəm.

– Nəyi?

– Gözləyirəm ki, tələf etdiyim öküzün əvəzində verdiyim öküzü sədr nə vaxt öldürəcək, gönünü soyub duzlayacaq, qurudacaq və onu mənə verəcək. Mən də tələf olan öküzün gönünü ona verəcəm.

## ELİN ÖZÜ, ELİN SÖZÜ

Tənbəl bir adamı yanan sobanın bu tərəfindən o biri tərəfinə sürüyüb aparırlar. Tənbəl ah çəkib deyir:

– Ey vətənsiz insan, bayaq harada idim, indi haradayam!

* * *

Atası oğluna deyir ki, bayıra çıxıb baxsın, yağış yağırmı. Oğlan uzandığı yerdən heç qımıldanmır da, yalnız iti içəri çağırır.

– Ə, iti neynirsən? Sənə deyirəm dur, bayıra çıx, gör yağırmı?

– İt gəlsin görək yağırmı. Tükü islanıbsa deməmk yağır.

* * *

Qayınata gəlinindən su gətirməsini xahiş edir. Gəlin sözü eşitməzliyə vurur. Bunu görən oğlu deyir:

– Ay ata, sənin gəlininin üzünə yara çıxsın, çox mərifətsiz adamdı. Özün dur iç, mənə də gətir.

* * *

– Arvad, dərdim böyükdür.

– Niyə, ə kişi?

– Xəncərim yoxdu.

Bıy, başıma xeyir, sənin ki, düşəmənin yoxdu, xəncəri neynirsən?

– Var, arvad, var, lap yekəsinnən.

– O kimdi, ə kişi?

– Sən.

* * *

Nişanlılar – oğlan qıza üzük, qız oğlana saat göndərirlər. Bir gün oğlan qızgilin evlərinin yanından keçirmiş. Qız üzüyü oğlana göstərmək məqsədilə üzüklü barmağnı uzadıb deyir:

– Bir az aralıdan get, itimiz səni tutar.

Oğlan da saat olan biləyini göstərib deyir:

– Elə sizin it gəlib burdanmı tutacaq.

## GÜNLƏRİN BİR GÜNÜ

Günlərin bir günü bir aşıx çiynində saz Kürdən keçif Qarayazıya gedermiş. Şər qoyuşanda Dəmirçihasannıya çater. Baxer, görör kü indi gejdi. Deer, beyjə burda qalem, savax tezdən (üstümüzə xeyirri savaxlar açılsın) yola çüşərəm. Elə də elliyir. Bir öyə səmitdəşif öy soavını çağırer. Görör eşiyə çıxan yoxdu. Səmtini dəyişif ayrı qonşuyu çağırmax istiir. Bir balaja qız uşağı görör.

Xavar aler: a bala, bəəxdən sizi çağıreram, niyə eşiyə çıxmersınız?

Qız deer: ay bava, öyümüzün qulağı yoxdu.

Kişi heşdad başa çüşmör, əmmə arif adammış, üstünü vurmor.

Deer: bə dədən haryeedif?

Deer: meşədən odun gətiməyə gedif.

Deer: tezmi gələr, gejmi gələr?

Deer: yaxına gedifsada gej gələr, uzağa gedifsada tez gələr.

Kişi gənə üstünü vurmor. Deer: a bala, cijin haryeedif?

Qız deer: o da tükənməzdədi.

Aşıx fikirrəşerkinə kərəh buları örgənəm. Noolajax, axşam çüşör. Kişi gəler, arvad gəler, qonağı "xoşgəldin" eliyillər. Sonra Allah verənnən surfuya düzülör.

Aşıx deer: bu qız məni bağladı. Deellər niyə? Deer o sözdərin maynasını maa deyin: öyümüzün qulağı yoxdu nə deməkdi?

Deellər: it öyün qulağıdı, çağıranda qavaxcana o eşider. Bizim də itimiz yoxdu. Onçu da çağıranın səsini eşitmerik.

Qonax deer: bə meşədə niyə yaxına gessə gej gələr, uzağa gessə tez?

Deellər yaxında odun az olor, uzaxda çox. Onçu deyif: uzaxdan haravasını tez dolduruf gələr.

Aşıx deer: bə tükənməz nədi?

Deellər: bizim arvatdır. Kürdən su gətirməyə gedəndə arvaddar bir yerə yığılellar. Onların gapı tükənmer. Həmişə öyə gej gəlellər. Su yoluna tüknməz dellər.

Aşıx bu işə mat qaler. Sonra çörəyini yiyif sazı köynəkdən çıxarder. Çalıf-oxuyur.

## KEŞƏLİ ƏHVALATLARI

Keşəli Qulu kişi günnərin bir günündə bazara papaq almağa geder. Papaqçı dükanına girəndə soruşollar: ay bava, nə buyurorsan?

– Papax dükəninnən papax alallar, – ay oğul.

Papaxçı asılı papaxları göstərib deyir ki, buyur hansını istəyirsən seç.

Qulu bava başdıyır bir-bir papaxların qiymətini xavar almağa. Görör ki, hamısını da bir beş baha qiymətə deer. Axırıncı papağın qiymatını da xavar alıf kirmişcə eşiyə çıxmaq istəyəndə papaqçı deer: olmuya papaxları bəəmmədin?

Qulu bava deer: bəəndim.

Deer: bə niyə almadın?

Deer: qiymatını bəəmmədim.

Deer: niyə?

Deer: baha dediyin üçündükü elə papaxlarıyın hamısı koradan[1] asılı qalıf daa...

---

[1] kora – mismar

* * *

İki çovan bir sürü qoyun otarerdı. Dəmir yolunun təzə çəkilən vaxtıydı. Bu çovannar nəvələtiydi, dəmiryolun, qatarın nə olduğunu bilmerdilər. Sürü yol boyu yayılıf otdamaxdeydı. Çovannarın hərəsi yolun bir tərəfindəydi. Bir də gördülər ki, nəysə bir uzun yekə qara şey tüstüləyə-tüstüləyə bağıra-bağıra gəlib lap üsdərini aldı. Hərəsi yolun bir tərəfinə ağzı üstə uzanıb gözdərini yumor.

Qatar keçənnən sonra özdərinə gəlif əəğa durollar. Sürünün yarısı xurd-xaşıl olor. Çovanın biri o biri yoldaşını çağırmax istəyəndə görör yoldaşı dua oxuyur: “Allah, atam-anam. Allah, sana min şükür... ”

O biri deer: əə, zalım oğlu, zalım, nəyə şükür oxuyursan, sürünün yarısı əldən gedif.

Şükür oxuyan toxtaxlı adammış. Ona axıra qədər qulaq asannan sonra deer:

– Allaha ona görə şükür oxuyuram ki, bu uzunda yekə dəmir nə yaxşı ki uzunnamasına gəldi. Ennəməsinə gəlseydi, nə biz salamat qalardıx, nə də bu sürüdən bir heyvan.

* * *

El yaylağa çıxmışdı. Keşəli dəmirçi Musa arançı olmax fikrindəydi. Arançı gərək əkinçi də olsun. O da bir xeylax torpax götürüf pambıx əkdi. Noolajax, yavaş-yavaş işə girişdi. Əmmə gördü ki, ay dadı-bidad iki adam bu işin öhtəsinnən gələmmiyəjək. Ala (alaq) əkini batırer. Büyün-savax da göydən od yağajax. Sinəsi qöyr elədi, aldı görək nə dedi.

Aşdım sandığı,
Səfdim pambığı,
Pitdi biyan,

Yoxdu ziyan.
Yanındakı sarmaşıx,
Oldu ona yaraşıx.
Pitdi çayır,
Yüyür ha yüyür.
Pitdi kalış,
Yüz də çalış.
Çəhmə dad.
Ay arvad.
Yır-yığış,
Günnər hələ,
Qızmamış,
Minək daylağa,
Gedək yaylağa.

## OV YERİ, YURD YERİ

Sadaxlı çox qədim kənddir. Onun səsi-sorağı erkən orta əsrlərə gedib çıxır. Sadaxlı "sadaq" sözündəndi. Sadaq isə qədim dilimizdə yay oxu yerləşdirilən və çiyindən asılan alət olmuşdur. Sadaqnan gəzən adama sadaqlı demişlər. Beləliklə, Sadaxlı çoxlu vəhşi heyvanlar, quşlarla dolu bir yer olmuşdur. Elə indinin özündə kəndin meşə ətəyində yerləşməsi və ətrafının da meşə olması dediklərimizi təsdiq edir. Hələ onu da deyirlər ki, Bənövşə çayı o qədər gur gələrmiş ki, o taydan bu taya yalnız qayıxlarnan addamaq olarmış.

Müxtəlif məhəllələri var Sadaxlının: Bayramqullu, Qazaxlar, Keçəlvəllər, Meyxanımlar, Paşalar, Duşdurlar, Layışlar, Poluxöyü, Əzizbəylilər, Xudullular, Nəvöyü... Doğrusu,

hamısını demədim. Demək də mümkün deyil. Bunun üçün üç-dörd vərəq lazım gələrdi.

Bu məhəllələrin hamısının Novruz bayramı, Oruc bayramı, Qurban bayramı eynidir, eyni vaxtda qeyd edilir. Folklorumuz da eyni şəkildə yayılıb. Amma məhəllələrimizin folklorunda, necə deyərlə, cıqqılı fərqlər də var.

Məsələn, kəndin mərkəz məhəllələrində belə tapmaca işlənir:

Atdan yekə,
İtdən balaca.

Açması yəhər olan həmin tapmacanı Təpə məhəlləsində belə söyləyirlər:

Atdan hündür,
İtdən alçaq.

## ARIXLI ARX ÜSTÜNDƏ

Arıxlı obası qartal gözlü, şir biləkli, mərd ürəkli oğulların, mina gərdənli, ala gözlü gözəllərin, tarixlərdən sirr daşıyan, qan yatıran ağsaqqalların, qəlbi bayatı məskəni, nağıl dağarcığı ağbirçəklərin oylağıdı. Bu obanın hər toyunda yüz igid cıdıra çıxar, yüz çatmaqaş xınaya əl batırar, yüz ağsaqqal öyüd verər, yüz ağbirçək yol göstərər. Arıxlının hər daşında min sirr yatır. Arıxlının kürəyini söykədiyi Çınqıllıda, Böyük düzdə, Ortaçöldə, Şamdüyədə, Maraluçandakı mağaralarda igid qaçaqların ocağının külü, divarlarında hisi qalıb.

El adəti bu obada həmişə yaşayıbdı, yaşayır da. Novruz, Qurbanlıq, Xıdırnəbi, Kül çərşənbə, İlin axırı bayramları həmişə bu obanın növrağının bəzəyi olub. Bu oba tək dağlarıyla, igidləriylə, gözəlləriylə gözəlləşməyib. Arıxlıya füsunkar gö-

zəllik verən həm də Xram çayıdır. Ehram, Anaxatır deyə də anılan bu çay durnagözlü bulaqlardan mayalanıb, çınqıl daşlardan süzülə-süzülə gəlir. Xram balığı can dərmanıdır, deyiblər.

Arıxlı təkcə igidlər oylağı deyil, həm də maarif ocağıdır. Arıxlı məktəbinin bir əsrə yaxın yaşı var. Hüseyn Əfəndi Əfəndiyev tərəfindən təməli qoyulan məktəb bu gün də öz yetirmələri ilə məşhurdur. Hüseyn Əfəndi öz dövrünün savadlı adamlarından olub, məktəb açıb. O burada neçə-neçə oğluna-qızına savad verib Arıxlının. Alimlərdən Kərəm və Sədrəddin Nəbiyevlər, Veysəl Əlləzov, Akif Bayramov, Məhəmməd Qəribov, Seyfəddin Mustafayev, Məhəmməd, Əhməd, Nurəddin qardaşları, Xozeyin və qəhrəman əsgər Zöhrab Yunusov bu məktəbin məzunlarıdır.

Arıxlıda beş minə yaxın əhali yaşayır. Hər kəsin öz adı, soyadı olsa da, kənddə hamını öz soyu, nəsli ilə tanıyırlar. Torədələr, Əmrahlar, Mollaöyü, Mollaasansöyü, Əlləzlər, Novruzqulular, Təməröyü, Adıxlar, Seyidinöyü, Məmmədöyü, Qəriblər, Tamıöyü, Məloğullar, Pəricahanlar, Alıöyü, Pəribacılar, Qazıöyü, Aydəmirlər, Vəliöyü, Dovşanlılar, Nağıllar, Hacıöyü, Qənbərlər, Qırdıqaşdılar, Əfəndilər, Aşağı Koxalı, Yuxarı Koxalı, Yolçular, Diəninöyü, Heydarınöyü, Qaracıqlar, Qarallar, Əhmədilər, Döyrüşdər, Çilalılar, Şoşaylar, Haşpirlər, Fırtıbayramlar kimi soyadları bu gün də işlənməkdədir.

Kəndin elə yığnağı olmaz ki, orada Lotu İbrahimin, Hacıqaranın baməzə işlərindən, hazırcavablıqlarından, Xınalı xanımın kəklik qaqqıltılı, əvvəl sevincli, sonra kədərli şeirlərindən danışmasınlar. Lotu İbrahim dövrünün gözüaçıq adamlarından olub. Varlıları kinayəli sözlərlə ifşa edərmiş. Xınalı xanım isə həm müğənni, həm də şairə imiş. Onun səsi vaxtilə vala köçürülmüşdü. Xınalı xanım (bəzi adamların mülahizə-

lərinə görə) çap üçün bir kitablıq şeir toplusu hazırlayıbmış. Təəssüf ki, onun valları bizə gəlib çatmayıb, şeirlərindən də əlimizdə çox az qismi qalıb.

Nə isə, Arıxlının söz-söhbəti söylənməklə qurtaran deyil.

Aran Arıxlısı Başkeçiddəki yaylaq yurdu ilə əkizdir. Bu yaylaqlara çıxanda məğrur qartallar uçuşundan, qoyun-quzu mələrtisindən, at kişnərtisindən doymaq olmur. Tanrı bu yerlərə gözəl bir şey də bəxş edib. Dişdonduran bulaqlar, Sona bulağı, Gur bulaq, Sayalı bulağı, Damcı bulaq, Şorşor bulaq, Koxalı bulağı, Qırxgöz bulaq, Qırmızı bulaq. Hər biri bir əfsanə, bir həqiqət. Hərgah Arıxlı yaylaqlarına çıxsan, bulaqların dişdonduran suyundan içsən, ürəkcoşduran həzin şırıltısına qulaq assan, elə bilərsən ki, cənnətdəsən. Hər dəyənin qabağından keçəndə sac çörəyinin, motal pendirinin, bir də çoban bozartmasının iyini çəksən, elə bilərsən ki, cənnətdəsən.

Yaxşısı budur, gəlin ağsaqqallarımızın, ağbirçəklərimizin söz yatırını birlikdə izləyək.

## GÖRARXI SƏMTİ

Hardasa bir səs gurladı "xanım, hey!"

Qayalara dəyib əks-səda verdi bu səs – "Elim, hey, hey, hey..."

Borçalı ellərinin mayası sazla-sözlə tutulub. İllərin, əsrlərin daşlaşmış dünənindən gələn kəlamlar, şeirlər, rəvayətlər, el zarafatları bu xalqın ruhunda, iliyində, yaddaşında həmişə yaşayıb, nəsillərdən-nəsillərə isr kimi verilib. "Telli saz"ın bu dəfəki deyim dünyası ulu Borçalının qədim obalarından olan Görarxı elidir.

Hələ çox qədimdə Yağlıca dağlarından baxanda yaşıllığa bürünmüş bir kənd görünərdi. Bu dağlara sığınmış, laylasını Alget çayı çalan Görarxı obası idi. bu obanın tarixi haqqında müxtəlif fikirlər, rəvayətlər bu gün də dildə, ağızda dolaşmaqdadır. Deyilənlərə görə, bu kəndə ilk dəfə Hümmətli nəsli, bir az sonra isə Musalı nəsli bel sancmışdır. Heyvandarlıq bu kəndin əsas məşğuliyyəti olmuşdur. Tərəkəmə adət-ənənələrinin izini təkcə yaddaşlarda yaşayan atalar sözü və məsəllərdə, tapmaca və müxtəlif folklor nümunələrində deyil, Görarxının toponimlərində də görürük. Dəvə yatan burun, Düyə boynu, Nərri dərə və s. Yayda "Yastı qar"a doğru bir köç başlarmış. Yüz ildən artıq ömür sürən ağsaqqallar Xatın oğlu Alı, Hacı Osman oğlu Qurban, Carçı oğlu Hüseyn (137 il ömür sürüb) bu köçün başında durarmışlar. Öz səxavəti ilə şöhrət qazanan Məşədi Əhməd, Rəşid pəhləvanlar bu elin unutmadığı, haqqında onlarla rəvayət qoşduğu oğullarıdır. Bəzi fikirlərə görə, Görarxı sözünün leksik mənası "kafir arxı" deməkdir. Azərbaycan toponimikasına nəzər saldıqda məlum olur ki, "kafir" sözü "Gavur" sözü ilə anologiya təşkil edir. Həm Mil, həm də Muğan düzündə "Gavurarx" adlanan qədim suvarma kanalları olub. Xeyli "Gavurqala" toponimi var ki, onların tarixi lap qədimlərə gedib çıxır. Naxçıvan yaxınlığındakı tunc dövrünə aid yaşayış yeri "Gavurqala" adlanır. Tunc dövründə hansı kafirlərdən söhbət gedə bilərdi? Demək "gavur" sözünün tamam başqa mənasını aramaq lazımdır. Və belə məna "ağ" deməkdir. Bəlkə də xalq arasında Algetin suyuna "ağ su" deyilməsi heç də təsadüfi deyil. Ümumiyyətlə, bu toponimin açımında "gör", "kor" – "qəbir" "zülmət" mənası əsas götürülüb. Ancaq bu izah toponimin ilk baxışda nəzərə çarpacaq cəhətidir. Əlavə bir izah da var ki,

onu bir neçə səbəbdən əsas götürmək olar. Onlardan birincisi odur ki, tarixən çox vaxt kənd, oba çay ətrafında salınmış və çayın adı ilə öz adı qoşalaşmışdır. İkincisi, Görarxıda olan məscidin daşındakı "Kəbur arx" yazısıdır. Bu da ərəbcə böyük, ulu arx mənasını verir. Məhz bu məscidə görə xalq kəndi "Meçidli Görarxı" kimi tanıyır. Aydındır ki, söhbət həmin yazıda indiki Alget çayından gedir. Beləliklə, çayın adının kəndin adına təsiri ehtimalı haradasa əsaslanır. Qədimdən Borçalı toponimiyasında ərəb, fars dili tərkiblərindən az istifadə olunub. Xalq danışıq dilində də belə bu tərkiblərin miqdarı azlıq təşkil edir. Bunun əsas söykənəcəyi də Borçalıda aşıq poeziyasının təşəkkülü və folklor zənginliyidir. Bu cəhət qərb şivələrinin hamısına aiddir. Ona görə də düzgün yol "Görarxı" toponiminin izahını türk dilində axtarmaq lazımdır. Məscidin tikilmə tarixi çox da qədim deyil və bu toponim üçün əsas sayıla bilməz. Alget toponiminin yaşı da yəqin ki, çox qədim deyil. Başqa bir hadisədən sonra çayın adının dəyişdirilməsi nəticəsində yarana bilərdi (Gümüşlü qəsəbəsi ilə bu çayın arasındakı ərazidə 1625-ci il iyunun 30-da gürcü xalqının "Didi Mouravi" adı ilə tarixə düşmüş üsyanı yatırıldı. Həmin dövrə aid ədəbiyyatda Alget çayının adı Əlgitçay kimi göstərilir). Kənd isə təbiidir ki, öz adını saxlayıbdır. Görarxı elinin tarixi Borçalının özü qədər qədimdir.

...Laylasını Alget çalan, Yağlıcanın, Babakərin ətəyinə qısılmış bir oba var. Bu obanın Güllü təpəsi, Yolaşanı, Qanırması, Tülkü təpəsi, Yuvanalısı, Ağburnu, Doşanuçanı, Sarıyoxuşu öz adlarında keçmişin işıq düşməz qaranlıq səhifələrini dondurub saxlayıb. Tarixin naməlum səhifələrindən üzü bu günə yol gələn bu kənddə ustad aşıqlar saz çalıb, söz qoşublar. Bu obanın varlığına hopub sazın havası, sözün

müdrikliyi. Bu sənətin Aşıq Almaz, Aşıq Əli, Aşıq Bayram, Aşıq Ayvaz, Aşıq Qurbanəli kimi ustadları olub Görarxı elində. Ən nəhayəti, bu gün toylarında qara zurnanın fəğan elədiyi obalarımızdan biridir bu el.

Nə vaxtsa Aşıq Şenlik bu eldə məclis qurmuş, oğuzumun ruhundan, qopuzumun kökündən qopub gələn havaları pərdə-pərdə çalmış, öz deyimlərini yaddaşlarda yadigar qoyub getmişdir...

* * *

Hə, əzizlərim, indi də Cöyüzdüdən keçib Ballı qayanın aşırımındakı dolamanı dolana-dolana gəlib çıxdıq Dmanisiyə – qədim Başkeçidə. O yerə ki, bulaqları diş göynədər, bunun üçün gərək Mahmıddıdan, Armıddıdan keçəsən, Göy bulaqda, Yaılı, buzdu, Quyu bulaqlarında, nəsillərin nənəsinin adıyla yaddaşlanan Sona bulağında dirənəsən, içəsən, içəsən ta ki, ürəyin sərinləyə.

Zirvəsi qarlı dağıar aranlara meh göndərir, o dağlar ki, yalında-yamacında seyr eləyib oxqaylanasan. Sənəyuçannan Əyri qara, Əyri qardan Şamdüyəyə, Sərxana, Yemlikliyə, Kömürlüyə, Qaraxaça addıyasan, Dəli dağın dəliliyinə tamaşaya durasan.

O dağlar ki, Sarf çayının qaşında Koroğlunun alınmazı qurulub. Şiş qayalarının zirvəsində qıy vuran qartalları o üzdü-bu üzdü keşik çəkir ərlərdən-ərənlərdən qalanlarına. Bu yerləri göyçəkləndirən gözəl Sülhülüyə[1], suyunu buz bulaq-

[1] Sülühlü – yer adıdır

lardan alıb üzü aşağı sallanan Ehramına[2] keşik çəkir qoynu şen Şindi[3].

Hə, gəldik çıxdıq o yerə ki, beş evindən birində saz tapılar, saz çalınar, söz deyilər. Buranın sazı-sözü Balakişi Sacalı, Yasin Səfərli, Şamil Qəmərli kimi el sənətkarlarınnan tanınıb, Məhəmməd Hamamlının barmaqlarıynan neçə-neçə sədəfli saz bağlanıb. Adlı-sanlı aşıqlar ustad Məhəmməddən yolu-rizi öyrəniblər. Bu yerlərdə hər çalınan sazda Məhəmməd barmağının, bir də Qaratikanlı saz ustası İslamın barmağının nişanəsi görünür, hərarəti duyulur.

Sazdı-sözdü dədələrdən miras qalan. Telli sazı dünyaya göz açan körpəli evlərə bəxşiş verərlər. Bu bir adət olub indi.

Çalıb oxuyanları – Aşıq Vəkil, Aşıq Həmzə, şöhrətli müdrik ustalar Aşıq Sona, ustad İbrahim topy-düyün qurar, qız köçürər, gəlin gətirər, şax qaldırar, şax endirər obalarda, oymaqlarda.

Neçə-neçə soyları Qəmvəroğlu, Eyuboğlu, Qundaloğlu oğullarının adı ilə səslənir. Səslənə-səslənə səslənəcək də durduqca bu qoca dünya.

Ağsaqqal babaların, ağbirçək anaların, götür-qoylu insanların sinəsində yatan bu xəzinədən imkan daxilində yığıb yığışdırıb, seçib-ayırıb oxuculara ürəknən təqdim edirik.

## BİR EL ADƏTİ

Ərgənlərin öz adəti vardı. Oğlan sevdiyinə qırmızı alma atardı. İşdi, alma qayıtdı, yəni "get itirdiyini axtar!". Yox, qayıtmadı, yəni "mənim də gözüm səndədi, itiyin də mənəm".

---

[2] Ehram – çay adıdır
[3] Şindi – dağ adıdır

O vaxtların işidi. Bir oğlanın bir qıza işi düşür. Qırmızı almasını toyda atır qızın üstünə. Qız da eləmə tənbəllik, almanı götürüb qoyur qoynuna. Yəni ki, elçilərini göndər gəlsin.

Hə, oğlanın elçiləri el qaydasıynan gəlirlər qız evinə. Bir qayda da var idi. Qızı gizlin imtahana çəkərdilər. Burada da belə olur. Oğlan tərəfin adamlarından biri dolçanı qıza verir ki, sənəkdən doldur iç, sonra da dolçanı sənəyin yanına qoy. Qız da eləcə eləyir.

Bir az söz-söhbətdən sonra elçilər gedirlər. Neçə vaxt keçir aradan elçilər daha gəlmirlər. İşi başa düşən qız oğlanın qırmızı almasına cavab göndərir:

Elçilərin yalançıdı,
Məndə nə gördün, gəlmədin.
Söyləsən nə gözləmən var,
Dərdimnən öldün, gəlmədin,
Məndə nə gördün, gəlmədin?

Çərkəz papaq, enli kürək,
A bal dodaq, qarğı bilək.
Məqsədini danış görək,
Dərdimnən öldün gəlmədin,
Məndə nə gördün, gəlmədin?

Təndirimə aş qoymuşam,
Üstünə lavaş qoymuşam.
Dolçanı sənək yanına
Bilməmişəm, çaş qoymuşam.
Dərdimnən öldün gəlmədin,
Məndə nə gördün gəlmədin?

## NƏ TEZ GÖRDÜNÜZ...

Bir qarının qulunu kəndlərinə kolxoz sədri təyin edirlər. Aradan bir az keçmiş kimsə imzasız şikayət yazır ki, sədr dövlət malını oğurlayır, dağıdıb talan edir. Yoxlayıcı gəlib məsələni yerində yoxlayır. Yoxlamanı sədrsiz, əlaltdan aparır. Bir dəlil sübut tapa bilmir. Çarəsiz qalıb sədrin özünə məsələni açmaq istiyir. Bunun üçün onun evinə zəng vurur. Sədrin anası cavab verir. Yoxlayıcı soruşur:

– Qulun evdədirmi?

– Yoxdu, işdədi.

– İşdə yoxdur, yoxsa yenə oğurluğa-zadamı gedib?

Arvadı od götürür. Deyir:

– Ay gözünüz kor olsun, ayda-ildə bir namaz, onu da şeytan qoymaz. Dünən iki möşöy taxıl gətirdi, nə tez gördünüz?

## KÖKƏNİ KİM YESİN

Biri varmış, biri yoxmuş, keçmiş zamanlarda bir dəvə, bir keçi, bir də tülkü varmış. Bir gün onlar bir kökə tapırlar. Kökəni kimin yeməsi üstündə mübahisə düşür. Bu qərara gəlirlər ki, kimin yaşı daha çoxdur və onu sübut etsə, kökəni də o yesin. Keçi tez söhbətə başlayır. Deyir ki, Nuh gəmisinə ilk dəfə mən minmişəm. Tülkü gülüb bildirir ki, Nuh gəmisinin qayırılmasında iştirak etmişəm. Bu həpdən-gopdan matı-qutu quruyan dəvə yalan uydura bilməyəcəyini kəsdirib kökəni tez ağzına atıb yeyir.

## MƏNİM ŞƏKLİMİ DƏ ÇƏKDİR

Başkeçidin kəndlərinin birindən bir nəfər oğlan rayona gedirmiş. Qonşusu onu görüb haraya və nə üçün getdiyini soruşur. Oğlan bildirir ki, rayona şəklini çəkdirməyə gedir. Qonşusu sevinir, əlini cibinə salıb bir manat çıxarıb oğlana verir və deyir:

– Bala, sənin başına dönüm! Mənə də şəkil lazımdır. Baxtım yoxdu çəkdirməyə, onsuz da sən gedirsən, mənim şəklimi də çəkdir gətir.

## NƏ TÖKƏRSƏN AŞINA...

Bir qoca qarı varmış. Gözləri tutulubmuş. Özünün də din-iman bir oğlu varmış. Gəlini əzazil imiş. Hər gün özlərinə yaxşı yemək hazırlarmış. Amma qayınanasına verməzmiş. Gedib gölməçədən qurbağa tutub bişirər və qayınanasına verərmiş. Qarı da gözləri görmədiyindən qabağına qoyulanı yeyərmiş.

Beləcə günlər keçir. Qarı ölür. Gəlin də yaşa dolur. Oğullarını evləndirirlər. Gəlini qanacaqlı gəlin imiş. Hər dəfə xörək bişirəndə xörəyin yaxşısını qayınanasına apararmış. Amma qoyduğu xörək qayınanasının qabağına gələndə qurbağa olarmış. Bir belə, beş belə.

Bir gün gəlin açılıb məsələni qayınanasına danışır.

Arvad peşman-peşman deyir:

– A bala, o xörəyi yerə tökmə, ver yeyəcəyəm. Bu mənim öz əməlim, öz edib-tutduğumdur. Atalar yaxşı deyib ki, nə tökərsən aşına, o da çıxar qaşığına.

## AZ YİSƏNƏ

Bir kişinin uzax yerdən qonağı gəlir. Öy yiyəsinin arvadı axşama lovya pişirifmiş. Nəsə, xörək qonağa xoş gəlir. Dönə-dönə qavı doldurtduruf vurur bədənə. Öy yiyəsi nə qədər deyir ki, ağır yeməkdi, yatar qarnına az yesənə, qulaq asmır, o qədər qızışır ki, axırda qazanı qavağına çəkir, qazmağı çıxanatan buraxmır. Nəhayət, bir-iki kərə səbir gətirif deyir:

– Oxay, gözümə işıx gəldi. Sonra üzünü tutur öy yiyəsinə ki: – A qardaş, bu xörəyin adı nəydi?

Öy yiyəsi də bəməzə adammış. Cavaf verir ki:

– Əksənədi adı, qardaş, əksənə.

Qonax eyhamı annamır, deyir:

– Ay atası rəhmətdik, bunnan çoxlu əksənə.

Xülasə, gejədən xeyli keçmiş yatıllar. Gejənin bir vaxtı qonaq qarnının harayına ayılır. Baxır ki, şişif dağa dönüf, nəhrə kimi çalxalanır, elə bil, qarnında qırx atdı doşan dalınnan çapır. Özünü birtəri eşiyə salır, dincəlif qayıdır. Aradan bir az keçmiş gənə haray başdanır. Bu minvalnan səhərətən on-on beş dəfə eşiyə. Ölüm-zülüm savağı açır. Çay-çörəy ortalığa gələndə qonax bir də soruşur ki:

– Qardaş, o axşamki yiməyin adı nəydi?

Öy yiyəsi məsələdən halıymış, əmə, üzə vurmur, sakitcə cavaf verir ki:

– Əksənəydi, qardaş, əksənə.

Qonaq məzəmmətnən deyir:

– Ay rəhmətdiyin oğlu, onun kökünü kəssənə.

Öy yiyəsi bu yerdə özünü saxlayammır, gülə-gülə qayıdır ki:

– A qardaş, bə sənə demədimmi, işin əngəl olar, az yisənə.

## İNDİ GET DÜZƏL...

Kənddə iki molla varıymış. Bunnarın da bir-birini görməyə gözü yoxuymuş. Günnərin birində mollaların biri səfərə çıxası olur. O biri mollaya da elə bu lazımmıymış, başdayır, o birinin dalınnan danışıf öz yerini bərkitməyə. Bir məclisdə söybət səfərə çıxan molladan çüşür. Arvadı yalvar-yaxar eliyir ki:

– Molla qardaş, bir kitaf aç görək, kişinin vəziyyəti nətəridi, hajı qavıldımı?

Mollanın əlinə girəvə çüşür. Kitavı açıf xeyli baxannan sonra ah-uf eliyif deyir:

– Bajı, əriyin vəziyyəti yaxşı döyül. Məkkiyə hamı öz livasında daxil olur, sənin ərinsə it sufatında, ləhliyə-ləhliyə, dizi üstə sürünə-sürünə gedir. Əməlisaleh adam döyülmüş, ona görə hajı qavıl olmuyajax.

Arvad bunu eşidif məyus olur, əmə, annıyır ki, molla ona kələk gəlir. Öyə qayıdan kimi aş pişirir, yaxşı surfa açır, mollanı da, həmən məclisdəkiləri də qonax çağırır. Üzünü molluya tutub deyir:

– Molla qardaş, and verirəm Allaha, bajarırsansa, bir əməl elə, ərim orda zəlillik çəkməsin.

Molla deyir:

– Bajı, mən Allahın işinə qarışa bilmərəm. Ərin Allahın qarşısında günahkardı.

Arvad bir söz demir, qalxıf surfa açır, aş gətirir. Molla “bismillah, , eliyif əlini uzadanda arvad onu saxlayır:

– Molla qardaş, deyə bilərsənmi, aşın altında nə var?

Molla cavabında deyir:

– Bajı, onu mən hardan bilərəm?

Arvad deyir:

– Molla qardaş zəhmət olmasa, kitav aç, bax.

Mollanın sümüyü sancır ki, arada nəsə var. Candərdi kitab açır, fikirrəşir ki, aşın altında yağdan başqa nola bilər. Oydu ki, deyir:

– Bajı, aşın divi çox bulannıx görünür.

Arvad qayıdır ki:

– Düzdü, molla əmi, çörəyini ye.

Molla girişir aşa. Bir, üç, beş qəfildən əli nəsə möhkəm bir şeyə toxunur. Çəkif qırağa çıxardanda görür ki, yekə bir sicoul ölüsüdü. Mundar leşi yerə tulluyuf arvada qışqırır:

– Bajı, bu noyundu başıma aşırsan, sıcoul ölüsü aşın altına hardan girif?

Arvad özünü bilməməzdiyə vuruf deyir:

– Molla qardaş, aşın divinnən mənim də gözüm heç su içmirdi. Yaqın, sooxa qalmış, girif aşın altına, elə ordaca ölüf. Ona görə dedim ki, kitava bax.

Molla hirsnən cavaf verir:

– Əşşi, gözünün qavağında kitav aşdım, aşın divində sicoul zad görünmürdü.

Arvada da elə bu lazımıymış. Qışqırır ki:

– Ay fırıllaxçı molla, sən ki, qavağındakı aşın altında nolduğunu bilmirsən, bə birillik yolu olan Məkkədə mənim ərimin it sufatında olduğunu hardan bildin hay? Bu vaxtatan paxıllıq səni əyri eləmişdi, indi get, düzəl!

## YİYƏK DEYƏK, YOXSA, DEYƏK YİYƏK... .

Bir kişinin gözünün ağı-qarası əziz-xələf oğlu varıydı. Kişi ona dünyənin bütün naz-neymətini yidizdirmişdi. Fikir eliyirdiki, daa nə qalıf oğluna yidizdərməmiş. Bir də yadına çüşür (düşür) ki, filan meşədə bir çələm bitir. Oğlunu da

yanına salıf həmən meşiyə sarı yollanır. Yol arxdan keçirmiş, axtarıf ağac körpünü tapıllar. Oğlan körpüdən birinci keçməli olur. Yarıya çatanda gözdəri qaralıf suya çüşür. Atası dura bilmir, özünü burulğana atır, güj-balaynan oğlunu tutur, sudan qırağa çıxardır. Odun-ojaxda paltarrarını qurudur, çələm dərif doyunca yiyillər. Bir az gəzənnən sonra geri qayıdanda genə həmin körpüdən keçəsi olurlar. Oğlan keçir, kişi keçəndə bu dəfə onun gözdəri qaralıf suya yıxılır. Kişi böğula-boğula qışqırır ki, "Oğul, kğməy elə! ,,Oğlan heç tükün gedir. Kişi birtəri qırağa çıxıf əyin-başını qurudur. Surfanın qırağında oturanda üzünü oğluna tutuf soruşur:

– Oğul, yiyək deyək, yoxsa, deyək, yiyək?

Oğul cavabında deyir:

– Ata, kef sənindi, nətəri istəyirsən elə elə.

Kişi başdarına gələn bütün əhvalatı yerri-yataxlı sufranın başına yığışannara danışır. Sözünü tamam eliyəndə oğlu kefini puzmadan deyir:

– Ata, ayıf döyülmü, niyə yalan danışırsan, sən məni havaxt belinə alıf sudan çıxartdın? Sudan çıxartdığın mən döyüldüm, axı?

Kişini od götürür. Hirsnən qışqırır ki:

– Ay nanəciv oğul, bə kimiydi çıxartdığım?

Oğlan sakitcə soruşur:

– Ata, mənim neçə yaşım var?

Atası cavab verir:

On səkkiz.

Oğlan genə sakit-sakit sözünə davam eliyir:

– Bax, sudan çıxartdığın on sıkkiz ildə mana çəkdiyin zəhməttiniydi. İndi başa düşdünmü, mən niyə sənin dalınnan özümü suya atmadım?

## GET SÜDÜNƏ...

İki qardaş varıymış. Böyük qardaşın züryəti varıymış, kiçiksə övlad üzünə həsrətiymiş. Qardaşdarın hərəsi bir kənddə yaşayırmış. Günnərin birində bööh qardaş kiçiyi çox fikirri görür. Onun dərdini annıyır:

– Qardaş, – deyir, – gün o gün olsun ki, bir oğlun olsun, on səkkiz yaşına çatanda pütün var-yoxumu töküf bir şadyanalıx eliyəjəm ki, zamananın gözü görməmiş olsun.

Elə bil onun sözünü Allah eşidir, kiçik qardaşın bir oğlu olur. Oğlan on səkkiz yaşına çatanda böyük qardaş nökərrərinnən birini göndərir ki, oğlanı başının dəstəsi ilə qonax gətisin. Oğlan qırx nəfər dost-tanışıynan qonax gəlir. Əmisi onu gülərüznən qarşılayır, bööh məclis açır, aşıq gətizidirir, qıx gün qırx gejə toy vurdurur, şadyanalığ eliyir.

Vaxt tamam olanda oğlan öylərinə qayıdası olur. Əmisi qırx nəfərin hərəsinə bir dəst paltar, bir yəhəri-yüyənni at, gümüş kəmər, xançal bağışdıyır. Oğlanın atının üzəngisini basanda deyir:

– Get, oğul, get, südünə...

Söz oğlanı tutur. Bir söz demiyif atdanır. Öyə çatanda atası görür ki, oğluna pıçax vursan qanı cıxmaz. Oğlan atdan enən kimi özünü öyə salıf üzüstə taxtın üstünə uzanır. Atası soruşur:

– Oğul, səfərin nətəri keçdi, niyə qanın belə qaradı?

Oğul dillənir:

– Gərək nə yaraneydim, nə də əmim məni qonax çagıreydi. Yoldaşdarımın yanında məni üzüqara elədi.

Atası israrnan soruşur:

– Oğul, üstüörtülü danışma, de görüm noluf?

Oğlan deyir:

– Məni yola salanda əmim dedi: – Get, oğlum, get südünə...

Kişi bir xeyli fikrə gedir, sonra qardaşına təhnizdi söz ismarrıyır. Bööh qardaş ata minif özünü yetirir. Kiçik qardaş ismarış elədiyini onun üzünə də deyir. Bööh qardaş bir söz demiyif qardaşı oğlunu çağırtdırır, soruşur:

– Oğul, səni qonax çaxırıf qırx gün – qırx gejə toy vurdurdummu, aşıq oxutdummu?

Oğlan deyir:

– Bəli.

– Hərənizə bir dəst paltar, bir yəhərri-yüyənni at, bir gümüş kəmər, xançal bağışdadımmı?

Oğlan deyir:

– Bəli.

Əmisi soruşur:

– Bə, indi mən nə pisdik eləmişəm ki, mənnən qardaşıma işkat eliyifsən?

Oğlan cavabında qayıdır ki:

– Əmi sən məni yola salanda dedin "Oğul, get südünə... Neynim mən də südümə getdim.

## YİYİF-İÇİF EŞŞƏK OLMUŞUX...

Bir gün bir mömin kişi meçidə gedirmiş. Görür ki, yolun qırağında bir dəstə cavan yiyif-içif kef eliyillər. Kişi salam verif soruşur:

– Bala nə kefdəsiniz?

Cavannardan biri cavaf verir ki:

– A kişi, görmürsən, yiyif-içif bülbül olmuşux. Çıx get işinə.

Kişi bir söz demiyif yoluna davam eliyir. Günorta namazına gedəndə görür ki, həmən cavannar genə də yeməkdə-içməkdədilər. Salam verif bir də soruşur:

– Bala, indi nə kefdəsiniz? Cavannardan biri gənə dillənir:

– A kişi, görmürsən, yeyif-içif hərəmiz bir şir olmuşux. Çıx get işinə.

Kişi çıxıf gedir. Axşam namazına gedəndə görür ki, cavannar keflənif dalaşıllar, bir-birində tutar qoymuyuflar. Salam verif bu dəfə də soruşur:

– Bala, bə indi nə kefdəsiniz?

Cavannardan biri dili tutatr-tutmaz dillənir:

– A kişi, görmürsən, yiyif-içif eşşək olmuşux. Çıx get işinə.

## CƏNNƏTDƏ YAŞAMAXDANSA...

Kənddə hırnan-zırı qanmayan bir Allah bəndəsi yaşıyırmış. Günnərin birində bu kişi yıxılıf ölür. O dünyada kişinin kağız-kuğuzunu yoxluyuf görürlər ki, günahıynan suavı təndi, cənnətdə də yaşaya bilər, cəhənnəmdə də. Soruşullar ki:

– A kişi harda yaşamağ istiyirsən, cənnətdəmi, cəhənnəmdəmi?

Kişi qayıdır ki:

– Deyin görüm, cənnətdə kimlər var, nəynən məşğuldular, cəhənnəmdə nəynən məşğuldurlar, cəhənnəmdə nəynən?

Cavaf verirlər ki:

– Cənnətdəki hajılar, seyid-mollalardı, ibadət eliyillər, cəhənnəmdəki də lotu-potulardı, çaxır içif kef eliyillər.

Kişi bir az fikrə gedir, sonra qayıdır ki:

– Cənnətdə molla-seyidə aftafa daşımaxdansa, cəhənnəmdə lotu-potunun badəsinin divində qalan çaxırı içif kef eləməy yaxşıdı, məni cəhənnəmə göndərin.

## QIRXINDA ÖRGƏNƏN GORUNDA ÇALAR...

Bir kələhvaz molla kitavın varaxlarının arasına cöüz ləpəsi tökür, eşşəyinə burnuynan varağı çöördürüf ləpələri yeməy örgədirmiş. Camahata da xavar yayıfmış ki, eşşəyim kitav oxuyur. İnanan inanır, inanmıyan da dodaxını büzür. Bu məmləkətin də qoja bir paççahı varıymış. Vaxtında savad örgəninmiyifmiş. Günnərin birində vəzir-vəkili, ülamaları yığıf deyir ki, kim mana oxuyuf-yazmax örgətsə, onu dünya malınnan qəni eliyəjəm. Alimlər nə qədər zəhmət çəkif tər töküllərsə bir şey çıxmır, paççaha bir hərif belə örgədə bilmillər. Bu vaxt paççah eşidir ki, bə, deməzsənmi, onun məmləkətində yaşıyan bir molla öz eşşəyinə kitaf oxumax örgədif. Əmr eliyir, mollanın eşşəhnən bir yerdə onun hüzuruna gətirillər. Paççah deyir:

– Molla eşitmişəm ki, eşşəyinə kitaf oxumax ögədifsən. İndi səni çağırmışam ki, eşşəyin camahatın gözü qavağında kitav oxusun.

Mollanın sümüyü sancır, əmə, özünü o yerə qoymur, cavaf verir ki:

Paççah sağ olsun, əmrinizə müntəzirəm.

Bunu deyif qoltuğunnan kitavı çıxardır, tutur eşşəyin burnuna. Eşşəh də başdıyır burnuynan kitavın varağını çöyürüf cöüz ləpəsini yiməyə. Üləmalardan biri fikir verif mol-

lanın fırıldağını başa çüşür. Tez özünü yetirif paçcahın qulağına nəsə pıçıllıyır. Paççah qəzəflənif dillənir:

– Molla, bizi dolamağın bir yana, bə bilmirsənmi, eşşəyin oruşduğ ayında cöüz yeməhnən həm sənin, həm də özünün orucunu batil eliyir?

Molla çətinə çüşdüyünü annıyır, əmə, özünü sındırmır, deyir:

– Paççah sağ olsun, bir azca cöüz yemeknən oruc batil olmur.

Elə bu vaxt eşşək anqırır. Vəzir-vəkil, üləmalar paçcaha qoşuluf gülüşüllər. Paççah soruşur ki:

– Molla, deyə bilərsənmi eşşəyin anqırmaxnan nə deyir?

Molla fırsatdan istifadə eliyif qayıdır ki:

– Paççah sağ olsun, deyir ki, qırxında örğənən gorunda çalar! Gərək hər şeyi uşaxlıxdan örgənəsən.

## GƏL, QAYNAYIF-QARIŞAX...

Günnərin birində iki nəfər yolnan gedirmiş. Gethaget, bir də baxıllar ki, qavaxda iki arvad gedir. Yolçulardan biri o birinə deyir:

– Əmioğlu, bizimkini Allah-tala elə bu başdan yetirdi, ikimizin də arvadımız ölüf, indi bu arvaddardan biri sənindi, biri də mənim.

Arvaddar bunu eşidif başa çüşüllər ki, onnardan əl çəkən döyüllər. Odu ku, kələyə əl atıllar. Kişilər yaxınnaşan kimi ikisi də bir ağızdan deyillər:

– Nəsə, sizin üz-gözünüzdə nur var, peyğəmbər öyladına oxşuyursunuz. Ona görə də biz siznən bajı-qardaş olmax istiyirik. Allah xətrinə, razı olun.

Kişilər əlaşsız qalıf razı olullar, başdıyıllar bir yerdə yol getməyə. İndi də kişilər kələyə əl atıllar. Biri o birinə deyir:

– Əmioğlu, gəlsənə, qaynıyıf-qarışax?

O biri kişi soruşur ki:

– Qaynıyıf-qarışmax nejolur ki, əmioğlu?

Kişi cavabında deyir:

– Nejə yanı, bilmirsən, sən bajını ver mana, mən də bajımı verim sana, qurtardı getdi. Bu qaynıyıf-qarışmax döyül?

Da arvadddarın bu şərtə sözü qalmır.

## ÇOBANIN QOLTUĞUNDAKI

Günnərin birində çovan bir bəyin beş-altı qoyun-quzusunu itirir. İtən qoyun-quzunun əvəzində bəy çovannan yüz manat pul tələb eliyir. Çovan nə qədər yalvarırsa, bəyin ürəyinə rəhm gəlmir. Axır iş qazıya çüşəsi olur.

Bəy gizdincə qazıya on manat verif, işi onun xeyrinə həll eləməyi tafşırır. Divana gedən çovansa qoltuğuna iri bir çaylax daşı qoyur. And içir ki, bəy deyən olsa, daşı çırpajam qazının kəlləsinə.

Divan başdanır. Çovan görür ki, qazı da bəy deyəni deyir. Qazıynan gözdəşif əlini qoltuğuna salır, sonra göyə qaldırır, sonra da onu göstərir. Yəni işi mənim xeyrimə həll eləməsən. Allaha and olsun, qoltuğumdakı pulu verəjəm sana. Ürəyi atdana-atdana sözünü dəyişmir, yüz bəhanə göstərif çovanı bəyin cəngindən qutarır. Divan qutarannan sonra qazı çovanı yannıyıf deyir:

– Yaxşı qutardın, di pulları bəri ver!

Çovan gülür, qoltuğunnan çaylax daçını çıxardıf qazıya göstərir, deyir:

– Sən yaxşı qurtarıfsan, mən yox!

## HÖRMƏTİ QONAX ÇAĞIR...

Bir kasıf qoja axıllı-mərifətdi qızıynanca ömr eliyirmiş. Bayram günü qapıları döyülür. Qoja gedir qapiya, görür eşikdə üç nəvələd adam duruf. Bunnarın biri qayıdır ki, biz üç qardaşıx, ayrı məmləkətdən gəlmişik, səfər üstəyik. Gejələməyə yerimiz yoxdu. Xəbər alsan, birimizin adı Hörmətdi, ikinci qardaşınki Döylət, lap kiçik qardaşımızınsa adı Şöhrətdi.

Görüllər öy yiyəsinnən səs çıxmadı. Hörmət deyir:

– A baba, görürəm sizdə də darısqalllıxdı, heç olmasa birimizisə qonağ elə!

Qoja qalır məhəttəl, bilmir neynəsin. Öy darısqal, qonağa layıx bir tədarük yox. Gəlif qızıynan məsləhətdəşir, deyir, hal-qəziyyə belə-belə. Ağıllı qız çox fikirrəşmiyif deyir ki, dədə, sən hörməti çağır, qalıynan işin yoxdu.

Deyir, a qızım, bə o birilərdən ayıfdı.

Qız deyir, indi mən bir sözüydü dedim, sən kimi istiyirsən, onu da çağır.

Qoja qıznın ağlna bələdiydi. Odu ki, gəlib Hörməti çağırır. Elə bunu demişdi ki, qardaşdarın hər üçü içəri keçir. Qojanın çaşdığını görəndə, qardaşdar başa salıllar ki, öydəki kimdisə, müdrik adamdı. Hörməti qonağ eləməknən hər üçümüzü çağırıf. Çünkü hörmət olan yerdə dövlət də var, şöhrət də.

## ÖLÜM ÇAPARI...

Qədim əyyamlarda bir paççah varıymış. Bu paççahın dünyədə dərdi dəllək sarıdanıymış. Saç-saqqalını hası dəllək düzəldirmişsə, onu qane eləmirmiş. Bir də eşidir ki, bə deməzsənmi, filan şəhərdə bir dəllək var, öz sənətində çox

kamil adamdı. Paçcah buyurur, bir göz qırpımında həmən dəlləyi onun saç-saqqalını düzəltsin. Dəllək öz işini görüf qutranda onun usdalığı paççahın xoşuna gəlir. Üzünü ona tutur:

– Dəllək, deyir, – həftədə bir kərəm gəlif mənim saç-saqqalımı düzəldərsən, qutarannan sonra da deyərsən: "Qıvleyi-aləm, ölüm var!„. Əvəzində nə qədər ki, mən bu taxt-tacın sahibiyəm, dünyədə bir dərdin olmuyajax. Özü də əlin mənim üz-başımnan özgə bir kimsənin saç-saqqalına toxunmuyajax. Bu sirrə yetiklik eləsən, başın bədəninnən ayrılajax. Di get!

Dəllək söyüncək özünü öyə salır, başdıyır çırtıx çalıf oynamağa. Bu minvannan hər həftənin başında dəm-dəsgahını yığışdırıf gedirmiş saraya. Paçcahın saç-saqqalını düzəldif qutarannan sonra deyirmiş:

– Qıvleyi-aləm ölüm var!

Sonra da qızıl onnuğu alıf qayıdırmışn öyünə.

Vaxt keçir; günnərin birində dəlləy işə başdamamışdan qavax paçcah təfərincnən baxıf görür ki, saqqalında bir ağ tük var. Deyir:

– Dəllək, saqqalımı düzəlt, amma o ağ tükə toxunma.

Dəllək paçcahın buyruğunu yerinə yetirir. Həmişəki kimi işini qutarannan sonra qayıdır ki:

– Qıvleyi-aləm, ölüm var!

Paçcah kədərnən gülümsəyüf dillənir:

– Dəllək, işini gör, amma bunnan sonra daa o sözü demə. Mən də bildim ki, ölüm var!

Dəllək marağını gizdədə bilmir, soruşur:

– Paçcah sağ olsun, sirr döyülsə de, mən də bilim, nədən bildin ki, ölüm var?

Paçccah cavabında deyir:

– O bir dənə ağ tükdən. O tük ölüm çaparıdı, gəldi düşdü saqqalıma, mən də bildim.

Dəllək paççahın ona "ölüm var!" dedirtməyinin səvəvini indi başa çüşür.

## QADIN QEYRƏTİ

Dünyanın qaçax-quldurlu vaxtıymış. Bu elə vaxtlarıymış ki, hamı səksəli gəzər, düşməndən qorunarmış. Addı-sannı qaçaxlar bir-birini görməsələr də, adlarına hörmət edər, bir-birinin elinə, obasına toxunmaz, yan-yörəsinə hərrənməzdilər. Saraşdı Qaçaq Bayramnan, Qaçaq Məmməd də belə qaçaxlardan idilər. Nolajax, bir gün meşədə Qaçax Məmmədin dəstəsi qaradavoylarla rastlaşır. Atışma gedir. Qaçax Məmməd dəstəsiynən bir təhər aradan çıxır. Özdərini verillər Saraşdıya. Hərə bir yerdə dalaşır. Qaçax Məmməd özünü tanımadığı bir həyətə salır. Qara damın qapısını döyür. Qapıya arvad xaylağı çıxır, tanımadığı bu adamı içəri buraxır. Çay-çörək qoyur. Yer salır. Hisdi dirəklərin arasına pərdə çəkir. Deyir:

– Qonax qardaş, keçib o tərəfdə dincələ bilərsən.

Qaçax Məmməd elə pal-paltarlı yerinə uzanır. Gecənin bir vaxtı şeytan kişini yoldan çıxardır. İstəyir ki, gəlinə toxunsun. Əlini atır ki, pərdəni qaldırsın arvadın səsi eşisilir:

– Qonax, gədalıx etmə. Mən səni kişi bilib öyə buraxdım. Ancaq yenə səni qovmuram. Dincəl, savax tezdən gedərsən.

Elə olur ki, həmin gecə savaxa yaxın Qaçax Bayram da evə gəlir. Əntiqə ərinə danışır ki, bəs deməzsənmi evdə qonax var. Özü də gecə başıma bu iş gəldi. Qaçax Bayram qayıdır ki,

– Arvad, isti su gətir, əl-ayağımı yu.

Qonax Allah qonağıdır. Yağın onu şeytan yoldan çıxardıf.

İlan vuran yatarmış amma Məmməd yatmırmış. Pərdiyi çəkir və qayıdır ki:

– Qardaş, bağışda, bir qələtdi eləmişəm. Al bu xancarla kəs başımı, halalındı.

Qaçax Bayram qayıdır ki:

– Mən Qaçax Bayramam. Sənin kişiliyin, mərdliyin hər yerə yayılıb. Yaxşı ki, mən də öz gözümnən gördüm. Bu günnən sənin kiçiyinəm.

Deyirlər o günnən qardaş olurlar.

## KİMİN ƏTƏYİNDƏN YAPIŞMIŞAM

Deyirlər bir gün qaranlıq gecəymiş. Şayır Söyünlə aşıq Hüseyn Saraclı toy məclisindən qayıdırmışlar. Şair Söyün dərənin o tayında olurdu. Aşıq Hüseyn Cırcır (yəqin ki, şır-şır çünki həmin yerdən nazik su arxı gedir) deyilən yerə çatanda qayıdır ki:

– Ustad yaman qaranlıqdı, köz-gözü görmür. Daş körpüən nejə keçəjəyik.

– A bala, ətəyimdən tut, mən irəliynən gedim, buralara bələdəm.

Şair Söyünün də ki, gözləri görmürdü. Elə ki, o addayırlar aşıq Hüseyn qayıdır ki, yaxşı, ay utad, bə mən geri qayıdanda kimin ətəyindən yapışmışam.

## VIII DEYİMLƏR-DÜZGÜLƏR

Otal-motal,
Dərzi motal,
Ellər yatar,
Qaymaq tutar,
Çilmə çilik,
Yeddi milik,
Sərçə səkkiz,
Durna doqquz,
Vur qırağa,
Çıx qırağa.

* * *

Bir, iki
Bildirki,
Üç, dörd –
Qapını ört.
Beş, altı –
Daşaltı,
Yeddi, səkkiz –
Firəngiz.
Doqquz, on –
Qırmızı don Hop-Hop
Qızıl top.

* * *

Bacadan baxdım
Çərələ göz.
Biri ala, biri boz.
Mindim bozun boynuna,
Getdim Urum yoluna,
Urum yolu dərbədər,
İçində meymun gəzər.
O meymunu hürkütdüm,
Qulağını qırğıtdım.
Meymunu yerə vurdum
Yer mənə yemlik verdi
Yemliyi tata verdim
Tat mənə darı verdi.
Darını quşa verdim
Quş mənə qanad verdi.
Qanadlandım uçmağa,
Haqq qapısını açmağa,
Haqq qapısı bağlıdı,
Anaxtarı yağlıdı,
İçində bülbül oxur
Xan qızı xana toxur...
A Nərgizə, Nərgizə,
Qaşığı götür, gəl bizə.
Tiflis yolu bağlıdı,
Nənəmin gözü yağlıdı.
Nənəm quymaq bişirdi,
Pişik başın batırdı,
A pişik, kimin pişiyisən?
Alı babanın pişiyiyəm.
Alı babanın nəyi var?
Bir toyla inəyi var...

* * *

Tappılu, tuppulu toy gəlir,
Üç dənə fayton gəlir
Birində əmim qızı,
Birində dayım qızı,
Birində də rus qızı,
Salam verdim almadı,
Qaş-qabağını salladı...

Əli, əli əpənək,
Əldən çıxdı kəpənək,
Kəpənəyin yarısı,
Yumurtanın sarısı,
Əmi, hara gedirsən?
Qarabağa gedirəm.
Qarabağda nəyin var?
Bir oğlum var, bir qızım.
Qızımın adı Fatma,
Fatma, yatma.
İti mırıldatma.

* * *

Zəhra – Zibeydə,
İkisi bir öydə,
Zəhra dalaşdı,
Zibeydə qaşdı.
İtlər hürüşdü
Kişilər gülüşdü.

* * *

Bacadan baxdım çərələgəz[1]
Biri kəhər, biri boz.
Mindim bozun boynuna,
Düşdüm Urum yoluna.
Urum yolu sərbəsər,
İçində meymun gəzər.
Meymunun balaları
Məni gördü ağlaşdı,
Ətəyimə dolaşdı.
Ətəyim bölük-bölük.
Qurbağa dölük-dölük.
Həsən bəyin nəyi var,
Çaqqır-çuqqur çayı var.
Bir muncuqlu atı var,
Bir zincirli iti var.
(başqa variant)

* * *

İgidənə ha igidənə,
İgidənə bir quş idi.
Ağaca qonmuş idi,
Bəy oğlu görmüş idi,
Oxuyla vurmuş idi.
Oxundan mən bezaram,
Kətan-köynək yazaram.
Kətan-köynək mil-mili,
Mil-mili Urmu dili.

[1] Bu da başqa bir variantdır.

Urumdan gələn atlar,
Ağzında ilan çatlar.
Çatını verdim quşa,
Quş mənə qanad verdi.
Qanadlandım uçmağa,
Haqq qapısın açmağa,
Haqq qapısı kilidli,
Kilidi dəvə boynunda,
Dəvə ilan yolunda.
İlan yolu sərbəsər,
İçində meymun gəzər.

* * *

Gül əkəmmirəm,
Su səpəmmirəm
Özüm sevmişəm
Əl çəkəmmirəm.

* * *

Atım bozdu, neylim,
Tükü tozdu, neylim,
Özün yaman gözəlsən,
Ağlın azdı, neyliyim?

* * *

Qatar gedir
Sola sağa,
Çınqəl düşür
Bizim dağa,
Əmim oğlu
Sultanağa,
Gəlin, gedək
Oynamağa,
Oynamağın vaxtıdı
Qızılgülün
taxtıdı.
ıx, nıx,
çıx.

* * *

- A pişik, kimin pişiyisən?
- Molla Əhmədin pişiyiyəm.
- Molla Əhmədin nəyi var?
- Tappır, tuppur yolu var.
- Qələm yazan oğlu var,
- İnci düzən qızı var,
- Göyə çıxan atı var,
- Göyün yeddi qatı var.

Motal-motal,
Dərzi motal,
İllər ötər,
Qaymaq tutar,
Çilmə-çilik
Yeddi milik
Səhər səkkiz
Durna doqquz
İynə-iynə
Ucu düymə
Yarıl dedim

Yırtıl dedim
Su iç dedim
Qurtul dedim.

Bəli, bəli bətir keçi,
Qoz ağacı, qotur keçi.
Dayımoğlu
Haldırın dedi,
Huldurun dedi
Dağı dağ üstə
Qaldırın dedi.
Happan, huppan,
Dağdan hopan
Yığrıl, yırtıl
Su iç, qurtul.

* * *

Birə birə, ikiyə iynə,
Üçə üzük, dördə üzük.
Beşə balta,
Altıya alma,
Yeddiyə yemiş,
Səkkizə sərçə,
Doqquza dolça.
Ona oraq,
On birə daraq.
Gəlin gedək,
Haley bəyin
Evini yaraq.

Baş barmaq,
Başala barmaq,
Uzun hacı,
Qıl tərəzi
Vay gədə barmaq.

* * *

Burdan bir dovşan qaçdı,
Bu gördü,
Bu tutdu,
Bu bişirdi,
Bu aşırdı
Vay gədəyə qalmadı.

* * *

Dən, dən, dən, gilə,
Qoy gedim anamgilə
Anamgildə işim var,
Cibimdə kişmişim var,
Kişmişimi aldılar
Özümü yola saldılar...

* * *

Tamara, Tamara,
Tat qızı.
Erməni, soldat qızı,
Tamara getdi beş günə
Gəlmədi on beş günə.

* * *

Bir, iki
Bildirki,
Üç, dörd
Qapını ört.
Beş, altı
Başaltı,
Yeddi, səkkiz
Firəngiz
Doqquz, on
Qırmızı don
Hop-hop
Qızıl top.
- Ovcumdakı nədi?
- Qığılcım!
- Hər kəs evinə dağılcım!

* * *

- Danışdığım nə idi?
- Nağıl.
- Hər kəs evinə dağıl.

* * *

Urvan mənnən olmasa, kündən küt gedər.

* * *

...ustadı,
Bilmişdikdə ustadı:
At görəndə axsadı,
Su görəndə ustadı.

* * *

Əti yeyilmir, gönü geyilmir
– İnsan insana yağı kəsilib.

* * *

İt itnən boğuşdu, yolçunun işi düzəldi.

* * *

Oğuz-oğuz oymaram,
Yağı gələ qoymaram.
Yurd mənim, yumaq mənim,
Mal mənim, oymaq mənim.

* * *

Ay dayısı, birini çal,
Birini sındır, birini çal,
Comuş bağa girdi çal,
Tənəkləri qırdı çal.

A Nərgizə, Nərgizə,
Qaşıq gətir gəl bizə,
Bizdən gedək Tiflisə,
Tiflis yolu bağlıdı,
Anamın əli yağlıdı.
Anam quymaq bişirdi,
Pişik qabı düşürdü.

* * *

– A pişik, kimin pişiyisən?
– Qara Hansının pişiyiyəm.
– Qara Hansının nəyi var?
– Bir topal inəyi var.

* * *

Dambadurum toy gəlir,
Bəzəkli fayton gəlir.
Birində əmim oğlu,
Birində dayım qızı,
Salam verdim almadı,
Qaş-qabağını salladı.

* * *

Birə birə, ikiyə gilə,
Üçə üzük, dördə düzük,
Beşə balta,
Altıya alma,
Yeddiyə yemiş,
Səkkizə sərçə,
Doqquza dolça,
Ona oraq,
On birə daraq.
Gəlin gedək
Halal bəyin
Evini yaraq.

* * *

Motal-motal
Dərzi motal,
İllər ötər,
Qaymaq tutar.
Çilmə-çilik,
Yeddi milik.
Səhər səkkiz,
Durna doqquz.
İynə-iynə,
Ucu düymə,
Yarıl – dedim,
Yırtıl – dedim,
Su iç – dedim,
Qurtul – dedim.

Hədridi, Hüdrüdü,
Nə dedim ki, büdrədi?
Həşdi dedi, hüşdü dedi,
Nə dedin ki, küsdü dedi?
Sənə qız dedim, qızdırma demədim.

Kək otu, kək otu,
Kəklik otu otu.
Yerini dəyiş, bərk otu.

Bir quşum var – Alabaxta,
Şaqqulu bəy otaxda.

Ağız, a Yetər,
Dələmə Yetər,
Şannısı gələr
Üzünnən öpər.

Dərədə dim-dim çalınır,
Qızlar ona yüyrüşür.
Qızı qızıla dönüfdü,
Xavarı yox oğlannarın.

Yumurtamadı-
yumurtamadı,
Falnı da yedi!?

Daş daşa,
Dırnaq daşa,
Siz savaşa,
Biz tamaşa.

* * *

On oldun – don oldun.
İyirmi oldun, dəyirmi oldun.
Otuz oldun, təpbuz oldun.
Qırx oldun – qırxıldın.
Əlli oldun, bəlli oldun.
Altmış oldun – batmış oldun.
Yetmiş oldun – yatmış oldun.
Səksən olsun – sərsəm oldun,
Doxsan oldun – nöqsan oldun,
Yüz oldun – yerində düz oldun.

* * *

Qoturam – bərk qoturam,
Qotur qoymayır oturam.
Qaşıyıram qanım çıxır,
Qaşımıram canım çıxır.

* * *

Alı-Alı – dimdim Alı.
Saqqalına mindim Alı.
Bazara getdim – bazar yox!
Şəhərə getdim – şəhər yox.
Çömçə bişib – qazan yox.

* * *

Bu gələn Arıxdımı?
Əynindəki çarıxdımı?
Altında qotur yabı,
Böyründə nöyüt qabı.
Nə minifsən çərrəmişi,
Baldırrarın qırıxdımı?

- Baba, bu darlıq çoxmu çəkər?
- Qırx gün, oğul.
- Baba, qırx gün keçdi.
- Alışdıq, oğul, alışdıq.

* * *

Ağır gəlin,
Fağır gəlin.
Qayınananı köməyə
Çağır gəlin, çağır gəlin.

Oğlan, haran yaxşıdı,
Dağdan aran yaxşıdır.
Üzün çopur, gözün kor,
Məndən haran yaxşıdır.
Daş-daşa,
Dırnaq daşa.
Siz dalaşa
Biz tamaşa.

Yollar tozdu, neyniyim,
Kefim sazdı, neyniyim,
Qamətin qiyamətdi,
Ağlın azdı, neyniyim.

Bağda gül əkəmmirəm,
Tez-tez su səpəmmirəm,
Yarı özüm sevmişəm
Neynim əl çəkəmmirəm.

* * *

Atım bozdu, neylim,
Tükü tozdu, neylim,
Özün əcəb gözəlsən,
Ağlın azdı, neylim?

## TOY NƏĞMƏLƏRİ VƏ ƏVƏDƏ-ŞƏBƏDƏLƏR

**Oğlan evi:**

Quda, quda, can quda,
Gözləri mərcan quda.
Alışdıraq, verişdirək,
Yüz tümənə barışdıraq.

**Qız evi:**

Qızımız nazdı,
Yüz tümən azdı.
Min tümən gətirin,
Gəlini götürün.

**Qayınana gəlininə:**

Evindən bezən,
Qapılar gəzən,
Dabanı çatdaq,
Balığı batdaq,
Doğduğu söyülməz,
Bişirdiyi yeyilməz!

**Gəlinin əbədə-şəbədəsi:**

Baldızım, çuvaldızım,
Zırıldayır ötür, mən neynim?
Qayınanam – qara köpək,
Mırıldayır ötür, mən neynim?

**Ananın öz qızını tərifi:**

Torbada duzdu qızcığazım,
Sərvdən düzdü qızcığazım.

Yeddi oğlan doğubdu,
Yenə də qızdı qızcığazım.

* * *

Ulu, qədim soylarımızdan gələn nəğmələr, əsrləri arxada qoyub, əzəl gündən bu günə kimi xalqın keçdiyi yolu, adət və ənənələri özündə saxlayıb. Görarxı elində, sifətinin qırışlarında zamanın izi qalmış bir nənə bizə belə söylədi:

Gəlin bəy evinə köçəndə onun qucağında oğlan uşağı otuzdururlar ki, gəlinin oğlu olsun, ocağının işığını yandırsın, obasına kəm baxanın dizini yerə qoyanı olsun. Oğlan uşağını gəlinin qucağına qoyub, oğul diləyəndən sonra astaca-astaca oxuyurlar:

Eşit bizi ay gəlin,
Sevinsin ayın, ilin,
Sən ki, atdın xoşqədəm,
Qoy nurlansın bu aləm.
Evə gəlin gəlibsən,
Oxşar elin, gəlibsən.
Üzün həyalı olsun,
Ayaq sayalı olsun,
Birgə xoş qarıyın,
Hər arzudan yarıyın,
Uzun bir ömür sürün,
Verib hər vaxt əl-ələ,
Xoş günlü illər görün.
Qızım, əsl sınaqlar
Qabaqdadır, bil, hələ...
Yansın odun-ocağın,
İşıq saçsın çırağın,
Körpəni al qucağa,
Övlad görsün qucağın,
İlk körpən oğul olsun,
Bir şirin noğul olsun.
Ay dolaşar, il gələr,
Sən də nənə olarsan,
Oğul nəvələri ilə
Xoşbəxt yaşayn olar,
Yurdunda, öz elində
Qeyrət daşıyan olar...

## TOSOY MAHNISI

Gözümə görünür, ey,
Xəyalı dağlar,
Ciyərimə çəkilib, ey
Yaralı dağlar,
Oy dilili, can dilili.

Harava bizim ola, ey
Təkəri qızıl ola,
Gireydim yar qoynuna, ey
Gecələr uzun ola.
Oy dilili, can dilili.

Alex-balex sudadı, ey
Gözləri yuxudadı.
Tələsmə, ədli oğlan, ey
Muraz verən xudadı.
Oy dilili, can dilili.
Dəyirman daşlı gərək, ey,
Yar qələm qaşlı gərək.
Neynirəm qoca yarı, ey
Yar on beş yaşlı gərək.
O y dilili, can dilili.

# IX TÜRKƏÇARƏLƏR

Səsi batmış adama noxud suyu içirdərlər.

Sətəlcəm olan xəstəni sağaltmaq üçün əvvəl küpə qoyarlar. Sonra küpənin yerinə bir-iki çirtik ülgüc vurarlar. Ülgücün yerindən qara qan çıxandan sonra xəstə sağalar.

Göy öskürəyə göy qarğanın əti dərmandı.

Arı vuran yerə qatıq çəkmək laszımdır ki, şişməsin.

Dişin ağrıyanda balqabağın qurumuş sapağını yandırıb ağrıyan yerə bassan ağrısı kəsər.

Yeni doğulmuş uşağı qovrulmuş torpaqla bələyərlər ki, uşaq möhkəm, sağlam olsun.

Yeni doğulmuş və ya qırxı çıxmamış uşağın üstünə paltarnan girmək olmaz.

Yeni doğulmuş uşağın üstünə ət gətirməzlər.

Yeni doğulmuş uşağın üstünə bədniyyət adamı buraxmazlar.

Mədəsi qıcqıran adama qozləpəsi yedirdərlər.

Qara ciyəri xəstə olana tut bəhməzi, həm də sarılıq xəstəliyinin dərmanıdır.

Uzun sürən öysürəyə heyvanın içini tumları ilə birlikdə süddə qaynadıb içirdərlər.

Yaddaşı möhkəmləndirmək üçün səməni suyu içirdərlər.

# X ALQIŞLAR, QARĞIŞLAR, ANDLAR

## ALQIŞLAR

Ömrüm ömrünə calansın.
Təkərin işlək olsun.
Qızlar bulağından su içəsən.
Xatadan-baladan uzaq olasan.
Qazanma, qarşı gəlsin.
Sümüyün sevinsin.
Öküzün yoxuşda yorulmasın.
Ocağın tüstülənsin.
Günün gündən xoş gəlsin.
Vətən həsrəti çəkməyəsən.
Əhdin-ilqarın pozulmasın.
Əlin xeyirli, ayağın sayalı olsun.
Mal-dövlət başınnan tökülsün.
Əməyin zaya getməsin.
Haqqın görünməz əli kürəyində olsun.
Ocağın odlu-közlü, övrətin şirin sözlü olsun.
İnəyin südlü, öküzün güclü.
Yurdunda necə eləyim, nə eləyim deməyəsən.
Allah səni gen ətəyində, dar qoltuğunda saxlasın.
Balanı Allah saxlasın.
Qardaşını min budaq olsun.
Nə dilək deyibsən, ona çatasan.
Ürəyin asmanda qalmasın.
Çörəyin bərəkətli olsun.
Surun yerisin.
Üzünə daş yamansın.

Dünyaynan bir olasan.
Urzan bol olsun.
Murazına çatasan.
Neyliyim, nejeyliyim deməyəsən.
Ağ günün olsun, sağ canın olsun.

## QARĞIŞLAR

Azarın güclü gəlsin.
Murazın gözündə, dediyin dilində qalsın!
Adın ağızlarda qalsın!
Qara yerə gir!
Ocaqlar qırağında qal!
Gərdəyin qurulu qalsın!
Görüm səni "ya haqq allah" deyəndə dönəlgən dönsün!
Qulağına yuyucu barmağı girsin.
Xeyir əsənin bişsin, qablarda qalsın, eldən gəlib yeyən olmasın!
Qısır qalasan!
Axır yeyişin olsun!
Günün göy əskiyə bükülsün!
Anan-bacın mələr qalsın!
Tay-tuşundan seçkin olasan!
Axır günün durulmasın!
Vurğunun güclü gəlsin!
Baxtın zil düyünə düşsün!
Gününü kösüyə döndərim,
Nənəngilə göndərim.
Vayına oturum!
Ocağın sac görməsin!

Qapını yaman açsın!
Üzünə gün doğmasın!
Anan başını qucaqlasın!
Köhlənin mənzil kəsməsin!
Balanı bəla, xalanı şələ tutsun!
Papağın mıxda qalsın!
Gül əkib, tikan dərəsən!
Ağzını gözgörünməz kişi əysin.
Ağlın qar suyuna dönsün.
Yediyin-içdiyin qan-irin olub burnundan gəlsin.
Öləndə üstündə su tapılmasın.
Üzünü bir yuyan görsün, bir də qəbrə qoyan.
Ürəyindən şirin yara çıxsın.
Şaxın qara boyansın.
Aralıqda qalasan.
Baxtın zil düyünə düşsün
İki gözdən, iki də dizdən.
Kürəyinin ucu yansın
Səni çörək kəssin.
Üstünə qırmızı gün doğmasın.
Ömründən xeyir görmüyəsən.
Bir başmaqnan yeddi qapı ayaqlayasan.
Allah başını qoyub ayağına daş sallamasın.
Həmişə ah-vay çəkə-çəkə qalasan.
Qanın daşa dağılsın.
Üzünə daş yamansın.
Qulağına yuyucu barmağı girsin.
Gözünə kül töküm.
Boyuna boz qatma ölçüm.
Boyun batsın.

Bəxt atlı olsun, sən piyada.
Qoyur tapasan, dırnaq tapmayasan.
Dilin ağzında yansın.
Boğazına qara yara çıxsın.
Allah belinnən vursun.
Qarılar üstündə saç yolsun.
Mollalar aşığın olsun.
“Oturasan ağ otaxda,
Qan qusasan laxta-laxta” (Qurbani)

* * *

Görüm səni qərib öləsən.
Yurd bayquşu olasan.
Papağın mıxda qalsın.

## ANDLAR

Anamın südü haqqı.
Başın haqqı.
Bu axşam haqqı
Bu getdiyimiz Əli yolu haqqı.
“Quran” məni kəssin, yalan deyirəmsə.
Yer-göy haqqı.
Kəsdiyimiz duz-çörək haqqı.
Getdiyim ziyarət haqqı.
Çayın piri haqqı.
Anamın üz qoyduğu torpaq haqqı.
Mal-qaramızın bərəkəti haqqı.
Yeri-göyü yaradana and olsun.

## XI İNAMLAR, ETİQADLAR

Çörəyi birəlli kəsmək günahdır, çörəyə hörmətsizlikdir.

Çörəyi isit-isti kəsməzlər.

Yerə düşən çörəyi üç dəfə öpüb gözün üstə qoyarlar. Yoxsa çörək adamın gözünü tutar.

Ocağa su tökməzlər. Bu, evdə soyuqluğa səbəb olar.

Yolun yarısından qayıtmaq pis əlamətdir. Bu, səfərin sonrakı uğursuzluğuna səbəb olar.

Əli qoynunda durmazlar. Bu, yaxın adamın tələf olduğunu, bədbəxtliyi bildirir.

Bir-birinin ayağını tapdalamış adamlar əl tutarlar. Yoxsa onların arasında dava düşər.

Evdə fit çalmazlar. Bu, evin kasıblamasına gətirib çıxarır.

Yatmış və uzanmış adamın üstündən adlamazlar. Bu, həmin adamın ölümünə səbəb olar.

Çox quzu istəyən çoban davarı gecələr otarmalıdır.

Səhər tezdən çırtlayan Günəşin istisi yatağı döyməlidi. Yoxsa arxaca pənah gətirən sürüdən bərəkət gözləmə.

İlin axır gecəsi qızlar gələcək həyat yoldaşlarının kim olmasını bilmək üçün belə bir fal qurarlar; ərsəyə çatmamış qız uşağını çıxardarlar hündür bir yerə. Başına da örtük salarlar ki, ayrı yerə baxmasın, yalnız aşağı baxsın. Yerdə isə bir qab

suynan güzgünü elə yerləşdirirlər ki, güzgüdə suyu görmək mümkün olsun. Qız o qədər baxır ki, həmən adam falda görünər. Əvvəlcə çöp atırlar, çöp qızların hansına düşdü falda görünən onun bəxtinə çıxır. Belə-belə qızlar növbə ilə sıradan çıxırlar.

Deyərlər ki, ilin-ayın axır gecəsi (yəni axır çərşənbədə-red. ) söyüd ağacı başını yerə qoyur. Kim bu mənzərəni görsə nə niyyəti varsa baş tutar.

Gəlin-qıza bizdən amanat, axşamlar bıçağı ağzı açıq qoyub yatmasınlar. Şərə, qarğışa düşər, yoxsa.

Qurdun-quşun dilini bilən bir gəlin yaylaqda, zinrik axşamların birində çoban ərinə qarğış eliyən qurdun səsini eşidir:

A çoban, a çoban,
Çal tütəyin çatlasın.
Vur qoyunun otlasın.
Arxasında su dursun,
Qızıl itin qudursun.

Gəlin əlli tərpənib, tərəcədəki açıq bıçağın ağzını bağlayır. Qurd da o susan susur ki, susur.

Qara yel əsəndə gözünə toz-torpaq dolsa, gözünü qırpma. Eləcə baş barmağını gözüyün üstünə qoy, üç dəfə sığa, dalınca belə de:

Qumsan qoyrul çıx,
Çöpsən çöyrül çıx.

Çıxıb gedəcək. Telli-toqqalı vaxtlarımızda köçün tozundan gözümüzü belə qoruyardıq biz.

Qəbirsanlığı barmağnan göstərmək olmaz.

Şər vaxtı evi süpürəndə üç dəfə deməlisən: “Evimizə vaxtsız qonaq gəlib”.

Evdən inək, qoyun satarsansa gərək onun tükündən kəsib saxlayasan ki, var-dövlət evdə qalsın.

Dağdağan ağacını kəsməzlər.

Bir-birinin üstündən iki önlük taxan qız iki ərə gedər.

Evin kişisi ölərsə onda onun ayaqqabısını və papağını evdən eşiyə çıxarmaq olmaz.

Bıçağı bir-birinə sürtməzlər. Ziyanlıq olar.

Qatığnan çörək deyər: “Məni qızğın-qızğın kəsmə”

Özgənin evində dırnağ kəsməzlər.

Tərəzinin üstündən keçməzlər.

Şər vaxtı it uluyarsa ona təpinməzlər.

Yuxuda xana darrıqdır – deyərlər.

Yuxuda ilan yoldur – deyərlər.

Taxıl çuvalının üstündə oturmazlar, bərəkəti gedər – deyərlər.

Kəndiri yuyanda yağış yağar.

Uşağın süysününün dalından öpmək olmaz, küsəyən olar.

Süfrənin üstündə gərnəşməzlər.

Boylu arvad qəbirsanlığa getməz.

Paltarı əyindən çıxartdıqdan sonra tərs salmazlar.

Paltarı əyindən çıxartıqdan sonra düymələməzlər.

Əgər güclü yel əsərsə anasının ilki olan uşaq köhnə bir süpürgəni götürüb dirəyə bağlayıb desə ki "a yel, səni bağlaram, əl-ayağını dağlaram" – onda yel kəsər.

Paltarı üstündə tikdirmə, şərə düşərsən.

Gecə başını darama: dövlət tükü düşər.

Uşağın əlindən öpməzlər: xəstələnər – deyərlər.

Şirin şeyi itə verməzlər: şikayət edər ki, mən də niyə insan yaranmamışam ki, hər şeyin dadını biləm.

Uşaq qırxlı olandan onu üstünə ət, yumurta, dua, muncuq, qızıl gəturməzlər: ağırlıqdı – deyərlər.

Çörəyi yeyəndə tikəni süfrədə qoymazlar: dalınca qarğış eləyər.

Qadın qırxlı olanda onun üstünə uşağı olmayan qadın girməməlidir.

Uşağı nəhrə üstünə mindirərlər ki, ayağı yüngül olsun.

Dili açılmamış uşağı güzgüyə baxdırmaz, ata mindirməzlər; dili açılmaz – deyərlər.

Uşağın (xüsusən qız uşağının) göbəyini evə basdırarlar ki, qapılar gəzən olmasın.

İsti çörəyin ilkini subay adama verməzlər ki yesin: nişanlın “ölər” – deyərlər.

Ərcivan-sarvan kəndinin qənşərindəki təpənin üstündə hündürlüyü təxminən 2, 5 metr, eni ayaq tərəfdən 1, 5 metr, baş tərəfdən 80 santimetr, qalınlığı 60 santimetr olan daş var. El içində ona gah qiblə daşı, gah da pir daşı deyirlər. Əgər havalar yağmurlu keçərsə əhali onun altına balaca daş qoyub bir az dikləyər – bu vaxt deyərlər ki, yağış kəsər; ya da əksinə, əgər quraqlıdırsa bu daş bir az aşağı yıxarlar ki, yağış yağsın.

Mal-qoyun gecə çöldə qalarsa qara saplı bıçağın tiyəsini örtərlər, onda qurdun ağzını bağladıq, – deyərlər.

Səfərə çıxanda qənşərinə tülkü rast gəlsə uğurun xeyirdir – deyərlər, dovşan rast gəlsə uğursuzluqdur, - deyərlər.

Təzə qazılmış qəbrə yağış düşərsə və bu zaman havalr bir müddət açılmazsa, həmin qəbrin torpağından bir az götürüb evə gətirər, sacda qovurar və yenidən həmin qəbrin üstünə tökərlər; bununla da havalar düzələr, - deyərlər.

Havalar quraq keçərsə qurbağanı tutub dal ayağından ağacdan asarlar; belə eləyəndə yağış yağar, - deyərlər.

Qırılmış düyməni paltarı əyində soyunmadan tikmək olmaz, paltar əyində tikilsə də, ağızda dişlərlə çöp tutmaq lazımdı. Belə edilməsə adam şərə düşər.

Tilsim otu vəhşi yoncaya bənzər. Çox az tapılan dördləçəkli kiçicik bir otdur. Kim onu tapıb üstündə gəzdirsə, haraya, hansı diləyə getsə, işi uğurlu olar. Bu otu üstündə gəzdirən adam sehrbazın etdiyi bütün əməllərin həqiqətini aydın görər.

Arıxlı kəndinin dədə-baba qəbiristanlığında köhnə, tağ bağlama bir qəbir var. Bu qəbrə el içində Hacı Nuru qəbri deyirlər. Belə bir inam var: Quraqlıq olanda bu qəbrin torpağından torbaya doldurub Xram çayına salırlar, onda yağış yağar, – deyirlər.

Kəndin ortasında Koxalı ilə Alı öyünün bağlarının arası deyilən yerdə 100 sm diametri olan dairəvi bir daş var. Daşın orta hissəsində təxmini diametri 35 sm olan oyuq açılıb. Daşın qalınlığı 20 sm-dir.

Bərk öskürəyi olan uşağın özünü, böyüklərin isə paltarını üç çərşənbə, hər dəfə də üç dəfə gündoğan tərəfdən günbatan tərəfə keçirirlər. Həmin daşın yanındakı dağdağan ağacından kəsib adamın üstünə tikəndə bəd nəzərdən uzaq olar, – deyirlər.

Bədnəzərə gəlmiş adama bədnəzərə gətirmiş adamın paltarından yandırıb iylətsən göz dəyməsi qurtarar.

Uşağın üstünə gözmuncuğu tikmək uşağı bədnəzərdən qoruyar – deyirlər.

Göz dəymiş uşağın gözdəyməsini almaq üçün bir binanın yeddi dirəyinin dibindən torpaq götürüb qarışdırmaq lazımdır.

# ƏFSANƏLƏR

## XANADA QALDI MUNCUĞUM

Fatma belə söyləyir ki, bir dəfə gecəyarı nənəmin yuxusu qaçıbmış. Bir də görür ki, hardansa məleykə qızlar peyda oldular, boyunlarındakı zərli muncuqları açıb xanadan asdılar. Və hərəsi bir tərəfdə ilmə düymələməyə başladı. Nədənsə nənəm qorxu-hürküsüz cin qızların yanına gedir. Onlar da xanadan asdıqları muncuqlarını götürüb yoxa çəkilirlər. Tələsikliyə düşür, qızlardan biri muncuğunu götürə bilmir, muncuq nənəmin əlinə keçir. Nənəm danışırdı ki, ondan sonra hər gecə hamı yatıb, səssizlik-səmirsizlik düşəndən sonra bacadan bir qız səsi eşidirdim:

Xanada qaldı muncuğum.

Nənəm muncuğu qaytarır və ondan sonra bizim nəslin yeddi arxa dolanından belə o qızlar nənəmin məkanından heç kəsin yuxusuna girməzlər.

## UÇUBINIQ

Dünyada çox ucaboylu insanlar yaşayırmışlar. Uçubınıq da bunların biri imiş. Onun ayağı yerdə, başı buludlarda imiş. Bir gün Uçubınıq bunlardan birinə rast gəlir, əlinə götürüb baxır, başa düşə bilmir ki, bu nə məxluqdu, itməsin deyə çəkməsinin boğazına salıb evə – anasına göstərməyə aparır.

Uçubınığın anası deyir ki, bunların belə balacalığına baxma, a bala, dünyanı bunlar tutacaq.

Uçubınıq deyir:

– Bu balaca məxluq mənim atıma cilov vura bilsə, sənin dediyin sözlərə inanaram. Uçubınığın atı elə böyük imiş ki, başı buludlardan çox yuxarıda dururmuş.

Uçubınıq yüyəni insana verib deyir:

– Bu atı yüyənlə.

İnsan yüyəni güclə sürüyə-sürüyə atın yanına gedir, atın başını görə bilmir. Arpanı yerə töküb şaqqıldadır. Arpanın qoxusunu alan at başını əyir ki, arpadan yesin, insan bu fürsətdən istifadə edib cilovu onun başıan keçirir.

## UÇUBINIĞIN ÖLÜMÜ

Uzun və nəhəng adamlar artıq dünyadan köçmüşdülər. Axırıncı Uçubınıq qalmışdı ki, onun da əcəl vaxtı çoxdan keçmişdi. Əlini uzadıb dənizdən balıq tutan, günəşdə bişirib yeyən Uçubınığın qalmasına səbəb də bu idi ki, Əzrayıl onun canını almağa gələndə duyuq düşər, özünü ələ verməzmiş. Əzrayılı gündoğanda görəndə günbatana, günbatanda görəndə gündoğana hoppanıb qaçarmış.

Cırtdan insanlar isə dünyada artıq çoxalmşdı. Əzrayıl bu kiçik adamlardan Uçubınığı öldürmək üçün kömək istəyir. Boyu balaca insan deyir:

– Gündoğan tərəfdə bir qəbir qaz, özün də qoca kişi qiyafəsində gözlə. Uçubınıq gəlib oradan keçəndə de ki, bir adam ölüb, qəbrini qazmışam, amma ölçü götürməmişəm. Qorxuram kiçik qazmış olam, ölən adam isə elə sən boyda olar, gəl bu qəbrə uzan baxım, görüm ölçü düz gəlirmi.

Bəli, Uçubınıq işdən xəbərsiz idi. Qəbrə uzanır. Əzrayıl bir göz qırpımında onun canını alır. Şətəl Uçubınığa cırtdan insanlardan toxunur.

## MARALUÇAN

Deyirlər, bir quldur dəstəsi peyda olubmuş. Hamı onların əlindən zara gəlibmiş. Axşam olanda evlər qapalı qalırmış. Qorxusundan heç kim bu qudurğanlara bir söz deyə bilmirmiş. Quldurlar çayın qırağındakı mağaraların biridə gecələyirmişlər. Bu mağaranın yanında bir maral mağarası da varmış. Maral həmişə onların söhbətlərini eşidirmiş. Bir gün axşam quldurlar mağaraya yığılanda böyükləri qalxıb deyir ki, mən maral dərisindən kürk geyinmək istəyirəm.

Bunu maral eşidir. Bilmir neyləsin. Axı, onun iki balası hələ körpə imiş. Bala baldan şirindir deyiblər. Balalarını qoyub gedə bilmir. Vəziyyət elə gətirir ki, maral çöldə olanda balalarını quldurlar tapıb aparırlar. Ətinini kabab edib, dərisindən çuxa tikirlər.

Maral məyus-məyus mağaradan çıxır. Bunu görən quldurlar onun arxasınca düşürlər. Maral qaçır, onlar qovurlar. Axır ki, bir sal qayanın başında maralı haqlayırlar. Quldurbaşının ürəyinə insaf gəlir. Bir heyvan dili bilən adam tapdırır.

Deyir ki, marala de, gəlsin, bizimlə birlikdə yaşasın, yoxsa özünü qayadan atsın.

Bunu eşidən maral dinməz-söyləməz hamının gözü qarşısında qayadan uçur. Elə o gündən bu günə həmin qayaya “Maraluçan” deyirlər.

## LƏTİFƏLƏR VƏ DODAQQAÇDILAR

* * *

Günlərin bir günüdə kənd mağazasına çıraq şüşəsi gətiriblərmiş. Məmmi də növbəyə durur, yeddi-səkkiz dənə şüşə alıb kəndirə düzür, kəndirin uclarını bir-birinə bağlayıb dairə şəklinə salır. Çiynindən asıb evinə yollanır. Evlərinə gedən yolda arxdan keçməli olur. Ağzınacan suyla dolu arxdan.

Məmmi arxın kənarında dayanıb fikirləşir: "Arxdan tullanmalıyam. Əgər şüşələr çiynimdə tullansam, hamısı oxam-oxam olar. Yaxşısı budur ki, bağlamanı o tərəfə tullayım, sonra da özüm atılım".

Məmmi cəld adammış. Dediyi kimi də edir. Bağlamanı arxın o tayına göy otun üstünə atır. Şüşələr yerə düşən kimi çilik-çilik olur.

Kişinin kefi pozulub deyir:

– Bu zəhrimarlar lap amanatmış ki...

* * *

Başkeçidin Hamamlı kəndində Alı Qara adında məşhur bir zurnaçı var idi. Öz sənətini davam etdirmək üçün şəyirdlər götürmüşdü. Şəyirdlərdən biri zurnanı üfürmək qaydasını tapa bilmədiyi üçün şikayətlənir:

– Usta, nəfəs ala bilmirəm...

– Sən çalmağını öyrən, nəfəsini Allah alacaq...

* * *

Bir nəfər öz şəxsi maşını ilə sərnişin daşıyırmış. Bir qoca arvad maşına əyləşərək xahiş edir ki, onu aşağı kəndə

parsın. Mənzil başına çatanda pulun yarısını verir. Sürücü narazılıq etdikdə deyir:

– Xalan hərif deyil ha, yolun yarısını “xolostoy” gəlmisən.

* * *

İki qoca arvad söhbət edir:

- Oğlum institutu qurtarıb, uşaq həkimi işləyir.

- Allaha şükür, gün o gün olsun qulluğunu artırsınlar, böyük həkim olsun.

* * *

Bir kəndli ilk dəfə şəhərə gəlir. Kafeyə girəndə fikirləşir ki, mən kəndçi adamam, şəhər qayda-qanunlarını yaxşı bilmirəm, gərək camaata fikir verim. Ondan əvvəlki adam kakao istəyir. Növbə ona çatanda deyir:

– Mənə də xəngəlo ver.

* * *

İlk dəfə şəhərə gələn kəndli uca binalara heyranlıqla baxır və başlayır mərtəbələri saymağa. Milisioner kəndlidən soruşanda deyir ki, mərtəbələri sayıram.

– Neçə mərtəbə saymısan?

– Beş.

– Beş manat cərimə verməlisən, mərtəbə saymaq olmaz.

Kişi beş manat cərimə verir. Kəndə qayıdanda lovğalanıb danışır:

– Milisioneri yaman hərifl ədim, yeddi mərtəbə saymışdım, beşinin haqqını verdim.

* * *

Qoca bir arvad rayon mərkəzinə gedən yük maşınıma əl qaldırır, sürücü kabinəyə şey-mey doldurulduğu üçün bir təhər maşının yük yerinə minir. Bir qədər keçəndən sonra arvada soyuq olur və kabinəni döycələyir:

– A bala, sən Allah, soyuqdan dondum, sən gəl bir az da burda sür, mən aşğıda qızınım.

* * *

Bir nəfər bir mərtəbəli evini qonşuların köməyilə tikərək iki mərtəbə edir. Tikinti qurtarandan sonra qonaqlıq düzəldir və təşəkkürünü bildirir:

– Əziz qonşular, sizin köməyinizlə mən evimi alt-üst elədim. Allah siz qonşuların da evini alt-üst eləsin!

* * *

Cavan oğlan qonşunun atını oğurlayıb öz tövlələrinə bağlayır. Qonşu bunu bilib oğlanın atasını çağırır, tövləni açaraq atı göstərir və oğlunu cəzalandırmağı tələb edir.

Atası deyir:

– Bax, evdən nə istəyirsən götür. İki atın haqqını verim, ancaq oğlumun siftəsini korlama.

* * *

Bir nəfər Bakıya getmək üçün qatara minir, şeylərini aşağı mərtəbədə yerləşdirib çörək yeməyə gedir. O gələnəcən Bakı qatarı gedir, yerinə Moskva qatarı əylənir. Kişi qatara minir və üst mərtəbədəki qonşusundan soruşur. Deyir ki, eloğlu, sən harya gedersən! Həmən adam qatarın Moskvaya getdiyini bildirir. Qatarın Moskvaya getdiyini bildikdən sonra təəccüblənir:

– Sovet hökumətində texnikaya bax, qatarın aşağı mərtəbəsi Bakıya, yuxarı mərtəbəsi Moskvaya...

***Kormusalı Eyyubun şeirləri – qoşma və gəraylıları itib-batsa da, onun adı ilə bağlı çoxlu lətifələr indi də məclislırin, yığnaqların bəzəyidir. Eyyub gülməcələrindən ikisini təqdim edirik.***

## KOXA VƏ EYYUB

Sözünə, işinə düz adam olduğuna görə Eyyubnan kənd koxasının arası yox imiş, tez-tez öcəşərlərmiş. Günlərin bir günü yenə dalaşırlar, araya inciklik düşür. Eyyub bir dözür, iki dözür, axırı tab gətirə bilməyib koxanın dədəsinə söyür. Koxa da eləmir tənbəllik, yüyürür pristavın yanına ki, bəs Eyyub dədəmə söydü.

Pristav Eyyubu çağırtdırır. Eyyub da çox arxayıncasına qayıdır ki, cənab pristav axı, mən koxanın özünə yox, dədəsinə söymüşəm. Bunun dədəsi koxa deyildi ha.

Pristav bir Eyyuba baxır bir koxaya. Koxanı acı baxışla süzüb deyir:

“Ates”də koxa, “mates”də koxa, bir evdən otuzu da koxa?

Deyirlər, bundan sonra koxa həmişə çalışırmış ki, Eyyubun xətrinə dəyməsin.

## OTMU, BAĞMI?

Qonşu kəndlərin birində Eyyubun bir yaxın tanışı yaşayırmış. Bir gün tanışı Eyyubgilə qonaq gəlir. , ordan-burdan söhbətdən sonra deyir ki, ona bir taya satlıq ot tapsın.

Eyyubun da bir bığlı qonşusu varıymış, o da burada imiş. Qonşu fürsəti əldən verməyib deyir:

– Bu il mənim artıq otum var, sataram.

Sözün kəsəsi Eyyubun tanışı ilə qonşusu sövdələşirlər. Tanış beh verir, on gündən sonra araba gətirib otu aparacağını söyləyir.

Bığlı qonşu evə qayıdanda çək-çevir eləyib görür ki, yığdığı ot mal-qoyununa elə zorla yetər. Odur ki, Eyyubun yanına gəlib otu sata bilməyəcəyini deyir və behi də ona qaytarır. İşin bu yerə gəlib çatdığını görən Eyyub tanışı üçün özgəsindən ot tapır.

Tanış vədələşdiyi kimi on gündən sonra gəlib çıxır. Eyyub sövdələşdiyi adamı çağırtdırır deyir ki, ot alan kişi budur, gedin tayanı yükləyin. Tanış kişi gözlərini döyə-döyə:

– Ay Eyyub, mənim beh verdiyim adam bu deyil axı? Onun bığları varıydı.

Eyyub bığaltı gülümsəyir:

– Qardaş, sənə otmu lazımdı, bığmı? Rəhmətliyin oğlu, get otunu doldur.

## QIRXINDA ÖYRƏNƏN GORUNDA ÇALAR

Bir kələkbaz molla kitabın vərəqləri arasına qoz ləpələrini xırda-xırda əzib seyrəkləmə qoyur, öz eşşəyini elə öyrədir ki, burnu ilə vərəqələri açıb yeyirmiş. Camahat bunu görüb xəbər alırmış ki, ay Molla, eşşəyin burnu ilə kitabı niyə vərəqləyir? Molla deyir:

– Görmürsən kitab oxuyur?!

Deyirlər:

– Ay Molla, eşşək də kitab oxuya bilərmi?

Molla cavabında deyir:

– Bəs meşədəki ayını öyrətməknən niyə oynayır, mənim də eşşəyim də elə. Zəhmət çəkib öyrətmişəm, o da oxuyur.

Bu zaman şəhərin yetmiş yaşında padşahı alimləri çağırıb deyir:

– Kim mənə ərəbi-farsi öyrətsə onu dünya malından qane eliyəcəm. Alimlər nə qədər səy göstərib dərs verirlər padşah ərəbi-farsi öyrənə bilmir.

Bəli, padşah eşidir ki, bir molla öz eşşəyinə kitab oxumaq öyrədib. Bunu eşidən molla ona dərs deyən alimləri danlayıb-məzəmmət elədi:

– Molla mollalığınnan eşşəyinə kitab oxumaq öyrədib. Siz məni kimi adama ərəbi-farsi öyrədə bilmirsiniz. Alimlər inanmır. Padşah əmr eləyir, mollana eşşəyiynən birlikdə hüzuruna gətirirlər. Padşah deyir:

– Aç kitabına eşşəyi oxutdur.

Molla kitabı eşşəyin qabağına qoyur. Eşşək burnu ilə kitabı vərəqləyib içindəki xırda qoz ləpələrini "xırt-xurt" yeməyə başlayır. Alimlər baş düşürlər ki, bu mollanın fırıldağıdır, eşşək kitab-zad oxumur. Bunu padşaha da başa salırlar. Padşah sirri qanır. Qəzəblənib deyir:

– Ay molla, bizi dalamağın bir yana, bəs Orucluq ayında eşşəyə qozu yedirdib orucunu niyə batil eləyirsən. Molla çətinə düşdüyünü görüb deyir:

– Padşah sağ olsun, az qoz yemək orucu batil eləməz. Elə bu vaxt eşşək anqırır. Padşah deyir:

– Molla, eşşəyin anqırmaxnan nə deyir?

Molla Fürsətdən istifadə edib deyir:

– Padşah sağ olsun, o deyir ki, qırxında öyrənən gorunda çalar. Gərək hər şeyi vaxtında öyrənəsən. Bu söznən molla həm özünü, həm də alimləri xilas eliyir.

## BABA VƏ NƏVƏ

Günlərin bir günü baba nəvəsiynən əylənirdi. Nənə də kanardan onlara tamaşa eliyirdi. Nəvə babasını tez-tez sorğu-suala tuturdu:

– Bu nədi? Bu niyə belədi?

Bir söznən gördüyünü, eşitdiyini xəbər alırdı. Birdən nəvə üzünü babasına tutub dedi:

– Baba, sənin neçə yaşın var!

Baba cavab verdi:

– Səksən yaşım var, bala.

Nəvə dedi:

– Baba, sən nə vaxt öləcəsən?

Baba dedi:

– Sən öləndən sonra, bala.

Bu vaxt nənə kanardan babanın üstünə acıxlandı:

– Ay kişi, ağzını qara molla yumsun, utanmadınmı uşağa elə söz dedin.

Biz dura-dura uşağa nə ölüm yaraşır?!

Baba dedi:

– Ay ağılsız arvad, biz beş-üç gündən sonra öləcəyik, amma necə ki nəvəmiz sağdı, adımız çəkilib anılacaq. Elə ki, irağ üzdən öldü, biz də onunla bərabər öləcəyik.

Nənə babanın bu sözüynən razılaşdı.

## ÖLMƏRƏM, O BİRİ AYAĞINI DA UZADARSAN

Deyillər bir gün bir kişini toya çağırırlar. Kişinin geyinməyə corabı olmur. Arvadı ordan-burdan yun tapıb bir tay corab hörübmüş. Arvad görür ki, kişi corabsız toya getmək istəmir. Üzünü ərinə tutub deyir:

– Ay kişi, eybi yoxdu, o tək corabı geyin bir ayağına. Məclisdə oturanda yalın ayağını qatda qoy altına, kimdi ona fikir verən. Corablı ayağını uzat qabağa. Kişinin arvadın məsləhətinən ağlına bir şey batır. Odu ki, tək corabı geyinib gedir toya.

Kişi toya getməkdə, eşit arvaddan. Arvad öz-özünə fikirləşir ki, ey dili-qafil, gəlsənəm gedib uzaxdan baxım görüm kişi dediyimə necə əməl eliyir. Gəlir məclisə, bir kənardan kişilər oturan otağa boylanır. Görür kişi necə ki şərtləşiflər, eləcə də oturub. Yalın ayağı altında, corablı ayağı qabağa uzanmış şəkildə. Bu yerdə arvad öz-özünə belə deyir:

– Can-can, ay kişi, ölmərəm, gələn il bu vədə ayağının o birini də uzadarsan.

* * *

Pristavın yolu məscidin yanından imiş. Eyyub da məsciddə namaz qılar və deyərmiş: ey Allahım, mənə yüz manat göndər. Bunu eşidən pristav polislərdən birini çağırıb yüz manat verir, məsciddə Eyyuba verməsini tapşırır.

Polis gətirib pulu verir, amma yarısını cibinə qoyur. Eyyub məsələni başa düşüb deyir:

– Ey qadir Allah, sənə şükürlər olsun, diləyimi yerinə yetirdin, amma pulu polisdən yollama, yarısını öz cibinə qoyur.

*Ərcivan Sarvan kəndində Eyyub gülməcələri geniş yayılmışdır. Bu gülməcələr bilavasitə olmuş hadisələrdir ki, şair Eyyubun iştirakı ilə yaranıb yazılmışdır.*

*(Ziyad Adıgözəlovun dilindən)*

## HORTU BİR ABBASI

Ömründə çay içməmiş kirvəsi ilə Eyub şəhərdə çayxanaya gedir. Hərəsinə bir stəkan çay gətirirlər. Kirvə soruşur:

– Eyub kirvə, bu nədir belə?

Eyyub görür ki, kirvəsinin dünyadan xəbəri yoxdur, odur ki, deyir:

– Çaydı.

– Bunun qiyməti neçəyədir?

– Hortu bir abbasıdır, deyir.

– Elə isə mn bunu bir horta boşaldım ki, artıq pul verməyək.

Qaynar çay kirvənin ağzını-dilini pörtlədir.

*(90 yaşlı Dünyamalı Süleyman oğlu danışıb)*

## MƏN GEDİRƏM, SƏN DƏ GƏL...

Günlərin birində bənna Allahquludan qonşusu ona təzə ev tikməyi xahiş edir. O, kasıb qonşusunun pul verməsə də, qarın dolusu yemək verəcəyinə ümid bəsləyib, razılıq verir. Bənna böyük həvəslə işə başlayır. Qonşunun arvadı bənna Allahqulunun sulu xəngəldən xoşu gəldiyini eşidib, səhər, günorta, axşam sulu xəngəl bişirir. Bir neçə gün bənna xəngəldən həvəslə yeyir. Sonra çarəsiz qalıb ancaq xəngəlin həlimindən içir. Yeridikcə qarnı lıqqıldayır. Həvəsdən düşüb, divarları başdansovdu hörüb

qurtarmağa çalışır. Hər tərəfdən iri daş parçalarını qoyub ortasına kiçik qırıntılar doldurub üstünü malalayır. Qonşu hörüyün sürətlə çəkildiyini görüb bənnadan soruşur:

– Usta, xeyir ola, yaman sürətli gedirsən. Necə edirsən ki, divar belə tez hörüküb gedir?

Usta Allahqulu bir az fikirləşib deyir:

– Qonşu, mən hər gün səhər, günorta, axşam üzümü divara tutub deyirəm:

Səhər xəngəl, günorta xəngəl,
Divar, mən gedirəm, sən də gəl.

Bax ona görə də divar belə tez hörülür.

## BƏS MƏN HEÇ EVDƏ QALMADIM KI?. .

El zarafatları ilə mahalda məşhur olan lotu Ağaverdi günlərin birində əlində qəzet sevincək evə gəlir. Üzünü həyat yoldaşına tutub deyir:

– Ay arvad, bilirsənmi qəzetdə necə şad xəbər yazılıb. İndi bir kişi istəsə iki arvad ala bilər. Bax buna varam.

Savadsız qadın zarafatı həqiqət bilib bütün günü özözünə deyinir ki, “belə ədalətsizlik olarmı?”

Bir neçə gündən sonra lotu Ağaverdi yenə əlində qəzet evə gəlir və qanıqara arvadının könlünü açmaq üçün deyir:

– Eh, ay arvad, bu dəfə qəzetdə bir bəd xəbər yazıblar. Guya bir arvada iki kişi düşür. Heyif, keçən günlərdən, belə də iş olar?

Arvadın üz-gözü gülür, sevincək deyir:

– Niyə olmur, ay kişi? Bunun nəyi pisdir? Sən bazara gedərsən, o evdə qalar, sən dəyirmana gedərsən, o evdə qalar, sən yaylağa gedərsən, o evdə qalar, sən...

Ağaverdi əsəbi halda arvadın sözünü kəsir ki:
– Ay tünbətünün qızı, bəs mən heç evdə qalmadım ki?. .

## SAĞ OL, YEMİRƏM

Arvad qorxaq ərini meşəyə oduna göndərir. Kişi orada təsadüfən bir yekə ayıya rast gəlir. Ayı qovur, kişi qaçır. Nə fənd işlədirsə, tutub parçalaya bilmir. Axırda yorurlrb əldən düşür, geriləməyə başlayır.

Bu zaman hava qaralır Ay doğur. Əlacı hər yerdən kəsilən kişi yüyürüb armud ağacına dırmaşır. Düşünür ki, gecəni armud ağacında keçirsin, işıqlananda evə gedər. Birdən görür ki, donquldana-donquldana ayı da gəlib ağaca çıxıb armud yeməyə başladı. Amma ayı kişini görümürmüş.

Ayı bir armud qırıb ayın işığına tutub baxır ki, görsün yaxşıdır, yoxsa pis. Kişi elə bilir ki, ayı armudu ona verir. Tez dillənir:

– Ayı qardaş, sağ ol, yemirəm.

Ayı bu səsdən heyrətə düşür. Hündür ağacın başından yumalanıb dibinə yıxılır və nəfəsi kəsilir.

## "AY İT, ÜZDƏN, ÜZDƏN"

Bir kişinin, necə deyərlər, gözünün ağı-qarası bir qızı varmış. Qız olduqca gözəlmiş. Amma onu heç kim ala bilmirmiş. Çünki atası şərt qoyubmuş. Deyirmiş ki, hansı oğlan həyətdəki bax bu kötüyü yara (doğraya) bilsə, qız onundur.

Qızı almaq umusu ilə çoxları gəlib düyünlü quru kötüyə balta çalırmış. Ancaq bir qamqalaq da qoparda bilmirlərmiş, məyus olub gedirlərmiş. Kötük dəmirdən də möhkəmmiş.

Axırda bir oğlan gəlib qızı istəyir. Atası razı olur, bu şərtlə ki, kötüyü yarsın. Gücünə güvənən oğlan kötüyün ortasına bir balta vurur. Bir belə, beş belə, oğlan kötükdən qamqalaq da qoparda bilmir. Amma qızın gözü oğlanı yaman tutubmuş. İstəyirmiş ki, oğlan kötüyü yarıb şərtə əməl etsin, onu atasından alsın. Qız oğlana öyrədə bilmirmiş ki, kötüyü necə yarsın. Çarəsiz qalıb fənd işlədir.

Qız itlərinə yal bişirir. Yalı qaynar-qaynar yalağa töküb iti səsləyir. İt gəlib yala soxulub, höyləki-höyləki yemək istəyir. Ağzı yanıb geri çəkilir. Qız itin boynundan tutub ucadan deyir:

– Ay it, sən yaxşı itsən, mən səni çox sevirəm. Ac qalma, ye, amma qzdən-üzdən, az ala-ala ye ki, ağzını yandırmayasan, hamsını yeyəsən.

Oğlan qızın işarəsini başa düşür. Kötüyü üzdən-üzdən az-az qamqalaq qoparda-qoparda tamam doğrayır. Beləliklə, şərtə əml edib qızı alır.

## QARAQARAN ÇÜRÜK ÇIXDI

Bir gün kəndə səs yayılır ki, bəs Alıöyünün dükançısı Məhəmməd Tiflisdən qaraqara (qədək) parça gətirib satır. Camaat tökülüb gəlir almağa. Hamı alır. Məhəmməd baxır ki, Kazım qıraqda fağır-fağır boynunu büküb durur. Məhəmməd insaflı adammış. Kazımı çağırıb deyir:

– Ayə, a Kazım, bilirəm, pulun yoxdur. Gəl bir arxalıq götür, novruzda verərsən.

Kazım razılaşıb bir arxalıq qaraqara götürür, tikdirib geyir. Novruz gəlir. Məhəmməd parçanın pulunu istəyəndə Kazım yazıq-yazıq deyir ki, bəs pulum yoxdur verəm.

İl gəlib keçir. Məhəmmədin parça əhvalatı yadına düşür. Kazımın evinə gedib parçanın pulunu istəyir. Kazım acıqı-acıqlı mitili çıxmış arxalığı Məhəmmədə verib deyir:

– Ə, nə pulu verəcəm. Neynəyim, qaraqaran çürük çıxdı.

## LAL GƏLİN

Ağıllı-kamallı bir qıza anası vəsiyyət edibmiş ki, ər evinə köçüb gəlin olanda dinib-danışmasın, özünü toxtaq aparsın, lal kirmicə başını aşağı salıb ev işləri ilə məşğul olsun.

Qız anasının vəsiyyətindən keçmir. Ər evində heç danışıb eləmir. Gözəl-göyçək, qoçaq gəlindən hamı razı imiş. Amma ərinin ürəyinə bir xal düşübmüş elə həmişə xiffət çəkirmiş ki, hayıf arvadım laldır.

Axırı, əri dözməyib, başqa bir qızla evlənir. Toy eləyib gəlin gətirirlər.

Təzə gəlin də ki, dil sarıdan çox qoçaq imiş, dilli-dilavərliyi ilə ad çıxarıbmış. Elə bəy evində atdan düşməmiş gözü köhnə gəlinə sataşır, elə bilir qulluqçu-zaddır, hündürdən çağırır:

– Nə gözünü döyürsən, gəl kömək elə, məni düşür.

Lal gəlin bu təhqirə dözə bilmir, içindən bərk qovrulur, axır ki dil açıb dillənir:

– Ay qız, ay qız, yastı gəlin.
Yəhər yanını basdı gəlin.
Hələ atdan enməyibsən,
Səsin evi basdı gəlin.

Bundan oğlan da, bütün qohum-əqrəba da təcrübə düşür. Təzə gəlini heç atdan düşürmürlər də, gəldiyi yolla geri – atası evinə qaytarırlar

* * *

Sadaxlıda bir ağa varmış, onun da bir nökəri. Nökər tapşırıldı-tapşırılmadı işini görərmiş. Gördüyü işlərin çoxu da ağanın xoşuna gəlməzmiş. Günlərin bir günündə ağa onu yanına çağırıb deyir:

– Bundan sonra bir iş görməli olanda gərək mənə deyəsən.

Nökər:

– Baş üstə, – söyləyib gedir.

Bir həftədən sonra nökər görür ki, it içəri girib evin küncündəki süd dolu tejəni dartışdırır:

Nökər tez eşiyə çıxıb ağanı axtarmağa başlayır. Ona deyirlər ki, ağa kəndin o başında Səməd ağanın evində qonaqlıqdadır.

Nökər ağanın dalınca Səməd ağanın evinə tərəf getməyə başlayır. Yolda bir tanışı rast gəlir. Xeyli söhbət edirlər.

Nə isə, iki saatdan sonar Səməd ağanın evinə çatır. Onun nökərindən xahiş edir ki, ağasını eşiyə çağırsın. Beş-on dəqiqədən sonra ağası gəlir. Öz nökərini görən kimi soruşur:

– Xeyir ola?

Nökər deyir:

– Xeyir olmamış nə olacaq. Gəlmişəm məsləhətləşməyə. İt evə girib tejəni dartışdırır. İndi bilmək istəyirəm, iti qovum, yoxsa qovmuyum.

Ağa hirslənir:

– Qanmazın biri qanmaz, əlbəttə qov.

Nökər:

– Baş üstə, getdim qovmağa!

Nökər evə gəlib çatanda it tejəni artıq dəlmə-deşik etmişdi.

* * *

Kəndli sədrdən xahiş edir ki, meşədən odun gətirmək üçün ona bir cüt öküz, bir də bir araba versin. Kolxoz sədri onun xahişinə sərhal əməl edir.

Kişi meşədən odun gətirib evinə çathaçatda öküzün biri ölür: murdar olur.

Əhvalatdan xəbər tutan sədr kişinin üstünü alır:

– Öküzün tələf olduğu doğrudurmu?

– Doğrudur!

– Ödəməlisən!

– Şübhəsiz!

– Tələf olan öküzün gönünü soydunmu?

– Soydum. Gönü duzlayıb sərmişəm.

– Quruyandan sonar onu da kolxoza təhvil verməlisən.

Kişi bazardan tələf olan öküzdən də yaxşı bir öküz alıb kolxoza təhvil verir.

Bir neçə həftədən sonar sədr soruşur:

– Kişi, gön quruyubmu?

– Quruyub.

– Bəs niyə gətirib təhvil vermirsən?

– Gözləyirəm.

– Nəyi?

– Gözləyiriəm kin tələf etdiyim öküzün əvəzində verdiyim öküzü sədr nə vaxt öldürəcək, gönünü soyub duzlayacaq, qurudacaq və onu mənə verəcəkdir. Mən də tələf olan öküzün gönünü ona verəcəm.

* * *

Günlərin bir günündə kənd mağazasına çıraq şüşəsi gətiriblərmiş. Məmmi də növbəyə durur, yeddi-səkkiz dənə şüşə

alıb kəndirə düzür, kəndirin uclarını bir-birinə bağlayıb dairə şəklinə salır. Çiynindən asıb evinə yollanır. Evlərinə gedən yolda arxdan keçməli olur. Ağzınacan suyla dolu arxdan.

Məmmi arxın kənarında dayanıb fikirləşir: "Arxdan tullanmalıyam. Əgər şüşələr çiynimdə tullansam, hamısı oxam-oxam olar. Yaxşısı budur ki, bağlamanı o tərəfə tullayım, sonar da özüm atılım"

Məmmi cəld adammış. Dediyi kimi də edir. Bağlamanı arxın o tayına göy otun üstünə atır. Şüşələr yerə düşən kimi çilik-çilik olur.

Kişinin kefi pozulub deyir:

– Bu zəhirmarlar lap amanatmış ki…

* * *

Böyük bir məclisdə plov yeyən ağasının bığına düyü dənəsi yapışdığını aşağı tərəfdə oturan nökər görür. O, tez ayağa durub deyir:

– Ağa, beş qardaşı göndər, tövlənin həyətini təmizləsinlər.

Bu işarəni ağadan başqa heç kəs başa düşmür. Odur ki, əli ilə ağzını təmizləyir. (Nökər "beş qardaş" deyəndə əlin beş barmağını nəzərdə tuturdu).

## HACIQARA VƏ ÇAYÇI

İl pis gələndə kəndin camaatı Qarabağa, Şəkiyə taxıl yığmağa gedərmişlər. Bir dönüş Hacıqara da onlara qoşulub taxıl yığmağa gedir. Şəkiyə çatanda qəlyanaltı eləmək üçün çayxanaya girirlər.

Oturanda Hacıqara stolun üstündəki lap xırda doğranmış qəndi görüb dinmir. Çay içməli olanda qabdakı bir ovuc xırda

qənddən götürüb ğzına ataraq çayını içir. Bu, çayçının gözündən yayınmır. Ona yaxınlaşıb soruşur:

– Əmi, sizdə ölünü neçə-neçə basdırırlar?

İşi başa düşən Hacıqara deyir:

– Sənin qəndin kimi yaramaz olanda beşini birdən də quyulayırlar.

## HACIQARA VƏ TƏLXƏK

Arıxlıda Molla Paşa deyilən adlı-sanlı, var-dövlətdən bolı olan bir adam varmış. Molla Paşa qızının toyuna Osmanlının məşhur bir təlxəyini dəvət edir. Toy gecəsi camaatı yığır, təlxək başlayır camaatı dolamağa. Bunu görən qoca İbrahim balaca Hacıqaranı yanına çağırıb bir ovuc qırmızı boyaq tapmağı tapşırır. Hacıqara boyağı tapıb gətirir. İbrahim onu öyrədib deyir:

– İşini görəndən sonra, filan dama gələrsən gizlənərik, yoxsa Molla Paşa ikimizi də qılıncdan keçirər.

Xülasə, Hacıqara məclisin ayağından dizin-dizin sürünə-sürünə başda oturmuş tələyə tərəf gedir. Hamı gözləyir ki, görəsən bu dəcəl uşaq nə edəcək. Hacıqara təlxəyə yaxınlaşıb yalvarır:

– Sənin saqqalına qurban olum, ay baba, saqqalından öpüm.

İşi başa düşməyən təlxək deyir:

– Gəl, a bala, gəl, noolar.

Hacıqara onun saqqalını sığallayıb öpməyə başlayır. Ovcundakı boyağı təlxəyin saqqalına sürtüb gedir. Təlxək tərlədikcə saqqalı başlayır qızarmağa. Camaatın içində gülüşmə başlayır. Təlxək işi başa düşür. Kişinin saqqalını nə qədər yuyurlarsa, saqqalı daha da qızarır. Pərt olan təlxək saqqalını qırxdırmalı olur və toyun sonrası günlərinə qalmayıb çıxıb gedir.

## SƏN BÖLƏ BİLMƏDİN

Qaraçöpdə Zeynal adında kasıf bir kişi olur. Var-dövlətdən tək bir qazı varıymış. Günnərin birində kişi qazı tutuf kəsir, verir arvada ki:

– Arvad, pişir aparajam xana.

Arvad qazı pişirir, xonçuya qoyuf üstünə örtük salır, kişi götürüf xana aparır. Hüzurunda xonçanı yerə qoyanda xan soruşur ki, bə bu nədi belə? Zeynal kişi qayıdır ki:

– Xan sağ olsun, olub – qalan bir kök qazımız varıydı, fikir elədim ki, bir qaznan dövlət bağlamıyajam ha, odu ku, pişirtdirif sana pay gətirdim. Nuş olsun, ye, mana da səxavətinnən nə verərsən, verərsən.

Xan nəsə fikirrəşif deyir:

– A kişi, biz aylədə altı nəfərik, bu qazı aramızda bölə bilmərik. Özün böl, haqqını verim, çıx get.

Xanın iki oğlu, iki qızı varıydı. Zeynal kişi təvəqqe eliyir ki, xan onnarı çağırtdırır, oğlannarı bir, qızdarı bir, özünnən arvadını da bir otrdur. Qazın başını kəsif xannan arvadının qavağına qoyur:

– Xan sağ olsun, ərnən-arvad aylənin başçısı olduğunnan qazın başı sizə çatır. Həmşə də başda olun. Sən bir, arvadın iki, qazın başı da üç.

Qazın əyaxlarını da kəsif oğlannarın qavağına qoyur:

– Xan sağ olsun, qazın əyaxlarını da oğlannara verirəm ki, əyax tutuf dünyanı dolaşsınnar. İki oğlun, bir də qazın əyaxları – üç.

Sonra da qazın qanaddarını kəsif qızdarın qavağına qoyur:

– Qanaddarını da qızdara verirəm ki, öydə un çuvalına tay olmasınnar, yesinnər, qanad aşıf tez getsinnər. İki qızdarın, bir də qanaddar, eliyir üç, razısanmı?

Bu yerdə xan soruşur:

– Bə, qazın qalanı?

Zeynal kişi cavabında deyir:

– Xan sağ olsun, bir şeyin ki, başı, əyaxları, qanaddarı olmasın, o nəyə gərəkdi. Mən bir, arvadım iki, qazın leşi də ki, üç, o da bizim olsun. Razısanmı?

Zeynal kişinin tədbiriliyi xanın xoşuna gəlir, ona on manat pul verif yola salır.

İndi eşit, Zeynal kişinin qonşusunnan. Qonşu əhvalatı eşidən kimi öz-özünə deyir:

– Ey dili-qafil, mənim beş qazım var, beşinin də leşini aparsam, hərəsinə on manat pul alaram.

Eləmə tənbəllik, qazın beşini də öldürür, pişirtdirif xana aparır. Xan görür, yox , hər gün bir qaz gətirif var-yoxunu tükədəjəhlər. Oydu ki, kişiyə deyir:

– İndi ki, gətirifsən, zərər yoxdu. Amma qaz beşdi, biz altı nəfərik, böl, zəhmət haqqını verim, çıx get. Kişi nə qədər əlləşirsə, hesaf düz gəlmir, beş qazı altı yerə bölə bilmir. Xan bunu görüf qayıdır ki:

– Get, Zeynal kişini çağır, o bölsün.

Kişi Zeynalı çağırır. Zeynal kişi gənə ər-arvadı bir, oğlannarı bir, qızdarı da bir oturtdurur. Qazın birini xanın qavağına qoyur:

– Xan sağ olsun, sən bir, arvadın iki, qaz da üç. Düzdümü?

Sonra qazın birini də oğlanların qabağına qoyur, iki oğlun bu daz, elədi üç. Düzdümü? Qazdardan birini də qızdarın qabağına qoyur.

– İki qızın, bir də qaz, gənə elədi üç. Düzdümü? – axırda qazdarın ikisini də götürüf öz qavağına qoyur. – İki qaz, bir

də mən, gənə oldu üç Xan sağ olsun, bunnan insaflı bölgü olarmı, zəhmət haqqımı ver, gedim.

Xan qazın hərəsinə on manat verif zeynal kişini yola salır, sonra üzünü tutur onun qonşusuna:

– Sana heç nə çüşmür, – deyir, – çünki bölə bilmədin.

## MƏNİM DƏ DƏLİLİYİM TUTUF...

Bir kişinin arvadı Allah rəhmətinə gedifmiş. Arvadın ili çıxan kimi kişi mollanın yanına gedif deyir:

– Molla əmi, vəziyyət belədi, indi mana öylənmək çüşür, ya yox?

Molla dillənməmiş qapı açılır, içəri çarşaflı bir zənən xeylağı girir. Arvad üzünü molluya tutur:

– Molla əmi, – deyir, – bir ildi ərim ölüf, de görüm, indi mana, sənnən də üzüm qara, ərə getməy çüşür, ya yox?

Söyündüyünnən mollanın gözdəri pər-pər çalır, oycunun içi geyişir. Qayıdır ki:

– Çüşür, niyə çüşmür. Bu kişinin də bir ildi arvadı ölüf. Kəfin pulunu verin, elə burdaca sizin nigahınızı kəsim. Razısanmı?

– Arvad cavavında deyir:

– Razıyam, əmə, bir şərtim var. Şərtim də odu ki, mənim ildə bir dəfə xanımlığım tutur. Əgər kişi razıdırsa, gedərəm. Molla indi də kişidən soruşur:

– Sən nejə, razısanmı?

Kişi fikirrəşir, ilboyu nökərim olan arvadın bir günnük xanımlığı nolajax ki? Deyir:

– Mən də razıyam, əmə, mənim də ildə bir dəfə dəliliyim tutur, əyər razıdırsa, alıram.

Qadın da fikirrəşir ki, ilboyu ağıllı olanın bir günnük dəlliyi nolajax. Odu ki, razı olur. Molla kişidən kəfin pulunu alıf nigahı kəsir, ikisi də kişinin öyünə gəlif şad-xürrəm yaşamağa başdıyıllar.

Bir gün obaşdan arvad haray salır ki, xanımlığı tutuf, dedihlərimə əməl eləməsən, gedərəm mollannın yanına nigahımızı geri oxuyar. Kişi canını çişini tutuf qulax kəsilir, arvad başdıyır sadalamağa:

– Mana bir dəst xanım livası, daş-qaş, qul-qaravaş al. Çalğıçı da gətirərsən, bütün günü şadyanalığ eliyəjəm.

Yazıx kişi olan-qalanını töküf arvadının dedihlərinə əməl eliyir. Şadyanalıxdan sonra taxda oturuf əyaxlarını uzadır ki, yu, dırnaxlarımı tut, odun yar, su gəti, xörək pişir. Bu minvalnan arvadın xanımlığı axşamatan davam eliyir. Kişi əldən çüşür, üç gün, üç gejə yatannan sonra qalxıf bir tanrıtanımaz gərməşoy çuvuğu hazırrıyır. Birdən haray salıf qışqırır ki, arvad, dəliliyim tutuf. Arvad özünə gələnətən nə yiyifsən, turşulu aş, onu yun kimi çırpır. Arvadın böyürtüsü Alosmana çatırmış. Düz bir ay yorğan-döşəydən qalxa bilmir. Halı yaxşılaşanda kişi arvadınınnan soruşur ki:

– Hə, indi görüm, sənin xanımlığın yaxşıdı, yoxsa mənim dəliliyim?

Arvad dili tuta-tutmaz dillənir:

– A kişi, Allah şeytana nəhlət eləsin, heç biri bir şey döyül. Əmə, keşkə, nə sənin arvadın öleydi, nə də mənim ərim.

## HE-HE ELƏ GƏLƏJƏK!

Saraşdıda varrı-karrı kişilərdən sayılan Astan öyünün Məhəmməd addı birisi, mal qarasını sığıra qatmazmış, həmişə

başdı-başına çölə ötürərmiş. Nolajax yiyəsiz mal, çəpərsiz çöl. Mal özünü verir, qara-qayanın döşünə. Hərrənə-hərrənə gəlir çıxır “Qarabulaq” tərəfə. Cefqa Musa da öz danalarını otarırmış. Gözü Məhəmməd kişinin danalarından birini alır. Dananı hərriyif öz malına qatır. Şərin gözü qaralan kimi danaları öyə qaytarır. Tələm-tələsik Məhəmməd kişinin danasının başını əkir. Arvadına qayıdır ki:

– Aaz, a qarayığvallı, gə görək nağayrırıx. İri qulflu qazanı as, əti qoor, gözümüzün qurdunu öldürək.

Qazan pıqqa-pıq qaynamağında olsun, Məhəmməd kişi də danasını axtarmaqda. Cefqa papağını başına qoyur, çarığını ayağına keçirif çıxır ki, görsün nə var nə yox. Elə yenicə eşiyə çıxıbbış Məhəmmədlə rastlaşır. Məhəmməd kişi qayıdır ki:

– Ə, a Musa, bəlkə mənim danamı görmüş olasan, çöl adamısan.

– Nooluf ki, a Məhəmməd.

– Əşi, nolajax, qaşqa dananı itirmişəm. Qorxuram qurda-quşa rast gələ.

– Heç nə olmaz, ə Məhəmməd kişi, yaqın çöldə malazada qarışıf. Ya da ki, qərətikənlikdədi. He-helə gələjək.

## QARA EŞŞƏYİN CANI SAĞ OLSUN

Bir gun Cefqa Musa qonşusu Qurvanı haraylayır ki, niyə öydə oturufsan. Xalx eşdə-bajada. Gə gedək meşədən bir az cöyüz çırnax qışda satarıx. Qurvan paltarını geyinif çıxır. Eşşəyi palanlayıf hoşa-hoşla yollanırlar meşəyə. Nolansax cöyüzlüyə çatırlar. Cefqa Musa qayıdır ki:

– Ə, a qarayığvallı, sən cavansan çıx ağaca çöyüzü çırp. Mən də dənniyim. Qurvan eləmə tənbəllik çıxır ağaca. Əli

çatanı əliylə, çatmayanı da suruxla vurur tökür. Cefqa görür ki, cöyüzün çoxu yuxarıdadı. Qurvan da qorxur yuxarı çıxmağa. Aşağıdan qışqırır ki, ə, a qarayığvallı, bir az yuxarı dırmaş, ağacın tülləsində cöyüz çoxdu. Qurvan qayıdır ki, əşşi hancarı çıxım, budaxlar nəzihdi. Yıxıllam, qolum-başım qırlar.

– Ə, ə, a qıvlasız, övkə-bağırını yemə. Yıxılarsan, yıxılarsan. Qara eşşəyin canı sağ olsun.

## QƏLƏT ELƏMƏ

Saraşdıda Gülxanım arvadın İspalkom işləyən vaxtıymış. Dörd para kəndi gəzib dolaşmaq, hərənin istəyini, şikayətini eşitmək çox çətiniymiş. Ona görə də həməşə at belində gəzərmiş. Matrax[1] da əlində. Elə o vaxtlar da Qoşakilsə kəndində Mamoy Mahmud adında, baməzə ona-buna lağ edən, hamıya lavğa qoyan bir kişi varıymış. Gülxanımın qulağı alır ki, bu kişi onu çox hərriyir ki, adına ad yapışdırsın. Elə olur ki, bir gün Qoşakilsə kəndində, el ağsaqqalları, qarasaqqalları ilə söhbət elədiyi vaxt Mamoy Mahmud uzaqdan onlara tərəf gəlir. Kişi mərəkəyə yaxınlaşıb salam vermək istəyəndə, Gülxanım arvad Matrağı çəkməsinin boğazından çıxardıf kişinin üstünə cumur ki,

– Ə, çuxası cırıx köpək oğlu, saa deməmişəmmi başından böyük qələt eləmə, və Matraxla bir-iki kişiyə çəkir. Soruşurlar ki, ay Mamoy, bu nə işdi?

Mamoy Mahmud qayıdır ki,

– Ay camaat, bir qələdi eləmişəm, məni bağışlayın.

– Ayə, a kişi, bir söylə köpək nə eliyifsən?

– Vallah, ay camaat, heç özüm də bilmirəm nə qələtdir, ama eləmişəm.

---

[1] Matrax – qamçı

## GƏLİN, QAYNANA

Bir zalım qaynana varıymış. Gəlinə göz verif, işıq vermirmiş. Hər savax alatorandan gəlini yuxudan oyadarmış ki, qalx, get kalçanı aç, eydirsin. Comuşu sağsın. Bir belə, beş belə day gəlində daş-qaya ha döy. Hər savax isti yorğan-döşəkdən qalxmaq onu cana gətirmişdi. Bir gün gənə o başdan qaynana qışqırırı ki, ay filan filankəsin qızı, səni yatmağa ha gətirməmişəm, qalx, kalçanı aç, eydirsin. Gəlin gözünə döndüyüm qalxır. O qədər yuxulu olur ki, gedib kalçanın yerinə iti gətirif comuşun ayağına bağlayır. Qayıdıf gedir yatır. Qaynana da arxayınca qalxır. Gözünü oxalaya-oxalaya, donunun ətəyini yığa-yığa girir qara dama. Arvad əyilir ki, kalçanı çəkif bağlasın, it mırıldayır. İt dişini qımırdır. Arvad qorxusundan çığırıf, yıxılır. Day onun harayı hara çatacax? Amma içinnən qırıla-qırıla qalır.

Savaxlar bir də gəlini şirin yuxudan oyatmır. Deyirlər elə o zamandan da qaynanalar da yuxudan faraş qalxar, gəlini oyatmazdar.

## TAP GƏTİR, ÖZÜNÜNKÜNÜ APAR

Günnərin bir günü, Cefqa Musa çöldə danasını itirir. Ha axtarır tapammır ki, tapammır. Əlinə keçən özgə bir adamın danasını gətirif öz damına salır. Sən demə bunu görən olur. Tez çuğullayıb dana yiyəsinə xavar verir ki, bəs deməzsənmi, danan filan yerdədi. Dana yiyəsi başı alovlu özünü yetirir Cefqagilə ki, əşi, ayıf döymü mənim danamı niyə içəri salıfsan?

– Ə, a qarayığvallı hası köpəkoğlu xavar verdi? Heç qışqırıf eləmə. Dana məndədi. Özü də tapmışam. Get, sən də mənim danamı taf, gəti özününkünü apar.

## “COMUŞ BAĞA GİRDİ” ÇAL

Deyirlər kənddə toy varıymış. Hamı toy damına yığılıf-mış. Bir arvad yosunlu kişi də toy damına gedibmi. Gecə yarı onun arvadı eşiyə çıxır ki, comuş həyətdə yoxdur. Çatını qırıf qaçıf. Kişinin yaxşı bir üzüm bağı varıiymış. Comuş ola, yiyəsiz bağ ola. Girir bağa, bağın vayına oturur.

Arvad özünü yetirir toy damına. Nə qədər göz-qaşla, əl-ayaqla kişini başa salmaq istəyir ki, ay evi yıxılmış, bağ əldən getdi. Kişi heç vecinə də almır. Arvad axır əlacsız qalıb, zurnaçı İsmeyil kişiyə yaxınlaşır:

– Qadan alım, comuş bağa girdi, bağı dağıtdı. Bəlkə sən onu başa salasan. Bir “Comuş bağa girdi” çal. O da götürüf, bu sözdərin havasını çalır:

Ay dayısı, birini çal,
Birini sındır, birini çal.
Comuş bağa girdi çal,
Tənəkləri qırdı çal.

Elə o zamandan Saraşdıda qalıncabığlı adamı toy da-mında görəndə zurnaçı İsmeyil kişiyə yaxınlaşıb deyərdilər.

– Ay İsmeyil dayı, qadan alım, bir “Comuş bağa girdi” çal”!

# NAĞILLAR

## HƏZRƏT ƏLİ

Biri varmış, biri yoxmuş. Bir Həzrət Əli varmış. Bu Həzrət Əlinin iki oğlu varmış. Birinin adı İmam Həsən idi, o birinin adı İmam Hüseyn. Bir gün bunlar bir-birilə cahillik eləyerlər. Həzrət Əli gəlif soruşor:

– Niyə cahillik eləyersiniz?

Biri deyir:

– Mən deyərəm ibadət yaxşıdır, o deyer səxabət yaxşıdı. İndi hasımız düz deyerik?

Həzrət Əli deyir:

– Mən sizə söznən deyəmmərəm. Gərək aparam sizi gəzdirəm.

Bunlar çörək yeyif, düşdülər yola. Həzrət Əlinin arvadı Məhəmməd peyğəmbərin qızı idi.

Bunlar az getdilər, üz getdilər, dərə-təpə düz getdilər. Gəlif bir kəndə çatdılar. Bu kənddə toy vardı. Hamı çalıf, oxuyuf, oynayerdılar. Yalnız bir kişi oturuf namaz qıler. Bunlar gözdədilər, kişi namaz qılıf qurtardıqdan sonra, onunla salamlaşdılar. Bu zaman uşaqlardan biri su istədi kişidən.

Kişi dedi:

– Mən sənə su gətirən döyüləm. Get özün iç.

Həzrət Əli dedi:

– A kişi, nolar bu uşaqla bir az su versən.

Kişi dedi:

– Eh, kefin gəlif. O dombadam çalınan toy mənim oğlumundur. Mən gəlnimi qarşılamalıyam. İndi bir uşağa duruf su gətirem.

Həzrət Əli çevrilif uşaqlarına baxanda uşaqlar dedi:

– Bava agah oldu bizə.

Bunlar burda durmayıf getdilər. Onlar xeyli getdikdən sonra gördülər ki, gün qızıf, bu günün altında da bir arvad oturuf cəhrə əyirer. Bunun yanında da bir qabda su, bir az da qurut var. Həzrət Əli bununla salamlaşıf deyir:

– Sən dəlisən, bu günün altında oturuf işləyirsən? Gün səni yandırır.

Arvad deyir:

– Ay bala, mənim ərim naxırçıdı, günün altında işləyir. Mən necə kölgədə otrum.

Bu su adamı yandırar. Sən bu sudan içirsənmi?

– Mənim ərim qızmar sudan içif, qurutdan yeyir. O necə, mən də elə.

Bunlar sağollaşıb getdilər. Axşam oldu. Naxırçı öyə gəldi. Həzrət Əli uşaqları ilə onlara gəlif arvada dedi:

– Bir gecəlik qonaq qəbul eədrsinizmi?

Arvad dedi:

– Qoy gedim ərimnən icazə alem.

Arvad gedif ərindən rüsxət alır. Qonaqları öyə gətirirlər. Naxırçı çox kasıfmış. Onların qonağa verməyə heç nələri yox imiş. Naxırçının bir inəyi, bir danası varmış. Naxırçı arvadına deyir:

– Gəl qonaqları yaxşı yola salaq. Dananı kəsək.

Naxırçı duruf dananı kəsmək istəyəndə Həzrət Əli qoymur. Özü dananı kəsir. Naxırçının arvadı dananın ətini qazanda bişirif ortaya gətirir. Bunlar başlayırlar yeməyə. Naxırçı ilə arvadı görür ki, dananın əti heç əksilmir. Arvad naxırçıya deyir:

– Qonaqlarımız çox az yeyillər. Heç qazannan ət əksilmir. Bunlar yeyif qurtardıqdan sonra yatırlar. Səhər naxırçı tezdən qalxıf, naxıra gedəndə arvadına tapşırır onları yaxşı yola salsın. Naxırçı gedir. Bir az keçəndən sonra naxırçı dözmür. Deyir:

– Qoy gedim görüm arvad qonaqları necə yola saldı. Narazı getmədilər ki?

Naxırçı naxırı buraxıf öyə gəlir. O görür ki, qapıları bağlıdı. Pəncərədən baxıf görür ki, arvadının və uşaqlarnın başı stolun üstünə qoyuluf. Naxırçı daha burda durmayıf düşür yola. Az gedir, üz gedir, dərə-təpə düz gedir, gəlif bir təpəyə çatır. Bu təpənin üstündə bir qoca oturufmuş. Naxırçı qocaya salam verir. Qoca onun salamını alır. Qoca ondan hara getdiyini soruşor. Naxırçı başına gələnləri qocaya danışer. Qoca bir yarğana təpik vuror. Bu yarğan dönüf gözəl bir bağ olur. Gül gülü çağırer, bülbül bülbülü.

Qoca naxırçıya deyir:

– Get o bağdan üç alma dər.

Naxırçı gedif üç alma dərif gətirir. Qoca ona deyir:

– Gedərsən düz, bir şəhərə çatacaqsan. Bu şəhərin padşahının bir qızı var. Səni görən kimi sənə ərə gələcək.

Naxırçı yola düşör. Gəlif bir şəhərə çater. Şəhərdə padşahın öyünü tapıf elçi daşının üstündə oturur. Bunu padşahın yanına aparerlar. Qız onu görən kimi deyir:

– Mən ona ərə gedəcəyəm.

Qızı naxırçıya ərə verirlər. Naxırçı ilə qız tək qaldıqda naxırçının yadına almalar düşür. O, almaları çıxardıf deyir:

– Mən bu almaları padşaha aparıf gəlirəm.

Qız deyir:

– Getmə. Əyər getsən məni bitr də götməyəcəksən.

Oğlan qıza qulaq asmer. Almalarını götürüf padşahın yanına gedir. Padşah almaları yeyir. Almalar onun xoşuna gəlir. Oğlana deyir:

– Get bu almadan beşini də gətir.

Oğlan yola düşür. Gəlif həmən qocaya çater. Qocadan həmən almadan istəyer. Qoca yarğana təpik vuror. Yarğan dönüf bağ olor. Qoca bağdakı dananı naxırçya göstərif deyir:

– Bu dana sənin danana oxşuyurmu?

– Eynən mənim danamdı. Mən onu qonaqlara kəsmişəm. Bura hardan gəlif çıxıf.

Qoca ona bir arvad və iki uşaq göstərir. Naxırçı onları görüf deyir:

– Bu ki mənim arvadım və uşaqlarımdı. Onları qonaqlar öldürmüşdülər.

Qoca naxırçıya deyir:

– İndi fikirləş. İstəyirsən arvadının, uşaqlarının yanında qal, istəyirsən padşahın qızının yanına get. Naxırçı öz arvadının, uşaqlarının yanında qaldı. Onlar xoşbəxt oldular. Siz də xoşbəxt olun. Siz yüz yaşayın, mən iki əlli. Hansı çoxdu onu götürün.

## NURXATININ NAĞILI

Biri var imiş, biri yoxmuş, bir kəddə yaşayan bir ailədə yeddi qardaş varıymış. Onların bacısı yoxmuş. Qardaşlar meşədə ovçuluqla məşğul olarlarmış.

Bir gün qardaşlar öz valideynlərinə belə bir şərt qoyurlar ki, onlar meşəyə gedəcəklər. Əgər anasının qızı olsa qa-pıdan ələk assınlar, onda onlar evə qayıdacaqlar. Əgər ki oğlu olsa xəlbir assınlar, onda onlar baş götürüb gedəcəklər, bir də

kəndə qayıtmayacaqlar. Bunu deyib qardaşlar doğma kəndlərini atıb gedirlər. Bir müddətdən sonra onların bacısı olur. Valideynlər sevincək qapıdan ələk asırlar. Gözü tökülmüş düşmənlər ələyi götürüb yerinə xəlbir asırlar. Bunu qardaşlar görüb başlarını götürüb meşəyə gedirlər.

Bunlar getməkdə olsun, sizə kimdən xəbər verim, onların anadan olmuş bacılarından. Qız böyüyüb yekə qız olur. Adını Nurxatın qoyurlar. Bir gün qızlarla bərabər Nurxatın düzdə oynaşırdı. Bir də qızlardan birinin üzüyü itir. Hamı and içir ki, üzüyü götürməyiblər. Nurxatının da ata-anası ölmüş, qardaşlarından da xəbəri olmadığı üçün özünün yalnız bir buzoyunun canına and içir ki, üzüyü götürməyib. Evə gəlib görür ki, buzoyu ölüb. Onu kəsdikdən sonra qarın-qartasını götürüb çaya gedir. Nurxatın ağlaya-ağlaya qarln-qatanı yuyurdu. Bir də bir qarğa qızın səsini eşidib yaxında bir ağacın budağına qonur.

Qızdan soruşur:

– Qız, niyə ağlayırsan?

Nurxatın başına gələni təsvilatı ilə qarğaya söyləyir.

Qarğa deyir:

– Sən ağlama, sənin yeddi qardaşın var, onlar meşədə yaşayırlar. Get evdən bir qarın yağ və bir torba dən gətir.

Qız qarğa dediyi kimi eliyir. Qarğa torbanın aşağısından bir deşik açıb deyir:

– Sən bu tökülən dənin izi ilə get, ancaq o yana-bu yana dönmə, yoxsa yolu itirərsən.

Qarğa havaya qalxır və dən yerə tökülməyə başlayır. Nurxatın da onun izi ilə getməyə başlayır. Az gedirlər, üz gedirlər, dərə, təpə düz gedirlər, axır gəlib meşədə bir böyük evə çatırlar.

Qarğa deyir:

– İndi qardaşların meşədə odun darayırlar, ov vururlar, axşama hamısı qayıdacaqlar. Bunu deyib, qarğa yağı da götürüb uçub gedir.

Nurxatın evə girir, ev-eşiyi sahmansız görüb başlayır ev-eşiyi yığmağa, qab-qacağı yumağa, xörək bişirməyə. Axşam o ayaq səsləri eşidir və sandığın içinə girib gizlənir. İçləri girən qardaşlar evi belə nizamda, səliqədə görüb məəttəl qalırlar. Bir gün belə, iki gün belə, üç gün belə. Axırda qardaşlar belə qərara gəlirlər ki, gərək onlar növbə ilə keşik çəksinlər, görsünlər kimdir bu işləri görən? Əvvəlcə böyük qardaş keşik çəkir, ancaq bir müddət keçdikdən sonra onun gözünə yuxu gedib yatır. Beləliklə, qardaşların hamısı keşik çəkərkən yatırlar, yalnız kiçik qardaşın növbəsində o barmağını kəsib arasına duz səpir və yata bilmir. Nurxatın sandıqdan çıxanda qardaşı tez onu tutur. Qız başına gələni təfsilatı ilə qardaşına söyləyir. Bunlar bir də bacı-qardaş kimi görüşürlər. Axşama qardaşları da işdən qayıdırlar, necə olduğu kimi hamısını onlara da danışırlar. Hamı sevinir, bir də bacıları ilə görüşürlər.

Qardaşları Nurxatına demişdilər ki, onların bir pişiyi var, əgər nə yesən gərək mütləq o kişiyə də verəsən, yoxsa pişik ocağa üfürüb onu söndürə bilər. Onda gərək ocaq dalınca dağın təpəsində yaşayan ağ divin yanına gedəsən ki, ondan kösöv alasan. Nurxatın da həmişə yediyi paydan pişiyə də verərdi. Ancaq bir dəfə necə olursa, qardaşının yerini yığanda bir kişmiş tapır, ağzına atıb yeyir. Pişik də ocağı üfürüb keçirir. Nurxatın elədiyinə peşman olur. Gərək axşama qardaşlarına xörək hazırlaya, yoxsa onlar yorunuq və ac olacaqdılar. Bunu fikirləşən Nurxatın qərara gəlir ki, gərək ağ divin yanına gedə.

Üz qoyub qardaşları dediyi dağa tərəf gedir. Gəlib divin evinə çatır. Görür ki, burada bir qız asılıb saçından. Qız Nurxatından soruşur:

– Sən buraya nəyə gəlibsən? Bilmirsənmi ki, bura ağ divin evidir?

Nurxatın cavab verir:

– O, buraya ocağa ehtiyatı olduğu üçün gəlib və başına gələni təəssüratı ilə qıza nəql edir.

Qız deyir:

– Mənə bir çubuq çək.

Nurxatın belə də edir. Qız düşüb ağ divin ocağında kösövdən Nurxatına verir. Sonra qızın tapşırığı ilə ona bir də çubuq çəkir, qız saçından yenə asılır. Nurxatın sağollaşıb evlərinə gedir.

O getməkdə olsun, sizə kimdən xəbər verim, ağ divdən. Ağ div evinə gəlib deyir:

– Adam-badam iysi gəlir, yağlı qoğal iysi gəlir.

Saçından asılmış qızdan soruşur:

– Buraya adam gəlmişdimi?

O cavab verir:

– Adam ayağı buraya dəyməmişdi.

Div qıza inanmır. Adamın izinin iysi ilə gedib Nurxatıngilin qapısına çatır. Div ondan tələb edir ki, gərək o götürdüyü kösövün əvəzinə qapıdan ona barmaqlarını uzada. Nurxatın barmaqlarını qapıdan uzadır. Div başlayır onun barmağından qanı sormağa. Bir belə, iki belə, üç belə. Axırda qardaşlar görürlər ki, bacıları gündən-günə zəifləyir. Onlar bacılarından tələb edirlər ki, gərək o söyləyə niyə belə hala düşüb. Nurxatın əlacsız qalıb başına gələni qardaşlarına söyləyir. Bunu eşidən qardaşlar belə qərara gəlirlər ki, gərək divi öldürsünlər.

Div yenə həmişəki kimi eyni vaxtda Nurxatıngilin evinin yanına gəlir, qapıya yaxınlaşdıqda qardaşların qazdığı quyuya düşür. Qardaşlar tez onun üzərini torpaqlayırlar. Bunun yerinə yekə bir təpə əmələ gəlir. Təpənin üzərində pencər bitir. Nurxatın pencərdən yığıb qardaşlarına xörək bişirir. Axşam qardaşlar işdən qayıdıb başlayırlar xörəyi yeməyə. Qardaşların hamısı quzuya dönürlər. Nurxatın ağlaya-ağlaya qardaşlarını otarırdı. Bir gün yenə o qardaşlarını otardığı vaxt gəlib saçından asılmış qızın yanına çatır. Başına gələni təfsilatı ilə yenə qıza nəql edir. Ondakı kimi Nurxatın qızın əmri ilə ona bir çubuq çəkir. Saçından asılmış qız düşür və deyir:

– Mən sənin qardaşlarına çubuq çəkəcəm, ancaq olmaya-bilməyə sən onlara çubuq çəkəndə ufuldayasan.

Qız başlayır Nurxatının qardaşlarına çubuq çəkməyə. Nurxatın hamısına dözür, ancaq kiçik qardaşının növbəsində dözməyib deyir:

– Yay, bacın ölsün qardaş.

Kiçik qardaşdan başqa o biriləri insana çevrilirlər. Nurxatın elədiyinə peşman olur. Saçından asılmış qız deyir:

– İndi ki belə oldu, mən sənin qardaşlarına çubuq çəkəcəm, ancaq bu axırıncıdır, olmaya yenə ufuldayasan. Qız Nurxatının kiçik qardaşına yenə çubuq çəkir, o yenə insana çevrilir. Hamısı sevinir, inadlanır. Sağ-salamat evlərinə qayıdırlar.

Göydən üç alma düşür. Biri mənim, biri özümün, biri də nağıl deyənin.

## BƏHLUL DANƏNDƏ

Bəhlul Danəndə adlı ağıllı, çoxbilmiş bir qoca varıymış. Ancaq babalar demişkən barmağın beşi də eyni deyil. Onun

bir qardaşı var imiş. Bu qardaş padşahıymış, özü də hamıya zülm edif, qan uddurarmış.

Bəhlul Danəndə qardaşının bu hərəkətlərinə acıyır, özünü dəli kimi qələmə veribmiş.

Bu vilayətə günlərin birində bir qatırçı gəlir. Aj olduğu üçün bir qarıya yüz dənə yumurtda pişirder. Yumurtdaları yiyir, pulunu vermer.

Altı aydan sonra qatırçının yolu gənə həmən vilayətdən tüşör. Qarı qatırçını tanıyan kimi padşaha şikayətə geder.

Padşah başdıyır hesablamağa. Deyer ki, bu yumurtaların hər birinnən bir cücə çıxa bilərdi, onlar toyuq olanda yumurtdayardılar. Xülasə, o qədər hesaflıyır ki, yazıx qatırçının nə ki varı-yoxu var, qarıya verer.

Qatırçı oturub ağlamağa başdıyır. Bu zaman bir nəfər yolla keçən soruşor:

– Niyə ağlıyırsan?

Qatırçı əhvalatı söylüyür. Yolçu qatırçıya məsləhət görör ki, Bəhlul Danəndə ilə məsləhətləşsin.

Qatırçı Bəhlul Danəndəyi taper, əhvalatı söylüyür. Bəhlul Danəndə onu rahat salıb yollaner qardaşı padşahın yanına. Görör ki, nökərlər taxıl səperlər. Gəlib qardaşına deyir:

– Ay qardaş, niyə sənin bağını nökərlər bejərer, gətir taxılı, mən səpərəm.

Qardaşı razı olor. Bəhlul taxılı tökör böyük bir qazana bişirer. Bişmiş taxılı gətirif səper. Padşaha xavar çater ki, bəs qardaşın taxılı zay edif.

Padşah eşitdiklərini gördükdən sonra Bəhluldan soruşor ki, o niyə belə eder.

Bəhlul deyer:

– Bişmiş yumurtdadan toyuq çıxarsa, onda bişmiş taxıldan da sünbül çıxar.

## MAHMUDUN NAĞILI

Biri varmış, biri yoxmuş, kəndimizdə bir ağa yaşarmış. Bu kişinin də bir neçə nökəri varmış. Biri mal-qaraya baxar, biri ev işləri ilə məşğul olar, biri də əkin-səpin işinə yarayarmış.

Əkin-səpin işi ilə məşğul olan nökərin adı Mahmudmuş.

Yayın isti günlərindən birində ağa axşamüstü nökəri yanına çağırıb deyir:

– Mahmud, sabah gedib Göyçəlidəki biçənəyin otunu biçərsən.

Mahmud:

- Baş üstə!- deyib gedir. Nökər yuxudan səhər tezdən oyanır. Biçinə getməyə hazırlaşır. Ona səhər yeməyinə hörrə verirlər.

Mahmud yağsız-susuz hörrəni içir, kərəntini götürüb yola düşür. Sambana-sambana gedib Göyçəliyə çatır. Ağanın dediyi biçənəyin başında armud ağacı varmış. Nökər ağaca yaxınlaşanda deyir:

– Salam, armud!

Armudun dilincə də cavab verir:

– Salam, Mahmud!

Guya armud ağacı ondan soruşur:

– Səhər nə yemisən, Mahmud?

– Hörrə, armud!

Armud ağacı deyir:

– Yat, Mahmud, yat!

Mahmud papağını başının altına qoyub yatır. Axşam oyanıb fışdırıq çala-çala kəndə gəlir.

Ağa soruşur:

– Otu biçdinmi, Mahmud?

– Hə, ağa, biçmişəm. Bir az yarımçığı var. Sabah yarım saata qurtararam.

Ağa:

– Yaxşı, oldu!- deyir.

Ertəsi gün Mahmud yenə hörrə içib biçinə gedir. Yenə də armud ağacı ilə salamlaşıb hörrə içdiyini bildirir. Axşama kimi yatır.

Qayıdanda ağa soruşur:

– İşlər necədir, Mahmud? Otu biçdinmi?

Nökər cavab verir:

– Lap qurtarmaq üzrəyəm. Doğrusu, iyirmi dəqiqəlik işim qalıb.

Ağa deyir:

– Sabah yəqin ki, qurtararsan.

– Gərək qurtaram.

Ağanı fikir götürür. Fikirləşir: “Bu necə olur ki, nökər iyirmi dəqiqəlik işi üç gündə başa çatdıra bilmir. Burada bir sirr var, gərək öyrənəm. ”

Səhər açılanda gizlin yolla nökərin dalınca getməyə başlayır. Onun hərəkətlərinə, dediklərinə fakir verir. Gəldiyi nəticə də belə olur: nökər doyunca yeməlidir.

Axşam nökər qayıdıb gəlir, amma ağa ondan heç nə soruşmur. Arvadına tapşırıq verir:

– Arvad, səhər tezdən Mahmuda ən yaxşı xörəklər verərsən.

Arvad da:

– Yaxşı! – deyir.

Səhər açılan kimi Mahmud nahar edib yola düşür. Kefi kök, damağı çağ. Mahnı oxuya-oxuya gəlib armud ağacının yanına çatır. İlk sözü də həmişəki kimi bu olur:

– Salam, armud!

Öz səsini eşidir:

– Salam, Mahmud!

Armudun dilincə soruşur:

– Mahmud, nə yemisən?

Yenə öz səsini eşidir:

– Quymaq!

Armudun dilincə eşidir:

– Bax indi lazımdı şirin cana qıymaq!

Bundan sonra Mahmud on-on beş dəqiqədə bütün biçənəyin otunu kərəntiləyib kəndə gəlir. O, kəndə çatanda heç gün günorta da deyilmiş. Ağa nökərin qayıtdığını görüb, amma heç nə soruşmur.

## HEÇ KƏSİN QARA ÇUXASI YATMASIN

Biri varmış, biri yoxmuş, dövlətli bir kişi varmış. Bunun da cavan bir naxırçısı varmış. Varlı kişi sonsuz idi, övlad həsrəti ilə yaşayırdı. Yolun yeddinci ayrıcında bir nəfər mollalıq edirdi. Varlı kişinin naxırçısının fikrinə mollalıq etmək düşür. Bir gün günorta çağı o, mollaları ağasının qapısına qaytardı. Ağa soruşdu ki: ay oğul, belə tez mal qapıya gələrmi? Oğlan dedi:

– Ay ağa, daha mən mala getmirəm.

– Niyə getmirsən? Yoxsa yaşayışın pisdirmi? – Ağa soruşdu. Oğlan ağanın sözünə baxmayıb naxırçılıqdan boyun qaçırtdı. Gedib meşədə ağacdan bir kitab bağladı. Kitabın içini

kömürlə yazdı. Yeddi yol ayrıcında duran molladan bir xeyli aralı durub mollalığa başladı. Bir gün bir bacı-qardaş yoldan keçirlərmiş. Onlar yolda bu nurani kişiyə rast gəlirlər. Salamdan sonra öyrənirlər ki, bu kişi molladır. Bacı molladan soruşdu:

– Əmi, bir bax gör, qsrdaşımın uşağı nə olacaq? Molla kitabın bir tərəfini çevirdi və dedi:

– Əkiz uşağı olacaq. Biri qız, o biri isə oğlan. Bacı-qardaş evə qayıtdıqları zaman onların qabaqlarına bir qız uşağı yüyürüb dedi:

– Dayımın əkiz uşağı olub.

Bacı-qardaş məəttəl qaldılar. Dedilər:

– Bu necə biləyən molladır. Haradan bilirdi ki, biri qız olacaq, o biri oğlan.

Bir gün elə oldu ki, padşahın xəzinəsini yardılar. Dedilər ki, Şahdağın Qaf dağında bir molla var. Padşah bu vaxtacan otuz doqquz molla çağırtdırmışdı. Bu da qırxıncı molla idi ki, gətirdilər. Molla padşaha dedi:

– Padşah sağ olsun, mənə qırx gün möhlət ver, qırx dənə də qaz verin.

Molla qazları da götürüb yola düşdü. Yolda qırx quldura rast gəlir. Quldurbaşı bir nəfəri göndərir ki, O, adamdan soruş görək o, qazları hara aparır. Quldur gəlib salam-kəlamdan sonra dedi:

– Qaza köməkçi istəmirsinizmi?

Molla dedi:

– Bu da o deyil ki, padşahın xəzinəsini yarasınız.

Quldur geri qayıtdı və molla dediyi sözləri quldurbaşıya çatdırdı. Quldurbaşı da qorxusundan qızılların yerini mollaya nişan verdi. Molla padşaha xəbər verdi ki, kitab göstərir ki, qızıllar filan daşın altındadır.

Bundan sonra padşah vəzirə, vəkilə dedi:

– Buna nə verək ki, razı olsun?

Belə ki, xəbər aldılar, molla dedi ki, allahın bacısı oğluyam, dincəlməyə gəlmişəm. Padşah dedi ki, gedər allaha xəbər verər. Götürüb bütün qızılları mollaya verdilər. Molla fikirləşdi ki, bu qədər yalan danışmaq olmaz. Gedim heç olmasa qonşu ölkədə yaşayım. Padşah bildirdi ki, sabah tor atılacaq, tora nə düşdüyünü desən, sənə bir məmləkət verəcəm, yaşa. Molla dedi:

– Birinci tordan xərçəng, ikinci tordan laxa balıq, üçüncü tordan dəvə yumurtası çıxacaq.

Doğrudan da tordan dəvə yumurtası, içindən də balası çıxdı. Sən demə torun içinə dəvə yumurtasını Qara Çuxa gətirib salıb. Padşah baxdı ki, bu düzdür. Mollaya dedi:

– Gələrsən hüzuruma, sənə məmləkət verəcəm, yaşa.

Bir gün molla görür ki, çayın qırağında Qara Çuxa uzanıb, çox pis haldadır. Soruşur ki, niyə uzanmısan?

O dedi:

– Sən məni biabır etdin, Gör dəvə də heç yumurtlayarmı, içindən də bala çıxarmı? Mən sənin Qara Çuxanam, gedib Bağdaddan dəvə balasını gətirib tora saldım. İndi də mən bu günə qalmışam.

O vaxtdan məsəl qalıb: “Heç kəsin qara çuxası yatmasın”.

## ÜÇ QARDAŞ

Bir kasıb qadının üç oğlu olur: biri naxırçı, biri dəyirmançı, biri irəşvər. Günlərin birində naxırçı talada mal otarırmış. Bu vaxt bir tacir başqa bir şəhərə alverə gedirmiş. Yolda taciri bərk qızdırma tutur. Görür ki, gedə bilmir, bərk ağrıyır.

Bir ağacın kölgəsində dəvəni yatırdır. Deyir bir balaca dincəlim, görüm bu ağrı məndən rədd olarmı. Tacirin gözünə yuxu gedir, dəvə də gedib naxıra qarışır. Naxırçı görür ki, malın içində bir dəvə var, beli yüklüdür. Dəvənin belindəki xurcunu açanda görür ki, heybənin iki gözü də dolu qızıldır. Deyir çox şükür xudaya, bizi də yada saldın. Daha kasıblığın daşını tulladıq. Dəvəni gətirir düz qapıya. Anası sual edir: “Oğul, bu dəvə kimindir? Oğlu deyir ki, bizə qonaq gəlib. Anası deyir, oğul, bu qonaq ikidən-birdən bura gəlibmi? Oğlu deyir “yox”. Anası soruşur: “Olmaya bu dəvə oğurluqdur”. Oğlu deyir: “Yox, ana, sən bilirsən ki, biz oğurluq etməmişik”. Anası deyir: “Yaxşı, a bala, gözləyək, görək qonaq gəlirmi?”

Bir az gözləyirlər, sonra oğlu deyir:

– Ana, get, qardaşlarımı çağır.

Dəyirman yaxın idi, arvad gedib dəyirmançını çağırır. Onun geri yanında pinəçilər işləyirdi, kiçik oğlunu da çağırır. Gəlirlər, baxırlar, görürlər ki, dəvənin belindəki xurcun dolu qızıldır. Düşünürlər ki, neyləsinlər bunu. Deyirlər ki, evin içini eşib ora basdıraq. Evin içi torpaq idi, eşirlər, qızılı basdırırlar. Dəvəni də kəsirlər. Arvad deyir:

– A bala, dəvəni niyə kəsdiniz?

Deyirlər ki, dəvə naxoşlayıb.

Ana deyir:

– Oğul, bu dəvə oğurluqdu, gedib qazıya xəbər verəcəm.

Naxıra gedən qardaş keçəl idi, dəyirmanda duran kosa, irəşvər də tora baxır. Keçəl fəndcil olar həmişə. Arvad deyəndə ki qazıya xəbər verəcəm, kiçik qardaş deyir: “Kiçik olanda nə olar ki, gəlsəniz iki kəlmə söz deyəm”. Deyirlər “de”. Deyir: “Gəlsəniz anamızı da öldürək”. Keçəl deyir, allah çörəyini götürməsin, yaxşı ananı da adam ölderərmi? De-

yir: “bunun yaşı keçib, bunun indən belə yaşaması da heçdir. Öldürək, yoxsa qazıya yerini deyib bizi tutduracaq” Keçəl qardaş deyir: “Qorxmayın, anam mənim boynuma”.

Qızılın ikisini də cibinə qoyur, kəndə sarı çıxanda baxır ki, üç adam gəlir, birinin çiynində toy (toy – yəni nağara – E. M.) var. “Qardaş, – deyir, – nəçisiniz? “Deyirlər: “toyçuyuq. ” Keçəl qardaş deyir:

– İki qiymətini verirəm, gəlin, bizim qapıda toy-zurna düzəldin.

– Toyçular gəlirlər, toy-zurnanı düzəldirlər, başlayırlar çalmağa. Arvad qapıya çıxır, deyir “a bala, bu nə toydu?” Deyirlər: “Ana, bu kəndə bir qərib molla gəlibdi, səni toynan ona veririk”. Deyəndə qarının sümüyü yumşalır, deyir “verirsiniz verin, dərdin alım, gedərik, neyləyək”

O idi ki, qarının ərlik vaxtı deyildi, korluq vaxtı idi. Qızılın yerini deməsin deyə qarını başlarından rədd eləyirlər. Onu toynan köçürürlər o qoca mollanın evinə.

Sizə kimdən xəbər verim, tacirdən. Tacir həmin gecə ağacın dibində qalır. Tezdən qalxanda görür ki, nə qızıl var, nə dəvə. Baxanda görür ki, çalada mal otlayır. Deyir: “gedim naxırçıdan xəbər alım”. Yaxınlaşır, salam verir naxırçıya. Naxırçı salamını alır. Deyir:

– Ay oğul, bu kənddənsənmi? Deyir: – Bəli. Tacir deyir:

– Oğul, dünəndən bir dəvə itirmişəm, belində də xurcun.

İki min manat muştuluq verirəm, bəlkə dəvəni görübsən. Naxırçı dedi:

– Yox əmi, mən dəvə-zad görməmişəm. Tacir dedi:

– Ay oğul, buralarda mal otarırsan, bəs necə olar ki, görməyibsən.

Naxırçı deyir:

– Allah kəssin, bu naxırçılıq da peşədirmi?

Tacir deyir:

– Ayə, özündən şikayət eləmə, mənim dərdimi ağla, dəvə gördünmü?

Naxırçı dedi:

– Vallah, altı ildi mala gedirəm, hələ qazandığım bircə inəkdi.

Tacir dedi:

– Oğul, Allah qazancını artıq eyləsin. Mən sənin qazancını əlindən almıram. Dəvə gördünmü? İki min manat muştuluq verirəm.

Naxırçı dedi:

– Təpəl comuşu görürsənmi?

Tacir dedi:

– Görürəm.

Naxırçı dedi:

– Bax, hər sabah belinə minirəm, suyun bu tayına adlayıram, axşam belinə minirəm, o tayına adlayıram.

Tacir dedi:

– Mən səndən söz soruşuram, camuş xəbər almıram. Sonra gördü bundan bir şey çıxmayacaq, acıq eləyib getdi. Gedib dəyirmana çıxdı. Dəyirmançıya salam verdi, soruşdu:

– Ay bala, sən də bu kənddənsənmi?

Dedi: "Bəli"

Tacir dedi:

– Ay oğul, indicə bu calada bir naxırçıya rast oldum. Deyirəm dəvə gördünmü, deyir inəyim belə oldu, deyirəm dəvə gördünmü, iki min manat muştuluq verirəm, deyir comuşum belə oldu.

Dəyirmançı da onun qardaşı idi axı, o saat başa düşdü, dedi:

– Onun başını ağlayım, avara adamdı.

Tacir soruşdu:

– Ay oğul, iki min manat muştuluq verirəm, dəvə gördünmü?

Dəyirmançı dedi:

– Vallah, əmi, iki daş işləyir, gündə üç ton tullayır.

Tacir düşündü ki, görəsən, bu kəndin hamısımı belədir.

Dedi:

– Ay bala, üç ton yox, beş ton tullasın, mən səndən dəvə xəbər alıram, dəyirman yox.

Dəyirmançı dedi:

– Əmi, bircə qırıq dabanını qaldırsam dörd ton tullayır.

Tacir dedi:

– Ay oğul, mən səndən dəvə xəbər alıram, dəyirman beş tulladı, səkkiz tulladı mənlik deyil. İki min manat da muştuluq verirəm, dəvə gördünmü?

Dəyirmançı dedi:

– Əmi, görmürsənmi, bir una bax, vəhləm kimidir. Gör bir nə təhər undur.

Kişi bundan da acıq elədi, gəldi kiçik qardaşlarının yanına çıxdı. Salam-kəlamdan sonra dedi:

– Ay bala, sən də bu kənddənsənmi?

Dedi: "bəli"

Tacir dedi:

– Ay bala, məni bağışla, bir dəyirmançıyla naxırçıya rast oldum, heç biri düz söz danışmadılar.

Bu da onların qardaşları idi: – Eh, dedi, – başlarını ağlayım, bu kənddə onlardan pis adam yoxdur.

Tacir dedi:

– Ay bala, dünəndən bir dəvə itirmişəm, bəlkə dəvə görəsən.

Oğlan dedi:

– Əmi, burda yerə baxarsanmı, qapqara göyəm kimidir.

Kişi baxdı ki, bu da sərsəm danışır. Odur ki, bundan da acıq edib çıxdı. Kəndin içinnən keçərkən qardaşların anasına rast gəldi. Arvad da ömründə yalan danışmamışdı. Birdən tacir arvada toxundu. Arvad başını qaldırıb gördü ki, tacirdir.

Dedi:

– Qərib adamsan, xətrinə dəyərəm, pis dəyərəm, yolunnan düz get. Niyə mənim qoluma vurdun.

Tacir dedi:

– Ay bacı, mənim evim yıxılıb, sənin nə vecinədir.

Qarı dedi:

– Ay kişi, nə olub ki, evin yıxılıb, qərib adamsan, gedək çaydan, çörəkdən ye, iç.

Tacir dedi:

– Belə zəhirmar yeyim, çörəkmi axtarıram, evim yıxılıb. Dünəndən bir dəvə itirmişəm.

Arvad o saat kişinin sözünü kəsdi:

– Bir əylən, əylən – dedi, – belində də bir xurcun qızıl, eləmi?

Kişi dedi ki, bəli, iki min manat muştuluq verirəm.

Arvad dedi:

– Mənə muştuluq-zad lazım deyil. Dəvəni mənim oğullarım gətirib, yetirəndə dəvəni kəsdilər. Ətini üç qardaş üç yerə pay elədilər. Qızılı da eşib evin içinə basdırdılar. Sonra mənim toyum oldu.

# “AŞIQ QƏRİB” DASTANININ CƏNUB-QƏRBİ GÜRCÜSTANDA YAZIYA ALINMIŞ VARİANTINDAN POETİK PARÇALAR

* * *

Marat gecəsində dilək dilədim,
Şükür diləyimi verdi haq mənim.
Bir dilək dilədim, haqqa yaradı,
Ərənlər eşitdi qibləgah mənim.

Ərənlər üstümə gəldi dəminən,
Ürəyim dolmuşdu dərdi-qəminən
Mənə içirdilər qırxlar cəminən,
Dilim əzbər oxur zikrullah mənim.

Ərənlər Məqsudə yetə dedilər,
Onlar bir-birini tuta dedilər,
Tiflisdə Sənəmi buta dedilər
Onda oldu günüm, ayım zar mənim.

* * *

Ərənlər bu qəflətdə
Etdilər bibardar məni,
Bilmədiyim bildirdilər,
Etdilər xəbərdar məni.

Qırmızı gül əkməyincə,
Xırmanına tökməyincə,
Cəfasını çəkməyincə,
Qəbul etməz o yar məni.

Məqsud[1] deyər and edədi,
Zülfünü kamand elədi,
Bir muyuna bənd elədi
Sənəm adlı o yar məni.

* * *

Əylən, aşıq, səndən xəbər alayım,
Aşıqlar gəldiyi yoldan ver xəbər.
Cənnət qapısında nədir yazılı,
Qüdrətdə çalxanan göldən ver xəbər.

Cümlə məleykələr ora vardılar,
Orda mizan-tərəzini qurdular.
Yetmiş iki millət adı verdilər,
Ərəbcə oxunan dildən ver xəbər.

Məqsud der, bir xata gəldi dilimə,
Çox dövr etsəm çara yoxdu ölümə.
Cümlə məleykələr gedər yoluna,
Haqqa doğru gedən yoldan ver xəbər.

* * *

Ana, bir xoş ulduz doğmuş,
Ana, Tiflis şəhərində.
Geədyim, bəlkə bulayım,
Ana, Tiflis şəhərində.

---

[1] Qəlibin adı – Maqsud, bəzi variantlarda isə Rəsuldur.

Pambıqdan bəyazdır üzü,
Xumarlanıb iki gözü,
O Xoca Sənanın qızı,
Gözlər Tiflis şəhərində.

Əlinə almışdır tuta,
Yolsuz gəzən çəkər xəta.
Məqsudə verdilər buta,
Sənəm Tiflis şəhərində.

* * *

Usta, çox yemişəm nemətin, nanın,
Mən gedirəm açıq qalsın meydanın.
Vəfası yox imiş zalım ustanın,
Usta, mən Tiflisə getməli oldum.

Genə bahar olsun, qoy gəlsin yazı,
Ötüşsün ördəyi, durnası, qazı,
Usta, sən mənə ver sədəfli sazı
Usta, mən Tiflisə getməli oldum.

Yeyin-yüyrək olar iyidin atı,
Ərşə havalanar dadi fəryadı,
Aşıq Məqsud eylər sizə minnəti,
Usta, mən Tiflisə getməli oldum.

* * *

Şahimərdanın dilindən
Vətən Qərib söyləsinlər.
Düşmüşəm qəm dəryasına,
Dərdə təbib söyləsinlər.

Canım qurban olsun mərdə,
Fələk saldı məni dərdə.
İndən belə qürbət eldə
Dövran sürüb söyləsinlər.

Ərənlər verdi muradım,
Qırxlardı mənim ustadım.
Əvvəl Məqsud idi adım,
İndi Qərib söyləsinlər.

* * *

Sənə qurban olum, gülüzlü xoca,
Canım xoca, anam camedə qaldı,
Nə günüm gündüzdür, nə gecəm gecə,
Canım xoca, anam camedə qaldı.

Biz də aşıb gəldik dağ ilə daşlar,
Axır gözlərimdən hicran ataşlar,
Siz də minnət edin, ağa qardaşlar,
Canım xoca, anam camedə qaldı.

Axşam nasmzında buldum naibi,
Üzündən qaldırdım ədəb-ayibi.
Yetər, gəl ağlatma Aşıq Qəribi,
Canım xoca, anam camedə qaldı.

## LƏZGİ ƏHMƏDLƏ DEYİŞMƏ

**Ləzgi Əhməd:**

O nədi ki, göydən gəldi yox oldu,
Onun üçün cümlə-aləm tox oldu,
O nədi ki, əl dəyməzdən ox oldu,
O nədir ki, çarx dəyməzdən dönər hey?

**Aşıq Qərib:**

O yağmırdı, göydən gəldi yox oldu,
Bərəkətdən cümlə aləm tox oldu.
O pis sözdü - əl dəymədən ox oldu,
O da gözdü – çarx dəyməzdən dönər hey.

**Ləzgi Əhməd:**

O nədi ki, altı niqab, üstü qab,
O kimdi ki, kimdən aldı bir hesab,
O nədi ki, çəkgi çaxmaq, tuyu qab,
Pərvaz edər, yuvasında dönər hey?

**Aşıq Qərib:**

O balıqdı – altı niqab, üstü qab,
Yunus peyğəmbərdən aldı bir hesab,
Tovuz quşu – çəkki çaxmaq, tuyu qab,
Pərvaz edər yuvasında dönər hey.

**Ləzgi Əhməd:**

O nədi ki, suya girər, islanmaz,
O nədi ki, yer altında paslanmaz,
O nədi ki, ətin kəssən səslənməz,
O kimdi ki, qatarlanmış, çəkər hey?

**Aşıq Qərib:**

O günəşdi – suya girər islanmaz,
Ləl-cəvahir yer altında paslanmaz,
O məftədi – ətini kəssən səslənməz,
Əzraildi qatarlanmış çəkər hey.

**Ləzgi Əhməd:**

Ləzgi Əhməd zikr eylədi vallahı,
Dəhrinunda zikr eylədi billahı,
Kimlər yapdı Kəbəni, Beytullahı,
Eşiyin daşını kimlər yonar hey?

**Aşıq Qərib:**

Aşıq Qərib zikr eylədi vallahı,
Pir əlindən badə içdi, billahi.
Xəlil peyğəmbər yapdı Kəbə-Beytullahı,
Eşik daşını İsmayıl yonar hey.

* * *

Xiridar olanlar töksün qumaşı,
Meydanı qurulu bir düz istərəm.
Bir sarı pərdədən duymasın naşı,
Yanmamış ocaqdan bir köz istərəm.

Hankı bağdı – qırx ilbir gül bitirər?
Hankı bağban onu ələ gətirər?
Hankı taxtdı – cansız sultan oturar?
Dörd can, beş cəsəddi, on göz istərəm.

Aşıq Qərib içdi pirindən tası,
Bir mal aldım yoxdu ondan bahası.

Əcəb nədir bu sözlərin mənası,
Ya haqq aşığısan, mən tez istərəm.

* * *

Təbrizin vəsfini söyləyim sizə,
Güllü cəvahirdi malı Təbrizin.
Gözəllər bəzənir bayramda, toyda,
Geyilər yaşılı, alı Təbrizin.

İpəyi Zilannan bükülür gəlir,
Sürüsü Muğannan çəkilir gəlir,
Qəhvəsi Yəmənnən tökülür gəlir,
İşlər hər tərəfə malı Təbrizin.

Təbrizin xanları neçə-neçədi,
Çaxır ayvanları əlvən şüşədir.
Səksən min məhlədi, yüz min köşədi,
Çarşısı, bazarı, yolu Təbrizin.

Aşıq Qərib söylər üç xana bəndi,
Hesaba gəlməyir obası, kəndi.
İsfahandan gəlir şəkəri, qəndi,
Aşar Gürcüstandan balı Təbrizin.

* * *

Dərya kənarında bu səhər erkən,
Göründü gözümə maya qaşların.
Oğrudan-moğrudan döşür cam eylə,
Bənzər üç gecəlik aya qaşların.

Sənə qurban olum, ey əhli-kamil,
Bu eşqin ucundan oldum zərzəbil.
Bir usta əlindən çıxması qəbil,
Bənzər şahi Mürtəzya qaşların.

Qaşların bəzirgan, gözlərin xoca,
Nə olar ehsan et mən təki aca.
Aşıq Qərib çox çəkmişdir işgəncə
Günümü döndərib vaya qaşların.

* * *

Sənə qurban olum gülüzlü xoca,
Canım xoca, imdad eylə, mən öldüm.
Nə günüm gündüzdür, nə gecəm gecə,
Canım xoca, imdad eylə, mən öldüm.

Ürəyimdə yatan təmrənsiz oxdur,
Yanınızda xoca, bəzirgan çoxdur,
Əgər mal istəsəm, mal verən haxdır,
Canım xoca, imdad eylə, mən öldüm.

Bülbüllər bağlarda səsləyər yazı,
Alların üstünə tökmüş bəyazı.
Aşıq Qərib sənə eylər niyazı,
Canım Xoca, imdad eylə, mən öldüm.

* * *

Gözəllər seyrin elədi,
Gözə bir dilbər göründü.
Yel əsdi, pərdən qaldırdı,
Nə əcaib, yar göründü.

Hankı dağların qarısan,
Bizim bağçanın barısan,
Canan, sən kimin yarısan?
Qoynundakı nar göründü.

Aşıq Qərib der fidanı,
Zülüf göstərir gərdəni.
Tərpətmə nazik bədəni,
İncili kəmər göründü.

* * *

Arzulayıb səni deyib gəlmişəm,
Hax versin muradın, ver muradımı.
And içirəm, daha getməm vətənə
Hax versin muradın, ver muradımı.

Bülbül ağlar-ağlar, eyləyər fəraq,
Gözümün önündən getməsin iraq.
Versənə Sənəmi, sən eylə çiraq,
Hax versin muradın, ver muradımı.

## AĞCA QIZLA DEYİŞMƏ

**Aşıq Qərib**

Qurbanın olduğum, qulun olduğum,
Bu yer mənə haram oldu, gedərəm.
Mənə qismət qürbət eldə verildi,
Bu yer mənə haram oldu, gedərəm.

**Ağcaq qız**

Ağlama, sızlama sən, Aşıq Qərib,
Həm huridi, həm də mələk sevdiyin.
Yerişi kəklikdi, duruşu tərlan,
Həm huridi, həm də mələk sevdiyin.

**Aşıq Qərib**

Neçə min ah çəkim, eyləyim fəğan,
Öldürüm özümü, eyləyim bir qan,
Dahı Şahvələddən yaxşıyammı mən,
Bu yer mənə haram oldu, gedərəm.

**Ağca qız**

Bir incə bellidi, bir tuti dilli,
Bir sırma tellidi, bir qələm qaşlı,
Tovuz quşu kimi narlı-naxışlı,
Həm huridi, həm də mələk sevdiyin.

**Aşıq Qərib**

Aşıq Qərib der ki, didarım qanmaz.
Mənim bu ahıma dağlar dayanmaz,
Gözüm görməyincə köylüm inanmaz,
Bu yer mənə haram oldu, gedərəm.

**Ağca qız**

Ağca qız qumaşı qoyar boğçaya,
Qərib qərq olmuşdu mala, axçaya,
Gəl əsni götürüm o gül bağçaya,
Həm huridi, həm də mələk sevdiyin.

* * *

Səni gördüm, halım oldu pərişan,
Əritdin ürəkdə yazı, Ağca qız.
Qismət olub muradımı alanda,
Səni edim mənə sağı, Ağcaqız.

Mah üzündə siyah xalı pul-pulu,
Kimə ərz eyləyim dərdi, müşkülü,
Qurumuş daları, ötməz bülbülü,
Hanı bağçaların bağı, Ağcaqız.

Aşıq Qərib söylər bir hesabinən,
Mən kağız gətirim, yaz rəqəminən,
Sən get Şahsənəmə bir salaminən
Söylə barı sən bu çağı, Ağcaqız.

* * *

Saraydan endi yeridi,
Əli sədəfli sazinən,
Qırx incəbelli qızınən
Oyan ovçu, ovun gəldi.

Saraydan endi yeridi,
Dərd yanın güllər bürüdü,
Gözəllik haxdan verildi,
Oyan ovçu, ovun gəldi.

Ağca qız biynun uzadır,
Şahsənəm güldən təzədir,
Ovçu tək yolun gözəldir,
Oyan ovçu, ovun gəldi.

* * *

Ovçu, nə yatmaq günüdür?
Qalx indi gəl, dur indi gəl,
Bu gün xublar yığnağıdır,
Qalx indi gəl, dur indi gəl.

Endi seyr elədi bağı,
Daha növrəstədir çağı,
Qızlara eylədim sağı,
Qalx indi gəl, dur indi gəl.

## ŞAHSƏNƏMLƏ DEYİŞMƏ

**Aşıq Qərib**

Qaldır pərdən, görüm üzün,
Sənəm deyəllər sənmisən?
Əmim şirin ləblərindən,
Sənəm deyəllər sənmisən?

**Şahsənəm**

Çox səsin çıxarma üzə,
Qərib deyəllər sənmisən?
Gərdənin gedər qılınca,
Qərib deyəllər sənmisən?

**Aşıq Qərib**

Mən söylərəm sözüm əzəl,
Bağlardan tökülər xəzəl,
Çirkinmisən, yoxsa gözəl,
Sənəm deyəllər sənmisən?

**Şahsənəm**

Dabanından asdıraram,
Səni dama basdıraram,
Şirin dilin kəsdirərəm,
Qərib deyəllər sənmisən?

**Aşıq Qərib**

Yaradan yaradıb canı,
Onunçun sevəllər səni,
Qəribin canı, cananı,
Sənəm deyəllər sənmisən?

**Şahsənəm**

Şahsənəmə qəm bulunmaz,
Gözlərində nəm bulunmaz,
Sənə burda ov bulunmaz,
Qərib deyəllər sənmisən?

* * *

Sənə qurban olum, gülüzlü ana,
Qərib ölmüş, mən onunçun ağlaram.
Dərdindən olmuşam dəli-divana,
Qərib ölmüş, mən onunçun ağlaram.

Mən onunçun bil ki dəli olmuşam,
Saralıban heyva təki solmuşam,
Köynəyini al-qan içrə görmüşəm,
Qərib ölmüş, mən onunçun ağlaram.

Mən Sənəməm, indi büküldü belim,
Kimə ərz eyləyim bu müşkül halım,
Nə xəbər gətirdi o qannı zalım,
Qərib ölmüş mən onunçun ağlaram.

* * *

Dün gecə, dün gecə Hələb şəhrində
Mövlam qanad verdi, uçdum da gəlsim.
Olan var-dövlətim verdim xocaya
Sərimdən, canımdan keçdim də gəldim.

Sabah namazını Hələb özündə,
Öynə namazını Qarsın düzündə,
İlkindi namzı, yar Tiflizində,
Qaynadım, qaynadım, coşdum da gəldim.

Gəldim qonaq oldum kəndi xanama[2],
Açmadım sirrimi bacı-anama.
Eşqin xançalını vurdum sinəmə,
Dürlü yaralarım deşdim də gəldim.

Mən də düşdüm olar-olmaz oyuna,
Qurban oldum qamətinə, boyuna,
Aşıq Qərib Şahsənəmi toyuna,
Boyunca libası biçdim də gəldim.

[2] Kəndi xanama – öz evimə

## DEYİŞMƏLƏR

## ŞAİR NƏBİ İLƏ ŞAİR ABDULLANIN DEYİŞMƏSİ

Günlərin bir günü Şair Nəbi bir neçə həmyerlisi ilə bərabər mal almaq məqsədilə Qazağa, ordan da Astafaya getməli olur. Bazarı dolanıb geri qayıtdıqları zaman o, yoldaşlarına susadığını bildirir. Su sorağı ilə bazarın girəcəyinə gəlirlər. Burada divarın dibində qabağına xeyli nar yığmış, əlli beş, altmış yaşında şəxsə təsadüf edirlər. Şair Nəbi nar satana yaxınlaşıb qiymət soruşmadan, iziniz, təklifsiz bir nar götürür, əvəzində isə nar satanın qabağına bir abbası pul atıb getmək istəyir. Nəbinin belə sorğu-sualsız hərəkəti nar satana xoş gəlmir. Onu geri çağırıb, "Sən nə üçün qiymət soruşmadan narı götürdün və əvəzində isə birə-beş qiymətini verdin, məgər mən Allah yoluna qalmışam?! Görünür sən məni yaxşı tanımırsan, qulaq as gör mən kiməm - deyə özünü şeirlə təqdim edir və beləliklə də deyişmə başlayır:

**Şair Abdulla:**

Sərrafıyam, mən insanı tanıram,
Əyləşibən bir cavabın al indi.
Muştaq oldum bu şanına söz deyim
Bağışladım, peşkəşindi nar indi.

**Şair Nəbi:**

Mədəniyəm, tuccar bağlar yükümü,
Hər irəngdən var bağçamda nar indi.
Mən bilirəm qaç qəpikdi qiyməti,
Siftə verdim bir abbası, al indi.

**Şair Abdulla:**

Adam var ki, qonuşması bir aval,
Adam var ki, beyni dolu pür-kamal.
Bir şəxsi-salehsən, yetişməz zaval,
Diləmişəm, mövlam olsun yar indi.

**Şair Nəbi:**

Duş oldu güzarım səninlə belə,
De görüm, təbini dərindən söylə.
Yetir cavabını müxtəsər eylə,
Nabələdəm, qorxuludu yol indi.

**Şair Abdulla:**

Abdullayam, bir sözündən qanaram,
Alışıban eşq oduna yanaram.
Hər görəni söylədibən sınaram,
Bucuğazdı qazandığım kar indi.

**Şair Nəbi:**

Mən Nəbiyəm, bu cahanın bülbülü,
Otuz min şairə yetirrəm dili.
Borçalı mahalı, Faxralı eli,
İnad olsa eşqim daşar sel indi.

Söz tamama yetir, Abdulla Nəbinin şairlik təbindən xoşu gəldiyini bildirir. Yenidən başlayırlar deyişməyə:

**Şair Abdulla:**

Səndən xəbər alım, ay Şair Nəbi,
Sifdə dünyaya kim Süleyman oldu?
Kim idi qasidi, kimdi hərəmi,
Övladı özünə ta düşman oldu?

**Şair Nəbi:**

Çünki sual verdin, al cavabını,
Pirimiz dünyaya Süleyman oldu.
Qasidi Cəbrayil, hərəmi Havva,
Övladı özünə ta düşman oldu.

**Şair Abdulla:**

O kimdi atlara bənzəməz atı,
O kimdi qüdrətdən gəlir baratı?
De kimlər törətdi fitnə-fəsadı,
Düşdü bu dünyada nahaq qan oldu?

**Şair Nəbi:**

Əlinin atlara bənzəməz atı,
Qüdrətdən xaliqin gəldi baratı.
Qabil saldı ortalığa fəsadı,
Öldürdü Habili, nahaq qan oldu.

**Şair Abdulla:**

Abdullanın sözünə kim oldu mail,
O nədi tükənməz dəryaya qail?
O kimdi dolandı dünyada sail?
Axırı nə yerdə xoş məkan oldu?

**Şair Nəbi:**

Şair Nəbi sözünə olmadı mail,
Elmdir tükənməz dəryaya qail.
Xızır bu dünyada dolandı sail,
Məkanı behişdi-irizvan oldu.

Şair Nəbi sözünü bitirib geğmək istərkən, Abdulla onu dayandırdı, “Oğul, bir az yenə səbr elə, mən sənin kim olduğunu, haralı olduğunu və qabiliyyətini bildim, ancaq suallarıma cavab ver görüm, nə məqsədlə gəlmisən?”

**Şair Abdulla:**

İstədim ki, soram vəsvi halını,
Söylə görüm nə muraza gəlmisən?
Vaqə gördüm şir kəsibdi yolunu,
Bu dərdini yaza-yaza gəlmisən.

**Şair Nəbi:**

Çünki xəbər aldın vəsvi-halımı,
Bu meydandan bac almağa gəlmişəm.
Hiddətindən şir kəsərsə yolumu,
Zərb-zorundan öc almağa gəlmisən.

**Şair Abdulla:**

Əvvəlindən yetik oldum halına,
Namın çoxdu, fil qoşaram kalına.
Qüssə verrəm o böyük mahalına,
Bu əlimnən ehtizaza gəlmisən.

**Şair Nəbi:**

Bu doğrudu ürcah oldum yamana,
Çoxları əlimdən gəlib amana.
Boranım var, səni sallam dumana,
Qüvətlisən, güc almağa gəlmişəm.

**Şair Abdulla:**

Abdullayam, gəl eyliyə çalışaq,
Əsərindən eşq oduna alışaq.

Əsnafımsan, qardaş olaq, barışaq,
Həm qəribsən, həm də təzə gəlibsən.

**Şair Nəbi:**

Mən Nəbiyəm, pənahımdı ol Subhan,
Rubəru cavabın verrəm hər zaman.
Dostuma dost ollam, düşmana düşman,
Şöhrətim var, ucalmağa gəlmişəm.

Söz tamam oldu, Şair Nəbi ilə Şair Abdulla halal-hümmət eliyib ayrıldılar.

## AĞACANIN TÜRKİYƏ SƏFƏRİ

Ərzurum mahalının Çamdra obasında Borçalı Söyün bəyin qızını Alı ağanın oğluna vermişdilər. Toy başlanmışdı. Toyun da aşığı o vaxtlar tanınmış, çox şöhrət tapmış Aşıq Şenlik kimi bir ustaddan dərs almış, Dollu Mustafa, bir də onun şagirdi Məhəmməd idi. Məclis başlayan vaxtı Qazı Əfəndi aşığa sual verir ki, yanşax, sən dünyanı gəzmiş adamsan, de görüm Qafqaz deyilən nasıl yerdi? Orda kişilik, mərifət varmı? Aşıq cavab verir ki, Əfəndim, Qafqazı eşitmişik, ancax orda kişilikdən, mərifətdən heç nə eşitməmişik. Söyün bəy qalxıb söz alar, bildirər ki, on gün toyu təxirə salıram. On gündən sonra mən Qafqazda kişilik, mərifət nə olduğunu sübuta yetirərəm. Odur ki, Söyün bəy bu sözünün üstündə möhkəm durdu, toyu təxirə saldı. Söyün bəy qoçarax bir adam tapdı, özünə də dedi ki, səni dünya malıynan qane eliyəcəm, gərək sən gedif Şoragül mahalında şair Ağacanı tapasan, onun simasında mən bunlara bizim torpağın mərifətini göstərəcəm.

Odur ki, Ağacana deyərsən ki, Söyün bəy tapşırdı ki, başını orda islat, burda qırxdır. Amma gələndə özünnən bir saz da götürsün gəlsin. Nəsə...

Nəsə vaxt o vaxt olur ki, həmin qasid gəlir Şoragül mahalına çatır. Ağacannan görüşür, məsələdən onu agah eliyir. Ağacan Türkiyə səfərinə razı olur. Ağacanın bir balaca quran bayazı var idi. Onu da qoltuq cibinə qoydu, sazı çiyninnən asdı, yola rəvan oldular. Az getdilər, çox getdilər, gəlif Söyün bəyin obasına çatdılar. Söyün bəylə öpüşüf görüşdülər. Söyün bəy dedi: Ağacan, səni bura toya-nişana gətirmişəm ki, buranın aşıqlarınnan deyişif onnarı bağlıyasan, məni də bu camaatın içərisndə dinazdan qurtarasan. Bular elə bilir ki, biz tərəflərdə aşıq, saz, söz, qanacaq, mərifət başa düşən yoxdu. İndi umud pənahı sənsən, gərək mənim də, bizim mahalın da adını uca tutasan. Ağacan Söyün bəyin şərtini, xahişini qəbul edir. Əmə deyir ki, Söyün bəy, bir şərtim var, gərək mənnən deyişən aşıx deyilmiş söz işlətməsin, öz sözünü oxusun, özü də bədahətən deyişək. Söyün bəy şərti qəbul elədi. Bəli, gecə çox uzandı. Söyün bəyin adamları, özü səhərin gözü açılanacan Ağacannan söhbət elədilər. Səhər açıldı, üstünüzə xeyirli sabahlar açılsın, istəklilər. Sübh yeməyinnən sonra Söyün bəyin adamları Ağacanı da götürüf oğlan öyünə gəldilər. Bu yerin də bir ədəti var imiş ki, toy başdıyannan qurtarana kimi aşıx mağardan çıxmazmış, yatası da olsalar, sirə-sirə yatar, mağarı aşıqsız qoymazdarmış. Söyün bəyin adamları gəlif mağara girdilər. Gördülər Dollu Mustafaynan şəyirdi Məhəmməd meydanın ortasında var-gəl eliyirlər. Bunlara da axşamdan xəbər çatdırıflar ki, bəs deməzsənmi, Söyün bəy Qafqazdan Ağacan adında bir şair gətirtdirif. Düzü aşıxdan çox bu adam mollaya oxşuyur. Bu xəbərdən sonra Qazı əfəndi də öz

aşıqlarına nə ki lazımdı, dərs vermişdi, demişdi ki, o Qafqaz mollası sizi üstələsə onda daha özünüzdən küsün. Elə şərait yaradın ki, Ağacan məclisə girəndə sizdən xoflansın. Odu ki, ustad – şəyird Qazı əfəndinin bu sözündən sonra bir az da ürəklənmişdi. Vallahi meydanda az qalırdılar xoruz kimi bir-birini dimdikləsinlər, elə fırlanışırdılar ki, elə bil kiməsə qıjıt verirdilər. Bəli, nəql eləyim ki, Ağacan da Söyün bəyin adamlarına qovuşub mağara girdi. Mağara çatanda Söyün bəyin də, onun qohumlarının da Ağacan tamam yadlarından çıxdı. Odu ki, ayaq tərəfdə xırda uşaqlar oturan yerdə özünə yer elədi. Dollu Mustafa camaat gəlhagəldə çəkilif bir tərəfdə oturdu. Şəyirdi Məhəmmədi məclisə buraxdı. Dedi, elə bir az yorulmuşam, çal oxu camaatın başı qarışsın. Bəli, Məhəmməd bir iki ağız oxuya-oxuya uşaqlar əyləşən yerdə bir nəfər naməlum adam gördü. Tez yaxınlaşıf ustadına çatdırdı ki, usta, o başda, uşaqların içərisində biri oturuf, mollaya da oxşuyur aşığa da, bilmirəm kimdi? Dollu Mustafa şəyirdinə dedi ki, get öyrən gör kimdi, birdən Söyün bəyin aşığı olar. O olsa bir tulamaznan ordan-oyana sazını da əlindən al, getsin. Şəyirdi ustaddan aralanıf yavaş-yavaş şair Ağacana yaxınlaşıf soruşdu: Əmi, hardansınız, bura adamına oxşamırsınız. Ağacan deyir: Qafın o üzünnənəm, bala.

Məhəmməd xəbər alır:

– Hardan gəlif hara gedirsiniz?

– Kannan gəlif məkana, gedirəm.

Məhəmməd:

– Bəs sazı neynirsən?

– Lazım olur dana, ay bala. Vaxt olur çalıb oxuyuram da.

Məhəmməd soruşur ki, söz-zad da yazırsınızmı? Ağacan deyir: Yeri gələndə. Onda səndən bir iki kəlmə soruşsam cavab verə bilərsənmi? Ağacan deyir:

– Buyur.

Şəyirdi götürüf belə deyir:

Bizlərə müsafir gəlib, əhli Qafqaz mollası,
Sinəsinnən moç verir, eşqinin tullanması.
Haşa sizdən, eşidənlər, ağa-bəylər, paşalar,
Cadugünlər əlaməti, qarılar boylanması.

Ağacan deyir: Oğul, afərin ustadına qulaq as, qoy indi də birini mən deyim:

İndi bizə yəqin oldu müsafir qoylanması,
Kəndini sürgün edəcək məclisin toylanması.

Haşa sizdən eşidənlər, əyləşən bəyzadələr.
Eşşəyi qurda yedirdər xoduğun oyanması.

Məclis əhli bu yerdə Ağacanın eyhamını başa düşüf gülüşdü. Şəyird götürüf görək nə deyir:

Qaçmaq olmaz qabağımdan cavabın deyən gərək,
Dayanıbdı daldalarda kəndini öyən gərək.
Ağzını lap çox ayırar, bir eycə yüyən gərək,
Minməyi hasand olacaq, çətindi çullanması.

**Ağacan:**

Bir söz də mən deyirəm sənin sözünə dair
Ustadın bir şair kimi cəmi ölkəyə yayar.
Tanıdım ustadını sağ ayaqdan axsayır.
Şəyirdi bir nalbənd olub, əməlli nallanması.

**Şəyird:**

Əgər ismim xəbər alsan, Məhəmməd adım mənim,
Ərzurum şəhəridi, kömək-imdadım mənim.
Çox da öymə kəndini sən, durar ustadım mənim,
Qollarını dar bağlayıb Qafqaza yollanması.

**Ağacan:**

Ağacanam, tanıyıram sən ananın ilkisən,
İtirmisən köhnə qalan, dədə-baba mülkü sən.
Bahar vaxıtı çöldə gəzən tükün tökmüş tülküsən
Dərini arxannan alıf ovçuya tullanması.

Söz tamama yetdi şəyirdi ustadı Dollu Mustafanın yanına gəldi ki, mən bunnan deyişmirən, bu mənim dədə-babamacan hamısını tanıyır, dur özün cavabını ver. Odur ki, usta yerindən qalxıf, başdıyırlar deyişməyə. Qabaxca Dollu Mustafa irəli düşür. Dollu Mustafa fikirləşir ki, deyəsən həqiqətdən xəbərdar adamnan üzbəüz dayanıb. Nə qədər ilahiyyatdan, həqiqətdən xəbər alsa cavab verəsidi. Odur ki, belə bir şişirtmə yalana əl atıf görək nə deyir:

**Dollu Mustafa:**

Yay günü sürüşdüm aran buzunda,
Yıxılanda yerə tutuldu səsim.
İstədim ki, durum qalxım ayağa,
Özümün-özümə gəlmir həvəsi.

**Ağacan:**

Mən də həlak oldum daş tüstüsündən,
Comuş yumurtası tutbdu səsim.
Qarışqa yağınnan bədənimi yağladım,
Özümün-özümə gəlmir həvəsim.

**Dollu Mustafa:**

Ələyəzin[3] başında əkdim yemişi,
Sərt qayada gördüm qarğı-qamışı.
Dəvənin buynuzu saxsağan dişi,
Uzun saqqallıdan gördünmü xasım?

**Ağacan:**

Qoyunum otluyur dərya üzündə,
Çovanlar qızınır qamış közündə.
Bizdə erkəc əllisində, yüzündə,
Uzun saqqallıdan göndərrəm xasım.

**Dollu Mustafa:**

Aşıx Mustafayam hey feldə-fətdə,
Məni salan yoxdu sözdə-kəməndə.
Ağrının[4] üstündə, görürkən kənddə,
Gəl gedək, orada sözünü kəsim.

**Ağacan:**

Ağacan da hər urfatdan asılmış,
Dörd ətrafın bəndil-bəndil kəsilmiş.
Sən deyən o yerin yolu basılmış
Yeddi oğlun olub kiçiyi Məsim.

Söz tamama yetir. Dollu Mustafa deyir, indi Ağacan qavağa düşsün. Ağacan cavab verir ki, sən düş. Odur ki, Dollu Mustafa götürür görək nə deyir:

Arif olan gəlin sizə söylüyüm, olun halı,
Ağalıq, bəylik, paşalıq, türklərin nəslindədi.

---

[3] Ələyəz – dağ adıdır.
[4] Ağrı – dağ adıdır.

Neçə min il keçib, Rəsul aləmnən bəri,
Ay dolanıb gərdiş eylər, il hansı fəslindədi?

Ağacan deyir ki, paşalara yaltaqlanma, indi sözünə cavab verim qulaq as:

Arif olan gəlin mən də söylüyüm olun halı
Bütün güllər hamısı bir-bir öz nəslindədi.
1334 il keçib Rəsul aləmnən bəri,
Ay dolanıb gərdiş edər, il cahar fəslindədi.

**Dollu Mustafa:**

İçmişəm qafa qəlyanı, könlümü bulandırır,
Həqiqəti verib bürzə gör nəynən inandırır.
Ərəbə-farsa çəkmədə gör kimi dolandırır,
Kəməndini cin-cin edib canının qəsdindədi.

**Ağacan:**

Bircə qətrə mətdən yaradan var insanı,
Hər yerindən duran aşıq dolanmasın meydanı.
İndi gətirrəm araya ol qara göz quranı,
Axtaralım, bir baxalım hansı yol rastındadı.

**Dollu Mustafa:**

Mərhaba olsun əfəndim, yaxşı bilirsən əcəb,
Şairlikdə görürəm ki, çoxdu səndə böylə təb.
Quranın mənasını bilirəm ləfsi ərəb,
Dörd tərəfdən çərgahilər Mustafa üstündədi.

**Ağacan:**

Ağacannan düşmə bəhsə bu sevdadan dön geri.
Dağıdıb qala bürcünü tutaram ol səngəri.

Var dilimin əzbəridi yerin, göyün əzbəri.
Allahın kəsgin qılıncı mürtəza dəstindədi.

Söz cavabı tamam olan kimi deyirlər: indi meydan kimin olsun? Yenə deyir Mustafa kişi sənindi söz. Götürüb Mustafa kişi görək nə deyir:

O kim idi getdi cənnət bağına,
Hürülər, pərilər dastan dedilər.
Kim idi getmədi səcdəgahına,
İndi tuği lənət şeytan dedilər?!

**Ağacan:**

Adəm ata getdi cənnət bağına,
Hürülər, pərilər dastan dedilər.
Mələk tovuz getmədi səcdəgahına,
Endi yer üzünə şeytan dedilər.

**Mustafa:**

O kim idi onu atdılar nara,
Kim qolundan tutdu, qoydu kənara.
Kim idi ölümə tapmadı çara,
O kim idi ona mehman dedilər?!

**Ağacan:**

Deyim İbrahimi atdılar nara,
Əlinin nurundan çəkdi kənara.
Loğmandı ölümə tapmadı çara,
Ölüm haqq əmridi mehman dedilər.

**Dollu Mustafa:**

Mustafa urfatı aradı seçdi,
Kim idi neçə il zindana düşdü.

Gözəllik şərbətin Züleyxa içdi,
Axırda Yusifə sultan dedilər.

Bəli hər iki sənətkarın sözdəri tamama yetdi. Camahat hərə bir tərəfdən qışqırmağa başladılar ki, indi də birinci qonaq başlasın. Əmə, Ağacan bu dəfə də yaxın qoymadı. Dedi: camahat, qoyun ürəyində nə qədər sorğusu varsa soruşsun, cavab verməsəm siz bilərsiniz mən bilərəm. Yenə də Dollu Mustafa başladı:

O kim idi təkcə getdi zülmətə,
Onun getməyini nəyə yazdılar?
Neçə min cinləri qırdı qurtardı,
Təriqət kəlməsin nəyə yazdılar?

**Ağacan:**

Əli özü təkcə getdi zülmətə,
Onun getməyini beyə yazdılar.
Səksən min cinləri qırıb qurtardı,
Həqiqət kəlməsin heyə yaxdılar.

**Dollu Mustafa:**

Kim idi oxudu dürlü kəlamı,
O kim idi, kimnən gəldi salamı?
Bəs kim idi əzəl çəkdi qələmi,
Ərşin pərdəsində nəyə yazdılar?

**Ağacan:**

Məhəmməd oxudu dürlü kəlamı,
Cabrayıldı haqdan getdi salamı.
Məşəllədi əcəl çaldı qələmi,
Ərşin pərdəsində seyə yazdılar.

**Dollu Mustafa:**

O kim idi haqdan getdi barata,
Mustafa istəmir eyləsin xata.
Bəs kimin şəyninə gəldi əl-əta,
Ərşin pərdəsində nəyə yazdılar?

**Ağacan:**

Ağacan istiyir eyləsin xəta,
Cəbrayıldı haqdan yetdi barata.
Məhəmməd şəyninə gəldi əl-əta,
Ərşin pərdəsində teyə yazdılar.

Söz cavabı tamam etdilər. Ağacana söz verildi. Ağacan əvvəlcə bütün məclisdəkilərə üzünü tutuf, dedi ki, mən Mustafa kimi eləməyəcəyəm. Əgər o mənim qıfılbəndimə cavab verə bilsə onda sazı da ona təhvil verib gedəcəm. Hərə bir tərəfdən aşığın sözünə qüvvət verif, onun sualını səbirsizliklə gözləyirlər. Ağacan götürüb nə deyir:

Bir səhrada beş dərviş xəlq olub
Onların təxt üstdə xub qərarı var.
Bir bədəndə doxsan iki əl gördüm,
Bədən bir, gərdən üç, beş də səri vcar.

Dollu Mustafa cavab verə bilmir, deyir aşıq de qurtar, hamısına birdən cavab verəcəyəm. Götürür Ağacan o biri bəndi.

80 min molladı, 80 min seyid,
80 min biyaban, 80 min meyid.
Bir zəmində gördüm 80 min şəhid,
80 min şəhidin bir məzarı var.

Ağacan oxuyar sənə bir aya,
Məhəmməd hansı gün gəldi dünyaya?

Cənab Əli harda düşüb sevdaya,
Ya deyən kim olub nə nəzəri var?

Buna da cavab verməyəndə Dollu Mustafa başdayır cığallıq eyləməyə. Deyir üç bənd də de, aça bilməsəm sənə təslimən. Odur ki, Ağacan götürüf görək daha nə deyir.

Əhli urfan məclisində arifi, urfan durur,
Kimi alçaq, kimi yüksək, hər cürə insan durur.
Şüaralar bəndəgahın kəsdiyim aşkar olub,
Fələk döndərdi çərximi indi də pünhan durur.

Urfatından xam olanı noxtaladım, çulladım,
Yeyi, lamı, əlif beyi nə deyə suvalladım?
Ağzı məqqara olanın dilindən, qıfılladım.
Seyrəqib çıxmır aradan gözümə şeytan durur.

Ağacanın qarşısında nitqə gəldi bircə din,
Ustadım var, şiri yəzdən artıraram birə min.
Aşıx, yaman qorxmaki sən, mən olmaram nəkrain,
Qəbir durur, sual durur, ədalət divan durur.

Dollu Mustafa xaiş eliyir ki, aşıq birini də de. Onda Ağacan götürüf belə deyir:

Bir quş gördüm havalanmış yuvası səngərdədi,
Bir gəmi dəryaya dalmış, çarxları ləngərdədi.
Onu ümmana qərq etmək mənim əski peşəmdi.
Günəşin şövqi altında bulud ona pərdədi.

Tanıginən qarşı gələn kimdən alıb dərsini,
Lövhi-qələm kəcavətdə keçib ərşin kürsünü.
Yeddi min aya içində nişan verrəm birsini,
Ruhları ərşi əlada, cəsədi yerlərdədi.

Ağacanam mən də sənə nişan verrəm zatımı,
Min bir yola ayırıram bir əlif urfatımı.
Şin şəhəri tənəzzüldü, təriqət heyrətimi,
Ustadımdı şahi-mərdan dillərdə əzbərdədi.

Dollu Mustafa bu dəfə də Ağacanın sözünün qabağında söz deyə bilmir. Deyir qardaş, onsuz da mən sənə məğlub olmuşam, amma xahiş eliyirəm bir-iki ağız da de gəlsin, biz də sənə qulaq asaq. Odu ki, Ağacan yenə də başlıyır.

Əlif beyi, teyyi-seylə cim eylə,
Zeyn üstündə dayanıbdı nə daldı?
Heyi yeydə, dalı reydə şin eylə,
Teyin arasında göstər nə xaldı?

Keçdik əlif lamı, pey ilə qafa,
Cümə günü əmr oldu güdeyi kafa.
Lamı-mimdə Məhəmmədl Mustafa,
Neçə zəmanələr ismətdə qaldı?

Nun özü natiqdi, mətləbdə nə var.
Kişisən cahana olma cilovdar.
Nəzər etdim bir ağacda iki nar
Nə yetkindi, nə ötkündü, nə kaldı?

Odur ki, Dollu Mustafa şair Ağacanın heç bir sözünə cavab verə bilmədi. Ağacan məclisin qalibi oldu.

## AŞIQ MUSANIN AZAFLI MİKAYILLA GÖRÜŞÜ

Aşıq Musa təkcə Qaraçöpdə yox, Gəncəbasardan, Tovuzdan, Qazaxdan, Borçalıdan, Başkeçiddən, Qarayazıdan belə hər yerdə tanınan el sənətkarıydı. Üzünü görməyənlər belə qoşqularını sevə-sevə oxuyardılar, Qaraçöp məclislərinə dəvət alan aşıqlar Aşıq Musanın xeyir-duasını alardılar, onunla yekbəyek deyişməyə cürət eləməzdilər. Tovuzlu adıbəlli el şairi, ustad Aşıq Mikayıl Azaflı da cavanlığında Aşıq Musanın məclisində olub, onun xeyir-duasını alıb.

Özünün söylədiyinə görə, 18-20 yaşı olanda ustadı aşıq Əsədlə Aşıq Mirzə Qaraçöpə toya çağırılıblarmış. Toy yiyəsi hardansa Mikayıl Azaflının sorağını alıbmış, Aşıq Əsədə yazdığı məktubunda təvəqqe eləyibmiş ki, eşitmişəm cavan bir möcüzən (yəni Mikayıl Azaflı) var, onu gətirməmiş gəlmə. Sən demə, Azflını da xeyir iş yiyəsinə Aşıq Musa nişan veribmiş.

Mikayıl Azaflı da cavan olmasına baxmayaraq, Aşıq Əsəddən dərs almışdı, Qaraçöp camaatının saza-sözə sevgi, el sənətkarlarına hörmət-izzət göstərən olduğunu bilirdi. Özü də ustadından Aşıq Musa barəsində çox şey öğrənmişdi, onun qoşqularını sinəsinə yazıb məclislərdə oxuyurdu. Buna görə də Qaraçödə məclis aparmaq, ustad Aşıq Musaynan görüşüb kəlmə kəsmək fürsəti düşdüyünə görə həm həyəcanlı, həm də narahatıydı. Belə bir sınaqdan çıxmaq ondan ötrü böyük fürsətiydi.

Xülasə, Aşıq Əsəd, Aşıq Mirzəynən birgə Mikayıl Azaflı da ata süvar olur, söhbət eləyə-eləyə Ceyrançöldən keçib Qaraçöpə çatırlar, soraqlaşıb toy evini tapırlar. Xoş-beşdən, çörək yeyib dincələnəndən sonra məclis başlanır. Aşıq Əsəd məclisə girən kimi soruşur:

– Hanı mənim qardaşım? Aşıq Musasız məclisi başlaya bilmərəm.

Toy yiyəsi cavabında qayıdır ki:

– Aşıq, üzrlüsünüz, məclisi başlayın. Aşıq Musa harda olsa, indi gəlib çıxar.

Sən demə, xəbərləri yoxuymuş, Aşıq Musa mağarın xəlvət yerində oturub bizə qulaq asırmış. Aşıq Əsəddnən Aşıq Mirzə düşdülər irəli, ustadnamə deyə-deyə məclisi dolandılar. Birdən Aşıq Əsəd də Aşıq Mirzə də səslərini xırpadan kəsdilər. Hər ikisi camaatın arasındaki üzündən nur yağan ağsaqqal bir kişiynən görüşdülər. Mikayıl Aşıq Musanı üzdən tanımadığınnan bir qıraqda durub onların hal-əhval tutmasına baxırdı. Aşıq Əsəd dönüb üzünü Mikayıla tutur:

– Oğul, bu gördüyün kişi, haqqında sənə danışdığım, sözlərini oxuduğum Musa babandı, yaxın gəl, görüş.

Mikayıl yaxınlaşıb əl uzadır. Aşıq Musa onun əlini buraxmayıb onu üç dəfə öpür:

– Kişi kişinin bax, belə, alnından öpər, – deyir, sonra əlavə eliyir. – Aya, a göyçək bala, sənin haqqında Əsəd qardaşım mana çox danışıb. Eşitmişəm ki, özün də söz deyirsən. Niyə öz sözdərinnən demirsən?

Mikayıl Azaflı sıxıla-sıxıla cavab verir:

– Ustadların sözlərini nə vaxt xalqa çatdırdıq ki, özümüzdən oxuyaq, ay Musa baba?

Aşıq Musa əlini cavan aşığın çiyninə qoyub gülümsəyir:

– Yox, arabir özündən də oxu.

Söhbəti bitirənnən sonra məclis davam eləyir. Aşıq Əsədnən Aşıq Mirzə Mikayıl Azaflıya daha çox meydan verirlər ki, cavan aşıq özünü göstərsin. Mikayıl da çalıb-oxuyur, Aşıq Musanın da, məclisdəkilərin də könlünü şad eləyir.

Üç gün-üç gecə davam eləyən toy başa çatır. Toy yiyəsi aşıqları razı salannan sonra yola salır. Aşıq Musa Aşıq Əsəd-nən, Aşıq Mirzəynən öpüşüb-görüşənnən sonra Mikayıl Azaflının alnından öpür:

– Sağ ol, bala, – deyir, ustadına bərəkallah . Sonra qırağa çəkib cibinə bir çəngə pul basır ki, bu sənin siftəndi, bu puldan Əsədnən Mirzəyə verənin xalası göyçəkdi, – zarafatından da qalmır.

Xülasə, ata süvar olub Tovuza qayıdırlar. Evə çatanda Aşıq Əsəd üzünü Mikayıl Azaflıya tutur:

– Ay Mikayıl, – deyir, – gətir görək gözəl Qaraçöp camaatı neynəyib...

Mikayıl Azaflı nəmərə yığılan pulları ortaya tökür, sayıb hər kəs öz payını götürənnən sonra Aşıq Əsəd razılığını bildirir:

– Var olsun belə camaatı, indiyətən bir toydan bu qədər pul gətirdiyimiz olmamışdı.

Bu vaxt Mikayıl Azaflı cibindəki pulu çıxarıb qoyur ortaya:

– Ustad, – deyir, – bu pulu cibimə Aşıq Musa qoydu, özü də dedi ki, əsədnən Mirzəyə verənin xalası göyçəkdi, amma alana deməyib, bunu da bölün.

Aşıq Əsəd də Aşıq Mirzə də razı olmurlar.

– Yox, bala , – deyirlər, – bu pulu Aşıq Musa sənə siftə verib, halal xoşun olsun.

Bundan sonra Mikayıl Azaflı Aşıq Musaynan bir neçə dəfə məclislərdə görüşür, onun dərin mənalı, dadlı-duzlu söhbətlərini dinləyir.

Günnərin birində Aşıq İmran Həsənov Qaraçöpdən toydan qayıdıbmış. Mikayıl Azaflıya bir məktub, 200 manat (

köhnə pulnan) da pul verir ki, Aşıq Musa verdi. Mikayıl Azaflı məktubu açıb oxuyur, görür, Aşıq Musa yazdırıb ki, a Mikayıl, göndərdiyim bu şeirə cavab ver, özün də məni yoxlaynan[1], yol haqqını da göndərirəm. Aşıq Musanın bu işi ona yaman toxunur, çünki axır vaxtlar başı qarışdığından nə Qaraçöpə yönü düşürdü, nə də Aşıq Musanın hal-kefini xəbər alırdı. Aşıq İmran da onun qocalığını, xəstə olduğunu, dostlarını görmək istədiyini demişdi. oturub Aşıq Musaya məktub yazır, şeirinə də beləcavab göndərir:

**Aşıq Musa**

Yaylaqlarda toy-düyünün çağırdı,
Arzulu toyları çalsan necədi?
Özüm bağban, könlüm bülbül bağıdı,
Küsənin könlünü alsan, necədi?

**Mikayıl Azaflı**

Tale qismətimə toy-düyün yazıb,
Toy-düyün mənimdi, çalarım, ustad.
Coşuban çağlayıb, şir kimi qızıb,
İncimiş könlünü alaram, ustad.

**Aşıq Musa**

Bəyənmişəm İmran ilə Əkbəri,
Hüseyn, Nağı, Həsən, kor Ələkbəri.
Yaşat Əsəd, Mirzə kimi kəsləri,
Dünyamda dünya tək qalsan, necədi.

[1] məni yoxla – yəni mənə baş çək

**Mikayıl Azaflı**

Əslioğlu Məhəmməd, o Şair İbad,
Miskin Həsən, Teymur söylənir ad-ad.
Mən Aşıq Musaya baxarammı yad?
Ürəkdə od-ocaq qılaram, ustad.

**Aşıq Musa**

Qocalıq Musanı təkləyib, sıxıb.
Dostlar da yan ötüb, qıyğacı baxıb.
Sənin bu sinəni yandırıb-yaxıb.
Arabir boşalıb-dolsan, necədi?

**Azaflı Mikayıl**

Qəm söyləyib, Azaflını ağlatma,
Ümidinin qapısını bağlatma.
Məni nahaq coşduruban çağlatma,
Qaynayıb, boşalıb-dolaram, ustad.

Məktubu göndərəndən bir neçə ay sora Mikayıl Azaflı Musanın rəhmətə getdiyini eşidib çox kədərlənir, ürək ağrısıynan aşağıdakı qoşqusunu yazır:

Ağlaram ürəyim, qan-yaş tök, gözüm,
Aşıq Musa kövşər-kanım köç edib.
Gedib məzarına qoy sürtüm üzüm,
Sənətində sultan-xanım köç edib.

Dillərdə dastandı söhbəti-sözü,
Ruhən sağ qalıbdı, qapanıb gözü.
Onu əvəz etməz, cəmləşsə yüzü,
Qaraçöpdə ilk həyanım köç edib.

Tək evdən yox, böyük eldən ayrılıb,
Şer-sənət, şirin dildən ayrılıb.
Coşqun dəniz, daşqın seldən ayrılıb,
Azaflıyam, din-imanım köç edib.

Sonralar ustad Aşıq Mikayıl Azaflı Aşıq Musanı tez-tez yada salar, ona rəhmət oxuyardı.

## AŞIQ ALXAN QARAYAZILININ QARAÇÖPLÜ AŞIQ MUSA ILƏ DEYIŞMƏSI

Aşıq Alxan cavan vaxtı 1932-ci ildə Qaraxaçdan Varansovka bazarına gəlir, kürd Abdullanın draxdınına çatanda yol yoldaşı Alı Süleymanova deyir ki, sən atdan en, mənim sazımı draxdının divarından as, bazardan qayıdanda dönüb çay içərik. Kürdün arvadı Rübabə xanım Aşıq Alxanı addı bir aşıq kimi tanıyırdı. Alı içəri girəndə görür ki, divardan bir saz asılıb. Rübabə xanımın ijməsiylə (fitfa, bilə-bilə qalmaqal salmaq mənasını verir) Aşıq Alxanın sazını həmin sazın üstündən asır və içəri göz gəzdirir, görür ki, burada aşığa oxşayan br kimsə yoxdu.

Bazardan qayıdanda Rübabə xanım Aşıq Alxana divardan asılan sazın sahibini nişan verir. Aşıq Alxan görür ki, yekəpər, yöndəmsiz, necə gəldi geyinmiş bir adamdı, dinməz-söyləməz bir tərəfdə oturub. Başında qulaxlı papaq, yekə ayaqlarında əldən düşmüş bir qaloş var, qara corablarının bağı da yerinən sürünür. Qalın qaşları olan adamın iri bığları da yöndəmsizdir. İmam oğlu İmanı Aşıq Alxana xələt verir, bir hava oxumasını xahiş edir. Aşıq Alxan yerindən durur, bu aşığı heç saya salmır. Yöndəmsiz aşıq Rübabə xanıma əmranə

deyir ki, bir mənim sazımı da endir. O, sazı sinəbənd edəndə Aşıq Alxan deyir:

– Əmi, meydan sənindi, ya mənim?

Naməlum aşıq cavabında:

– Siz tərəflərdə dəyirman varmı, ay bala:– deyə soruşur.

Aşıq Alxan :

– Bəli, – deyir,

– Di onda əvvəlcə sən üyüt, sonra mən üyüdərəm.

Aşıq Alxan meydan alanda zənn edir ki, hərifdi, sonra məlum oldu ki, arif görünür, zordu. Ancaq iş-işdən keçmişdi, əlacsız irəli düşür:

Cavan bir aşığam, fələk dayımdı,
Baxçam bar gətirib, sənin nəyin var?
Tökərəm bazara yaşılı, alı,
Almağa, satmağa sənin nəyin var?

**Aşıq Musa:**

Addı bəzirganam, indi tanırsan,
Yaqutum var, gövhərim var, ləlim var,
Dayansan qarşımda sən başa kimi,
Lal eylərəm yetmiş iki dilim var.

Birinci beytində Aşıq Alxan görür ki, doğrudan da arif zordu, qoyur altdavana:

Gəl, çox da baş atma, nişanı gözlə,
Zəmbursan səbr eylə o şanı gözlə.
Qarşında xotkarı, paşanı gözlə,
Elmim yetirib, sənin nəyin var?

**Aşıq Musa:**

Fizuli, Firdovsi eyni-bil, mənəm,
Nəsimi tək dastan olan bil, mənəm.

Yüküm həqiqətdi, yalan bilmənəm,
Dörd fəsildə ətir verən gülüm var.

**Aşıq Alxan:**

Azad dövran aşığıyam-nörəstə,
Düşmana düşmanam, qul ollam dosta.
Adım aşıq Alxan, yerim Kür üstə,
Qarayazı bitirib, sənin nəyin var?

Bu dəmdə Aşıq Musa gülür, başını bulaya-bulaya deyir:

Aşıqsan, şairnən düşməynən bəsə,
Qorxuram meydanda batasan yasa.
Məkanım Qaraçöp, adımdı Musa,
Ana yurdda yeddi oymaq elim var.

Söz tamama yetəndə Aşıq Alxan Aşıq Musanın əlindən, Aşıq Musa isə onun alnından öpür. Rübabə xanım Aşıq Alxanın bu hərəkətindən inciyir. Deyir ki, sən niyə o çarıxlı aşığın əlindən öpdün? Aşıq Alxan cavabında deyir ki, xanım, sözü çarıx yaratmır, baş yaradır. Və o, Aşıq Musanı Rübabə xanıma sözlə təqdim edir:

Qiymətli şairdi, eyni Ələsgər,
Hər zaman onunçün ziyarətim var.
Lovğalıq bilmərəm ustad yanında,
Qəlbimdə ustada sədaqətim var.

Bu sözlər Rübabə xanımı açmadı. Aşıq alxan götürüb mabədini deyir:

Dəyişmə xəyalın, düçünmə belə,
Sən məhəl qoygunan, dəryayi gölə.
Əlindən salamat qurtardım hələ,
Tanıram xasımı-bu adətim var.

İnsan havalanıb çıxmaz izinnən,
Danışanda dürr tökülər sözünnən.
Hər kəs hesab çəkər kəndi özünnən,
Mən Aşıq Alxanam, öz qiymətim var.

Söz tamama yetəndə xanım deyir ki, o ki yaxşı şairdi, mənə bir tərif desin. Aşıq Musa Alxannan icazə alıb Rübabə xanıma tərifnamə deyir:

Ovçu gözüm görən kimi tanıdı,
İnsan libasında ceyrana baxın.
İki dostu bir-birinə qaldırır,
Qaragözlü qaşı qaytana baxın.

Qaşı çalır, gözü oynur dilbərin,
Mən də ollam bir heyranı bu yarın.
Xəstə könlüm həsrətində onların,
Bağban qoymaz bağa, bostana baxın.
Hansı xəstə səni görsə dirilər,
Müjganların sinəm üstə vurular.
Gözəlliyinə əla qiymət verilər,
Musa deyən tərif –dastana baxın.

Rübabə xanım bu tərifdən xoşallandı. Aşıq Musaya da, Alxan Qarayazılıya da bu sözə görə gözəl bir qonaxlıq verdi. Üstünnən də xoruzquyruğu bir çay. Ustad Aşıq Musaynan cavan Alxan Qarayazılı halallaşıf ayrıldılar. Allah hər ikisinə də rəhmət eləsin.

## FAXRALI ŞAİRLƏRİ RƏHİM NƏBİ OĞLU İLƏ İSMAYIL GÜLLƏRİN DEYİŞMƏSİ

**İsmayıl Güllər**

Kəndinə güvənib "tək mənəm" demə,
Salarlar alçağa, el yaman olar.
Gur axan sulardan saymazca keçmə,
Daşanda çaylarda sel yaman olar.

**Rəhim Nəbi oğlu**

İşin bəd gətirib dara düşəndə,
Yetəcək dadına el yaman olmaz.
Yağmurlar yağsa da, daşsa da çaylar,
Üzməyi bacarsan sel yaman olmaz.

**İsmayıl Güllər**

Bir gün olar baxan olmaz sözünə,
Getmə əyrisinə, çalış düzünə.
Yaxşı-yaman borcun çatar özünə,
Əsəndə tərsinə yel yaman olar.

**Rəhim Nəbi oğlu**

Yatarmı sinninə dən düşən vaxtı,
Baxtın yatıb ömrə çən düşən vaxtı.
Yayın bürküsündə çən düşən vaxtı,
Sərnidər canını yel yaman olmaz.

**İsmayıl Güllər**

Qulluq əldən gedər, sən alçalarsan,
Keçən günlərini yada salarsan.
Dediyin sözlərdən peşman olarsan,
Sağalmaz yarası, dil yaman olar.

**Rəhim Nəbi oğlu**

Dağların zirvəsi sərindi-sərin,
Heç kəsi hündürdən düşməsin dərin.
Acıdan acıdı, şirindən şirin,
Haqqına danışsan dil yaman olmaz.

**İsmayıl Güllər**

Çox da bel bağlama, müvəqqətidi,
Göz dikmə harama, el zəhmətidi.
Çox da parıldasan baş töhmətidi,
Açacaq sirrini, pul yaman olar.

**Rəhim Nəbioğlu**

İnsan oğlu ayaq üstə duranda,
Məskən salıb mülki-bina quranda.
Qədəm basıb bir səfərə varanda,
Gərəkdi yanında pul yaman olmaz.

**İsmayıl Güllər**

İsmayılam, belə gördüm binədən,
Sərraf olan sözü seçər sinədən.
Yarananlar köçəcəkdir dünyadan,
Tarix yetişəndə hal yaman olar.

**Rəhim Nəbi oğlu**

İrəhim, ölümün yadına gəlsin,
İrəhmət sözləri adına gəlsin,
Yaradan ayardıb dadına gəlsin,
Əməlin düz olsa, hal yaman olmaz

# DASTANLAR

## "AĞCAQUZU" QOLU HAQQINDA BİR NEÇƏ SÖZ

"Koroğlu" dastanından geniş ictiamiyyətə tanış olmayan "Ağcaquzu" qolu ilk dəfə olaraq tərəfimizdən (E. M. ) 1989-cu ilin dekabr ayında Qarayazı (Qardabani) mahalının Kosalı kəndində tanınmış el sənətkarı, ustad aşıq Aslan Kosalıdan yazıya alınıb. Bir qədər sonra ilk dəfə olaraq həmin qolu şərti olaraq iki başlıq altında "Ağcaquzu" və "Pərzad xanımn Çənlibelə gəlməsi" adı ilə "Qobustan" jurnalında və 1992-ci ildə Türkiyədə nəşr etdirmişik. Həmin qollar rus dilinə tərcümə olaraq 2000-ci ildə "Səda" nəşriyyatının nəşr etdirdiyi "Koroğlu" kitabına daxil edilib (səh. 293-323). Daha sonra Azərbaycan dilində iki dəfə. Sonuncu nəşr ("Şərq-Qərb" nəşriyyatı 2011-ci il, səh. 249-278) nəşr olunub. Ustad sənətkarın istəyi ilə sonralar "Ağcaquzu" qollarını 2006 və 2012-ci illərdə yenidən yazıya almışıq. Bu gün əlimizdə Aslan Kosalının ifasında həmin qolların üç variantı mövcuddur. Qeyd edək ki, 2012-ci ildə ustadın repertuarına həsr etdiyimiz "Azərbaycan folkloru külliyyatı" seriyasının 30-cu cildində "Ağcaquzu" və "Pərizad xanımın Çənlibelə gəlməsi" qollarının I variantını da daxil etmişik. Bu kitabımızda isə aşığın ifasında II variantı təqdim edirik. Təbii ki, eyni söyləyicinin müxtəlif illərdə ifa etdiyi süjetlərdəki dəyişikliklər və təhkiyə üsulunu, poetik nümunələrin bəzi fərqlərini öyrənmək baxımından bu təcrübənin maraq doğura biləcəyinə əminik.

## “KOROĞLU” DASTANINDAN “AĞCAQUZU” QOLU (AŞIQ ASLANIN İFASİNDA II VARİANT)

Koroğlunun başlanğıcı hamıya bəllidi. Onun ilk adı Röyşən idi.

Bir gün Ali kişi dedi:

– Ay oğul, baxma mənim iki gözlərim də çıxıf, bu iki at sənin gələcəyindi. Sənin həmeşəliyindi. Harıya sürsən murad alacaxsan. Sən bir qüvvədə olanda, onlar sana iki qüvvə verəjəhlər. Bu atları göz bəbəyin kimi saxla.

Alı kişi vəsiyyətini eləyif dünyasını dəyişdi. Röyşən atasını Qoşabulaq deyilən yerdə basdırdı. Camaat da yıgılır, molla da quran oxuyur.

Alı kişinin qardaşı Bilal vardı. Bilal buna yol göstərir:

– Oğul, yan gözünü çıxarannan sonra hər yerdə karvan qavağı kəsilir, oğuruxlar olur. Hasan Paşaynan Cəfər paşa sənnən oğurluğ görürlər. Deyillər bizim malı dağıdan o korun oğludu. Gəl gör başına nə çarə qılersan, burdan çıxıf getməlisən.

Röyşən bu fikirnən atasının qəbrinin üstünə gəlif halallıx almax isteyir. Atı da yanında olur. Bulaxda əlini-üzünü yuyuf, yuxarı çıxan vaxtı göy gurulduyuf, şimşək çaxdı. Şimşək yəhərin üstündə bunun qılıncını qıpqırmızı qızartdı. Dalıynan da bir yağış gəlif bunu soyutdu. Koroğlu baxdı ki, ata heş nə olmuyufdu. Gördü əmisi Bilal böyürdən cıxdı:

– Oğul, buraya xoş gəlifsən, burda nağarersan?

Röyşən dedi:

– Babamın qəbrini ziyarət eliyirdim.

Bilal əlini Röyşənin kürəyinə vuruf:

– Oğul, inşallah kürəyin yerə dəyməz. Qılıncını da nəyə vursan kəsif oyana tulluyajax, atın da həmişə yüyrək olacax.

Bunula da aralandı əmisi. Röyşən gördü ki, əmisi yoxa çıxdı. Qıratın belinə minif, Düratın da yəhərinnən çəkif çəkə-çəkə əmisi Bilalın öyünə gəldi. Dedi:

– Nə tez qaşdın mənim yanımnan?

Bilal:

– Ay oğul, mən öyümnən heş yana çıxmamışdım axı. Sana elə görünüf.

Röyşən:

– Əmi, bu atı (Dür atı göstərer) sana amanat verirəm. Mən gələnətən bunu saxlayarsan.

Röyşən Qırata minif, tərpəndi. Mazandarannnan kecif İran torpağına gəldi. İrannan Turana keçən vaxtı Təkətürkmən elinə çatanda Röyşən bir bazara gəlif, atını bir yerə bağlayır. Görür ki, camaat yığılıf bir yerə. O vaxtı xoruz döyüşdürməy, it boğuşdurmax, at oynatnax, qılınc oynatmax var idi. Burda bir pəhlivan var idi. O burdakılara deyir:

– Kim mənim qolumu dartsa, dünya onundu.

Burda da iki oğlan vardı Pərviznən Pərvaz. Sultan xanın oğlanları idi. Bunlar yanaşı oturuf azarkeşlih eleyirdilər. Heş kəs bu pəhləvanın qolunu qatdıya bilmir. Koroğlu ya Allah, sən mana köməy ol deyif, bura yaxınlaşdı dedi:

– İyid adın nədi?

– Adım Ərəb Reyhandı.

– Yaşın nə qədərdi?

– İyirmi biri keçifdi.

Röyşən:

– Elə mən də eləyəm. Gəl tutaşax.

Bunlar elə tutaşan vaxtı Koroğlu gördü ki, bu da iyiddi. Hahan, nahan ərəb Reyhanın qolunu yendi.

Ərəb Reyhan ayağa qalxır.

– Bunnan bitmer, gərək güləşəh.

Axşamatan Ərəb Reyhanla güləşif, axşam onun kürəyini yerə vurdu. Ərəb Reyhan ayağa qalxıf qolundan (üstünə öz adı yazılmış) qolcaxını çıxardıf, Röyşənə verif dedi:

– Bunu sana vererəm. Mənim qolumu yerə vuran olmamışdı.

Bir də baxdılar ki, geri yannan davullar çalınır. Bilənnər bilsin, duymayanlar eşitsin savaxlarım Bilqeyis xanımın on səkkiz yaşı tamam olur. Kim qara quzuyu Evey daginnan (Avey dağı) tez gətirsə qız onnan söhbət eliyəjəh. Röyşən xavar aldı ki, bu Evey dağı hardadı? Dedilər ki, burdan otuz vers o yana.

Savaxlarınız xeyrə açılsın, savax açılır tanrı savaxlarınızı xeyirriyə açsın. Tezdən Röyşən Qıratın belinə miner. Qırata atmı çater? Tərpənif gedif qara quzuyu gəterer. Bilqeyis xanım qara quzuyu gətirənnən söhbət eləməlidi axı. Görür ki, bir oğlandı quzuyu gətirif qoydu qənşərinə. Şaha xavar çater ki, atlıların yarsı hələ Evey dağına çatmeyif bir atdı gətdi çıxartdı quzuyu. Bu nətər şeydi. Şah Röyşənin yanına gəlif, boyuna-buxununa baxanda öz-özünə dedi ki, pərvərdigara doğrudan da gözəl insan yaradıfsan. Sultanın oğlanları Pərvannan Pərviz aşiq oldular Röyşənə. Ondan da çox Bilqeyis xanım. Koroğlu ilə bir-birinin üzünə baxırlar, amma şahın qorxusunnan söhbət eləyə bilmirlər. Şah deyir:

– Ay qoçax oğlan, bu quzuyu sənmi gətirdin?

Röyşən:

– Bəli, mən gətirdim.

Şah dedi:

– İsmin nədi?

Röyşən dedi:

– Röyşən.

Şah dedi:

– Oğlan, mənnən nə isteyirsən?

Qız gözünnən işarə eləyir ki, amandı denən məni isteyirsən.

Şah dedi:

– Oğul, sən haralısan, kimsən, hardansan, mənə deyə bilərsənmi?

Röyşən dedi:

– Baba, icazə versən yəhərin üstündə mənim qopuzum var onnan deyerəm.

Şah dedi:

– Oğul, ixtiyar sənindi. De görüm, sən kimsən?

Röyşən:

Zatım türkdü, türk oğluyam.
Muradbəyli elim mənim.
Çənlibeldə yurd qoymuşam,
Qavğalıdı halım mənim.

Şah dedi:

– Ayə, buruya bax, haranın qaçağısan sən gəlif buruya çıxıfsan?

Röyşən dedi:

– Qulağ as:

Müxənnəttik bizdən haşa,
Xeyr əməlik başdan- başa.
Düşmənimiz xannan, paşa,
Pozulmazmı halım mənim.

Şah deyir:

– Oğlan, bir adını de görək:

Röyşən:

– Əfəndim, qulağ as:

Adım Röyşən, özüm qərib,
Hər bəlaya sinə gərib.
Yaxşı kəsə əlimi verif,
Duşmanımdı zalım mənim.

Şah vəzirə deyir ki, Röyşənə qızıl verin.

Röyşən isə Bilqeyisi isteyir. Şah Röyşənə deyir:

– Get oğul, mən sənə qız verən deyiləm. Nə olursa olsun.

Onun deməyinnən ha döyül. Gejənin birində qız qaravaşların biriynən xavar göndərir Röyşənə ki, bəs bağa gəlsin, mən də gələjəm. Sözdəşif, ilqarlaşıf Röyşən Bilqeyis xatını atın tərkinə atıf tərpəner. Kimdi yetirən? Günə bir mənzil, tayyimünəzzil gəlif, Muradbəyliyə çatdılar. Atasının komasına enif, qonum-qonşuyla salamlaşan vaxtı Bilal dədə gəlif dedi:

– Oğul, başına çara qıl. Hər quldurluğ eliyən Koroğlu adınnan quldurlux eləyir. Taciri kim çapıf? – Koroğlu. Koroğlu da kimdi? Röyşən. Filan padşahın kecavəsinin qavağını kim kəsif? – Koroğlu. Koroğlunun heç bundan xavarı yoxdu. Başını götür get. Yoxsa Hasan paşa başını kəsəjəh.

Xalx yaylaxlara çıxer. Papağan dağı deyillər, onun başında bir mağara taper. Çox gizlin yerdə idi. Bilqeyis xatını gətirif ora gəldi. Bir ay, beş ay, on ay Bilqeyis xanım dura bilmer. Şah evində yaşamış, xalılar üstündə yatmış, yeyif-içmiş gözəl bir xanım. Yaşeyiş yaxşı getmir. Koroğluyu da çox isteyir. Amma gələn yox, gedən yox dünyaya da bir oğul gətirdi. Ər-arvad arasında mübahisə geder. Arvad deyir ki, mən atamın adını qoyajam.

Koroğlu deyir:

– Atayin adı nədi?

Arvad:

– Sultan.

Röyşən də deyir ki, mən öz atamın adını qoyajam.

Bilqeyis deyir:

– Atayın adı nədi?

Koroğlu:

– Alı.

Qız atasının adınnan uşagını çağırır. Sultan adınnan əzizləyir, oynuyur. Ancax Koroğlu da Alı çağırer. Gördü heş nə olmuyajax.

O vaxt yaylağa insanlar çıxmışdı. Aşağılarda binələr qurulmuşdu. Röşən birinin yanına enif, Əsmər addı bir qadından pendir, çörəh, süd belə şeylər alır. Röyşən qarıya deyir:

– Bə mənim xanımım ora getmək istəmir. Gəl gedəh ona ağıl ver.

Röyşən Əsmər qarıyı Bilqeyisin yanına gətirir. Qarı baxıf görür ki, ilahi nə gözəl yaradıfsan? Nə gözəl oğlan, nə gözəl qızdı. Ər-arvadın arasına yenə mübahisə eliyirlər. O deyir uşağın adı Sultandı, bu deyir Alıdı. Qarı dedi atam- anam nəyin üstündə dava eliyirsiniz? Dedilər bəs belə-belə. Qarı deyir:

– Qadan alem, nolar ki, iki adı da bir-birinə qatasız Sultanalı qoyasınız.

Röyşən dedi:

– Nənə, sən haxlısan.

Savaxlarınız xeyrə açılsın, savax açıler. Birisi gəlif Hasan Paşaya deyir ki, bə sənin dükanlarını talayanın, yolları kəsənin, o Koroğlu deyilənin yerini bilerəm.

– Hardadı?

– Papağının altında filan dərədə.

On-on beş nəfər atdı göndərir ki, Röyşəni tutuf gətsinlər. Röşən də bu vaxtı eşiyə çıxmışdı gördü ki, dörd yanını atlılar kəsif. Bilqeyis dedi:

– Röyşən bular nədi, neyniyəjəhsən? Bunlar çoxdu sən təksən.

Koroğlu dedi :

Xotyar üstümüzə cari buyuruf ,
Döyüşərəm, dönmərəm edərəm cəngi,
Ac qarınca kimi məni doyursa,
Heş qəbul etmərəm bu nəmiləngi.

Bu vaxt eşihdən səs gəler.

– Ayə, ay filankəsin oğlu, ay korun oğlu, eşiyə çıxginən. Üstünü əlli nəfərnən kəsmişəm səni darmadağın eliyəjəm. Özün bizə təslim ol.

Koroğlu deyir:

Qulaq as:

Əlli nədi, altmış nədi, yüz nədi,
Danışdığın bu hərcayi söz nədi,
Mənim üçün dərə nədi, düz nədi,
Mənəm əsla girvələrin pələngi.

Gələnlər dedi:

– Ayə, harıya gedəjəhsən?

Bilqeyis də deyir:

– Röyşən, təslim ol çıxax xalx içinə. Qohmun yox, sahabın yox.

Koroğlu deyir:

– Qulağ as, xanım.

Xub yetişdim, mən canana,
Səni top eylərəm cöykana,
Addaram Təkətürkmənа,
Ollam Əli qullarının gek rəngi.

Onatan qoşun dalı bərkidi, zorrandı. Koroğlu oyana-buyana neçə başlar kəsif tulladı, amma yenə də əl cəhmerlər

ki, çəhmerlər. Röyşən fikirləşdi ki, burdan qaçıf qurtarsam yaxşıdı. Atını mahmızdeyif "Bilqeyis" – deyə qışqırdı. Bilqeyis çıxan kimi belinnən götürüf atın tərkinə atdı. Qırat tərpəndi. Qayalığın arasınnan çıxan bir namərd oxu Bilqeyis xatunun kürəyinə sancıldı. Bilqeyis:

– Ay Röyşən məni vurdular.

Qoşabulağın üstünə çatanda Bilqeyisi düşürdü. Dodağlar ağarıf, gözdər soluf, qan gedif. Bircə onu dedi ki, ay Röyşən Sultanalı amannatdı. Bunu deyif gözlərini yumdu. Röyşənin başı dəfnə qarışmaqda olsun, sizə kimdən deyim körpədən. Körpə mağarada bələkdə qalır. Əsmər qarı öz-özünə deyir ki, üç gün keçif, gedim görüm uşax nağayrer. Mağarnın ağzına çatanda gözlərinə inanmadı. Bir ana canavar döşdərini verib uşağın ağzına əmizdirir. Qarı xeyli gözdədi. Qarının iyisini hiss eliyən canavar ordan aralandı. Canavar ordan aralanan kimi qarı tez uşağı götürüf, öz komasına gətirdi. Uşağı yuyuf, təmizləyir. Bir ağ qoyunu vardı, onun südüynnən uşağı əmizdirərdi. Uşağa da öz adı ilə yox, Ağcaquzum deyə çağırardı. Elə qonum-qonşu da uşağı belə çağırardı – Ağcaquzu.

Ağcaquzu günü-gündən böyüyür. Dörd-beş yaşına çatanda tay-tuşlarından seçilməyə başlayır. Bir gün nənəsiynən bazara gedir. Bazarda uşaxlar arasında cırmaqlaşma düşür. Buna da əl atan olur. Bu da bir- ikisini vuruf yıxır. Bu vaxt Hasan Paşa burdan keçirdi. Uşağı gördü. Yaxınlaşıf uşaxdan soruşdu:

– Oğul, sən kimsən, haralısan?

Uşaq dedi:

– Əsmər qarının oğluyam.

Hasan Paşa:

– Sənin neçə yaşın var?

Uşaq:

– Altı.

Hasan Paşa qarıya yaxınlaşıf uşağın zatını, əslini-nəslini soruşdu.

Qarı:

– Atam-anam, vallah bilmerəm. Tullamışdılar, tapıf gətirmişəm. Gələcəyim üçün böyüdürəm, saçımın, saqqalımın yiyəsi olajax.

Hasan Paşa dedi:

– Ay qarı, bu uşağı bizə sat.

Qarı dedi:

– Atam-anam oğlumu satımmı?

Hasan Paşa dedi:

– Mən səni uşaxdan ayırmaram, sən də onunla barabar bizdə qalarsan. Nə qədər ömrün var yaşa. Ancax bu uşağı mana ver!

Hasan paşa dedi: – bə bu uşağın adı nədi?

Qarı dedi: – Mən onu tapannan sonra quzularımnan baravar qoyun südü əmizdirmişəm. Ona görə də, həm də ağ uşax olduğunnan adın "Ağcaquzu" – deyə çağırıram.

Hasan paşanın da bu addan xoşu gəldi:. Dedi, uşağı mana versən biz də onu Ağcaquzu çağırarıx.

Bəli, ustadlar cürə-cürə deyir. Biri deyir satdı, bir deyir elə belə verdi. Ağcaquzu günü-gündən böyüməkdə olsun, sizə kimdən deyim, Röyşən bəydən.

Röyşən geri qayıdıf Sultanalıyı yerində görməyəndə elə bil başına qaynar su tökürlər. Nə eliyə bilə? Heşnə.

Yenə də dəlilərin çoxu Koroğlunun adınnan çapqınnıx eliyirlər. Amma Koroğlunun xavarı yox. Röyşən də nağayrdı? Bunları bircə- bircə yanına gətirdi. Hası xoşuna gəldi yanında

saxladı, hası da xoşuna gəlmədisə yanınnan uzaxlaşdırdı. Rövşən burda öz işində olsun, sizə kimdən deyəjəm, Ağcaquzudan.

Ağcaquzu gəlif həddi-buluğa çatıf. Cəfər Paşanın bir qızı var, Pərzad adında. Çox gözəl, tərbiyəli bir qızdı. Ağcaquzuyu qapıda gördükcə, meyli ona qarçı qaçer. Bir gün deyir:

– Əmi, ixyiyar versən Ağcaquzu bizə tərəf də gələ – gedə.

Əmisi deyir:

– A bala, öz əmin oğludu gəlsin – getsin.

Onu da deyək ki, Pərzad xanım həm də cadugərlik dərsi alerdı. Bir gün yolda getdikləri yerdə Pərzad qıqqıldayan bir töyux oldu. Röyşən bir də baxdı ki, bu dəqiqə yanında Pərzad idi indi töyux oldu. Bunu tutmax istəyəndə, hoppandi getdi ayrı şeyə döndü. Genə öz cildinə dönüf dedi:

– Bilirsənmi nə var, Ağcaquzu, sən qılınc oynatmağı, üzməyi hər şeyi bilirsən. Ancax bircə bu cadı sənətini bilmersən. Bunu bilməsən sənnən baş pəhləvan olmaz.

Neyniyək? Qız dedi:

– Mənim mollamın yanına gedəh.

Qız Ağcaquzuyu qılıxlıyıf bura gətirer. Molla başdeyir Ağcaquzuya öyrətməyə. Ancax qız nə qədər Ağcaquzuya yaxın gəlersə, Ağcaquzu qızdan aralaner. Heç qıza yaxınnıx vermer. Qız bir gün Ağcaquzuya deyir:

– Ağcaquzu, iyirmi yaşin tamam olubmu?

Ağcaquzu deyir:

– Bəli.

Qiz deyir:

– Mənim də on səkkiz yaşım tamam oluf, bizim görüşən vaxtımızdı.

Ağcaquzu deyir:

– Babama deyərəm toy eyləyər görüşərik.

Qız deyir:

– Yox, gəl gedəh kim güjlüdü o onu yıxsın.

Ağcaquzu deyir:

– Gedəh.

Bunlar çəkildilər kola. Qız hər dəqiqə bir dona girdi, Ağcaquzu onu bu donnan azad elədi. Sandığa girif qızıl alma, olsam neylərsən (bu mahni da ordan qalıf). Axırı Pərzad xanım bir şir cildinə girdi. Ağcaquzu neynədisə bunu aşa bilmədi. Maat-məətəl qaldı. Geri gəlif gördüyünü Hasan paşıya dedi. Hasan paşa dəli oluf dedi:– Ayə, nə danışersan?

Cəfər paşıya da xavar çater. Həmən cadıkin mollanın yanına gələndə, görürlər ki, molla ölüf. İş qalıf belə. Ağcaquzu başına döyə-döyə ağlamaqda olsun, sizə kimnən xavar verim, şahların şahı, sevgiləri, məhəbbətləri bir-birinə yazannan, ağır gündə insanına yardım edənnən həzrəti Xıdırdanmı deyim, Həzrəti Əlidənmi deyim, ancax o var ki, o var bu haqdı. Ağcaquzu hoyuzun qırağnda başını söyküyüf yatmışdı. Bir nurani kişi gəldi bunu dümsühlədi, dedi:

– Oyan.

Ağcaquzu oyanıf dedi:

– Nədi baba?

Qoca əlini bunun kürəyinə cəkif dedi:

– Oğul, inşallah arxan yerə dəyməz. Sənin dərdiyin dərmanı qoç Koroğlundadı. Onu tap sənin nişannınan o qovuşdurajax inşallah. Qırx gün sənə elə qüvvə verərəm ki, heş kim səni yıxammıyajax. Ağcaquzu dihsinif qalxdı. Hasan paşanın yanına gəlif dedi:

– Baba, mana ixtiyar ver gəzməyə çıxem.

Hasan paşa:

– Oğul, harıya?

Ağcaquzu dedi:

– Gedif Pərzad xanımı qaytarajam.

Hasan paşa dedi:

– Oğul, üç aydı, beş aydı düşmüşük yollara Pərzadı tapa bilmirik sən nejə tapajahsan?

Ağcaquzu dedi:

– Yox, tapajam.

Ağcaquzu iki nərin üstünə qiymətli şeylərdən yığıf, yola düşdü. Bu gəlməkdə olsun, sizə kimdən xəbər verim, qoç Koroğludan. Aradan iyirmi il keçif. Koroğlu Çənlibeli düzəldif, yeddi min yeddi yüz yetmiş yeddi dəliyi başına yığmışdı.

Koroğlu Cəfər paşanın Zərraf Zərgülə adında bir tacirini qanına qəltan eləmişdi. Bunu al qan içində Niyar xanımın yanına gətirirdi. Nigar xanım taciri tanıyıb deyir:

– Boyy ay evin yıxılsın, bu mənim babamın taciridi.

Niyar xanım bunnan çox hirsdəndi. Üzünü Koroğluya tutuf dedi:

– Səni görüm belə-elə olasan. Bunu niyə bu günə salıfsan?

Koroğlu dedi:

– Mən babayi-əmirəm.

Nigar dedi:

– Elə səni babayi-əmirə rast gələsən, səni bu günə salsın.

Koroğlu qaqqildadı:

– İnsan kasıblaşanda, varlananda özünnən çıxer. Allah-təbəraka-təala hər şeyə qərar qoyur.

Ağcaquzu qayanın qırağı ilə geder. Koroğlu da qayanı üstünə çıxıf gələni gedəni güdör. Gördü iki dəvə gəler, üstündə də bir cavan oğlan. Amma başqa heş kəs yoxdu. Ağ qayanın üstündən qıratı mahmızdıyıb, Ağcaquzunun qavağını kəsdi:

– Ayə, oğul, harıya belə?

Ağcaquzu dedi:
– Sana nə. Sən kimsən?
Koroğlu bir dəli nərə çəhdi.
Ağcaquzu dedi:
– Nəyə bağırersan, yekə kişisən.
Koroğlu götürür burda görəh nə dedi:

İstambuldan şikar düşüf əlimə,
Ver malını, qurtar canını, çəkil get.
Bulamamış səni qızıl qanına,
Ver malını, qurtar canını, çəkil get.

Ağcaquzu deyir:
– Qulağ as:

İki iyid bir meydanda üzləşər.
Baş getməmiş malımı sana verməręm.
Qılınc vurram yaraların sızlaşar,
Baş getməmiş malımı sana vermərəm.

Bu sözü eşidən Koroğlu toppuzu Ağcaquzunun başınnan fırlatdı. Ağcaquzu tez qolundakı qalxanı yuxarı qalxızdı. Elə bil qalxan qayaya dəydi. Ordan da qayıdıf Koroğlunun sinə-sinə dəydi. Koroğlu sancılandı. O dəqiqə ürəyinə gəldi ki, vallah Niyarın qarğışı məni tutdu. Dedi:
– Qulağ as, bala.

İndi gələr dəlilərim qurd kimi,
Onda olar iki gözün dörd kimi.
Başın gedər, leşin qalar yurd kimi,
Ver malını, qurtar canını çəkil get.

Ağcaquzu dedi:
– Ay kişi, nə özünnən deyirsən?

İyid gərək sözünə versin astana,
Qılınc çəksəm, meydan dönər bostana.

Yüz tülkü neyniyər bir ac aslana,
Baş getməmiş malımı sana vermərəm.

**Aldı Koroğlu:**

Koroğluyam at belində gəzərəm,
Yaxınnan uzaxdan şikar süzərəm.
Başnı çəkif bədəndən üzərəm.
Ver malını, qurtar canını, çəkil get.

Ağcaquzu deddi:

– Ay kişi kimsən ?

Koroğlu dedi:

– Koroğluyam.

Ağcaquzu dedi:

– Qulax as.

Ağcaquzuyam hər yetənə enmərəm.
Hərcayinən danışmaram, dinmərəm.
Mən səni heç ayağ tozu bilmərəm,
Baş getməmiş, malımı sana vermərəm.

Koroğlu atdan düşdü ki, bunu da dəvədən endirə. Ağcaquzu dedi ki, yox mən dəvədən enən döyləm. Mən ağa Koroğluyu gəzerəm.

Koroğlu dedi:

– Ayə, neynirsən ağa Koroğluyu?

Ağcaquzu dedi:

– Onunla işim var.

Koroğlu dedi:

– Mənəm ağa Koroğlu.

Ağcaquzu dedi:

– İnanmeram. Mana ağa Koroğlu olduğunu nejə sübüt edəjəhsən?

Koroğlu and içer, iman eleyer.

Ağcaquzu deyir:

– Yox. Məni mənzilinə apar. Doğurdan da Koroğlusansa mən dəvədən enəjəm.

Koroğlu deyir:

– Oğul gəl gedəh.

Ağcaquzu ilə Koroğlu bir-birinə daha da yaxınlaşırlar. Koroğlu Ağcaquzuya deyir:

– Sənə kobudluğuma peşman oldum. Amma sana üç bənd nəsihət verəjəm. Qulağ as:

İki ləkə bir araya gələndə,
Bu məclisin halı pərişan olar.
İki iyid bir məclisdə olanda,
Odalar bəzənir, çıraqban olar.

– Ağa Koroğlu, mən ləkəlih eləməmişəm, ləkəlihi sən elədin.

Aldı Koroğlu birini də:

Mərd iyidlər dolu badələr içər,
Dost yolunda şirin canından keçər.
Namərd adam qavğa günündə qaçar,
Kolların dalında pəhlavan olar.

Ağcaquzu dedi:

– Mən namərdlik eləməmişəm.

Koroğlu dedi:

– Sən canını məndən qurtardınmı sanırsan? Qulağ as:

Korğluyam haşa etmərəm mərddən,
Müxənnət iş əysih olmaz namərddən.
Bir keçi canını qurtarsa qurddan,
Baxar buynuzuna kərgədan olar.

Bunlar gəlif mənzilə çatdılar. Niyar xanım baxdı ki, nə qədər dəli gəlir. Koroğlu dedi:

– Qonağı dəvədən endirin!

Ağcaquzu dəvədən endi. Yeməh-içməh, gecənin bir vaxtı Koroğlu dedi:

– Oğul, isteyirəm sənin dərdini biləm.

Ağcaquzu dedi:

– Ağa Koroğlu, məqsəd budu, bəs mənim nişannım cadudadı, aslannara qoşuluf gedif. Mana da dedilər onun çarasını ancax qoç Koroğlu bular. Ona görə sənin üstünə gəlmişəm.

Koroğlu qaldı maat-məətəl ki, bu saray ha döyül vuram, yıxam. Mən neynim. Elə də gejəni yatdılar. Savax açılan kimi Koroğlu səsləndi:

– Məclis qurulsun!

Ancax içərisini dərd alıf ki, Pərzadı mən nejə gətirəjəm. Amma qorxusunnan dərdini Niyara da aça bilmir ki, bu oğlanın dərdi budur.

Məclis quruldu, xalx yığıldı. Dedilər ki, məclisə aşıx gəlsin. Aşıx Cununu gətdilər ortaya. Aşıx:

– Hamınız xoş gəlifsiniz.

Aşığa dedilər ki, bəs qonağımız da var. İstambuldan gəlif, bizə də iki dəvə yükü qiymədi hədiyyələr gətirif. Ona görə bu məclisi açmışıx. Görəh aşıx Cunun burda nə deyir:

Gəl səninlə həmdəm olax,
Oxu mənim telli sazım.
Həm qaynıyax, həm dəm alax.
Oxu , mənim telli sazım.

Aldı birin də:

Hamıdan yüksəkdə duran,
Şadyanalı məclis quran.
Cadu pozan, tilsim qiran,
Oxu mənim telli sazım.

Aşıx bunu deyən kimi Koroğlu qalxdı:

– Hay, hay. Bir də de görüm onu nə dedin.

Aşıx yenə deyir. Koroğlu deyir:

– Ayə, tilsimi saznanmı qırellar?

Aşıx deyir:

– Bəli, qırellar.

Koroğlu dedi:

– Aşıx Cunun sözünü tamamla!

Aşıx Cunun:

Sən Cununun dövlət-malı,
Küllü-aləm iftixarı.
Dədəm Qorqud yadigarı,
Oxu, mənim telli sazım.

Koroğlu ayağa qalxıf:

– Ayə, mənim sazımı buruya gətirin!

Saz gəldi. Götürürf görəh Koroğlu burda nə deyəjəh, biz deyəh siz sağ olun:

Hanı mənim qoçaxlarım,
Kimdi mənnən köçən gəlsin.
Xan Eyvaza canım fada,
Badələri içən gəlsin.

Xan Eyvaz ayağa duruf, əlinə badə aldı ki, mən də sənnən gedəjəm.

Poladdan paltar geyinnər,
Donnuğun mənnən yeyənnər,
Adına dəli deyənnər,
Şirin cannan keçən gəlsin.

Dolanax dağı, daşdarı,
Qırax tilsimli başları.

Koroğlunun qardaşdarı,
Şirin candan keçən gəlsin.

Koroğlu ayağa qalxdı. Bəlli Əhməd, Eyvaz xan, Halay pozan, üçü də aralandı ki, biz də səninlə gedirik. Koroğlu dedi:

– Dörd nəfər bəsdi, artıx adam aparan döyüləm.

Atdandılar. Koroğlu atın belindən çığırdı :

– Ay camaat, təzə gələn qonağımız bütün qoşunun başçısıdı. Nə desə ona əməl edərsiniz.

Eyvaz dəli olmadımı! Dedi:

– Ağa, mən getmerəm

Koroğlu dedi:

– Niyə?

Eyvaz dedi:

– Sən qoşunu kimə tapşırersan?

Koroğlu dedi:

– Oğul, qorxma. Niyar xanıma tapşırmışam.

Bunlar atdanıf getməkdə olsun, Bu yandan da Niyar xanım Ağcaquzuyu yanlıyır:

– Dərdin alem haralısan, kimsən?

Ağcaquzu dedi:

– Hasan Paşanın oğluyam.

Niyar xanım:

– Sənin adını niyə Ağcaquzu qoyuflar?

Ağcaquzu dedi:

– Mən uşax vaxtı ağ qoyunun südünü əmmişəm Əsmər nənəm adımı Ağcaquzu qoyuf. Elə qonum-qonşu da adımı belə çağırıf.

Niyar xanım:

– Biyy ay oğul, inşallah Koroğlu bavan gələndə bir məclis qurduruf sənin adını dəyişərih.

Bəli, Ağcaquzuynan Niyar xanım söhbətdə qalsın sizə kimnən deyim, qoç Koroğludan. Atlarını Samur çayının qırağınnan sürürlər. Bura o yerdi ki, Ağcaquzuynan Pərzad xanım ayrılan yer. Orda bir məclis qurdu Koroğlu. Yeyif, içənnən sonra Samur çayının qırağınnan meşəyə gedən yollan gedirdilər. Koroğlu gördü ki, ayə qavaxlarına cürə-cürə bəzəhli şeylər çıxer. Gah qaya olur, gah dərə olur, amma sonra bunlar yoxa çıxer. Bir də baxdı ki, ayə, çoxlu yemiş - qarpız əmələ gəldi. Eyvaz ağzına qoymaq istəyəndə gördü ki, zəhər-zəqqundu. Koroğlu dedi:

– Ayə, aşıx bizə demişdi ki, bir işarə görəndə sazın səsini kəsməyin. Həmişə saz səsləndirin.

Koroğlu əlini gözünün üstünə qoyuf baxanda gördü ki, bir aslandı qayanın üstündə yater. Baxdı gördü ayə, bu aslan bayax qırmızı idi, indi göy oldu. Bir az getdi qarmtıl oldu.

Koroğlu dedi:

– Uşaxlar, dayanın, burda nəsə var.

Koroğlu sazı sinəsinə basıf görək nə dedi:

Uca-uca dağ başında,
Mən bir aslana uğradım.
Yedim, işdim, döran sürdüm,
Baği- bostana uğradım.

Bu belə oxuyuf, qurtaranda gördü aslan hoppanıf insan cildinə düşdü. Baxdı gördü qadın xaylağıdı. Dedi:

– Ə, Bəlli Əhməd, öyün yıxılsın tapmışıx.

Aldı görəh:

Gəl, xanım dur gəl, bəridən,
Ürəyimin yağın əridən.
Çırpındı çıxdı dəridən,
Məməli məstana uğradım.

Ordan səs gəldi:
– Ayə, o nə sözdü danışersan? Utanmersanmı?
Koroğlu:

Koroğlunun çıxıf adı,
Aləmə çatıf fəryadı.
Görməmişəm belə cadı,
Firəngistana uğradım.

Belə deyən vaxtı, gah yer genəler, gah daraler. Koroğlu uşaxlara deyir:
– Ayə, qorxmuyun, görəh başımıza nə gəler.
Aldı burda Koroğlu:

Uca- uca dağ başında,
Birəm-birəm qar görünür.
Mənim bu xəcil könlümə,
Ala gözlü yar görünür.

Pərzad xanım deyir:

Mən Pərzadam tanı məni,
Tərk etmişəm xanımanı.
Şahmar olub çallam səni,
Dünya sənə dar görünür.

Koroğlu deyir qoy buna bir kəskinn söz deyim:

Göründü yarımın kəndi,
Şəkərdən şirindi qəndi.
Açıldı sinənin bəndi,
Köhsündə cüt nar görünür.

Pərzad xanım deyir:
– Utanmersanmı ? Adam da qadına elə söz deyər?
Koroğlu deyir:

Koroğluyam yazammaram,
Yar dərdinə dözəmmərəm.

Arsız oluf gəzəmmərəm,
Dünya mənə dar görünür.

Söz tamam olan kimi Pərzad xanım dedi:

– Ay kişi, nə gəzersən? Kimi gəzersən?

Koroğlu dedi:

– Ay Pərzad xanım, səni gəzerəm.

Pərzad xanım dedi:

– Neynersən məni?

Koroğlu dedi:

– Vallah bir-iki söz deyəjəm sana, xətrinə dəyməsə qulağ as:

Pərzad xanım dedi:

– Buyur de.

Cunun tafşırmışdı ki, Pərzad xanım nə qədər saz səsi eşitsə sənə o qədər mülayim olajax. Oydu ki, götürdü genə saznan görək nejə dedi:

Mən qoç Koroğluyam çıxdım qalamnan.
Ərzəmi götürüf, divanə gəldim.
Xotyarın oğlunnan peyman eylədim,
Küfrümü zay etdim, imana gəldim.

Pərzad xanım dedi:

– Maşallah, nə yaxşı dedin:

Koroğlu dedi:

– Qulağ as, ay xanım:

Bu dağların zirvəsinə varanda,
Qılınc çəkif düşmən bağrın yaranda,
Samur qırağında məclis quranda,
Mey işdim, məst oldum, məstana gəldim.

Pərzad xanım dedi:

– Ay kişi, sözüyün açığını de bilək:

Koroğluyam, sözüm kəsmə küsərəm,
Bir yel ollam budağlarda əsərəm.
Getməsən də zorla başını kəsərəm.
Səni aparmağa mərdana gəldim.

Qız lap yaxınlaşdı. Arada ikjə addım qalıf. Qız dedi:

– Məni kimnən ötrü, nədən ötrü aparersan? Nəyinə lazımam mən sənin?

Koroğlu dedi:

– Qulağ as:

Oyçu olan oyunu izlər,
Dur varax bizim ellərə.
Ağcaquzu yolunu gözlər,
Dur gedək, bizim ellərə.

Pərzad xanım dedi:

– Ayə, Ağcaquzu kimdi ki, sən onnan ötəri burya gəlifsən. Məni öyümnən-eşiyimnən, səni də işinnən-güjünnən eliyif.

Koroğlu dedi:

– Ay xanım, gəl olma naşı,
Nə gəzersən dağı – daşı.
Ağcaquzu qoşun başı,
Dur gedəh bizim ellərə.

Pərzad dedi:

– Ay kişi, döğrumu deyirsən?

Koroğlu dedi:

– Qulağ as:

Sona tərk etməz gölünü,
Xoryada verməz telini.
Gəl ol, Koroğlu gəlini,
Dur varax bizim ellərə.

Qız bundan aralanır. Koroğlu görəh onu qandırmağdan ötəri nə deyəjəh:

Qarşı yatan qarlı dağlar,
İllər sını bəzər bir gün.
Güllü, bənöşəli dağlar,
Yarım səndə gəzər bir gün.

Pərzad xanım dedi:

– Mən şah qızıyam bilersənmi? Səni kimi əlli , yüz kişi saxlıyaram. Ağlına gələni niyə söylədin?

Orda Koroğlu deyir:

Hər iyiddə olmaz hünər,
Od olmasa, ocax sönər.
Döylətdidən döylət dönər,
Ağıl başdan tezər bir gün.

Pərzad xanım dedi:

– Ayə, sən nə ağıllı adamsan. Özgə nə deyəjəhsən?

Koroğlu dedi:

– Qulağ as:

Koroğlu Çənlibellərdə,
Qalmışam fitnə - fellərdə.
Mən ölsəm qürbət ellərdə,
Qəbrimi kim qazar bir gün.

Koroğlu qıza dedi :

– Səni zorla da olsa aparajam.

Qız dedi:

– Getdim sənnən.

Koroğlu Pərzad xanımı Düratın belinə oturduf, yüyənini də verdi Eyvazın əlinə. Gəldilər taa Sarı qayanın ətəyinə gəlif çatdılar. Burda Koroğlu dəlilərinə deyir:

– Uşaxlar, qayanın dibinnən gedə-gedə güllərdən yığıf, Pərzad xanımın kəcavavasını elə bəzeyirsiniz ki, baxan mat qalsın. Mən də bu tərəfdən kəsə yolnan gedif Niyar xanımı muştuluxluyuf, pişvaza adam göndərəjəm.

Koroğlu Qara qayanın dalınnan kəsə yolnan Niyar xanıma muştuluğa geder. Ağ qayanın başındakı cığırla gedəndə gördü ki, bir göy atdı, ennikürək, nurani bir adamdı. Dayanıf atın belində, yoldan çıxmer. Koroğlu Qıratı nə qədər vurdu getmədi. Koroğlu qeyzə gəldi ki, görəsən bu kimdi ki, mənim yolumu kəsif. Hirslənif görək nə dedi:

Tatsan, kürdsən, nə millətsən,
En atınnan ərəb oğlu.
Yol kəsənsən, yoxsa kimsən,
En atınnan, ərəb oğlu.

Koroğlu neynersə atdı tərpənmer. Deyir:

Aslan kəsifdi qarşını,
Axıdajam göz yaşını.
İndi kəsəjəm başını,
En atınnan, ərəb oğlu.

Atlı dedi:

– Ə, sən kimsən?

Bunun belə deməyi Koroğluya təsir elədi. Dedi:

Qoç Koroğlu mənəm, mən,
Çətin dediyimnən dönəm.
Əlimnən şikar verməzəm,
En atınnan, ərəb oğlu.

Atdı dedi:

– Ayə, ölsəm də enmərəm.

Koroğlu dedi:

– Ayə, nejə yanı enmərəm? O atı sənin əlinnən alajam.

Atdı dedi:

– Yox, yox ala bilmərsən. Sənin atın mənim atımı ötsə mən onda atımı sana verərəm. Mənim atım ötər, sən verərsən. Bax, bu qayanın dibinnən sürəh.

Qırat yerinnən tərpənmədi. Koroğlu dedi:

– Düş atdan! Mənə Koroğlu deyəllər gərək atını alam sənnən.

Atdı deyir:

– Gəl güləşək.

Atdı düşür atdan. Koroğlu da "Ya mədət" deyib başladılar güləşə. Qavağındakı qımışdı. Koroğluyu götürüf elə tullayır ki, Koroğlu Ağ qayanın üstünə düşdü. Koroğlu ağzı partdamış duruf gəlir bunun yanına. Atlı deyir:

– Get, get Koroğlu, şad xəbərə rast gələrsən. Daha mənnən zarafat eləmə.

Koroğlu ata minif sürdü. Atın tappıltı səsinnən bildilər ki, gələn Koroğludu. Niyar xanım baxdı ki, at gəler üstündəki Koroğluya oxşamır. Saçını yoluf soruşdu:

– Ayə, sana noluf?

De, niyə belə məlulsan?
Hanı Eyvaz xan, Koroğlu?
Göz yaşım ümmana dönər,
Bağrım olar qan, Koroğlu.

Rəngin dönübdü löyünnən,
Sinəm dağlıdı düyünnən.
Qurvan kəsəllər qoyunnan,
Sana qurvan mən, Koroğlu.

Aldı Niyar birini də:

Tərlansan kəhlik oyunda,
Niyarın gözəl qoynunda .
Pərzad xanımın toyunda,
Sürək bir devran, Koroğlu.

Eyvaz Pərzad xanımı gətirdi. Ağcaquzu da gəldi . Koroğlunu belə görüb soruşur:

– Sana noluf belə?

Koroğlu dedi:

– Rast gəldim birinə. Onu Niyar xanım bilər.

Koroğlu deyir:

Niyar xanım bir ərəbə rast oldum,
Ağlımı başımnan aldı da getdi.
Qurumuş dilimnən bir xata çıxdı,
Məni Ağ qayaya çaldı da getdi.

Eyvaz o yannan çıxıf, dedi:

– Ayə, kim? Bu dəqiqə yeddi min dəliyi töküf onun anasını ağlatmıyajammı? Kimdi?

Koroğlu dedi:

– Oğul, qulağ as:

Ona yüz minin də çatammaz gücü,
Məğribdən məşriqa verməz o bacı.
Əlində qamçısı, zəhərdən acı,
Əlini, qolunu oynatdı getdi.

Niyar xanım dedi:

– Sən Allah, Koroğlu, o kimdi?

Koroğlu dedi:

– Qulağ as:

Koroğluyam budu sözümün sanı,
Onun hökmündədi Kövsər bulağı.

Adı Həzrət Əli dinin dayağı,
Düldülünə süvar oldu da getdi.

Pərzad xanımı bəziyiflər, gəlin otağındadı. Hazırlanerlar. Ağcaquzu da meydana cıxdı. Doğrudan da gözəl qız, gözəl oğlan bir-birini seviblər. Qucağlaşdılar. Ayrılanda Ağcaquzu dedi:

– Qoç Koroğlu mən sana nə verem? Mənim bir yadigarım var, nənəm Əsmər qoluma bağleyif. Bax onu sana verəjəm.

Qolunnan qolçağı açıf Koroğluya verəndə, üstündə Röyşən adını görəndə Koroğlu bağırdı:

– Ərəb Reyhan hardadı? Onu bura çağırın!

Koroğlu soruşdu:

– Ayə, bu nədi?

Ərəb Reyhan dedi:

– Qoç Koroğlu bunu mən sənə filan yerdə bağışlamışdım.

Koroğlu dedi:

– Mən də bunu oğlum Sultanalının qoluna bağlamışdım. Niyar xanım, bax gör bunun sağ çiynində qırmızı ziyil varmı?

Aşdılar gördülər haman ziyil var.

Koroğlu dedi:

– Gəl mənim də çiynimə bax.

Baxdılar ki, bunda da var. Koroğluyu ağlamaq tutuf. Əmudunu gətizdirir. Üzünü Ağcaquzuya tutuf dedi:

– Bir bu əmudu qaldır daşıma vurginan.

Ağcaquzu dedi:

– Ağa Koroğlu , axı mən vurmmaram.

Koroğlu əmudu qaldırıf, daşa vurur. Daş parçalanır.

Koroğlu burda deyir:

Namərdliklə səni vurdum,
Oğlum, əllərim qurusun.
Ağrısını özüm duydum,
Oğlum, əllərim qurusun.

(bunlar döyüşəndə sipər qayaya dəyif buna da dəymişdi, onu deyir)

Yaman durmuşdum qəsdinə,
Düşmən tək cumdum üstünə.
Qurban boyunun şəstinə,
Oğlum, əllərim qurusun.

Bu gördüyün dövlət, varı,
Tamam səndə ixtiyarı.
Koroğlunun can-ciyarı,
Oğlum, əllərim qurusun.

Ərəb Reyhan mat-məətəl qaldı. Niyar xanım dedi:

– Ayə, Koroğlu oğlun həm də bacanağındı ki!

Burda bir məclis qurulur ki, gəl görəsən. Axıra qədər də xoşbəxt yaşayırlar.

## "ŞƏHRİ-MEHRİ"

### USTADNAMƏ

Bimurvətsən, biinsafsan, zalımsan
Gəlmişəm əlindən amana, dünya!
Atdırdın Adəmi behişt bağından,
Döndərdin göz yaşın ümmana, dünya!

Ağlar qoydun mərd oğullar anasın,
Dağıdıbsan qəhrəmanlar qalasın.
Ərzurumda Xan Kərəmin lələsin
Salıbsan çovğuna, borana, dünya!

Fərhadın külüngün vurdun başına.
Qoymadın yetməyə can sirdaşına.
Kərəmi yandırdın eşq atəşinə,
Məcnunu eylədin divana, dünya!

Yazaram şerimi yeri gələndə
Eybini üzünə deyərəm mən də.
Nə insaf, nə mürvət görmədim səndə
Uyubsan namərdə, şeytana, dünya!

Ağacan da həqiqətdən söyləsin,
Oxuyub mənasın bəyan eyləsin.
Var ilahim bəlkə qismət eyləsin,
Öləndə bir aşna qurana, dünya!

Ustadlar ustadnaməni bir deməz, iki deyər. Biz də deyək iki olsun, düşmənin gözü ovulsun.

Köklü bir qayanı atalar demiş,
Qaldırıb yerindən yel ata bilməz.
Layiq bilməz namusuna, arına
Namərd kölgəsinə mərd yata bilməz.

Dolandım dünyanı şair sanında,
Gövhər xırd eylədim mərd meydanında.
Arif bazarında, sərraf yanında
Hər yetən orada veş sata bilməz.

Görəndə dostuna sən eylə hörmət,
Hər yetən namərdə eyləmə minnət.
Ağacan, yetənə bəsləmə hörmət
Keçən günlərinə gün çata bilməz.

Ustadlar ustadnaməni üç deyər. Biz də deyək üç olsun namərdin ömrü puç olsun.

Daha sənə çox ixtiyar verməréəm,
Durgunan yerində farağat, dilim.
Danışırsan ziyanını çəkirəm,
Açırsan başıma ələman, dilim.

Nə desələr cavabında hazırsan.
Cismi-cəsətimə qəbir qazırsan.
Hərdən toxunmalı şeir yazırsan,
Hər yetənlə olmaz zarafat, dilim.

Ağacan düşünür çox tarixləri,
Şuara elmindən doludur səri.
Diş olmazmı ötkəm dilin çəpəri,
Durgunan yerində farağat, dilim.

Sizə kimdən xəbər verək, Misir vilayətində Həsən paşa, Hüseyn paşa adlı iki qardaşdan. Bu qardaşlar çox varlı idi, dünyada nə nazı-nemət desən onlarda tapmaq olardı. Əmə di gəl ki, bu iki qardaşın heç birinin övladı olmurdu. Bu dərd hər iki qardaşı saraldıb-soldurmuşdu. Kasıb-kusuba əl tutmaqdan, yetim-yesirə yedizdirməkdən yorulmuşdular. Günlərin bir günü Həsən paşa bağçada güllərə tamaşa eləyirdi. Hüseyn paşa qardaşını bağçada qəmli-qəmli gülləri iylədiyin görüb onun yanına gəldi.

– Nə var ay qardaş, gənə niyə qaş-qabağın yernən gedir, elə bil dünyanın bütün badi-xərəcanı sənnən alıblar. Həsən paşa başını qaldırıb qardaşının üzünə baxdı, dərinnən bir köks ötürüb dedi:

– Eh, ay qardaş, ikimiz də bir gündəyik, sabah bir gün başımızı qoyub bu dünyadan köç eliyəcəyik, bəs bizim yurdumuzda bir yurdçu qalmayacağmı? Kimə qalacax bu cəh-cəlal?

Hüseyn paşa dedi:

– Rəhmətliyin oğlu, qismətdən artıq yemək heç kimə nəsib olmayıb. Nə yazılıb onu da görəcəyik. Allah özü məsləhət bilən yaxşıdır. Bir də gördün bizə əncam çəkdi.

Hüseyn paşa bunu demişdi ki, iki qardaşın arasında bir nurani Dərviş nazir oldu. Əlində bir qırmızı alma tutub Həsən paşaya yaxınlaşdı. Götür dedi, oğlum götür. Bu almanı tən yarı bölərsiniz, yarısını evə aparıb arvadınızla yarı bölüb yeyərsiniz. Vaxt gələcək onda sizin birinizin qızınız, digərinin oğlu olacaq. Mən bəri başdan onların butasını da verdim.

Bunu deyib dərviş baba qeyb oldu. Hər iki qardaşın sevinci yerə-göyə sığmadı. Evə çatanacan əhd-peyman bağladılar. Həsən paşa dedi:

– Sənin qızın, mənim oğlum olsa qızını oğluma alacam, yox əgər mənim qızım sənin oğlun olsa onda mən öz qızımı sənin oğluna verəcəm.

Bəli, hər iki qardaş almanı tən yarı bölüb sevinə-sevinə xanımlarının yanına qaçıb yarım almaları bunlardan da bölüb yedilər. Həmin axşamnan bu qadınların boynuna uşaq düşdü.

Günlər keçdi, həftələr dolandı, aylar dolandı. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz saniyə tamamda Həsən paşanın oğlu, Hüseyn paşanın bir qızı oldu. Elə həmin günnən körpələr dayələrə tapşırıldı. Bir qiyamət, bir vur çartasın oldu ki, gəl görəsən. Bu sorağı eşidən ayrı yerlərin paşaları sultanları göz aydınlığına gəldilər. Böyük məclisdər quruldu, oğlanın adını Şəhri, qızın adını Mehri qoydular.

Bu münvalnan uşaxlar böyüməyə başladı. Məktəb yaşı çatanda ikisi də bir məktəbdə oxudular, elə bil saat-saat böyüyürdülər. Əmə axır vaxtlar özləri də bir-birindən ayrı dura bilmirdilər. Bir gün dərsdə yan-yana oturmuşdular. Molla baxıb gördü ki, Şəhri Mehrinin əlini alıb ovcunun arasına qızınan məzələnir, heç dərsə də fikir vermir. Bu işin üstünü axşamacan vurmur, axşam gedib Hüseyn paşıya çatdırır ki, bəs deməzsənmi Şəhri Mehriynən eşqbazlıq edir. Həmən günün səhərisi Hüseyn paşa Mehrini daha dərsə qoymadı. Bu Şəhrini yaman kədərləndirdi. Əhvalatdan Həsən paşa xəbərdar oldu. Gedib qardaşınnan məsələni öyrənmək istədi. Qardaşı Həsən paşanı çox soyux qarşılayıb, dedi ki, bizim əhdimiz baş tutası döylü. Mən sənin oğluna qız vermiyəcəm. Düzü Həsən paşanın elə quru adı qalmışdı, paşalığı zadı, malı-dövləti yoxuydu. Hüseyn paşa da fikirləşirdi ki, bir varlı paşaynan qohum olaram, onun sayəsində öz var-dövlətim artar. Qardaşımnan mənə bir şey çıxmaz.

Həsən paşa işdən agah oldu, kor-peşiman evə qayıdıb əhvalatı arvadına danışdı. Şəhri harasa getmişdi. Gəlib atasını belə qanıqara görəndə gözlərinə inanmadı. Soruşdu, gecədən-gec cavab aldı, məsələdən bu da agah oldu. Başına elə bil bir qazan isti su tökdülər. Şəhrinin vəziyyəti ağırlaşdı, gözdər qaraldı, ağız köpükləndi, bir müddət bihuş olub yatdı. Bəli, bu işdən ata-ana bərk təşvişə düşdü. Həkim-loğman çağırdılar. Şəhriyə bir əlac eliyən tapılmadı. Kim baxdısa da hamısı bir söz dedi ki, bunun dərdi eşq dərdidi. Sevgilisinə qovuşmasa sağalası döylü. Bu minvalnan on-on beş gün keçdi, Şəhri elə saralmışdı, elə saralmışdı elə bil aylar-illər xəstəsidi. Dili sözdən, dizi gücdən qalmışdı. Əmə Mehriyə məhəbbəti əvvəlkinnən də qat-qat artıq başında qalmışdı.

Günlərin bir günü Şəhriynən Mehri vədələşib ova çıxmalı olurlar. Şəhrinin ova getməsinnən Mehrinin atasının xəbəri olmur. Həsən paşa elə bilir ki, Mehri ova qızdarnan çıxır. Odur ki, həyətdə nökər saxladığı Yaradanqulunu çağırıb onu da Mehriyə qoşur.

Bəli, cavannar atdara süvar olurlar. Üz qoyullar ovlağa tərəf. Atları çapa-çapa hər üçü gəlib bir ovlaq yerinə çatırlar. Şəhri Mehriynən Yaradanquluya deyir ki, siz buralarda bərədə durun mən gedim dağın o üzündən ovu qovum bu tərəfə. Razılaşırlar, Şəhri atı çapıb gedir ov dalınca. Şəhri getməkdə olsun, eşit Mehriynən Yaradanquludan. Şəhri aralanan kimi, Mehri Yaradanquluya dedi ki, get o qabaqda Bənövşə dağının ətəyində qoşa bulaq deyilən gözəl bulaq var, həmən bulaqdan güzəni doldur gətir. Yaradanqulu "baş üstə xanım"-deyib gözdən itdi. Tezdiynən qayıdıf gəldi, güzə də dolu. Mehri xanım güzəni başına qaldırıb içində Yaradanqulu qıza elə tamaşa eliyir ki, elə bil aşiq-məşuquna baxır. Mehri

bu işdən çox ajıxlandı, üzünü Yaradanquluya tutub dedi:-gözdərinin şorvasını axıda-axıda mənə niyə belə baxırsan. Ayıb döyülmü sənnən ötəri. Mən dünyaya gəlməmişdən sən mənim atamın qapısında qarabaşsan, bu nə hərəkətdi sənnən? Belə deyəndə Yaradanqulu dedi:-Xanım, başına dönüm, deyillər gözəl su içəndə baxmağın yerini heç nə verməz. Deyəllər gözəl su içəndə onun boğazında su da görünür. Odu ku xoşum gəldi sənnən, dura bilmədim baxdım. Yaradanqulu sözünü qutaran kimi Mehri ona bir elə tərs sillə tutuzdurdu ku, yazığın gözünnən od sıçradı. Yaradanqulu hirsdi-hirsdi güzəni yerə qoyub, dedi: xanım bu hayıfı səndə qoysam, yer üzündə mənnən alçaq adam yoxdu. Sözünü deyib yola düşdü. Bir müddət keçəndən sonra dayanıb bir yerdə nəfəsini dərdi. Öz-özünə mızıldamağa başladı:

– İndi mən Mehriyi möhkəm yanadım. dedim:-bu qisasımı alım. Koroğlunun üstünə gedib əhvalatı olduğu kimi danışsam, Koroğlu dərimə saman təpər. Yaxşısı budu bir baş gedim Calalı Kürdün iyidi Kürdoğlunun yanına. Kürdoğlu ağaya-paşaya xərac vermir. Bu tərəflərdə hamı onnan tük salır. Gedif dəjəm, Kürdoğlu nə qədər sarayında gözəl var onnarın hamısınnan gözəl Hüseyn paşanın qızı Mehridi. Elə bir qız təkcə sənin kimi iydə layıxdı. Qoyma elə gözəli qurda-quşa qısmat olsun. Al caynağına gətir.

Hə... Yaradanqulu beləjə planı qura-qura ağlına gəldi ki, Mehri ovdan qayıtmamış gedim saraydan onun şəklini götürüm aparım Kürdoğluna.

Bəli, Yaradanqulu nejə fikirləşmişdi, eləjə də, elədi. Şəkili də qoltuğuna vurub tüpürdü dabana. Calalı Kürdə Kürdoğlunun yanına üz qoydu. Az gəldi, çox gəldi, onnan işimiz yoxdu, gəldi çatdı Kürdoğlunun hüzuruna. Şəkili göstərib,

əhvalatdan onu agah elədi. Kürdoğlu birə beş qıza vuruldu. Onu da deyək ki, Yaradanqulu qızın dilinnən Kürdoğlunun adına yalançı bir namə də yazdırmışdı ki, can Kürdoğlu, sənnən ötrü dəli-divanayam, atam məni zornan əmim oğlu Şəhriyə verir, gəlib məni azad eliyib özünə arvad aparmasan, mənim ləçəyim sənin başına olsun. Kürdoğlu naməynən tanış oldu, oxudu, əmə Yaradanquludan gözü su içmədiyindən öz adamlarına tapşırdı ki, mən gedirəm, qayıdıf gələnətən bunun əl-ayağını bağlıyın. Qoymayın qaçıf eləsin. Yalan danışırsa başını bədəninnən ayırajam.

Bəli... Kürdoğlu bir neçə atdıynan üz tutur Hüseyn paşanın torpağına. Hüseyn paşa atdılarnan bir yerdə Kürdoğlunu görür. Der: - a bala, buralarda nə at çapıb oynadırsan? Mənnən bölünməz malın ha yoxdu. Bu yerdə Mehri özünü at üstündə yetirir. Kürdoğlu baxır görür Yaradanqulu gətirən şəkildəki bu qız həmin özüdü. Odu ku irəli gəlib həmin yalançı məktubu qıza uzadıb der ki, bu məktubu Yaradanquludan sən mənə göndərifsən. Gəlmişəm səni aparım. Mən Kürdoğluyam. Mehri kağızı alıb oxudu, cırıb Kürdoğlunun üstünə atdı. Dedi igid, çıx yolunnan get. Yaradanqulunun fitnəsinə uyma. Mənim istəklim öz əmim oğlu Şəhridir. Onu bütün dünyaya dəyişmərəm. Buların söhbətindən sora Şəhri də gəlib ovdan qayıdır. İşdən agah olur. Mehrinin Kürdoğluynan söhbət elədiyini eşitmişdi, əmmə bilmirdi nə məzmunda söhbət eləmişdi. Odu ki, qısqanclıqdan götürdü görək Mehriyə nə dedi:

**Şəhri:**

Oxumuşam həqiqətin kalamın
Gedirsən, ay Mehri, yara nə dedin?
Sənə verdim Kürdoğlunun salamın
Gedirsən, ay Mehri, yara nə dedin.

**Mehri xanım:**

Mənə qənim ola həqiqətin kalamı
Qorxma, yarım, düz ilqarım sənnəndi.
Lazım deyil Kürdoğlunun salamı,
Qorxma yarım, düz ilqarım sənnəndi.

**Şəhri:**

Kürdoğlunun dürlü-dürlü halı var,
Yemək üçün şəkəri var-balı var.
Geymək üçün yaşılı var, alı var
Gedirsən, ay Mehri, yara nə dedin?

**Mehri xanım:**

Adam var ki, aynan-günün baxşıdı,
Adam var ki, dindirməsən yaxşıdı.
Namərd atlasınnan kətan yaxşıdı
Qorxma, yarım, düz ilqarım sənnəndi.

**Şəhri:**

Şəhriyəm, sürmədik zövqiynən səfa,
Yolunda çəkmişəm çövrüynən-cəfa.
Söylə vəfalısan, yoxsa bivəfa
Gedirsən, ay Mehri, yara nə dedin?

**Mehri xanım:**

Mən Mehriyəm namusumu atmaram,
Seyrağub sözünə hərgiz bitmərəm.
Şəhri sevgisiyəm, yada getmərəm,
Qorxma, yarım, düz ilqarım sənnəndi.

Kürdoğlu baxıb gördü kü, Mehrinin aşıxlığı, şairliyi də var. Şəhriynən əməlli başdı deyişdilər, oduku dili dinc durmadı. Dedi: xanım, sənin aşıxlığın da var imiş. Mehri sözə söznən cavab verif dedi ki, lağ eləmə, gəl məni qadın libasında görmə, oğulsansa sözdərimə cavab ver: Aldı görək nə dedi:

**Mehri xanım:**

Necə güldü zimistanda açalı,
Vədəsi gələndə tarimar olur?
O kimlərdi bəlli günə dayanmaz,
Özü öz sözündə kiriftar olu?

**Kürdoğlu:**

Qar bir güldü zimistanda açılı,
Vədəsi gələndə tarimar olu.
İkiüzlülər bəlli günə dayanmaz,
Özü-öz sözündə kirifdar olu.

**Mehri xanım:**

O nədir ki, öz-özünə qurulu,
O nədir ki, həm yıxılı, hörülü.
O nədir ki, göydən yerə sərili,
O nədir ki, gündə min təhər olu?

**Kürdoğlu:**

Boyun bağdı öz-özünə qurulu,
O könüldü, həm yıxılı, hörülü.
O eylikdi göydən yerə sərili,
O fikirdi gündə min təhər olu.

**Mehri xanım:**

Nə çeşmədi, çeşmələrdən suludu?
Nə badədi, yarı döylü, doludu?
O nədi ki, on beşində uludu?
Otuzunda təzə tifil-tər olu?

**Kürdoğlu:**

Göz çeşmədi, çeşmələrdən suludu,
Eşq badəsi yarı döylü, doludu.
O aydı ki, on beşində uludu
Otuzunda təzə tifil tər olu.

Bu deyişmə bitdikdən sonra mehri xanım yenə də üz tutdu Kürdoğluya, görək nejə dedi, o nejə cavaf verdi:

**Mehri xanım:**

Ay Kürdoğlu, bircə ərzim alasan,
Həqiqətin söylə neçə yolu var?
Neçə təbəqədən üstə duranlar,
O kimlərdi əllərində dolu var?

**Kürdoğlu:**

Dinlə cavabını, ay Mehri xanım,
Ərəsətin yetmiş iki yolu var.
Yeddi təbəqədi üstə duranlar,
O qırxlardı, əllərində dolu var.

**Mehri xanım:**

O nədi ki, işlər-yoxdu onda dən,
Nə heyvandı onun gözü bir xırman?
Dünyada yarandı neçə-neçə can,
Onnarın hazırda neçə dili var?

**Kürdoğlu:**

Fələk çərxi dəyirmandı, yoxdu dən,
Yunisi udanın gözü bir xırman.
Adəm-həvva hax yaradıb iki can
İki canın yetmiş iki dili var.

**Mehri xanım:**

Sən də mənim dediyimi qanasan,
İgidlər içində bircə dönəsən.
Səni görüm od tutuban yanasan,
Bu Mehrinin məlul-müşgül halı var.

**Kürdoğlu:**

Sən də mənim mətləbimi qanasan,
Gözəllər içində bircə dənəsən.
Mənnən daha qurtarmazsan yaxa sən,
Kürdoğlunun yüz min fitnə-feli var.

Kürdoğluynan Mehrinin bu cür deyişmələri ovdan təzə qayıtmış Şəhriyə yaman yer eləyir. Götürür görək üzün tutur Mehriyə nə deyir:

**Şəhri:**

Canlm Mehri, gözüm Mehri,
Ged, ay Mehri, beyvəfasan.
Sənə qurban özüm Mehri,
Get, ay Mehri, beyvəfasan.

**Mehri xanım:**

Canım Şəhri, gözüm Şəhri,
De görüm nə xəbərin var?
Sənə qurban özüm Şəhri,
De görüm, nə xəbərim var?.

**Şəhri:**

Kürdoğlu şərbətin içər,
Şəninə tirmələr biçər.
Aranızdan ilqar keçer
Get, ay Mehri, -bivəfasan.

**Mehri xanım:**

Yardan üstümdən qadir,
Günəş üzün olub bədir.
Söylə mənim suçum nədir
De görüm nə xəbərim var?

**Şəhri:**

Mən Şəhriyəm, yana-yana,
Necə ki şamla-pərvana.
Buyurun şaha fərmana,
Get, ay Mehri, bibafasan.

**Mehri xanım:**

Mehri canında yarası,
Silinsin gözün qarası.
İkimiz alma parası
De görüm, nə xəbərin var?

Bəli, bu deyişmə qurtarannan sonra Şəhriynən Mehri atları minif dördnala çapa-çapa gənə oylaxlara tərəf üz tuturlar.

Kürdoğlu da elə bilir ki, bular Hüseyn paşanın sarayına üz qoyublar. Odu ki, der gərək kedif Mehriyi öz öylərinnən atasının yanına davaynan-dalaşnan götürüb aparam. Kürdoğlu atı qova-qova gəlir ki, sarayda ins-cins yoxdu. Mehriyi gördüm deyən də yoxdu. Odu ki, üzün saraya tutuf nə deyir:

Gəlmişəm yarın eşqinə,
Mehrim köçüb xəbərim yox.
Həsrətəm şirin dilinə
Mehrim köçüb xəbərim yox.

İrəngi dağlar nərgizi,
İşvəsi yandırdı bizi.
Sevdiyim o türkmən qızı
Mehrim köçüb xəbərim yox.

Kürdoğluyam oldum buta,
Məni saldı yanar oda.
Qamçı vurdum səmənd ata
Mehrim köçüb xəbərim yox.

Kürdoğlu sözünü tamama yetirir, Şəhrdə əlinə düşən ins-cinsi əmuddan qılıncdan keçirir ki, bəs tez olun Mehrinin yerini deyin. Gecə sübhə qədər aləmi dörd dolanır öz başının adamlarınnan Mehrini gördüm deyən olmur. Səhər açılha açılda baxıb görür ki, elə gözəl yel əsdi ki, fikirləşir der əyə, gəlsənə bu sabah yelinnən Mehrini xəbər alım. Odur ki, başdıyır sabah yelindən soruşmağa:

**Kürdoğlu:**

Əsib-əsib nə diyardan gəlirsən,
O yardan xəbər ver sən, sabah yeli.
Şan-şan edib bağrım başın dələrsən,
O yardan xəbər ver sən, sabah yeli.

Nə əsirsən alçaxlardan, ucadan,
Toxunursan pəncərədən, bacada.
Yarım yuxusuzdu yarı gecədən,
O yardan xəbər ver sən sabah yeli.

Kürdoğlu mayıldı sabah yelinə,
Qeyri bülbül qona bilməz gülünə.
Mənim xatirimə, allah yoluna
O yardan xəbər ver sən sabah yeli.

Bəli, Kürdoğlu burda vurnuxa-vurnuxa Mehriyi axtarmaqda olsun. Eşit Mehridən-Şəhridən. Mehriynən Şəhri elə ki, atdarı çapa-çapa ov dalınca getdilər, gəlib bir cəzirəyə ormanına çıxdılar ki, heç deyiləsi döylü. Bərk ajmışdılar. Əmə yeməyə heç şey yox idi. Şəhri atdan düşüb yayını-oxunu götürüb Mehriyə dedi ki, gedim bir az ov eliyim, sən də dur atdarın yanında. Mehri bu gözdəməknən Şəhrini çox gözlədi, duman-çiskin dağları elə bürüdü ki, gəl görəsən. Şəhərdən neçə günnük yol gəlmişdilər, həm də bu tərəflərə birinci dəfəydi ki, ova çıxırdılar. Odu ku, heç yanı tanımırdılar. Mehri dağları-daşları lərziyə salan səsnən qışqırdı. Nə fayda, Şəhri onun səsini eşidə bilmirdi. Bu münvalnan iki sevgili həmən günnən ayrı düşdülər. Günlərin bir-günü Şəhri bir göyənnik yerdə uzanmışdı arxası üsdə, birdən gözü səmada hərəkətdə olan buluda sataşdı, götürdü görək nə dedi:

Göy üzündə, para-pata buludlar,
Bulud, heç xəbərin varmı yarımnan?
Ciyər olub hazır para buludlar,
Bulud, heç xəbərin varmı yarımnan?

Bulud gedər obasına-elinə,
Laçın könlüm sona qoymaz gölünə.
Tanrı xatırına, mövlan yoluna
Bulud, heç xəbərin varmı yarımnan?

Şəhritəki bulud, irəngin qara,
Ciyərim olubdu bir həzər para.

Dolanıb gedirdi hansı diyara,
Bulud, heç xəbərin varmı yarımnan?

İndi Şəhri axtarmaqda olsun, görək Mehrinin başına nə gəldi. Mehri Şəhridən aralaşannan bir neçə gün sora gəlib bir çobana rast gəldi. Çoban belə qorxulu yerlərdə qız xaylağının gəzdiyini görüb yaman təcüb eliyir, odu ki, soruşur, deyir: ay bajı, nədi sənin buralarda tək gəzməkdə məqsədini, bilmək olarmı? Mehri götürür görək nə deyir:

Başına döndüyüm, ay çoban qardaş,
Görsən Şəhri yarı sal yola gəlsin.
Mən ağlaram, didəm verər qanlı yaş,
Görsən Şəhri yarı, sal yola gəlsin.

Çoban qardaş, mən yarımı götürdüm,
Götürüb sən bu virana gətirdim.
Fələk vurub, bu səhrada itirdim
Görsən Şəhri yarı sal yola gəlsin.

Mehriyəm düşmüşəm hicran cəhrinə,
Dözə bilməm ayrılığın təhrinə.
Söylə yarım getdi Qala şəhrinə
Görsən Şəhri yarı, sal yola gəlsin.

Mehri burda çobannan hal-əhvalda olsun, eşit Kürdoğludan. Kürdoğlu neçə vaxt idi ki, işini-gücünü buraxıb Mehrinin sorağıynan diyarbadiyar dolaşırdı. Heç kimnən "gördüm" - deyən yox idi. Bir gün Kürdoğludan soruşurlar ki, ay Kürdoğlu, noldu sənin bu Mehri xanımın, neçə vaxtı izinə düşüfsən. Kürdoğlu götürdü görək nə dedi:

**Kürdoğlu:**

Göy üzünnən uçan sonam,
Düşər göllər arasına.

Yar ki, yardan ayrı düşər,
Ağlar-sızlar çarasına.

Qızıl almanı dişləsin,
Dörd yanını gümüşləsin.
Yol düşüb, karvan işləsin
Mehri yarın baxçasına.

Kürdoğluyam, mənə oldu,
Saralıb gül irəngim soldu.
Mehri mənnən kənar oldu
Dağlar düşdü arasına.

Kürdoğlu çox gəzdi-dolaşdı, Mehri xanımı tapa bilməyəndə əlacı kəsilib Yaradanqulunu yanına çağırtdırıb dedi ki, xınzır oğlu xınzır, məni bu sövdaya sən kirifdar eliyifsən. İndi özün bil Mehrini tezliklə tapırsan tap, tapmırsan başını bədəninnən ayıracam. Yaradanqulu çarığın iplərini bərkitdi, düşdü diyarbadiyar gəzməyə. Az gəzdi, çox dolaşdı, gəldi Yeddi qala şəhərində Mehri xanımın sorağını aldı. Bir yannan da Şəhri qızın sorağıynan axtara-axtara gəlib çıxdı Yeddi qala şəhərinə. Yazıx Mehridən ayrılan müddətdə bir günə düşmüşdü kü, dilnən deyiləsi döylü. Pal-paltarı cırıx-cırıx olmuşdu. Elə bu görkəmnən Şəhri gəlib Yeddi qala şəhrinin Gül baxçasına daxil oldu. Bağban gördü ki, dilənçi kökündə bir adam gəlib girdi Gül bağçasına. Tez gəlib Şəhriyi çıxartmaq istədi. Dedi:- Zalım oğlu, bu görkəmnən sənin bu bağda nə ölümün var?. Bu bağ Yeddi qala şəhrinin qızı Mehri xanımın bağçasıdı. Səni burda görər mənim dərimə saman təpdirər. Onsuz da xanımın qanı qaradı. Neçə illərdi sevgilisi Şəhrini axtarır, amanın bir günüdü çıx burdan, məni nahaq qana salma. Şəhri bağbana

çox yalvar-yaxar elədi, bağbanın ona yazığı gəldi. Dedi:-Görürəm qəribsən, o ki, dincəlmək fikrindəsən bu gül kollarının birinin dibində gizdən, yoxsa indi Mehri xanım 40 incəbel qıznan gəzməyə çıxacaq. Səni görməsin. Şəhri bağbana razılıq elədi, sakitcə bir gül komasının arxasına keçib Mehri xanımı gözdəməyə başladı. Mehri xanımın gəzməyə gələcəyini eşidəndə yazığın ürəyi nanə yarpağı kimi əsməyə başladı.

Şəhri kolun dalında sakitcə durub gözdüyürdü. Bir də onda gördü ki, Mehri xanım 40 incəbel qıznan budu gəldi gül bağçassını seyr eləməyə. Şəhrini təzədən əsmə tutdu, yerində dinc dayanıb dura bilmədi, gizlincə bağbanı yanına çağırdı.

Mehri xanım qızdardan aralanıb bir ağacın dibində Şəhri deyə ağlamağa başladı.

Bu vaxt Şəhri üzün bağbana tutub dedi, bağban, görürəm sən məni tanımadın, bu illər ərzində çox əziyyət çəkmişəm. Şəhri mənəm, qoy çıxım özümü Mehri xanıma göstərim.

Nəsə qızlar bir qədər bağçanı dolaşannan sonra çıxıb saraya tərəf üz qoyurlar. Şəhri daha dözmədi, dedi: - bağban, gəl mənə zülm eləmə, ürəyimdə üç xana sözüm var, izin ver deyim. Bağman baxdı gördü iş o yerdə döylü icazə verdi. Götürür Şəhri görək nə deyir:

Qurbanam qələm qaşına,
Qəddi qələmkar yavaş get.
Durum dolanım başına,
Mələk sitəmkar yavaş get.

Uca dağlar başı qardı,
Mən çəkdiyim intizardı.
İnan səni gəzən yardı,
Qəddi qələmkar yavaş get.

Mən Şəhriyəm yana-yana,
Yandı bağrım döndü qana,
Sən də dönübsən sultana
Mələk, sitəmkar yavaş get.

Şəhrinin belə yanıxlı oxumasını eşidən mehri xanım geri qarılıb səs gələn tərəfə baxanda gördü oxuyan Şəhridi. İki sevgili bir-birinə sarmaşdı.

İndi aşiq-məşuq burda – Yeddi qala şəhərində bir-birindən hal-əhval tutmaqda olsun, eşit Yaradanquludan. Yaradanqulu elə ki, Mehri xanımın yerini-yatağını dürüst öyrəndi. Düz bir baş üz çevirdi. Kürdoğlunun hüzuruna. Dedi: Kürdoğlu, bu günnən sənin adını qoydum Kürdoğlu paşa, indi çək qoşunu gedək Mehri xanımı al. Hüseyn paşanın da mal-mülkünə sahib ol, özün də ol paşa. Kürdoğlu dedi, əyə, bir ağıllı başlı de görüm, nə demək istiyirsən. Yaradnqulu dedi, dilnən deyəmmərəm, dayan, saznan deyim. Götürdü görək nə dedi:

Canım paşa, gözüm paşa,
Paşa, bir xələt, bir xələt.
Səni görüm yüz il yaşa,
Paşa, bir xələt, bir xələt.

Nələr gəlibdi başıma,
İrəhm eylə göz yaşıma.
Araqçının qoy başına,
Paşa, bir xələt, bir xələt.

Yaradanqulu qəhrindədi,
Aynan, günün təhrindədi.
Yeddi qala şəhrindədi,
Paşa bir xələt, bir xələt.

Bəli, Kürdoğlu böyük qoşunnan Hüseyn paşanın üstünə gedir. Gedir çatır Hüseyn paşaya xəbər göndərir ki, ya Mehri xanımı öz xoşunnan mənə verməlisən, ya da torpağında turp əkəjəm.

Hüseyn paşa deyir, oğul, nə dava-şavaş salıfsan, mənnən nə bölünəsi ortaq malım var. Özün görürsən ki, neçə illərdi mən Mehriyi də, Şəhriyi də itirmişəm. Tapa bilirsən halalındı, get hardan istiyirsen tap apar. Hüseyn paşa belə deyəndə Kürdoğlu götürdü söznən ona nə dedi, Hüseyn paşa nə cavab verdi; tərəfindən ərz eliyək, sizə can sağlığı:

Əylən-əylən türkmən paşa,
Gələrsən coşuna-coşuna.
Sənnən ollam Mehri yarı,
Gedərsən eşinə-eşinə.

**Hüseyn Paşa:**

Laf eyləmə xınzır oğlu,
Gəlirsən coşuna-coşuna.
Çəkərəm misri qılıncı,
Sən tək çəpəllər başına.

**Kürdoğlu:**

Qalxanı qola taxaram,
Oxu sinənə çaxaram.
İndi taxtını yıxaram,
Bəlalar gələr başına.

**Hüseyn Paşa**:

Sizdə varsa addar-sannar
Meydanda tökərəm qannar.

Sənin kimi yüz aslannar,
Quzğun edərəm leşinə.

**Kürdoğlu:**

Kürdoğluyam çoxdu zorum,
Sənə dəyməmiş azarım.
Verginən sən Mehri yaram
Çəkilim dağlar başına.

**Hüseyn Paşa**:

Etməz türkmən paşa etməz,
Namərdlər mətləbə yetməz.
Kəllə gedər Mehri getməz
Dayanma dur, get işinə.

Kürdoğlu baxıb görür ki, Hüseyn paşadan bir şey hasil olası döylü. Mehri xanımın yerini-yurdunu doğurdan da bilmir. Odu ku, Yaradanqulunun bələdçiliyinən qoşunu çəkir Yeddi qala şəhrinə. Bir neçə günnən sonra gəlif Yeddi qala şəhrinə çatırlar. Kürdoğlu Yeddi qala şəhrinin paşasına xəbər göndərdi ki, Mehri xanımı davasız-şavasız versin, yoxsa torpağını torbaynan daşıtdırajam.

Qala şəhrinin paşası adil adam idi. Odu ku, qan axıtmağın tərəfində döyüldü. Fikirləşdi ki, nə cür eləsin ki, Kürdoğludan yaxa qurtarsın. Birdən ağlına gəldi ki, gəl Koroğluya xəbər göndər, de ki, dara düşmüşəm. Kürdoğlu kəsdirib başımın üstünü. Özünü yetir mənə. Elə də elədi.

Xəbər Koroğluya çatan kimi Koroğlu heç kimə heç şey demədən Qıratın belinə sıçrayır. Üz qoyur Yeddi qala şəhrinə. Şəhərə onda çatır ki, qaş qaralıb. Kürdoğlu şəhərin həndəvərinə hər yerdə keşikçi düzmüşdür. Keşikçilər Koroğluyu

görüb tanımırlar. Tez qaçıb Koroğluya xəbər verirlər ki, şəhərə bir nəfər pəhləvana bənzər adam gəlir. Kürdoğlu tez Koroğlunun yolunu kəsdirir. Kürdoğlu at belindən bu adamı görən kimi tanıyır ki, bu Koroğludu. Əmə, indiyə kimi heç üz-üzə gəlməmişdilər. Yaxınlaşır Koroğlunun atının cilovunnan tutur, qılıncı çıxardıb söyküyür Koroğlunun boğazına.

- Tərpənmə naxələf oğlu, kəsdim.

Koroğlu der, nəyi kəsdin a bala, sana nə qayırmışam ki, məni kəsirsən?

- Kimsən?

- Koroğlu cavab verir ki, mən bu Yeddi qala şəhrinin qarolçusuyam. Çölü-çəməni gəzib dolanmışam. İndi də qayıdıram.

- Əyə, kişi gəl məni aldatma, sən bazburutda qoruqçu olmaz. Düzünü de.

Koroğlu der, oğul, and verirəm sənə inandığıma, gəl məni burax çıxım gedim işimin dalınca.

Kürdoğlu əl çəkmir, der sən Koroğlusan ki, Koroğlusan. Deyillər Koroğlu mərd adamdı, düz danışandı, düzün de, buraxım çıx get.

Koroğlu götürür görək nə deyir. Kürdoğlu ona nə cavab verir.

Uca-uca dağlar aşan Kürdoğlu,
Ay Kürdoğlu mən Küroğlu deyiləm.
Səni görüm yaşa-yaşa Kürdoğlu,
Ay Kürdoğlu, mən Koroğlu deyiləm.

**Kürdoğlu**:

Dad eyləyib mən gəlmişəm üstünə
Əl çək bu dağlardan gəl get, Koroğlu.

Durmaginən öz canıyın qəsdinə,
Əl çək bu davadan, gəl get Koroğlu.

**Koroğlu:**

Koroğlunun dəlisinə hay nədi.
Qovğa günü paşa nədi, bəy nədi
Qarşısında əlli nədi, say nədi,
Ay Kürdoğlu mən Koroğlu deyiləm.

**Kürdoğlu:**

Hay-hay deyib uca dağlar kəsərəm.
Ovçu mənəm bərələri pusaram.
Soyuban dərinə, saman basaram.
Əl çək bu davadan gəl-get Koroğlu.

**Koroğlu:**

Koroğlu deyiləm, dağlar aşanam,
Meydanlarda nərə çəkib coşanam.
İnanginən ismidə mən Rövşənəm,
Ay Kürdoğlu, mən Koroğlu deyiləm.

**Kürdoğlu:**

Kürdoğluyam, uzaq-uzaq yolum var.
Ac aslanam dürlü-dürlü halım var.
Sənin kimi bir neçə min dəlim var,
Əl çək bu davadan gəl get, Koroğlu.

Söz cavabını tamamladılar. Kürdoğlu Koroğlunu tanıyannan sora der ki, Koroğlu, mən bu davadan qayıdıram.

Koroğlu der əyə, Kürdoğlu bunnan canını qurtara bilməzsən. İndi ikimiz də birləşək gərək bu cavannarın toyunu eliyək.

Elə də eliyirlər. Kürdoğlu öz niyyətinnən dönür. Yaradanquluyu tapıb ömrünə fərman verənnən sora Şəhriynən Mehriyə dünyanın gözü görmədiyi bir toy eliyirlər ki, gəl görəsən. Aşıx Cunun da bu toyun səda-sorağını eşidif bir baş Yeddi qala şəhərinə gəlif toyun axırıncı gününə çatır. Sazı sinəsinə basıb "Orta müxəmməs" üstündə bir duvaqqapma oxuyur. Şəhriynən Mehri hər ikisi vüsala yetişir, oğul-qız yiyəsi olur, hərəsi 120 il ömür sürürlər.

## ZƏRQAM ŞAH

Sizə kimdən danışım, nədən söyləyim, Səməngan şəhərindən və onun hökümdarı Xarəzm şahdan. Bu şahın o qədər var-dövləti var idi ki, dəryalar mürəkkəb olsa meşələr qələm, yenə də onun hesabına çatmazdı. Amma övlad sarıdan Allah ona kəm baxmışdı. Ömrünün çoxunu keçirsə də özündən sonra var-dövlətinə sahiblik edəcək bir varisi yox idi. Şah qocaldıqca bu dərd onu əyir, fikir, qəm-qüssə ona rahatlıq vermirdi.

Şah bir dəfə arvadı Bənzərbanunu yanına çağırıb taleyindən şikayətlənir və dərdini onunla bölmək istəyir. Bu vaxt şahın otağına bir dərviş daxil olur. Şah dərvişi görüb çox qəzəblənir və onu buraya kimin buraxdığını soruşur. Dərviş cavab verir ki, özüm gəlmişəm, həm də xeyrxahlığa gəlmişəm.

Şah deyir:

– Mən şah, sənsə qapı-qapı gəzən dərviş, mənə nə xeyr verə bilərsən?

Cavabında dərviş deyir:

– Mən sənin çatışmayan payını verməyə gəlmişəm.

Şah bu sözləri eşidən kimi dərvişə deyir ki, əgər sözlərin doğru olsa, səni dünya malına qane edərəm.

Dərviş gülümsünüb cavab verdi ki, mənə heç bir dünya malı lazım deyil, mən pay alan yox, pay verən dərvişlərdənəm. – Bundan sonra əlini cibinə atıb bir alma çıxartdı və şaha uzadıb dedi: - Al bu almanın qabığını soy, ilxındakı kəhər madyana ver, özünü də iki yerə böl, yarısını özünə götür, yarısını da Bənzərbanu xanıma ver. Axşam araya gələndə hər ikiniz almanı yeyib baş yastığa qoyarsınız. Sizin bir oğlunuz, almanın qabığını yeyən madyanın isə gözəl bir qulunu doğulacaq. Uşağa Zərqam, madyanın qulununa isə Taryel (Tanrı yel) adı verərsiniz. O quluna yaxşı qulluq edərsiniz, çünki Zərqamı ondan başqa heç bir at gəzdirə bilməz.

Bunu dedikdən sonra dərviş şahdan soruşur:

– Bəs, o yandan gələn adamı otağa kim buraxdı?

Xarəzmşah tez dönüb dərvişin göstərdiyi tərəfə baxır, heç kəsi görmür. O geri çevrilənə qədər dərviş qeyb olur. Şahla arvadı təəssüflə əllərini dizlərinə bururlar. Ancaq iş-işdən keçmiş, olan olmuşdu.

Hökmdarla arvadı dərvişin dediklərinə əməl edirlər. Aylar keçir, günlər dolanır, Bənzərbanunun gözəl bir oğlu olur. Sarayda şadlıq başlanır. Uşağın adını Zərqam qoyurlar. Qulunluqda olan madyanın da gözəl bir qulunu doğulur. Zərqamın tərbiyəsini dayələrə, quluna qulluq etməyi isə xüsusi mehtərlərə tapşırdılar.

Zərqamı dayə tərbiyəsindən sonra məktəbə qoydular. O, on beş yaşına qədər məktəbdə təlim-tərbiyə aldı. Onun ağlına, gözəlliyinə hamı heyran qalmışdı.

Günlərin birində Zərqam bağda gəzmək üçün atasından icazə alır. Bağda o qədər gəzir ki, yorulur və gəlib bulaqda əl-üzünü yuyub dincəlir. Burada onu yuxu aparır. Zərqam bir az yatandan sonra onu yuxudan oyadırlar. Oğlan görür ki, qarşısında göy əmmaməli, nurani bir dərviş dayanmışdır.

– Oğul, nə yatmısan, aç gözünü, bax , gör nə görürsən?

Zərqam cavab verir ki, uzaq yollar.

– Daha nə görürsən?

– Bir şəhər, şəhərdə böyük bir ev və güləfirəngidə dayan-mış bir qız.

– O qız Seystan hökmdarı Əmir Sultanın qızı Əfruzu Cahandır. Onu sənə, səni ona göstərdim, get, inşallah taparsan.

– Oğul, o gələnlər səninmi yoldaşlarındır?

Zərqam dönüb dərvişin göstərdiyi tərəfə baxdı, ancaq heç kəsi görmədi. Bu tərəfdən də dərviş yoxa çıxdı. Bunu görən Zərqamın ah-naləsi göyə ucaldı, sinəsi alışıb yandı. Təsəlli üçün Ənbiyaya görək götürüb nə dedi:

Əzizməşşan küllü kanı yaratdı,
Necə xəlq eylədi "Yasin- Əmməni".
Arif məclisində qoyaq araya,
Ya imtahana çək, ya sına məni.

İcad oldu iki dürrülə məkan,
Camalın şövqündən buldu lamə kan.
Vadleyi - səhrada edən laməkan,
Ya pirim, ya birim, ya sinəm məni.

Anlasan, sözümün var a mayağı,
Baş alıb sinəmdən vərəm ayağı.

Görüm ürcah olsun vərəmə yağı,
Etməsin, Zərqamam, yası nəm məni.

Söz tamama yetdi. Zərqam ağlı başından çıxdı, huşunu itirib bulaq başında yerə uzandı. Üç gün ağzından köpük daşdandı, ancaq özünə gəlmədi.

Gəl eşit bu tərəfdən Xarəzm şahdan və Bənzərbanudan. Bunlar Zərqamın yox olmasını eşitdikdə elə bil ki, başlarına od ələndi, ah-nalələri ərşə dayandı. Şah əmr etdi ki, hamı tökülüb onun oğlunu axtarsın. Hər tərəfə adam göndərildi. Nəhayət, qulluqçular Zərqamı bağdakı bulağın üstündə yatmış gördülər və şaha xəbər apardılar. Öğlunun tapıldığını eşidən kimi anası özünü bulağın üstünə yetirdi. Zərqamın dünyadan xəbərsiz yatmasını görəndə elə bil ki, başına od ələndi. Saçından üç tel ayırıb sinəsinə basdı və görək Zərqamı necə oyatdı.

Kimlər çaldı layla yatdın,
Dur qəflətdən oyan, Zərqam.
Könlümdə qəmlər oyatdın,
Dur qəflətdən oyan, Zərqam.

Çeşmim yaşı axar hər yan,
Misali seli firavan.
Gözün aç, mən sənə qurban,
Dur qəflətdən oyan, Zərqam.

Bənzərbanu gönlü qəmli,
Ürəyim dərdli, ələmli.
Sinəm yara, gözüm nəmli,
Dur qəflətdən oyan, Zərqam.

Anasının belə qəmli-qəmli oxuması elə bil ki, Zərqama yeni bir qüvvət verdi. O, gözlərini açıb ətrafına baxdı. Başının

üstündə gözü yaşlı anasını gürdükdə sinəsi alışıb yandı, göz yaşı yüz yerdən töküldü. Hamı onun başına nə iş gəldiyini öyrənməyə çalışdı. Zərqam anasına cavab verdi ki, sözlə desəm dilim yanar, dərdim böyükdü, mənə bir saz gətirin. Tez Zərqama bir saz gətirdilər. Zərqam sazı alıb görək anasına necə cavab verdi:

Başına döndüyüm mehriban ana,
Arzu edib Seystan deyə gedirəm.
Atası hakimdi küllü İrana,
Bir Əmiri - Sultan deyə gedirəm.

Siz bilirsiz əlif qəddim bükdüyüm,
Ceyhun kimi çeşmim yaşın tökdüyüm.
Leyli-nahar həsrətini çəkdiyim,
Nazlı yara qurban deyə gedirəm.

Butamın camalı olmuş ayına,
Tən edir səmanın olmuş ayına.
Zərqamşah ümidvar olmuş ayına,
Bir Əfruzu Cahan deyə gedirəm.

Söz tamama yetişdi. Bildilər ki, onunku sevgidi. Şahzadəni götürüb evə gətirdilər. Bənzərbanu xanım bildi ki, nə olur-olsun oğlu butasının dalınca gedəcəkdir. Arada ayrılıq, uzaq yollar, yad ölkə var, ölüm-itim ola bilər. Oğlunu bu uzaq və qorxulu səfərdən saxlamaq üçün çarələr axtarmağa başladı, lakin bir qərara gələ bilmədi. Bənzərbanunun qaravaşları içərisində çox təcrübəli və ağıllı bir qulluqçu var idi. Ana həmin qulluqçunu yanına çağırtdırdı, dərdini ona açdı və tədbir istədi. Qulluqçu çox götür-qoydan sonra belə bir qərara gəlib dedi:

– Zərqam şahzadənin ən çox sevdiyi onun atı Taryeldir. O, səfərə mütləq öz atı ilə çıxacaq. Xanım, sən özünü xəstə-

liyə qoy və həkimə əvvəlcədən tapşır ki, guya həmin atın ürəyindən çəkilən kababdan başqa sənin dərdinin əlacı olmadığını söyləsin. Bundan sonra sən atı kəsdir. O, atsız heç yana getməz. Məsələni mən əvvəlcədən həkimə anladaram. Sən Zərqamın özünü həkim dalınca göndər. Çalış ki, həkim məsləhət verən vaxt Zərqam sizin yanınızda olsun, həkimin dediklərini özü eşitsin.

Qulluqçunun məsləhəti Bənzərbanunun çox xoşuna gəldi, ona ənam verdi. Sonra yatağa düşüb özünü xəstəliyə vurdu. Zərqam anasının xəstələnməsini eşidib tez onun yanına gəldi. Bənzərbanu oğlunu görüb daha da zarıdı və onu həkim dalınca göndərdi. Tezliklə həkim gəldi və görülmüş tədbir əsasında bildirdi ki, Taryel kəsilməlidir. Elə bil ki, Zərqam yatmışdı, oyandı. Ona bir nida endi ki, bunlar hamısı bəhanədi, onu yoldan saxlamaq üçündür. Lakin hələlik üstünü vurmadı.

Xarəzmşah əhvalatdan xəbər tutdu. Əmr etdi ki, atı meydana çəkib boğazlasınlar. Tez nökərlər atı meydana çəkdilər, yıxıb ayaqlarını bağladılar. Sanki at dil bilirdi, onun gözlərindən yaş axmağa başladı. Bunu görən Zərqamın ürəyi dözmədi. Atasından xahiş etdi ki, ciyərparəsi olan Taryellə vidalaşmağa ona icazə versin. Şah oğlunun sözünü yerə salmadı. Zərqam atın ayaqlarını açdı, onu yəhərləyib belinə atıldı və atasından getmək üçün halallıq istədi. Zərqam sözlə dediyini atasına yaxşı anlatmaq üçün aldı görək sazla üç kəlmə nə dedi:

Babacan, lütf eylə saxla əlini,
Səfəri-səmənd et səvarə məni.
Fələk qoymur muradıma yetişəm,
Yenidən eylədi avarə məni.

Minib də Taryeli düşdüm01 iraha,
Əzbərdi fikrimdə o fikri taha.
Dərdimi söylədim bir adil şaha,
Dedi gəl dərmana, gəz, ara məni.

Zərqam da sığınmış şahı- xubana,
Çeşmim yaşı döndü dərya-ümmana.
Abadan könlümü etmə virana,
Yaradan kəm yazmış güzara məni.

Söz tamama çatdı. Şah anladı ki, Zərqamı heç nə yoldan döndərə blməz, bu saat atı sürüb gedəcək sevgilisinin arxasınca. Əlacı hər tərəfdən kəsildi. Şəri vəziri Zərqamın üstünə iltimasa göndərdi. Vəzir şahzadənin yanına gəldi, çoxlu nəsihətlər etdi, lakin bu nəsihətlərin Zərqama heç bir təsiri olmadı. Şahzadə atın başını götürüb getmək istəyir. Bunu görən vəzir görək ona nə deyir, cavabında Zərqam nə söyləyir:

**Vəzir:**

Başına döndüyüm şahzadə Zərqam,
Səfər etmə Seystanın şəhrinə.
Ora bir diyardı gedən qayıtmaz,
Tamamən qərq olur qəmin bəhrinə.

**Zərqam:**

Başına döndüyüm, ay Şəri vəzir,
Vacib budu Seystana gedim mən.
Doğrasalar parə-parə sərbəsər,
Eyləsələr şanə-şanə gedim mən.

**Vəzir:**

Yaxarlar atəşə, nara əl-aman,
Doğrayarlar hazar para əl-aman.

Mənsur tək çəkərlər dara əl-aman,
Uğrayarsan sahirlərin sehrinə.

**Zərqam:**

Pasiban sanaram bu icadı mən,
Güvəndiyim minbir ismi, adı mən.
Axtarmıram sehri-tilsim, cadu mən,
Həsrət olan nigarana gedim mən.

**Vəzir:**

Şəri vəzir sənə söylər sözünü,
Yandırma cismimdə eşqin közünü.
Əmr edibən oydurarlar gözünü,
Həvəs olma bu şeytanın dəhrinə.

**Zərqam:**

Zərqamın sinəsi qəm ilə avər,
Tər-təzə sevdiyim misali nobər.
Telləri müsəlsəl, qəddi sənubər,
Bu müəttər ol reyhana gedirəm.

Söz tamama çatır, düşmənin ömrü tamama çatsın. Zərqam atını sürüb anasının yanına gəlir, südünü ona halal etməsini anasından iltimas edir. Ananın gözləri yaz buludu kimi dolur, əlləri əsə-əsə oğlunun boynunu qucaqlayıb deyir:

– Oğul, get, südümü sənə halal edirəm, xeyir uğurlar diləyirəm, muradına çatasan.

Zərqamşah anası ilə vidalaşıb düşdü yolun turabına. O günaxşama qədər at sürdü. Axşamüstü bir laləzarlığa çatıb atdan endi. İstədi ki, bir az atı otlasın, özü də dincəlsin. Bura elə bir çəmənlikdi ki, hər tərəf yamyaşıl, gül bülbülə, bülbül

gülə sevgi oxuyurdu. Bu laləzarlıq Zərqamın yadına öz tərəflərinin çəmənliklərini saldı. Dönüb arxaya – gəldiyi yollara baxdı. Uzaqdan vətən dağlarını gördü, dərin bir ah çəkdi. Götürüb üç kəlmə sözlə vətəni belə yad elədi:

Tifilkən vətəndən oldum dərbədər,
Yandı əhvalıma ellər, ağladı.
Anamın qəlbində qəhr ilə kədər,
Car etdi çeşmindən sellər, ağladı.

Bağban olan lətif bəslər bağları,
Alma, heyva, qönçə tər budaqları.
Gözdən itdi bizim yerin dağları,
Seyrangah səhralar, çöllər ağladı.

Mənim dərdim hamı dərddən ziyada,
Məcnunam Leyliyə, gəzim səhrada.
Pirimin əlindən içmişəm badə,
Zərqam Seystana, yollar ağladı.

Şahzadə təzəcə sözünü bitirib qəmgin halda oturmuşdu ki, yol ilə bir tacir karvanının Səməngana tərəf gəldiyini gördü. Yavaş-yavaş karvana doğru getdi. Gördü ki, karvan başçısı öz həmyerlisi, adlı-sanlı tacir Xoca Səyyaddır. Xoca da Zərqamı tanıyıb hal-əhval tutdu. Görək Xoca üç kəlmə sözlə şahzadədən səfərini necə soruşur və Zərqam cavabında nə deyir:

**Xoca Səyyad:**

Başına döndüyüm, şahzadə Zərqam,
Oğul, nə yanadı güzarın sənin.
Sinəm şan-şan oldu, didələrim nəm,
Oğul, nə yanadı güzarın sənin.

**Zərqam:**

Ərz edim dərdimi, ay Xoca Səyyad,
Şəhri-Seyistandı güzarım mənim.
Sinəm qəm bazarı, könlümdü bərbad,
Xəzanda laleyi üzarım mənim.

**Xoca Səyyad:**

Səbəb nədi Seystana vararsan?
Ağlayıb da yana-yana vararsan.
Ya təbibə, ya loğmana vararsan,
Oğul, nə yanadı güzarın sənin.

**Zərqam:**

Könlüm bir şüşədi, qəlbim ayinə,
Əfruzi Cahandı mələk sayinə.
Əmiri sultanın düşüm payinə,
Belə qət olubdu bazarım mənim.

**Xoca Səyyad:**

Səyyad da yol çəkməz qaradan sənə,
Yanıram betərin Saradan sənə.
Getginən yar olsun yaradan sənə,
Oğul, nə yanadır güzarın sənin.

**Zərqam:**

Üzüm ərənlərin xakı turabı,
Eşqilən nuş etdim şərabı, abı.
Yarın şahmar zülfü, qulac tənabı,
Zərqamam, əhatə ehzarım mənim.

Söz tamama yetdi. Zərqam sazla dediyi kimi sözlə də Xoca Səyyadı başa salır ki, öz butasının dalınca Seystana gedir. Xoca Səyyad ona uğur diləyir, halal-hümbət eləyib ayrılırlar. Hərə öz yoluna davam edir. Zərqam şah o gecəni səhərə kimi at sürür, işıqlaşanda bir dağın ətəyinə çatır, amma yolu itirir. Dağı qatı bir duman bürümüşdü, göz-gözü görmürdü. Bir tərəfdən yorğunluq və aclıq, bir tərəfdən də dağın qara dumanı Zərqama imkan vermir ki, yolu tapsın. Şahzadənin əli hər yandan üzülür, burada götürüb dağa üç kəlmə görək nə deyir:

Səfərim uzaqdı, yolumdu iraq,
Sərbəsər sərində duman, a dağlar.
Belə gördüm, əl götürdüm dünyadan,
Gəlmir sağlığıma güman, a dağlar.

Sənin tər sinəndi gözəl yaylağı,
Marallar binası, mərdlər oylağı.
Şərabən təhridi Zəmzəm bulağı,
Gətirir xəstəni həm cana dağlar.

Zərqamın sinəsi yardan yaralı,
Kəsilər qərarı düşsə aralı.
Sürmə ceyranları, dəstə maralı,
Ahulara məskən, məkan, a dağlar.

Zərqam şah sözünü bitirdi, ağasının adını çağırdı və yarın eşqilə atını mahmızladı. Elə bu vaxt duman çəkildi. Zərqam şah yolu tapdı. O, bir xeyli gedəndən sonra gözəl bir çəmənliyə çatdı. Yazın bu çağında çəmənlikdə hər şey oxuyurdu. Gül bülbülü, bülbül gülü səsləyirdi. Çəmənlikdə cənnət suyu kimi saf bir bulaq poqquldayırdı. Zərqam şah həmin bulağın üstündə atdan düşdü. Bulaqda əl-üzünü yuyub həm

özü su içdi, həm də atını suvardı. Atı otlamaq üçün çəmənliyə buraxdı, özü isə bulağın yanında uzanıb dincəlməyə başladı.

Zərqam şah dincəlməkdə olsun, gəl eşit büt şahının kürəkəni Şəmmasdan. Həmin gözəl çəmənlik Şəmmasın yağı qoruğu idi. Şəmmas güləfirəngidə oturub ətrafı seyr edirdi. Bir də gözü yağı qoruğunda otlayan ata sataşdı. Bildi ki, at sahibsiz deyil, atın sahibi hər kimdisə bulağın üstə olacaq. Öz cəlladlarından ikisinə əmr etdi ki, gedib atı və onun sahibinin başını gətirsinlər. Cəlladlar Zərqam şahın başının üstünü aldılar. Zərqam şah soruşdu ki, onlara nə lazımdı. Cəlladlar ona hücum çəkib qışqırdılar ki, sən nə cürətlə Şəmmasın qoruğuna girmisən. Şahzadə işi belə görüncə tez cəlladların hər ikisini tutub qulaqlarını qopardı və Şəmmasın yanına qayıtmalarını tapşırdı. Şəmmas cəlladları bu vəziyyətdə görəndə cəhənnəm maliki kimi zəbanə çəkdi. Əmr etdi ki, onun döyüş filini gətirsinlər. Özü başdan-ayağa polad libas geyinib filə süvar oldu. Öz qoşunu ilə bərabər yağı qoruğuna doğru hərəkət etdi. Zərqam şaha çatan kimi hərbə-zorba gəlməyə başladı. Şahzadə də ona hərbə-zorba ilə cvab verdi. Görək Şəmmas Zərqama necə hərbə-zorba gəlir, Zərqam ona necə cavab verir:

**Şəmmas:**

Uzaq yerdən gələn növcavan oğlan,
Nuş elə dəstimdən ağı məndə var.
Rüzigarın siyah oldu tamamən,
Ömrünə dəhşətli yağı məndə var.

**Zərqam:**

Ey ərəb, gəl düşmə mənim peşimə,
Ərənlərin var növrağı məndə var.

Güclü mal verərəm, gələr xoşuna,
Eyləyərsən gər sorağı, məndə var.

**Şəmmas:**

Çox görmüşəm sənin kimi nadanı,
Dəstimdən nuş edib mərgi-badamı.
Baş gedər cəsəddən, qalar bədəni,
Yığılan leşlərin dağı məndə var.

**Zərqam:**

Çox da laf eyləmə çək dabanını,
Mənə vermə zavallılar sanını.
İçənlər görmədin insan qanını,
Paylayan şərbət tək saqi məndə var.

**Şəmmas:**

Şəmmasın əlinə düşmüsən yaman,
Qurtarsan cəngindən yaşarsan haman.
Çəkər həsrətini, ağlayar anan...
Bir xəzanam, vurar bağı məndə var.

**Zərqam:**

Zərqam bağ becərib yetər bağına,
Sığınmış ərənə, girdigarına.
Yaxar cismin cəhənnəmin narına,
Od-alovun min sayağı məndə var.

Söz tamama yetişdi, hər ikisi də başa düşdü ki, sözdən bir kar hasil olmayacaq. Əl atdılar qılınca, qalxana, gürzə. Yenə də bir şey olmadı. Hər ikisi yorulmuşdu, dincəlməyi qərara aldılar. Qət etdilər ki, qalibi güləşlə müəyyən etsinlər.

Zərqam bir tərəfdə, Şəmmas da öz qoşunu ilə başqa tərəfdə dincəlirdi. Şəmmas başa düşürdü ki, Zərqamla güləşə bilməyəcək, yıxılacaq. Buna görə öz qoşununa tapşırdı ki, mən Zərqamla güləşə başlayanda hamınız birdən tökülərsiniz üstünə və qollarını bağlayarsınız. Bir qədər dincəldikdən sonra Şəmmas əmr etdi ki, cənk təbili çalınsın. Hər iki hünərvər meydana yeridi, bellərindəki zəncirlərdən yapışdılar. Şəmmasın bir işarəsi ilə qoşun Zərqamın üstünə töküldü, əllərini zəncirlə bağladılar və arabanın üstünə uzatdılar.

Bu tərəfdən Şəmmas büt şahına xəbər göndərdi ki, o məndən xudapərəst başı istəmişdi, mən bütöv özünü gətirmişəm, toy tədarükünü görsün. Padşaha xəbər çatan kimi çox xoşhal oldu, məclis düzəltdi və padşahlıq taxtını da meydana gətirtdi. Padşah istəyirdi ki, xudapərəstin ölüm qabağı keçirdiyi halları görsün və bundan nəşə alsın. Eşit büt padşahının qızı Qeysər Pəridən. O da bir xudapərəst tutulduğunu eşitmişdi və onun necə bir məxluq olduğunu görmək istəyirdi. Buna görə Qeysər Pəri də camaat toplaşan meydana gəldi. Qız Zərqam şahı gördükdə bir könüldən min könülə ona aşiq oldu. Zəqam da Qeysər Pərini gördü, başa düşdü ki, qızdan ona kömək ola bilər. Şah cəllada əmr etdi ki, xudapərəstin boynunu vursun. Zərqam bir anlığa cəlladdan aman istədi və görək öz halını Qeysər Pəriyə necə işarə etdi:

Necə ağlamasın yaralı könlüm,
İşim-gücüm ahu-zara bağlandı.
Səyyadam, tərlanım qürbət diyarda,
Qalmışam tək-tənha ara bağlandı.

Nə bir munisim var, nə bir həmdəmim,
Qəmin girdabında qərq olmuş gəmim.

Əyyub kimi sızıldaşır əndamım,
Küllü cəsədimə yara bağlandı.

Zərqamam bədyığval, mən beygüzaram,
Dəvasız dərdim var, candan bezaram.
Düşüb sorağına ellər gəzərəm,
Çünki meylim Leyli yara bağlandı.

Söz tamama yetişdi. Cəllad əmri icra etməyə hazırlaşdı. Zərqam başa düşdü ki, əlacı hər yerdən kəsilmişdir, nakam öləcək, ata-anasına, sevgisinə qovuşa bilməyəcək. Gözlərindən tökülən yaş yanağı ilə süzülməyə başladı. Zərqamın bu halını görən Qeysər Pərinin az qaldı ürəyi yerindən çıxsın, o da gözlərindən yaş axıtdı. Bu yerdə qız üzünü cəllada tutub görək nə xahiş edir, zavabında Zərqam ona nə deyir:

**Qeysər Pəri:**

Qoca cəllad, ol Buddanı sevərsən,
Vurma bu cavana yara, heyifdi.
Babamın əmrini eyləmə əta,
Çəkmə rüzgarına qara, heyifdi.

**Zərqam:**

Yazığam, növrəstə yandırma məni,
Ağlama, ağrıyar yara, ağlama.
Sızıldarsan, yaralarım sızıldar,
Sinəm oldu hazar para, ağlama.

**Qeysər Pəri:**

Anlamışam, nədir babamın qəsdi,
Qərəzi ənbiya, fikri əbəsdi.
Bu qədər zülmlər insana bəsdi,
Rəva deyil girdigara, heyifdi.

**Zərqam:**

Nə üçün belədi fələyin fəndi,
Düşübdür boynuma eşqin kəməndi.
Allahdandı, bəndədəndi, nədəndi
Saldı məni ahu-zara, ağlama.

**Qeysər Pəri:**

Qoy dolsun kərmi-huş babamın səri,
Açıbdı sinəmdə dərdi, dəftəri.
İltimas eyləyir bu Qeysər Pəri,
Sənə qurban, bəxti qara heyifdi.

**Zərqam:**

Mənim pirim, şahım şahlar şahıdır,
Ərş üzünün günəşidi, mahıdı.
Zərqamın pənahı haqq pənahıdı,
Qalanma hicrimdə nara, ağlama.

Söz tamam oldu, qoca cəllad qaldı iki suyun arasında; bilmədi neyləsin. Həm oğlana yazığı gəlirdi, həm də şahın əmrindən çıxa bilməzdi. Bəziyyəti belə görən Qeysər Pəri atasının qarşısına gəlib baş əydi. Atası qızının sözlü olduğunu görüb soruşdu ki, ona nə lazımdı. Qeysər Pəri cavab verdi ki, ata, bu adi xudapərəst deyil, biz onu öldürsək bir şey qazanmarıq. Çalışıb belə ağıllı və qoçaq oğlanı bütpərəst etsək çox şey qazanarıq. Bu işi mən öhdəmə götürürəm, onu mənə ver. Şahın ağlına gəlməzdi ki, bütpərəst qızı xudapərəstə vurula bilər. Ona görə də qızın dediyi sözlər şahın ağlına batdı. Əmr etdi ki, Zərqamı azad edib Qeysər Pəriyə versinlər. Qeysər Pəri Zərqamı götürüb öz sarayına apardı. Əmr etdi ki, onun atını tövləyə çəkib yaxşı baxsınlar, şahzadənin hüzurunda isə özü durdu. Ancaq

qız başa düşürdü ki, Zərqam öz əqidəsindən dönən deyil və gec-tez atası oğlanı məhv edəcəkdir. Buna görə də onu başa saldı ki, minlərlə günahsız insanın qanını tökmüş şahdan qisas almaq vaxtıdır. Həm də Qeysər Pərinin Şəmmasdan da zəhləsi gedir, ona ərə gedəcəyini fikirləşəndə bədəni əsirdi. Buna görə də bir gecə Zərqam və Qeysəp Pəri döyüş libası geyinib silahlandılar və saraya hücuma keçdilər. Şahı, Şəmması və onların yaxın adamlarını öldürdülər, qalanlarını özlərinə tabe etdilər. Səhər Qeysər Pəri ölkənin şahı elan olundu.

Zərqam bir neçə gün Qeysər Pərinin yanında qalır, ancaq qıza yaxınlıq vermir. Qız bundan inciyir və səbəbini soruşur. Zəqam onu başa salır ki, Seystanda gözləyəni var, ona qovuşmamış heç kimə əl vura bilməz. Qeysər Pəri başa düşür ki, Zərqam sevgilisinin dalınca gedəcək, ürəyində ona əhsən deyir. Bir neçə gündən sonra Zərqam şah Pəriyə bildirir ki, o sevgilisinin dalınca getməlidir. Qız onu saxlamaq istəsə də mümkün olmur. Zərqamın getmək istəməsini görən Qeysər Pəri saçlarından üç tel ayırıb sinəsinə basır və görək Zərqama nə deyir, cavabında oğlan nə söyləyir:

**Qeysər Pəri:**

Gedirsən get oğlan, allah bilincə,
Unutma bizləri, tez qayıt indi.
Dərdim olur günbəgündən ziyada,
Eyləmə sinəmdə yüz, qayıt indi.

**Zərqam:**

Ağlama, sızlama növrəstə Pərim,
Ay Pərim gedərəm, gələrəm yenə.
Sənə qurban olsun can ilə sərim,
Ay Pərim, gedərəm, gələrəm yenə.

**Qeysər Pəri:**

Əlif qəddim şərt götürdü ol nunu,
Neylərəm sərimdə atlas gülgunu.
Çeşmim yaşı batil etdi Ceyhunu[5],
Əgər qəvvas isən üz, qayıt indi.

**Zərqam:**

Qürbət eldə qəm karvanım keçməsə,
Xəstə könül əcəl camı içməsə,
Mürği-ruhum gər bədəndən uçmasa,
Ay Pərim, gedərəm, gələrəm yenə.

**Qeysər Pəri:**

Bu Qeysər Pərinin var iltiması,
Bülbülün köksündə gülün cəfası.
Yaxşı olmaz qürbət elin səfası,
Varırsan, vargilən gəz, qayıt indi.

**Zərqam:**

Zərqamın sinəsi yardan yaralı,
Canandan aralı, candan aralı.
Kamil ovçu heç keçirməz maralı,
Ay Pərim, gedirəm, gələrəm yenə.

Söz tamama yetişdi. Zərqam şah Qeysər Pərilə halal-hümbət eləyib yola deşdü Seystan səmtə. Bir neşə gün at sürdükdən sonra gəlib çıxdı bir dəryanın kənarına. Dəryanı necə keçəcəyi barədə düşünürdü. Elə bu vaxt sahilə bir gəmi yaxınlaşdı. Zərqam gəmiçidən xahiş etdi ki, onu və atını gəmiyə

---

[5] çay adıdır

mindirsin. Bir qədər danışdıqdan sonra gəmiçi onu yerdən gəmisinə götürməyə razılıq verdi. Gəmi dəryanın o biri sahilinə yaxınlaşan vaxt dəryada bərk fırtına başlandı. Fırtına yedək gəmisini əsas gəmiyə çırpıb qırıq-qırıq elədi. Zərqam atı ilə qaldı taxta parçalarının üstündə, əsas gəmi isə çıxıb getdi. Zərqam başa düşdü ki, hər dəqiqə məhv ola bilər, əlləri hər yerdən üzüldü. Öz-özünə dedi: ”Gəl səni bu çöllərə salanı köməyə çağır, bəlkə bu bəladan xilas olasan”.

Görək bu fırtınalı dəryanın üzündə Zərqam öz ağasını necə köməyə çağırır, xilas ola bilir, ya yox?!

Ərənlər sərvəri, şahi-mürtəza,
Qalmışam daməndə, ya mövla-mövla.
Kəmtale qulunam, bəxti qarayam,
Yaranmış insanda, ya mövla-mövla.

Gəzginən ümmanda giriftarımı,
Əcəl meydanında can bazarımı.
İntizar qoymuşam nazlı yarımı,
Olmuşam şərməndə ya mövla-mövla.

Əcəl oldu Zərqam şahın vurğunu,
Çox dolandım bir gözəlin yorğunu.
Sərə-pay cismimdə şonqar qırğını,
Təng etmə bədəndə, ya mövla-mövla.

Söz tamama yetən kimi böyük bir dalğa vurub taxta parçasını Zərqamı Taryellə bərabər sahilə zıxardır. Zərqam bir qədər özünə gəldikdən sonra atına süvar olub yoluna davam edir. Bir qədər at sürdükdən sonra qarşısına bir tacir karvanı çıxır. Sən demə bu karvanın başçısı öz həmyerlisi, məşhur tacir Saleh Sövdəgər imiş. Saleh Sövdəgər neçə vaxtdan bəri itkin

düşmüş Zərqamı görəndə çox sevindi, onu dilə tutdu ki, bu qorxulu yollarda itə-bata bilər, geri qayıtsın. Zərqam Saleh Sövdəgərin cavabını üç kəlmə sözlə görək necə verdi.

Ay Saleh Sövdəgər, qanlar ağlaram,
Seystanda qalıb növrəstəm mənim.
Araqçın altinda müsəlsəl tellim,
Üzündə kakili mürəstəm mənim.

Tab etmək çətindi yarın qəhrinə,
Yaxşıdı qərq olmaq qəmin bəhrinə.
Durub varım öz butamın şəhrinə,
Çünki intizardı ol kəstəm mənim.

Yerim Səməngandır, babam tacidar,
Mən isə qəmavər, cəsədimdi nar.
Zərqamın "qatili" o nazlı nigar,
Daşındı qəlbimdə şikəstəm mənim.

Söz tamama yetişdi. Saleh Sövdəgər bildi ki, Zərqam geri qayıdan deyil, sevgilisinin dalınca gedəcəkdir. Onlar bir-biri ilə halal-hümbət eləyib ayrıldılar. Hər ikisi öz yoluna davam etdi. Zərqam şah atını uzaqdan görünən dağa doğru sürdü. Yol həmin dağın dibindən keçirdi. Zərqam dağın dibinə çatanda gördü ki, yol uzanıb bir qalaçaya gedir. Şahzadə nə qədər baxdısa da başqa yol görə bilmədi. Başa düşdü ki, yol bu qalaçanın içindən keçir, ancaq bu qalaçanın sahibinin kim olduğunu, onun başına burada nə gələcəyini bilmirdi. Zərqam burada düşünməkdə olsun, sizə xəbər verim bu qalaçanın sahibindən.

Bu qalaçada Əsfəndiyar adlı çox güclü bir pəhləvan yaşayırdı. Onun qorxusundan bu tərəflərə heç kim gəlmirdi.

Çünki Əsfəndiyar buradan keçən hər bir adamla güləşir, yıxdığını öldürürdü. Onun kürəyi isə hələ yerə dəyməmişdi.

İndi eşit Zərqamdan. Zərqam atını yavaş-yavaş qalaçaya doğru sürdü. Bu vaxt Əsfəndiyar güləfirəngidən Zərqamı görüb, adamlarından ikisini göndərdi ki, gedib o atlının bura necə gəlib çıxdığını, kim olduğunu öyrənsinlər. Zərqam da at sürüb qalanın başına dolanır, qalaya yol axtarırdı. Əsfəndiyarın adamları qəflətən Zərqamın qarşısına çıxdılar və üstünə qışqırdılar ki, sən nejə qorxmayıb Əsfəndiyarın qalasına yaxınlaşmısan, bu saat bizimlə getməlisən. Zərqam istədi üstünə gələnləri cəzalandırsın, lakin onları başa saldı ki, əl-ayaqları sağkən öz Əsfəndiyarlarının yanına qayıtsalar yaxşıdır. Hər ikisi işi belə görüb qalaya qayıtdılar, əhvalatı Əsvəndiyara çatdırdılar.

Eşit Əsvəndiyardan. O, bu xəbəri eşidib bir nərə çəkdi, altdan geyib üstən qıfıllandı, döyüş filinə süvar olub Zərqamın qarşısına çıxdı. Zərqam qarşısındakı pəhləvanı, onun filini görüb əvvəlcə bir qədər özünü itirdi, lakin tez də özünü ələ aldı. Əsfəndiyar Zərqamın qamətini, üzünün gözəlliyini, cavanlığını görüb ürəyində arzu etdi ki, kaş bu oğlanın qoçaqlığı da xarici gözəlliyinə uyğun gələ. Lakin o öz hisslərini üzə vurmadı. Tez öz rəqibini üstələmək üçün ona hərbə-zorba gəldi. İndi görək Əsfəndiyar Zərqama necə hərbə-zorba gəlir, Zərqam ona necə cavab verir.

**Əsfəndiyar:**

Ay növcavan, var sərində
Nə xəyallar, gəlirsən sən.
Bu qaladan keçmək olmaz,
Tapıb yollar gəlirsən sən.

**Zərqam:**

Əsfəndiyar bəy, qulaq as,
Qoşa yollar gəlirəm mən.
Qeyçihəra dağlarını,
Aşa yollar gəlirəm mən.

**Əsfəndiyar:**

Ay dilavər, en atından,
Mən öyrənim qiymətindən.
Söylə kəndi qeyrətindən,
Qeyli-qallar gəlirsən sən.

**Zərqam:**

Qeyli-qaldı mənim işim,
Həm sənətim, həm gərdişim.
Yoxdur, düşünmə təftişim,
Haşa yollar, gəlirəm mən.

**Əsfəndiyar:**

Əsfəndiyar mənəm, tanı,
Saymaram sultanı, xanı.
Əlimdən aman imkanı,
Yaşa illər, gəlirəm mən.

**Zərqam:**

Zərqamdı dərya nəhəngi,
Onunla etməzlər həngi.
Düşəndə görərsən cəngi,
Coşa yollar gəlirəm mən.

Söz tamama yetişdi. Hər iki hünərvər əl atdılar qılınca, qalxana, əmuda. Bunların silahının səsindən qulaq tutulurdu. Lakin heç biri üstün gələ bilmədi. Nəhayət, əlac qaldı güləşməyə. Qızmış nər kimi girişdilər bir-birilərinə. Yorulduqca arada bir dincəlir, yenə də davam edirdilər, lakin heç biri üstün gələ bilmirdi. Nəhayət, Zərqam ağasını yadına saldı, dəli bir nərə çəkib Əsfəndiyarı yerə vurdu, çıxıb sinəsinin üstündə oturdu. Qılıncını çəkdi ki, Əsfəndiyarın başını kəssin, ondan dərin bir səs çıxdı. Bunu eşidən Zərqam əlini saxladı və Əsfəndiyardan soruşdu ki, igid də bir qaşıq qanından qorxarmı? Əgər qorxurdunsa onda nə üçün döyüş meydanına çıxırdın?

Əsfəndiyar cavab verib dedi:

– Mən qanımdan qorxan deyiləm, ancaq mənim əhdim var, ona çata bilməyəcəm, ona görə ah çəkdim.

Zərqam soruşdu:

– Səni ah çəkməyə məcbur edən necə əhddir?

- Ey cavan, bil ki, mən yeddi ildir bu yol ayrıcındayam. Hələ heç kim mənim arxamı yerə vurmamışdı. Bu işi birinci sən etdin. Mənim də əhdim bu idi ki, kim məni yıxsa ona ərə gedim. Sən də görünür bunu istəmirsən, öldür, qanım halaldı.

Bu sözləri deyib Əsfəndiyar başından dəbilqəni götürdü, qulac telləri üzünə yayıldı. Zərqam tez qalxdı və onun əlindən tutub ayağa qaldırdı. Hamı sevinc içində Əsfəndiyarın qalasına daxil oldu. Zərqam bir neçə gün qalada qaldı, din- cəldi. Sonra Əsfəndiyara bildirdi ki, Seystana – sevgilisi Əfruz Cahanın arxasınca getməlidir. Əsfəndiyar istəyirdi ki, Zərqamı yoldan saxlasın, ancaq bilirdi ki, bu mümkün deyil. Ona görə də özlüyündə belə qərara gəldi ki, Zərqamı tək buraxmasın, onunla birlikdə Seystana getsin. Bir neçə gündən sonra Zərqam ilə Əsfəndiyar altdan geyib üstdən, üstdən geyib altdan

qıfıllandılar, atların başını buraxdılar Seystana tərəf. Bir neçə gün at sürdükdən sonra sağ-salamat şəhərin kənarındakı şah bağçasına gəlib çatdılar. Əsfəndiyar Zərqamı başa saldı ki, şəhərə belə girmək olmaz. Razılaşdılar ki, Əsfəndiyar atlarla qalsın, Zərqam sazını çiyninə keçirib şəhərə daxil olsun. Bunlar burda qalmaqda olsunlar, İndi də al xəbəri Əfruz Cahandan. Neçə müddət idi ki, Əfruz Cahan eşq atəşində yanır, qovrulurdu. Dərdini kimsəyə aça bilmir, sevgilisinin yolunu gözləyirdi. Onun ürəyinə dammışdı ki, bütün çətinliklər aradan qalxacaq, sevgilisi gələcək. Lakin ayrılıq qəlbini üzürdü. Bir qədər rahat olmaq üçün hər gün qızlarla şəhərin kənarındakı şah bağında gəzməyə çıxar, dərdini yüngülləşdirərdi. Təsadüf belə gətirmişdi ki, bu gün də qızlar bağda gəzirdilər. Zərqam çiynində sazı bağa daxil oldu. Qızlar çiyni sazlı aşığı görən kimi yüyürüb onu dövrəyə aldılar. Xahiş elədilər ki, aşıq onlar üçün çalıb-oxusun. Zərqam gözünü dolandırıb qızlara baxdı, nəzərləri Əfruz Cahanın üzündə qaldı. Az qaldı ürəyi sinəsindən çıxsın. Aldı görək qızların xahişinə necə əməl etdi, öz vəziyyətini, kimliyini sevgilisinə nə cür anlatdı:

Gülşən bağçasında seyran edibən,
Qayıdan qızların qurbanı canım.
Əlvan çiçək dərib, dəstə bağlayan,
Gülü-nərgizlərin qurbanı canım.

Artıbdı hərarət, açılıb yaxan,
Geyinib zər-ziba, həmayıl taxan.
Ovçu görmüş maral kimi yan baxan,
O cüzgün gözlərin qurbanı canım.

Zərqamın könlünü gəşdə eyləmək,
Gördüm yar camalın, müjdə eyləmək.

Qaşları mehrabım, səcdə eyləmək,
Tər lalə üzlərin qurbanı canım.

Söz tamama yetişdi, hər iki sevgili bir-birini tanıdı. Uzun illərin həsrətləri bir-birinə sarıldılar. Sevincindən göz yaşı axıdan Əfruz Cahan saçından üç tel ayırıb sinəsinin üstünə basdı, görək Zərqama nə dedi, Zərqam saz ilə sevgilisinin cavabını necə verdi.

**Əfruz Cahan:**

Uzaq yoldan gələn oğlan,
Dürr tökülür dillərinnən.
Oxu, bizi tərif eylə,
Nə ki gəlir əllərinnən.

**Zərqam:**

Ahəstə sallan nazənin,
Buy götürüm güllərinnən.
Açginən zərrin koftanı,
Çünki sıxır bellərinnən.

**Əfruz Cahan:**

Aşıq, söylə haralısan?
Məşuqundan aralısan,
Necə tapdın qaralı sən,
Uzun, uzaq yollarınnan?

**Zərqam:**

Gözəl, yerim Səməngandı,
Yardan ayrı bağrım qandı.
Butam Əfruzu Cahandı,
Öldür kəndi əllərinnən.

**Əfruz Cahan:**

Gözəllərin gözü mənəm,
Eşq odunun közü mənəm,
Cahan Əfruz özü mənəm,
Seystanın ellərinnən.

**Zərqam:**

Zərqam şahı qılma xəstə,
Mənəm sənə payi-bəstə.
Bas qədəmin sinəm üstə,
Ölüm fitnə-fellərinnən.

Bunlar burada oxumağında olsun, eşit Əsfəndiyardan. Əsfəndiyar bir az gözlədi, gördü ki, Zərqam gəlmədi. Ürəyi tab gətirməyib öz atına süvar oldu. Zərqamın atını da yedəyinə alıb qırğı kimi özünü bağa yetirdi. Zərqamla Əfruz Cahanın dünya yadından çıxmışdı. Onların belə ehtiyatsızlığını görən Əsfəndiyar qışqırıb dedi:

– Səsinizi toyunuza saxlayın, toyda oxuyarsınız, tez olun, getmək vaxtıdır. Tez Zərqam öz atına, Əfruz Cahan da Əsfəndiyarın tərkinə minib atların başını buraxdılar. Bu tərəfdən də Əfruz Cahanın başındakı qızlar qaçdılar Əmiri Sultanın yanına xəbərə. Sultana xəbər çatan kimi qoşuna tərpənmək əmri verildi. Qoşun tərpənməkdə olsun, al xəbəri Zərqamgildən. Bunlar bir xeyli at çapıb şəhərdən xeyli uzaqlaşdılar və gəlib bir gözəl çəmənliyə çatdılar. Qərara gəldilər ki, bu çəmənlikdə bir qədər dincəlsinlər.

Zərqam şah başını Əfruz Cahanın dizi üstə qoyub dərin yuxuya getdi, Əsfəndiyar isə onların keşiyində durdu. Eşit Əmiri Sultanın qoşunundan. Qoşunun sel kimi ağzı açıldı. Əsfəndiyar Zərqamın şirin yuxuda yatdığını görüb onu oyat-

mağa ürəyi gəlmədi. Quş kimi atın belinə sıçrayıb özünü qoşuna təpdi. Sağdan vurub soldan çıxdı, soldan vurub sağdan çıxdı. Sultanın qoşunu hələ belə əjdaha ilə qarşılaşmamışdı. Qırılan qırıldı, qalanlar qorxub geri çəkildilər. Bundan istifadə edən Əsfəndiyar görək Zərqam şahı necə oyadır.

Nə yatıbsan xabi-qəflət içində,
Oyan, bu diyardan varaq, şahzadə.
Qəvi düşmən ətrafını sarımış,
Oyan, bu qəflətdən varaq, şahzadə.

Xəbər getdi, gələr qurullu şamı,
İçirərlər bizə zəhərli camı.
Kəmərbəstə olan anlar ilhamı,
Oyan, bu diyardan varaq, şahzadə.

Şəhri-Seystana saldım vəlvələ,
Eylədim tarimar misli zəlzələ.
Ölər Əsfəndiyar xof etməz hələ,
Oyan, bu diyardan varaq, şahzadə.

Əsfəndiyarın belə yanıqlı oxuması Zərqamı yuxudan oyatdı. O, işdən halı oldu. Qoşunun geri çəkilməsindən istifadə edib atları tərpətdilər. Bir xeyli at çapdıqdan sonra gəlib Əsfəndiyarın qalasına çatdılar. Artıq qoşunun onlardan ötrü heç bir qorxusu yox idi. Belə qərara gəldilər ki, bir neçə gün qalada dincəlsinlər, sonra yollarına davam etsinlər. Bir neçə gün burda dincəldikdən sonra, nəhayət yola düşmək günü gəlib çatdı. Əsfəndiyara öz qalasından ayrılmaq çox çətin gəlirdi. Qalasına həsrətlə baxan Əsfəndiyar zülflərindən üç tel ayırıb sinəsinə basdı və görək öz qalası ilə necə vidalaşdı.

Yeddi il bəklədim səndə,
Sağı soldan karvan, qala.

İgidlər saldım kəməndə,
Necə ki qəhrəman, qala.

Sevərdim cəng ilə dava,
Necə ki Səyavyş, Gəva.
Sən idin mənzili-məva,
Mən sənə mehriban, qala.

Əsfəndiyar gedir səndən,
Ayrılır gül yasəməndən.
Halal-hümbət eylə məndən,
Çünki qaldın viran, qala.

Söz tamama çatdı. Hər üçü atlanıb yola düşdülər. Bir neçə gün at çapdıqdan sonra, nahəyət gəlib Qeysər Pərinin sarayına çatdılar. Qeysər Pəri gələnləri xoş üzlə qarşıladı, dincəlmələri üçün hər cür şərait yaratdı. Ancaq Zərqamı qızlarla görən Pərinin qaş-qabağı tutulmuşdu. Düzdür, qız bunu üzə vurmaq istəməsə də Zərqam işi başa düşmüşdü. Ona görə də çalışırdı ki, Qeysər Pərinin könlünü alsın. Zərqam götürüb üç kəlmə sözlə onun könlünü belə alır.

Dərdin alım, gözəl, sən ol təbibim,
Nuş edim dəstindən ağı, mənə ver.
Dünya çifəsində yoxdu tamahım,
Qoynunda gülşənli bağı mənə ver.

Sən bəlli gözəlsən, görüm min yaşa,
Dünya beyvəfadı əlindən haşa.
Doyunca hüsnünə qılım tamaşa,
Sonra da aranı, dağı mənə ver.

Zərqam qurbanıdı mahın ənbəri,
Gördüm camalını, oldum sərsəri.

Elə sandım sınıb könlümün pəri,
Sarıyım zülfünlə tağı mənə ver.

Söz tamama yetdi. Qeysər Pərinin rəngi açıldı. Zərqam bir neçə gün qızlarla Qeysər Pərinin sarayında qaldı, yeyib-içib kef çəkdilər. Tək oğul olan Zərqamın ata-anasının gözü yollarda qalmışdı. Zərqam da tezliklə həsrətində olduğu ata-anasını görməyə can atırdı. Odur ki, qızlarla məsləhətləşib yola qoşulmaq qərarına gəldilər. Hər dördü atlara süvar olub yola düşdülər. Bir neçə gün at sürdükdən sonra Səməngan torpağının sərhədlərinə yetişdilər. Zərqamın gözünə vaxtilə at sürdüyü, kef çəkdiyi seyrangahlar göründü. Onun ürəyi qəfəsdəki quş ürəyi kimi atlandı, az qaldı sinəsindən şıxsın. Aldı, görək üç kəlmə sözlə vətən torpağına nə dedi:

Şükür haqqa gördüm vətən üzünü,
Görünən şahzadə seyrangah idi.
Qəlbdən düz olan yetər mərama,
Onuncündür könlüm tanır vahidi.

Baxırsan hər yana bənzər zənnətə,
Sidrətül – müntəha, şanı – şöhrətə.
İşlər qəflə-qatır hər məmləkətə,
Ağrının ətəyi səyyad rahidi.

Zərqamın arzusu yetdi yerinə,
Səcdə qıllam ərənlərin pirinə.
Əl atan xudanın gizli sirrinə, -
O da insanların bir ikrahidi.

Söz tamama yetdi. Zərqam üç gözəllə yoluna davam etdi. Bir qədər getmişdilər qarşılarına bir çoban çıxdı. Çoban gə- lənlərin yad adam olduğunu görüb, onlara yaxınlaşdı, kimliklərini soruşdu. Zərqam cavab verdi ki, o, Xarəzmşahın

oğlu Zərqamdır. Çoban Xarəzmşahın qoyunlarını otarırdı və Zərqam haqda eşitmişdi. Gələnin Zərqam olduğunu bilən kimi az qaldıı sevincindən gözləri alışıb yansın. Zərqamgildən xahiş etdi ki, burada dursunlar, özü isə muştuluğa qaçdı. Zərqamgil buradakı çəmənlikdə dincəlməkdə olsun, eşit çobandan. Çoban özünü saraya yetirdi və şahın hüzuruna gəlib dili dolaşa-dolaşa şahı muştuluqladı. Şah oğlunun gəldiyini bilən kimi yerindən dik atıldı, sürünü muştuluq olaraq çobana bağışladı. Əmr verildi, hamı Zərqamın pişvazına çıxdı. Şəhər bayramsayağı bəzəndi. Şahın sarayında Zərqama qırx gün, qırx gecə toy oldu, hamı öz mətləbinə, muradına çatdı. Allah hamını mətləbinə çatdırsın.

## MEHDİ BƏY

*(Aşıq Hüseyn Saraclının dilindən yazılıb)*

Bəli, keçmiş ustaddara rəhmət. Ustaddar söhbətdən qavax bir neçə nəsihətlər deyir, onnan sonra dastanı başlayır. Bizim xeyrimiz-bəhrəmiz də ustaddara rəhmət dedirtməhdi. Bəli, görəh ustad burada nə deyif:

Doğrudan, yalannan dərs verdin bizə,
İşdərin çıxmadı bir yana, dünya.
Nə mənzilin bəlli, nə də məkanın,
Cadalar tüşüfdü hər yana, dünya.

Gələnnər gəlincə bir səni bildi,
Çoxunda ağladı, azında güldü;
Nə gedənnər gəldi, nə gələn qaldı,
Budu etivarın insana, dünya.

Bir gün olar əsər məhşər yelləri,
Göyərdirsən, çürüdürsən gülləri.
Pünhan olur murğuların dilləri,
Sultan Süleymannan bu yana, dünya.

Əzəli görəndə eylədin rəftar,
Binəsif[6] olmadı yapdığın tufar,
De görüm nejoldu verdiyin ilqar,
Onnardan bizə bir nişana, dünya.

Ağır səltənətdi, təxdi-divannar,
Övliya[7], əmbiya[8], dini-imannar,
Turaba[9] qarışdı neçə min cannar,
Xakə büländ oldu yeksana, dünya.

Rüzquda bəllidi fəsildə yaylar.
Ömrümüzdən keçir günnərnən aylar,
Gəlir xəyalıma əlvan saraylar,
Dönüfsən qızıla, mərcana, dünya.

Murazı mətləbdə tərtibi-atdı,
Axır körpülərin qıldan siratdı,
Qılıncın qınsızdı, qolun qüvvətdi,
Baxmadın qojuya, cavana, dünya.

Şair Nəvi cəhd eylədi cafana,
Ömür keçdi sarınmadı safana,
İnnən belə inanmaram bafana,

---

[6] Binəsif - münasib
[7] Övliya - müqəddəs pirlər.
[8] Əmbiya - qara camaat, xalq kütləsi.
[9] Turab - torpaq.

Sıdıqınan sığınnam sübhana, dünya.

Bəli, ustaddar bir demir, iki deyir. Biz də dəək[10] iki olsun, namərdin də ömrü gül təki solsun.

İnsan oğlu yetişəndə həddinə,
Cavannıx bir işdi qönçə-gül oldu.
Eləsi var xoş nişanı Xudadan,
Eləsi var başı keçəl-gil olu.

Eləsi var ibadətdi zikiri,
Eləsi var bijdihdədi fikiri.
Eləsi var dildən qoymaz şükürü,
Yavan çörəh dəhanında bal olu.

Eləsi var onnan olur bədnəzər,
Eləsi var oxuyuf dərsin yazar.
Eləsi var çəhi-çöürə dözər,
İşi-güjü qazma, külüng, bel olu.

Eləsi var el içində öyünü,
Eləsi var bəd xavara söyünü,
Eləsi var uca görüf boyunu,
Pəhlivantək qol-qolada fil oldu.

Eləsi var el içində söyülər[11],
Eləsi var öz-özünə öyülər,
Eləsi var baltasını bülöylər,
Fəryad çəkən ormannarda kol olu.

Eləsi var töylədən çəkər atı,

[10] dəək – deyək
[11] Söyülər – sevilər

Eləsi var nura bənzər sufatı.
Eləsi var cəhd edər getməz baxtı,
Vurar baxtı qara dövlət sel olu.

...Eləsi var yer üzünün astanı,
Eləsi var işə getməz, pastanı.
Şair Nəvi tamam etdi dastanı,
Görün adamlıxda necə yol olu.

Bəli, ustaddar üçətən deyif. Birini də deyim olsun üç, namərdin də ömrü qoy olsun puç.

Ağılnan eşq hər adamda var, çünki ağıl insanı düz yola çəkir, eşq həmişə uçuruma aparır.

Bir gün eşq ağıla dedi:

– Ağıl, daha mən sənin sözünə baxmıram, çünki mana zaral elliyir. Ağıl dedi:

– Bə, neyliyəh?

Eşq dedi:

– Deyişərik, əyər sən bağlasan, mən sana tabe olaram, mən bağlasam, sən mana.

Ağılnan eşq meydana girdilər. Ağıl dedi:

– Bə bizim sözümüzü kim təsdiq edəjək?

Eşq dedi ki, gə bir şair çağırax, o təsdiq elləsin.

Ağıl dedi:

– Yaxşı, Eşq, de görüm fırsant sənindimi, mənimdimi?

Eşq dedi:

– Biz fırsantı tüşmənə verrik.

**Aldı Ağıl:**

Ağıl dedi, doğru sözün kökü var,
Şəcarındə[12] necə pudax yaxşıdı?

[12] Səcər – ağac

Sərrafı çağırax, dürdana seçək,
Yamanı içinnən atax, yaxşıdı.

**Aldı Eşq:**

Eşq dedi ki, bəyənmədim sözünü,
Rəyasət elmini tapax, yaxşıdı.
Yanımda gərəkdi neçə növcavan,
Cəhd edif dünyəni çapax, yaxşıdı.

**Aldı Ağıl:**

Ağıl dedi, eşq, gəl həddini tanı,
Məhşər günü yaman üzdər utanı.
Koroğlu, Rüstəm-Zal qəhrəman hanı?
Nə üçün günaha batax yaxşıdı?!

**Aldı Eşq:**

Eşq dedi, nəfsimizdən söylüyək,
Pünhan-pünhan yara qaş-göz eyliyək.
Yol vermiyək, gözəlləri əyliyək,
Üç-doqquz üzünnən öpək yaxşıdı.

**Aldı Ağıl:**

Axı, yoxdü, bu işdərin binəsi,
Yaxşı oldu ömürrərin sənəsi.
Həqiqətdən ləli-gövhər dənəsi,
Qədir bilənlərə satax yaxşıdı.

**Aldı Eşq:**

Altımda gərəkdi narınc, bədöy at,
Haramnan qazanam, aləm qala mat;
Yellənə qapımda malınan döylət,

Qoyun, quzu, çənbər köpək yaxşıdı.
**Aldı Ağıl:**
Ağıl dedi, niyə oda düşəlim?
Riya üçün cəbəlləri[13] aşalım.
Yaz olanda əyri kotan qoşalım,
Qış olanda əlvan otax yaxşıdı.

**Aldı Eşq:**
Mən istərəm bu dünyədən bac alam,
Bu doğrudu, qorxum budu qojalam.
Heç kəs də bilmiyə qarnı ac olam,
Əlvan silah, qırım papax yaxşıdı.

**Aldı Ağıl:**
Ağıl dedi, ağlar yazıx canımız,
Azreil gələndə gedər qanımız.
Rəhm elliyər gənə ol sübhanımız,
Mövlam karvanına çatax yaxşıdı!

**Şair Nəbi:**
Şair Nəvi, var bu sözün bir əsili;
Tarix yetər, ruh bədənnən kəsili.
Saxla təharəti[14] unutma qüslü,
Oruc tutax, namaz qılax yaxşıdı!

Xoşbaxt olun, ustaddara da min rəhmət.

İndi sizə "Mehdi bəyin dastanı"nı çatdıracam.

Bəli, sizə hardan xavar verim - Qalaça şəhərinnən. Qalaça şəhərində Nejdi Məmməd adlı bir xan varıydı. Həmən xanın baş taciri Söyün adlı bir kişiydi. Söyünün öylad sarıdan

[13] Cəbəl - dağ
[14] Təharət - təmizlik

varı-yoxu Mehdi bəy addı oğluydu. Tacir ölənə yaxın oğlunu yanına çağırtdırıf dedi:

– Oğul, dünyada nə qədər istəsən döylətim var. Özünə də bəsdi, nəticənə də. Özün də mədrəsəyi qurtarıfsan. Bircə murazım qalır ki, səni öyləndirməmişəm. İndi vəsiyyətim budu ki, sən də xanın yanında mənim kimi etibarrı baş tacir olasan. Oğul, onsuz da öylənəssən, amma siftə yoxluyursan, əsli-nəcabətdi yerdən qız alarsan ki, adımıza-sanımıza yaraşasın. Bir də cümədən cüməyə qavırımın üstündə quran oxuyarsan. Yadında saxla ki, bir alverə, bir də oyçuluğa qoşulan adam gej qojalar. Oğul, mən dünyadan köçürəm, axırıncı bir vəsiyyətim də budu ki, anıyın sözünə qulaq as, çünki sənin əziyyətini mənnən çox o çəkif.

Bəli, tacir ömrünü sizə bağışladı. Onu urvattı götürdülər, dəfn elləditlər. Oğlu da hər cümə axşamı onun qavırı üstündə Quran oxudu. Aradan bir il keçdi. Oğlan iyirmi iki-iyirmi üç yaşa çatdı. Bir gün anasına dedi:

– Ana, atamın vəsiyyətidi, baş tacir ola bilməsəm də, heç olmasa balaca tacir olum. İndi mən səfərə çıxmalıyam. Anası dedi:

– Oğul, o ki, belədi, onda de görüm hası vilayətə getmək istiyirsən?

Mehdi bəy dedi:

– Ana, bu gün karvansarıya getmişdim, drxaxtında[15] Gürcüstan tacirləri varıydı. Oraları elə gözəl söylədilər. Gürcüstana səfər elliyərdim.

– Ay bala, doğrudu, Gürcüstanı elə tərifliyillər, amma oranın bir ayrı işi də var.

– Nə olajax, ana?

[15] drxaxdın – çayxana

– Oğul, eşitdiyimə görə oralar gözəllər məskənidi. Nə ki, burdan gedən oluf hamı orda əylənif qalıf. Gözümün ağı-qarası bir oğlumsan, səni nejə buraxım orya?!

– Ana, and içirəm, Qurana ki, bir ilə gedif qayıdajam.

Oğlu çox dedi, ancaq anası razılıq vermədi. Axırı oğlunun xətrini qırmaq istəmədi. Dedi:

– Oğul, and iç ki, bir ilə gedif gələjəhsən.

Bəli, oğlan bir ilə qayıdajağına and içif, qəflə-qatır hazırratdırdı. Tirməyi şaldan, aldan-yaşıldan, qəvli-qortdan, Hindistan yaqutundan yeddi dəvə yühlətdi. Anasınnan halal-hümmət elliyif, qəflə-qatırnan yola tüşdü. O zaman aynan, ilnən, indi müxtəsər dilnən tüşərgələr keçdilər, gəlif Gəncə şəhərinə yaxınnaşdılar. Baxdılar ki, bağlı-bağatdı bir gözəl şəhərdi. Bir sərin bulağın üstündə sarvannara əmr ellədi ki, dayanın, qəflə-qatır bir az dincəlsin. Yeməh hazırrıyın, savax burda nahar elliyək. İndi dincəlin, mən atdanıf gedim, görüm, bu nejə şəhərdi. Bəlkə bir az mal-mətah satax. Mehdi bəy atdanıf, gəldi şəərə. Baxdı ki, bir oğlan bağ bejərir. Dönüf salam verdi:

– Qardaş, allah quat versin! Salamını əlyek aldı.

– Bu hası şəhərdi belə, qardaş?

– Qardaş, bura Gəncədi, dəəsən qarıv adamsan, özün də tacirə oxşuyursan?

– Bəli, tacirəm, mal-mətahım var. Burda elə dam-daş olarmı mal-mətahımı yerrəşdirəm. Nejə bilirsən – burda sata bilərəmmi? Bu şəhər yaman xoşuma gəldi.

– Hə, eləmi satarsan, lap yaxşı.

– Bə, dam-daş məsələsi nejə olar?

– Çoxdumu, qardaş, malın-mətahın?

– Yeddi dəvə yüküdü.

– Düzü, mənim dam-daşım var, amma bir özgəsinə vermişəm. Elə yüz manat peşman pulu verərsən, sana verrəm.

– Baş üstə, adını bağışda?

– Adım Məhəmmədəlidir. Sizin adınız nədir?

– Mana da tacir Mehdi bəy deyillər.

– Di, buyurun gedəh.

Gedif dama-daşa baxdılar. Şəhərin içi Mehdi bəyin daha çox xoşuna gəldi. Çıxardıf yüz manat peşman pulu verdi. Atını sürüf, qayıtdı geri. Sarvannara əmr edif dedi ki, qəflə-qatırı çəkin gedəh, yer-yurd tapmışam. Gətirif malı-mətahı boşaltdılar satmağa. Parçanın arşını o şəhərdə bir abbasıya satılırdısa, bunnar iki şaya satırdılar. Məhəmmədəli tacirin çox xoşuna gəldi və onnan soruşdu:

– Qardaş, sənin qardaşın-zadın varmı?

– Xeyr, təkəm.

– Elə, mən də təkəm, gəlsən qardaş olax?

– Yaxşı olax.

– Amma gərəh bir molla çağırasan ki, siğə qardaşı olax.

– Baş üstə, bu saat molla Cabbarı çağırram. Bəli, molla Cabbar gəlif, siğə oxudu. Bunnar da şəhadət barmağını qana-dıf, bir-birinin qanını sordular. Beləjə siğə qardaşı oldular. Başdadı tükənnəri çağbacağ işdəməyə. Şəhərdə bütün tükən-nər dayanmışdı, bircə bunnarınkı işdiyirdi.

Mehdi bəy burda alverindəydi. Məhəmmədəli bazara çıxmışdı. Baxdı ki, bəylərdən bir neçəsi danışır ki, əyə, İra-nın bir tatı gəlsin bizim tükənnəri bağlatsın? Ona bir tələ qurmax lazımdı.

Məhəmmədəli bunu eşidən kimi özünü Mehdi bəyin yanına saldı:

– Əyə, qardaş, iş yaman ayrı cürdü.

– Əyə, nə təhər, qardaş, nə oluf?

– Ə, ağaların, bəylərin tükənnəri bağlanıf, xavarın varmı? Sana tələ qurmax isdiyillər.

– Bə, nağayrax, nə təhər eliyəh?

– Qardaş, çörəh kəsmiyəni, qılınc kəsməz. Gəl belə eliyəh. Gündə beş bəy, üç ağa çağırax, qonaxlıyax, bunnarnan dostdux elliyəh, bəlkə işimiz yaxşı ola, yoxsa səni xaraf eliyəllər.

– Baş üstə, qardaş, xarc mənnən, çağırmax sənnən.

Elə də başladılar, gündə bəylərdən, ağalardan beş-bir, üç-bir çağırıf, yedirdif-içirdif dostdux elləməyə. Bir gün Məhəmmədəli gəlif dedi ki, savağa on dörd ağa, bəy qonax çağırmışam.

– Çox yaxşı, tezdən əmr ver, xörəh-mörəh hazırransın. Mən də hamama gedif gələjəm. Çünki savax cümə günüdü.

Savax tezdən Mehdi bəy hamama getdi. Gedəndə nə görsə yaxşıdı – hamamnan bir dünya gözəli çıxıf, faytona doğru gəlirdi, yanında da kənizi. Amma qız deyirəm, qızdırma demirəm, ağız püstə, burun fındıx, göz piyalə kimi yanır. Qədəminnən yer xof çəkir. Elə bil ki, qəfil qızın iki qaşının arasınnan bir ox çatıldı, Mehdi bəyin sinəsindən dəydi, ürəyinin başında düyün bağladı. Yeri də başladı dolama kimi zoqquldamağa. Elə bu vaxt oğlanın da qaşınnan bir ox çıxdı düz qızın iki məməsinin arasına dəydi. Sizə məmə deyirəm – Gəncənin narı, baxçanın barı, cavannarın ilqarı. Yalan deyənin də öyü yıxılsın, inanmayanın da. Baharın çiçək-çəmən bir-birini çağıran vaxtıydı, bülbül öz gülünü tərif edən vaxtıydı. Qız da Mehdi bəyə bir könuldan min konula aşiq olmuşdu. Əlində bir dəstə gül varıydı. Barmağından üzüyünü çıxarıdıf həmən gülün birinə sancdı, faytona minəndə oğlana tulladı. Fayton getdi. Elə bil ki, oğlanın ürəyi də onnan baravar getdi. Ağıl başdan çıxdı. Xeyli donuf qaldı. Birdən əlindəki gülə baxdı, üzüyün qaşını oxudu ki, "Nazdı xanım" yazılıf. Daa hamama da getməyif, qayıtdı geri.

Hər şey hazırıydı, bəylər də gəlmişdi. Amma Məhəmmədəli baxdı ki, Mehdinin rəngi dəyişif.

– Ə, qardaş, rəngin niyə belə oluf, özün də tez gəldin hamamnan, bu nətəər işdi, xeyir ola?

– Qardaş, dəəjəm, amma hələ falımı açma. Qoy bəylərnən görüşüm, gəlirəm. İçəri girif bəylərnən təmannaşıf çıxdı.

– Aya, bir de görüm nə oluf, qardaş, ürəyim yerinə gəlsin.

– Qardaş, məni yaman vurdular.

– Əyə, nejə?

Çıxartdı üzüyü göstərdi. Deməzsənmi bir qız faytona mindi, bu gülü də mana atdı, üstündə də üzüh, adı da yazılıf, amma bilmirəm kimin qızıdı.

– Qardaş, qorxma, qardaşın ölmüyüf. İçəri girəjəm, bəylərin içində dəəjəm. Əyər qızın atası bunnarın içindədisə, elə burda elçiliyəh. Yoxdusa, bu on dörd ağadan, bəydən xaiş elliyəjəm, özüm də başda, kimin qızı olduğun biləh, elçi düşəh.

Məhəmmədəli içəri girif başdadı söyləməyə.

– Əziz bəylər, Mehdi bəyin başına bir iş gəlif. Bu qız kimin qızı olar, adı da "Nazlı xanım".

Biri dedi Alının qızıdı, biri dedi Vəlinin qızıdı, biri dedi Pirqulunun qızıdı, tapa bilmədilər. Amma əyaxlıxda bir qoja pirani oturmuşdu, ağa-zad da döyüldü, qonuşdan gəlmişdi. Dedi: – Tapa bilmədiniz, o Qara xanın qızıdı, Gəncə xanının.

– Əyə, doğrumu deyirsən? Dedi:

– Bəli.

Ağalardan, bəylərdən xaiş elədi ki, durun elçi gedəh. Hamısı bir yerdə elçi getdilər.

Qara xan qonaxları xoş-beşnən qavıl ellədi. Nə yaxşı bəylər gəlif, buyurun deyif xoş üz görkəzdi. Oturdular, çay-çörəh tökdülər.

Qara xan dedi:

– Di buyurun.

– Xeyir, yemiyəjiyih.

– Niyə?

– Biz mətləvə gəlmişik, düzəldərsən, çörəyini kəsərih.

– Xoş gəlifsiniz, məndə tapılan şeydimi?

– Bəli, səizdə tapılan şeydi.

– Onda elə bilin ki, civinizdədi.

O saat bəylər dedi: – Əyə, aldıx, buyurun. Başdadılar yeməyə. Amma bu söz Qara xanın ürəyini dəlirdi. Öz-özünə dedi:

– Bunlar nəyə gəlmiş olar. Hamısı varlı adamlardı. Vara gəlməz, pula gəlməz, nəyə gəlmiş olallar? Qızıma gəliflərsə, bunnarın yeddisinin də öylənəsi oğlu yoxdu, qalan yeddisininki də öylənif. Qara xan üzünü onnara tutuf dedi:

– Əyə, bəyax söz sizin qarnınızı dəlirdi, indi də mənim qarınımı dəlir, deyin görüm nə işə gəlifsiniz, təmənnanız nədi?

– Allahın əmrinnən, peyğəmbərin şəriətinnən qızın Nazdı xanımı, tacir Mehdi bəyə diləyirih.

– Əyə, o İrannı Mehdi bəyəmi?

– Bəli, bəli o Mehdi bəyə.

Fikirrəşdi ki, indi qızımı buradan İrannı tacirəmi verim. Gəl elə bir şey istə ki, onu başarmasın.

– Noolar, – dedi. – Çox gözəl, mənim qızımın bir kəlmə sözü yüz tümən qızıl puldu. Əyər cürdəyi çıxardırsa, yaxın gəlsin.

Deyəndə, bəylər başını aşağı saldı ki, bu qədər haqq-hesavın qavağında durmax olmaz. Amma Məhəmmədəli işin içindən halıyıdı, bilirdi ki, bunu Mehdi bəy başarar. Oydu ki, dedi:

– Xan sağ olsun, mana yarım saat möhlət verərsənmi, cavaf gətirim?

Dedi:

– İki saat möhlət verrəm.

Məhəmmədəli özünü yetirdi Mehdi bəyə ki, əyə, qardaş, əhvalat belədi. Amma Mehdi bəyin bir kalça dərisi ləli-cavahiratı varıydı. Bir hambal çağırıf belinə yıxdı, dedi, apar. Yox olsun yoxsulluğu - var olsun kərəm əli, yox olsun vərəm əli. Məhəmmədəli hambalı qavaxlıyıf gətirdi kalça dərisi dolu cavahiratı Qara xanın öyünə. Saya bilərsən, – dedi. Xan görən kimi gözü təpəsinə çıxdı. Götürdü ayrı otağa apartdırdı. Açdırdı, baxdı ki, hamısı ləli-cavahiratdı. Tez ağzını bağlıyıf, bəylərin yanına gəldi. Amma Məhəmmədəli bəylərə göz ellədi ki, gətirmişəm. Bəylərin irəngi açıldı. Qara xan içəri girdi, dedi:

– Əyə, mən zarafatnan bir söz dedim, siz də inanıf o qədər haqq-hesaf gətirifsiniz.

– Xan sağ olsun, sənin bir sözün iki olmaz ki, gətirməliydih.

– Onda, nişanı da onun içindədi, toyu da. Bunnan qurtardıx.

Nişan ellədilər, toya da vaxt qoydular. Amma gəl gör ki, Mehdi bəy fikrə düşüf nagüman olmuşdu: "Ayə, olmuya bu işi pozalar, xəzinə də gedə, qız da. Burda da elə bir arxam yoxdu". Hər savax qalxanda Qara xanın bağına tərəf baxır. Hərdən qızı orada görürdü. Bir savax Mehdi bəy gördü ki, Nazdı xanım yeddi qələmnən özünə sığal verif saçını darıyır. Savax yeli də yavaş-yavaş qoğalıyır. Məhəmmədəliyi çağırdı:

– Əyə, Məhəmmədəli, burya gəl. Amma yeddi telli bir tavar sazı da varıydı. Hərdən otağında çalırdı.

– Əyə, qardaş, bir qələm, kağız götür. Mən dəəjəm, sən yaz.

– Əyə, de görüm nə görüfsən?

– Qulaq as deyim. Aldı Mehdi görəh nə dedi:

Bağ tərəfdən qəfləm istər nigarın,
Gözdərəm yolların amandı, aman.
Badi-səba mənim üçün yağıdı,
Dağıdar tellərin, amandı, aman.

O boy ki, səndədi, səlmim[16], amandı,
Tərk eylə yerişi, öldüm, amandı;
Zülfünü tez dara, başa dolandır,
İncidər bellərin amandı, aman.

Söyda Mehdi sənnən qaldı begüman,
Kətan köynək belin qucar hər zaman.
İnnabı yanağın, mirvari məmən,
Əməllər ləblərin, amandı, aman.

Kağızı yazıf, Nazdı xanıma göndərdi. Nazdı xanım oxuyuf çox qəmgin oldu. Dedi ki, dəəsən bu işin pozulmasınnan qorxur. Götürüf on dörd siyah teldən birini çəkdi, nar məmənin üstünə. Sonra kənizinə dedi:

– Ağız, qələm hazırla, mən dəəjəm, sən yaz.

– Götürüf nə dedi:

Başına döndüyüm, vəfalı yarım,
Ah çəkmə, ay oğlan, səninəm, sənin.
Seyrəqiflər pozmaz, vardı ilqarım,
Ah çəkmə, ay oğlan, səninəm, sənin!

İnanma ki, namusumu ataram,
Beilqar tək özgəsini tutaram;
İnşallah ki, mətləbimə çataram,
Ah çəkmə, ay oğlan, səninəm sənin!

---

[16] Sərvim – sərv boylu mənasındadır.

Nazdı xanım deyər, ilahi haqdı,
Atam hökmdardı, varı da çoxdu.
Demə mühacirəm, kimsəm də yoxdu,
Ah çəkmə, ay oğlan səninəm, sənin.

Bəli, bu namiyi alannan sonra Mehdi bəyin ürəyi dincəldi. Toy hazırrığı görüldü. Təmtəraxnan toy eliyif gəlini gətirdilər. Nolajax, oğlan cavan, qız cavan, var-hal da ki, çox; beləjə anası yaddan çıxdı.

Deyillər üç il tamam olmağa bir on-on bir gün qalmışdı. Bir gejə yuxusunda anasını gördü. Baxdı ki, anası deyir: "Oğul, Qurana and içdin, andı pozdun, Quranı əyəxlədın, adam ilqara xilaf çıxarmı? Bə o dunyədə mana nə cavaf verəssən?"

– Ana, ağlama, ana, ağlama, – dəə-dəə Mehdi bəy höyləki yuxudan oyandı. Nazdı xanım özünü yetirif soruşdu:

– Mehdi bəy, Mehdi bəy, sana nə oldu?

– Nazdı xanım, mən buraya gələli neçə vaxtdı?

– Nə bilim, toyumuzu elliyəndə dedin yeddi aydı İrannan gəlmişəm. Toydan bəriyi də hesafladılar. Baxdılar ki, üç il tamam olmağa on bir gün var. Dedi:

– Xanım, öyümü yıxmışam.

– Nə təər?

– Qulaq as deyim. Mehdi bəy höykürüf ağladı, dedi:

Nə müddətdi bu qürbətə düşmüşəm,
Əziz anam yada düşüf, ağlaram.
Bir ilə and içif yola düşmüşəm,
Əziz anam yada düşüf, ağlaram.

Varıydı atamın cahı-calalı,
Dağılmaz qalası, döyləti, malı.
Neçə ildi bu diyarda qalalı,
Əziz anam yada düşüf, ağlaram.

Mehdi bəyəm, bu qürbətdə qalmışam,
Qohumnan, qardaşdan, eldən olmuşam.
Saralıbam, yarpaq kimi solmuşam,
Əziz anam yada düşüf ağlaram.

Nazdı xanım dedi:

– Mehdi bəy, olmuya elə fikirləşirsən ki, xan qızıdı, mənnən getməz. Arvad dediyin kişinin dəvəsidi, oysarınnan tutuf harya desən, aparar.

– Nazdı xanım, bə indi neyniyək?

– Gedəh, atamnan icazə alax. İcazə versə də gedəjəm, verməsə də. Amma deməh yaxşıdı.

Oydu ki, Mehdi bəy fayton çağırdı. Layıxlı töhfəynən Qara xana qonax getdilər. Qız əhvalatı belə danışdı:

– Ateyi-mehriban, Mehdi bəyin bircə anası var, icazə ver gedəh onu yoxluyax.

Qara xan gördü ki, daha Mehdi bəy qalası döy. Onnarı layıxlı yola saldı, xeyir-dua dilədi.

Nazdı xanımnan Mehdi bəy İrana yola düşdülər. Gəlif Qalaça şəhərinə yaxınnaşdılar. Qəflə-qatır gəlməhdə olsun, Mehdi bəy atdanıf Nazdı xanımnan irəlilədi. Anasına müjdə getdi ki, oğlun gəlir. Anası yeddi cöngə kəsdirif, oğluynan gəlinini onların arasından keçirdi. Cəmi - həsrətdər bir-birinə yetişsin. Oğul-ana bir-birinə qoyuşdu və yeddi gün, yeddi gejə toy vuruldu. Mehdi bəy anasına üzürxahlıx ellədi, anası da günahınnan keçdi. Ancaq daa Mehdi bəyi qırax eldə tacirlik elləməyə buraxmadı... O da çox gəzmiş, görmüş adam olduğundan öydə darıxırdı. Axırı anasına dedi:

– Ana, məni qırağa, tacirriyə getməyə qoymursan, bə mən neyniyim ki, darıxmıyım.

– Oğul, atayın məsləhəti yadındadımı?

– Ana, vallah, dəəsən yadımadn çıxıf.

– Atan deyərdi ki, oyçulux adamı qojaltmaz.

– Doğru deyirsən, ana, rəhmətdik atam onu mana demişdi. Oydu ki, Mehdi bəy bir tarlan quş, bir yay-oxu, iki dənə də tazı aldı, yaraxlanıf-yasaxlanıf oya çıxdı. Gündüzlər gedif oyluyıf, quşduyur, axşamlar öyə qayıdırdı. Həmişə də Nazdı xanım külənfirəkdə duruf onun yolunu gözdüyürdü. Mehdi bəy darvazaya yaxınlaşanda, nökər-naifdən qavax özü düşüf onu qarşılıyır, qol-boyun imarətə girirdilər. Bir neçə vaxt bu ədəbnən, bu şirinnihnən dolanmaxda olsunlar, sizə kimdən xavar verim, şəhərin xanı - Nejdi Məmmədən. O da öz vəzirinnən səyahətdən gəlirdi. Belə baxanda Mehdi bəyin imarətində bir dünya gözəli gördü, elə bil ki, on dörd gejəlih aydı, buluddan çıxmışdı. Xudavəndi-aləmin boş vaxtına düşüf, bircə bunun qəddi-qamətinə qələm çəkif.

– Vəzir, öyün yıxılsın, bu kimdi belə, məni yay-oxuynan vurdu?

– Xan sağ olsun, tacir Söyün bəyin oğlu Mehdi bəyin Gənəcədən gətirdiyi dünya gözəlidi.

Kirimiş gəldidər divanxanıya. Xan dedi:

– Vəzir!

– Bəli.

– Anasını satdığım, bu işə bir dava elədin – elədin, eləmədin – dərini davanından çıxardajam.

Vəzir düşdü azara. Fikirrəşdi: – Nağayrım? Özünü qazının yanına yetirdi.

– Qazı, aman günüdü, başım cəlladdadı, bu işə bir çara qıl, xannan da böyük ənamın var.

– Qazı çox yaşamış, dünya görmüş bir qarı tafdı, dedi:

– Nənə, bir belə əhvalat var, əlinnən nə gəlir?

– Ziyankarlıxdan savayı əlimnən heç nə gəlməz. Gündə yeddi öy yıxıram, heç birini də tikəmmərəm. Amma sənin bax-

tınnan üç gündü tova demişəm. Vəzir qazıya lazımi qədər qızıl vermişdi. Oydu ki, genə bir ovuc qızılı qarının oycuna basdı. Qarının gözü qırxillik qəssaf pişiyinin gözünə döndü. Dedi:

– Üç gündü tova demişdim, onnan keçməy olar, amma haja gedəjəm, bə onu neyliyəh?

Qazı bir oyuc da qızıl verdi.

– Bu da haj pulun. Qarı dedi:

– Əşşi, mən ölmürəm, haj köçmür; bu il olmaz, yenidə gedərəm. İndi de görüm - o kimdi?

– Gərəh tacir Söyün bəyin oğlu Mehdi bəyin arvadı Nazdı xanımı Nejdi Məmməd xana düzəldəsən.

– Hə, elə işdər, – dedi, – mənim oycumun içində. Mana Tülfənsə qarı dəəllər, bir qazana çalası töksəm, qırxı uyu-şar, oyusnnanıf bir küpüyə girsəm, qırxı onun dalınnan göyə çıxar. Arxeyin ol – deyif işə başdadı. Qarı qulançar qoması kimi – yüz dənə çuvux kəsdi. Bir sini gətirif, səbzəvad doldurdu. Bir qoma çuvuğu da onun içinə qoydu. Bir küpə oysunnadı, özü də sininin içinə mindi, Mehdi bəyin qapısına girdi. Orda düşüf, sinini aldı başına. Nazdı xanım eyvandaydı, Mehdi bəyi yenijə yola salmışdı. Baxdı bir qarı "Nazdı xanım" – deyə başında da bir sini töhfə qışqırır. Kənizlərdən soruşdu:

– O kimdi məni çağıran?

Kənizlər baxdı ki, bir qarıdı.

– Nə buyurursan, ay nənə?

– Kor olsun nənəyin gözü, Nazdı xanım hardadı, a bala, onu istiyirəm.

Kəniz qayıtdı ki, Nazdı xanım, bir qarıdı, səni soruşur. Dedi:

– Buraxın, gəlsin. Qarı özünü yetirdi. Nazdı xanımın yanına, töhvüyü verdi kənizdərə ki, yuxarı çıxartsınnar. Qarı Nazdı xanımı qucaxladı:

– Nənən ölsün, ay bala, gəldiyini yenijə eşitmişəm.

Nazdı xanım qarıyı öz otağına çıxartdı. Qarı nənə baş-dadı ağlamağa ki, ay bala, bilirsənmi mən kiməm? Qara xanın mamasıyam[17]. O vaxtdan burya düşmüşəm. Mana dedilər ki, gələn Qara xanın qızıdı. Qara xan da ölmüş qardaşımın oğludu. O, etivarsız heç gəlib məni yoxlamır. Xannıx da belədi dana, ay bala, baş qarışır, yaddan çıxırıx.

Kənizdər nahar gətirdi. Qarı dilinin altında bir surə oxudu. Fırsat tapıf Nazdı xanımın çaynıa üfürdü. Qarı çayı içən kimi başdadı ağlamağa.

– Nənə, niyə ağlıyırsan?

– Səni ağlıyıram.

– Məni niyə ağlıyırsan, ay nənə?

– Kor olaydı gözlərim, səni görmüyəydim.

– Niyə?

– Nejə ağlamıyım, Qara xan kimi bir xanın qızı bir quş qoyluyana ərə gəlif. Sən padşaha, xana layıxsan, gözəlsən. Deyəsən, oysunnu su öz işini görmüşdü. Qız dedi:

– Nağayrım, ay nənə, məni ona yazanın qələmi qırılaydı. Qız da başdadı ağlamağa.

– Ağlama, qızım, ağlama. Nənən ölmüyüf.

– Nənə, bə mən neyniyim, bu işə nə çara qılırsan?

– Nə çara olajax, gənə deyirəm, nənən ölmüyüf, səni şəhərin xanına verəjəm.

– Bə nağayrım, burdan nejə çıxım?

– Yolunu öyrədəjəm, burda yüz çuvux var. Bunun birini çıxardıf qoyajam bu sininin üstünə. Mehdi bəy gələndə qarşısına çıxmazsan, qara bulud kimi oturarsan. Çuvuğu alıf səni qurdalıyajax ki, dur, o saat dinməz-söyləməz düz məscidin

---

[17] mama – bibi

qavağına gəl, səni orda gözdüyəjəm. Mehdi bəy o günü nəysə axşamüstü gəlif çıxdı. Eyvana baxdı ki, Nazdı xanım görünmür. Öz-özünə dedi: Görəsən nə işdi, büyün eyvana çıxmıyıf. Tez atdan tüşüf yuxarı çıxdı. Nazdı xanım fikirrəşdi ki, ay allah, kor oluydu gözlərim, Mehdi bəyi görmüyüydü. Mehdi bəy içəri girdi, baxdı ki, Nazdı xnım bahar buludu kimi elə doluf ki, deyirsən bu saat yağajax.

– Qadan alım, Nazdı xanım, sana nooluf, olmuya naxoşduyufsan. İstədi üzünnən bir busə alsın, Nazdı xanım onu itələyif, üzünü o tərəfə çöördü. Mehdi bəy belə baxdı ki, bir sini, içində bir bağlama çuvux var; Çuvuxnan Nazdı xanımı qurdaladı ki. – "Əşi, sana nooluf, niyə dərdini mana demirsən?" Nazdı xanım fıral qalxıf qapıdan çıxdı. Düz gəldi qarı dediyi yerə. Mehdi bəy fikirrəşdi ki, yağın mənnən küsüf. Elə bildi o biri otağa keçdi. Qarı da qızı götürüf qazının yanna apardı.

– Qazı əfəndi, – dedi, – bu mənim qohumumun qızıdı. Əri ağzına söyüf, yüz dənə də çuvux vuruf. Bu şərəitdə varmı?

Dedi:

– Yox, kim ellif onu?

– Tacir Söyün bəyin oğlu Mehdi bəy.

Qazı o saat işi başa tüşdü, iki fərraş çağırıf göndərdi ki, gedin Mehdi bəyi gətirin. Mehdi bəyi gətirdilər qazının yanna. Qıznan qarı da pərdənin dalına girdi. Mehdi bəy gəlif salam verdi: Qazı əfəndi, – dedi, – buyurun, məni qulluğunuza niyə çağırıfsınız?

– Oğul, eşitdiyimə görə quranı oxumuş oğlansan.

– Bəli, oxumuşam.

– Şəriətdən halısanmı?

– Bəli, qazı əfəndi, halıyam.

– Çox gözəl, oğlum, arvadı bir dönüşə yüz çuvuxnan döyüf, ağzına söysən, onun kəbini boşdu, ya dolu?

– Əlbəttə, qazı əfəndi, boşdu.

– Onda, oğul, öz əlinnən burya yaz ki, arvadı yüz çuvuxnan döyüf, ağzına söysən, onun kəbini boşdu.

Mehdi bəy bunnarı yazıf, qol çəkdi.

– Qazı əfəndi, kim olar o adam?

– Mən?

– Bəli, sən.

– Mən elə iş elləməmişəm, bu nə sözdü?

– Az, a bala, burya gəl.

Nazdı xanım pərdənin dalınnan çıxdı.

– Bala, əhvalat nejə oluf?

Qız başladı söyləmyə.

– Qazı əfəndi, bu məni yüz çuvuxnan döydü, ağzıma da söydü. İnanmırsansa, çuvuxlar öydədi, fərraşı göndər, gətirsin.

Qazı fərraşı göndərif çuvuxları gətirtdirdi. Mehdi bəy qaldı mat-mətəl. Qazı onun kəbinini geri oxuyuf dedi:

– Gedə bilərsən.

Mehdi bəy kor-peşman düz anasının yanına qayıtdı. Anası gördü ki, heç özündə döylü. Soruşdu:

– Oğul, nooluf?

– Ana, öyün yıxılsın, hanı gəlinin?

– Oğul, otağında, nədi ki?

– Gəlinin, odu, qazının yanında. Buralara gələn-gedən olufmu?

– Mənim xavarım yoxdu. Kənizdərdən soruşdular. Kənizdər dedi ki, bir qarı gəlmişdi. Mehdi bəy bildi ki, elə o qarı yıxıf bunnarın öyünü. Dərinnən bir ah çəkif, aldı görəh nə dedi:

> Ah çəkmədən ahım dala yetişdi,
> Nejə tav gətirim bu ah-vaya mən?
> Hövsəliynən hərcayinin yolunda,
> Ömrümü vermişəm xub fənaya mən.

Bu gün oldu halım yaman pərişan,
Yarəbb, özün eylə, dərdimə dərman.
Mən dönərəm, könül dönməz canannan,
Mat qalmışam indi bu söydaya mən.

Bəd gəldi bu günüm, çəkirəm fəriyad,
Qəmli konlum olmaz hicrannan azad.
Mən Mehdiyəm, kimsədən yoxdu bir imdad,
Üz tutub yalvardım ol Xudaya mən.

Savax açıldı, vəzir gəlif, qızı apardı Nejdi Məmməd-xanın hüzuruna. Qazı da, qarı da öz ənamını almışdı. Xan başdadı cah-cəlalnan toy elləməyə. Hər yerə səs yayıldı ki, xan təzə arvadnan toy elliyir. Bu xavarı Mehdi bəy də eşitdi. Dedi:

– Ana, bu işə bir çara? Divanxanalarda heç qohum-əqrəbam varmı? Bə burda qohumlarım kimdi?

– Oğul, burda bir əmin varıydı, o da öldü. Üç nəfər yetim əmin oğlannarı var. Onnar da hələ uşaxdılar. Onnardan sana nə köməh?

– Bə hası divanxanıya gedim, kimnən imdad istiyim?

– Oğul, bir qohumun da var, amma uzaxdadı. Əşi, neynirsən bu işin dalına tüşüf, sana onnan da yaxşı qız alajam.

– Yox, ana. Hası divanxanada qohumum varsa de.

– Oğul, Tehranda Mustafa vəzir mənim ana qardaşımdı. Nə bilim o köməy elliyə-elləmiyə.

– Ana, nə qədər yol olar burdan Tehrana?

– Oğul, yəəx[18] bir aylıx yoldu, atnan on-on beş günnüh.

– Ana, mən getməliyəm Tehrana.

[18] Yəəx – piyadə

Mehdi bəyin Tehrana getmək xavarı əmiuşaxlarına da çatdı. Onnar da ağlaşıf yalvardılar ki, getmə uzax yoldu, – noolar, noolmaz. Mehdi bəy dedi:

– Əmiuşaxları, getməliyəm, amma Nazdı xanıma bir qarğış verəjəm. Siz "amin" deyin, salavat çöörün. Çünki siz yetimsiniz, yetimin duası tez qavıl olur. Götürüf Mehdi bəy burda nə dedi:

Bihəya arvadı bu günnən belə,
Konlumdakı qəməfxara tafşırdım.
Şədidi-cədidə qıldım halımı,
Şahlar şahı hökmdara tafşırdım.

Tavalı bəladan həsrət gətirən,
Həcəri vəsfinə namə yetirən,
Cəbrayıl şanına vəhy gətirən,
Üç yüz on dörd peyğəmbərə tafşırdım.

Qərq oldum dəryaya, qərq oldum selə,
Bülbülüydüm, həsrət qaldım mən gülə.
Həzrəti Eyyuba yetirən bala,
Mənsuru zar edən dara tafşırdım.

Mehdi bəy, şanına düşərmi zulüm,
Xudam versin ona sərvəsər ölüm.
Yarəbbi, yanında günahkar qulam,
Aşiqlərə yetən pirə tafşırdım.

Yetimlər "amin" deyif, salavat çöördülər. Mehdi bəy bunnarnan halal-hümbət elliyif, yola tüşdü. O zaman aynan, ilnən indi aşıxların müxtəsəri dilənnən gedif çatdı Tehrana, dayısının hüzuruna. Amma dayısı onu tanımadı. Çünki dayısı onu iki yaşında qoyuf getmişdi. Həm də gedənə kimi dərddən Mehdi bəyin irəngi saralmışdı, başının tükü ağarmışdı. Dayısı soruşdu:

– Oğul, sən kimsən?

– Dayı mehriban, bə məni tanımırsanmı? Tacir Söyün bəyin oğlu döyləmmi?

– Əyə, olmaya Pürzə xanımın oğlusan?

– Bəli, dayı.

– Əyə, bə niyə belə olufsan, a bala, özün cavan oğlansan, amma irəngin solğun, başıyın tükü də dümağ?

– Dayı mehriban, qulaq as deyim:

Üzü qara, iki dilli hərcayı,
Keçən günü heç yadına salmazmı?
Fərzəndə ayrılıx olsa da müqər,
Adam öz yarını xavar almazmı?

– Ayə, nooluf, bir açıx de görüm?

Dedi, qulaq as deyim:

Günü-gündən məni dərdə salarsan,
Gündə bir dərdimi artıx qılarsan.
Əbəs əhvalımı xavar alarsan,
Hicran çəkən saralıban-solmazmı?

Mehdi bəyəm, ulusumnan avara,
Baş götürüb gəldim qürvət diyara.
Öz əlimnən yarı verdim əğyara,
Bə qocalıf başa küllər olmazmı?

Mehdi bəy əhvalatı danışdı. Dayısı bütün söhbəti dinləyənnən sonra dedi:

– Oğul, daa burdan bir yana tərpənmə. Mən şahın yanına gedif, əmr götürüf qayıdajam. Gərəh onun başına bir od əliyəm ki, qıyamata qədər yadınnan çıxmıya.

Dayısı birbaşa getdi şahın yanna. Amma Mehdi bəy dözə bilmədi. Baş götürüf geri, Qalaçıya qayıtdı. Gənə də Nazdı xanımnan ürəiy dönmürdü. O, gəlməhdə olsun, sizə xavar verim

Nazdı xanımnan. Nejdi Məmmədxan tələsik toy ellədi. Gəlini gərdəy otağına apardılar. Elə bu vaxt gəlinin göydəsində yara əmələ gəldi, qurt tüşdü. Gejə oldu, Nejdi Məmməd gərdəy otağına qədəm basdı. İçəri girəndə nə görsə yaxşıdı. Baxdı ki, qızın halı hal döylü. Göydəsini yara bürüyüf, iy verir. Əmr elədi ki, həkim, loğman, cərrah gəlsin. Amma bunnarın xeyri olmadı, günü-günnən yara çoxaldı. Gəlinin yeddi qədəm həndəvərinə hərrənməh olmurdu. Axırı əmr verdi ki, götürün atın küçüyə. Mehdi bəyin əmisi uşaxları, əhvalatı onun anasına xavar verdilər. Mehdi bəyin anası Pürzə xanım namısına sığışdırmayıf, qul-qaravaşa tafşırdı ki, Nazdı xanımı öyə gətirin, Nazdı xanımı gətirif bir bağçıya qoydurdu. İki kənizə əmr verdi ki, ona yaxşı baxsın. Amma Nazdı xanım gejə-gündüz ağlıya-ağıya Mehdi bəyi diliyirdi. Nazdı xanım beləjə burda qalmaxda olsun, sizə xavar verim Mehdi bəydən. Mehdi bəy Qalaça bağlarının arasınnan gələndə Nazdı xanım yadına düşdü: Ah çəkdi, götürüf dərdli-dərdli nə dedi:

Bir qasid yox, yar yanına göndərəm,
Əlim yar əlinnən üzüldü, haray.
Nə əl çəkə billəm, nə üz döndərə,
Bağrım qəm əlinnən əzildi, haray.

Dan yelləri sinəm üstə əsəndə,
Dal qılınclar başım üstün kəsəndə,
Nazdı dilbər bizə qədəm basanda,
Çuğullar arıya düzüldü, haray.

Mehdi bəyəm, bezar oldum canımnan,
Cəsədim boyanıf əlvan qanımnan.
O zaman ki, Nazdı getdi yanımnan,
Gör nejə növrağım pozuldu, haray.

Mehdi bəyin bu nalası Nazdı xanıma ayan oldu. Kənizdəri çağırdı ki, Mehdi bəyin səsini eşitdim. Onnar inanmadı ki, belə şey olmaz. Nazdı xanım birtəhər dirsəhlənif aldı görəh nə dedi:

Bir səda yetişdi mənim guşuma,
Gedin, baxın, Mehdidimi bu gələn?!
Öz əlimnən zəhər qatdım aşıma,
Gedin, baxın, Mehdidimi bu gələn?!

Əzəlinnən qarı gəldi yanıma,
Bir söz dedi, tufan düşdü canıma,
Nejə çıxım mən yarımın önünə,
Gedin, baxın, Mehdidimi bu gələn?!

Mən Nazdıyam azdırmışam yolumu,
Fələk qırdı qanadımı, qolumu.
Yar yanında gödək etdi dilimi,
Gedin, baxın, Mehdidimi bu gələn?!

Uşaxlar, yanı, həmən yetimlər yüyürüf, Tehran yoluna çıxdılar. Baxdılar ki, doğurdan da Mehdi bəy atnan gəlir. Mehdiynən qucaqlaşıf öpüşdülər və dedilər: gözün aydın olsun, duamız qavıl oluf. Nazdı xanım bir haldadı ki, yeddi qədəm həndəvərinə hərrənmər olmur. Əhvalatı olduğu kimi Mehdi bəyə danışdılar. Mehdi bəy söyünüf dedi:

– Uşaxlar, Allaha şükür olsun, heç olmasa, nəfəsi varmı?

– Nəfəsi olmaxnan heç yanna yaxın getməy olmur. Öyə çatmamış əvvəl draxdına getdilər. Camaat tökülüf, gəldi. Baxdılar ki, Mehdi bəyin irəngi saralıf, saçdarı da dümağ. Mehdi bəy ah çəkif dilləndi:

– Niyə məni qınıyırsınız, qulaq asın, deyim:

Ey ariflər, niyə məni qınarsız,
Nə zamandı mən o yarı görmərəm.
Eşqə düşənnəri mən də qınardım,
Eşq əhlində indi karı görmərəm.

Al-yaşıl geyinif seyrə çıxasan,
Baxannarı yandırıban yaxasan.
Kor ol gözüm, özgəsinə baxasan,
Tarlan duran yerdə sarı görmərəm.

Mehdiyəm, ürəkdə qaldı bu zədə,
Haq bilir ki, gözüm yoxdu kimsədə.
Dili məndə oldu, qəlbi özgədə,
O səbəbdən biilqarı görmərəm.

Çünki ona da ayan olmuşdu ki, Nazdı xanım gejə-gündüz Mehdi deyif, Mehdi eşidir.

Bəli, oydu ki, yetimlərin biri öyə muştulux apardı ki, Mehdi bəy gəldi. Nazdı xanım adam göndərif dedi ki, Allahı istiyirsə yanıma gəlsin, bircə yanıma gəlsin, bircə dəfə üzünü görüm, daa heç nə istəmirəm.

Mehdi bəyi gətirdilər Nazdı xanımın qarşısına. Nazdı xanım kənizdərə dedi ki, sizi and verrəm allaha, məni bir az qaldırın. Ağlaya-ağlaya götürüf Mehdi bəyə nə dedi, Mehdi bəy ona cavab verdi. Özü də "Kərəmi" üstə. Tərəfindən ərz eliyim, xoşbaxt olun:

Ey ariflər, bu gün məhşər günüdü,
Nə müddətdi əlim yardan üzgündü.
Gündə beş yol dindirdiyim cananı,
Görəmmirəm xeyli vaxtdı – yüz gündü.

Nazdı xanımın ağlamağına Mehdinin ürəyi yandı. Nazdı xanım da fikirləşdi ki, ay allah, görən ürəyi mənnən təmiz dönüfmü? Götürüf burda Mehdi bəy nə dedi:

Qan ağlaram qara baxtın əlinnən,
Mən bülbüləm gülşanımnan olmuşam.
Bir gülüydü, tüşdü nadan əlinə,
Ayrılıx mədəni kannan olmuşam.

**Nazdı xanım:**

Düz deyillər, heç əyri qəlb düz olmaz,
İblis tova qılsa gəlif düz olmaz,
Sözü qavıl olmaz, mətləv düz olmaz,
Namərd qapısında qalıf yüz gündü.

**Mehdi bəy:**

Varmı mənim kimi qəmlər paşalı,
Əli dəstə güllü, tər bənövşəli,
Nazdı dilbər, səndən ayrı düşəli,
Vallah, tamam din-imannan olmuşam.

**Nazdı xanım:**

Eh, Nazdıyam, susamışam dərdə mən,
Gör ki, şəfa bulmamışam dərdə mən.
Eyyub kimi tuş olmuşam dərdə mən,
Heç deyən yox, Mehdi gəlif, üzgündü.

**Mehdi bəy:**

Mehdiyəm, rast gəldim müşkül bir işə,
Fələk yaman çaldı, qayıya, daşa.
Qorxuram bu söyda gəlməsin başa,
Heyva kimi saralıban solmuşam.

Söz tamama yetdi, deyillər, Nazdı xanımı hamama apardılar. İsti suynan çimizdirdilər, yaxşı kisə çəkdilər. Bir həftənin içində anadangəlmə oldu. Gözəlliyi yeddiydisə, indi doqquz oldu. Xavar çıxdı ki, Mehdi bəyin dayısı Mustafa vəzir doqquz yüz sarvaznan Qalaçanın dörd yanını kəsif. Nejdi Məmmədxan, vəzir-vəkili qaça bilmir. Mustafa vəzir hökmranlığı ədə alıf, çarmıx qurudurdu. Mehdi bəyi çağırtdırdı. Nejdi Məmmədxanı, vəzirini, qazı əfəndiyi, Türfənsə qarıyı də gətizdirdi.

Nejdi Məmmədxanı çarmıxa çəkdirif tafşırdı ki, gündə bunnan bir tikə ət kəsin. Vəzirnən, qazı əfəndiyi də gərgiyə verdi. Dedi, bunnarın əyəxlərinnən soyun. Gündə Nejdi Məmmədxannan kəsdiyiniz ət boyda soyun. Qaldı qarı, yeddi illik bir xam qatır gətizdirdi. Qarıyı da qatırın quyruğuna bağlatdı ki, bunun havasını da qatır çəksin.

Mustafa vəzir bajısınnan görüşdü, Mehdi bəyə təzədən qırx gün, qırx gejə toy çaldırdı. Xanın, vəzirin əti, gönü qurtaran vaxt Mehdi bəyin toyu da qurtardı.

Mustafa vəzir camaatı yığıf, Mehdi bəyi xan qoydu. Amma o vaxtıydı ki, bu tərəfdən Qara xan arvadıynan, o tərəfdən qardaşı da Məhəmmədəli Gəncədən gəlirdilər. Mehdi bəy qardaşı Məhəmmədəliyi özünə vəzir qoydu. Əmisi uşaxlarını da kəmərbəstə. Məhəmmədəli Gəncədən burya köçdü. Bir aşıx tafdılar, bir də məclis qurdular. Aşıx bunnarın toyunu belə tutdu:

Xəstə konlum səhət buldu,
Sevdijiyim, sən gələndə.
Açılıf bulut zülflərin,
Qamətinə tən gələndə.
Gözdərim düşdü gözünə,
Mən oldum heyran gələndə.
Havalandı konlum quşu,
Hürüynən-qılman gələndə.

Baharın tər bənöyşəsi,
Ey bağı gülşən gələndə.
Şikəst konlum şafa buldu,
Bir belə cavan gələndə.

Çoxları ziynət verif,
Tüşüf gözəllik bəhsinə.
Yaqutdan irəng alıf,
O cəvahir düyməsinə.
Yaxasınnan zər işdənif,
Qıfıllanıf sinəsinə.
Xavar aldım əhvalını,
Yetik oldum binəsinə.
Dil-dil ötən kəhliyidin,
Oyçular duruf səsinə.
Kirpikləri müjgan oxu,
Qaşdarı kaman gələndə.

Nəvinin oylağıdı,
Əzm edər mahallara.
Xubların qaydasıdı,
Karvanı çıxar yollara.
Sərində sığal verər,
Əbrişim-siyah tellərə.
Durna kimi qatarranıf,
Sonalar üzür göllərə.
Tərifinə dastan dedim,
Tüşsün dillərdən-dillərə.
Şairlərin qaydasıdı,
Tərif deyər gözəllərə.
Ün tüşər biyavana,
Cütünnən ceyran gələndə.

# TƏRTİBDƏ İSTİFADƏ OLUNMUŞ QAYNAQLAR

**I. Miflər.** Sən Kür, mən Kür. Qara nər. Qara nər (II variant). Qara nər ocağı (III variant). Pərvanə gölü. Nümunələr Arif Acalovun tərtib etdiyi "Mifoloji mətnlər" kitabından götürülmüşdür (Bakı: Elm, 1988).

**II. Ovsun və sınamalar.** *Söyləyicilər:* 1. Abbasov Məhəmməd (70 yaş, Bolnisi rayonu, Qoculu kəndi, 1995). Fatma Sultan qızı (1927-ci il təvəllüdlü, Faxralı kəndi, 1999). Məmmədova Humay İsrafil qızı (1942-ci il təvəllüdlü, Həsən Xocalı kəndi, 1999). Namazova Xanım (1923-cü il təvəllüdlü, Bolnisi rayonu Əsmələr kəndi, 2003).

**III. Atalar sözü və məsəllər.** *Söyləyicilər:* Güləhmədova Yetər Nəsib qızı (Bolnisi rayonu, Kəpənəkçi kəndi, 69 yaş, 1989). Aşıq Kamandar Əfəndiyev (Marneuli rayonu, Kürsütü Kəpənəkçi kəndi, 60 yaş, 1990). Rövşən Nəsiboğlu (Marneuli rayonu, Kürüstü Kəpnəkçi kəndi, 62 yaş, 2011). Namazova Zinyət Məmməd qızı (Bolnisi rayonu, Faxralı kəndi, 58 yaş, 2002). Bayramova Cahan Vəli qızı (Bolnisi rayonu, Faxralı kəndi, 60 yaş, 1997). Alıyeva Bəsti Əsgər qızı (Dumanisi rayonu, Yırğançay kəndi, 78 yaş, 2004).

**IV. Bayatılar.** *Söyləyicilər:* Məmməd Hüseynqulu oğlu (Bolnisi rayonu, Faxralı kəndi, 80 yaş, 1966-1972). Yetər Bayram qızı (Bolnisi rayonu Faxralı kəndi, 75 yaş, 1966-1972-ci illər). El şairi İsmayıl Güllər (1914-cü il təvəllüdlü, 1970-1997-ci illər). Mərdanova Həmayil (Marneuli rayonu Betarafçı kəndi, 65 yaş, 2005-ci il). Əliyev Fərman (müəllim, Loqodeki rayonu Qaracalar kəndi). Mayqa Məhəmməd qızı (Marneuli rayonu). Ömərov Məhəmməd (Bolnisi rayonu Qoçulu kəndi, 81 yaş, 2000-ci il). Dünyamalı Kərəm (əməkdar jurnalist, Bolnis rayonu, Qoçulu

kəndi, 90 yaş, 2007). Qurbanova Şahnisə (Aşıq Hüseyn Saraclının həyat yoldaşı, Bolnisi rayonu, Saraclı kəndi, 1924-cü il təvəllüdlü)

**Təfsilati bayatılar.** *Söyləyici:* Məmməd Hüseynqulu oğlu (Bolnisi rayonu, Faxralı kəndi, 80 yaş, 1966-cı il iyul ayı).

**Bir-biri ilə bağlı iki bayatı.** *Söyləyicilər:* Məmməd Hüseynqulu oğlu (Bolnisi rayonu, Faxralı kəndi, 80 yaş, 1966-cı il iyul ayı). Aşıq Hüseyn Saraclının həyat yoldaşı Şahnisə xanım, təqdim edəni: professor Əflatun Saraclı.

**V. Oxşama-nazlamalar.** *Söyləyicilər:* Hürü Bayramalı qızı (Bolnisi rayonu Faxralı kəndi, 91 yaş, 2010). Hürü Nəbiyeva (Marneulu rayonu Sadaxlı kəndi, 70 yaş, 1998). Səadət Buta (şairə, Dumanisi rayonu Qarabulaq kəndi, 1950-ci iol təvəllüdlü). Səringül Ömər qızı (Dumanisi rayonu, Qarabulaq kəndi, 1956-cı il təvəllüdlü). Aişə Həmid qızı (Qardabani rayonu Yenikənd kəndi, 1928-ci il təvəllüdlü).

**VI. Laylalar.** *Söyləyicilər:* Gülüstan Abbas qızı (Dumanisi rayonu Arıxlı kəndi, 73 yaşlı, 1981). Güləsər Hümbət qızı (Bolnisi rayonu, Faxralı kəndi, 59 yaş, 2012).

**VII. Tap-tapmaca.** Söyləyicilər: Zəhra Nəzərəli qızı (Marneuli rayonu, 1985-ci il, 65 yaş). Toplayanı: Fərman Əliyev, Loqodexi rayonu Qaracalar kəndi, 1989). Mayqa Məmməd qızı (Marneuli rayonu, 1989). Sevil Binnət qızı (Bolnisi rayonu, Qoçulu kəndi, 65 yaş, 2011). Xəlil Bədəlov (51 yaş, 1989). Gövhər Gülməmməd qızı (85 yaş, 1989, Ərcivan-Sarvan).

**VIII. Rəvayətlər, əhvalatlar, söyləmələr və hekayətlər.**

**Mənbələrdən götürülmüş nümunələr:**

"Sovet Gürcüstanı" qəzeti. 24 dekabr 1988-ci il. "Folklor səhifəsi"ndən aşağıdakı nümunələr götürülmüşdür:

1. Bir el adəti. Qatar qaya.

Əhvalatlar, uydurmalar, hekayətlər.

Toplayıb təqdim edənlər: Seyfəddin Əliyev, Mədəd Coşqun.

2. “Sovet Gürcüstanı” qəzeti.

Rəvayətlər, gülməcələr, laylalar, bayatılar, oxşamalar, tapmacalar. Atalar sözləri və məsəllər. Qəzetin folklor səhifəsindən Saraclı elinə aid olanlar.

Toplayıb təqdim edənlər: Əflatun Saraclı, Süleyman Çobanlı. 27 oktyabr 1990.

3. “Sovet Gürcüstanı” qəzeti. 23 oktyabr 1990, Gorarxı kəndlərinin folklor nümunələri. Toplayıb təqdim edənlər: Zümrüd Qurbanlı, Aslan Gorarxlı.

4. “Gürcüstan” qəzeti, 9 iyul 1991

*Arıxlı elinin folklor nümunələri:* Arıxlı arx üstədi. Hacıqara və təlxəng. Maraluçan. Hacıqara və Çayçı. Qarqardan çürük çıxdı və bir neçə bayatı.

*Toplayıb-təqdim edənlər:* Şurəddin Məmmədli, Rasim Arıxlı (İsmayılov)

5. “Sovet Gürcüstanı”. 10 sentyabr 1988.

1. “Anaxatır”, “Keçəli əhvalatları”, “Keşəli lətifələri”, bilməcələri, deyimləri və s.

Toplayıb-təqdim edənlər:

Süleyman Süleymanlı, Osman Əhmədoğlu.

6. “Sovet Gürcüstanı”. 27 noyabr 1990. “Qarayazı” folklor guşəsi:

“Üstörtülü işarə”, “Məntiq”, “Oğlansanmı, qızsanmı”, “Sağ ol, yemirəm”, “Elin özü, elin sözü”, “Ay it, üzdən, üzdən”, “Söz de, söz olsun”. Bayatılar, tapmacalar – Toplayıb tərtib edəni – Müzəyyəd Məmmədoğlu.

7. “Gürcüstan” qəzeti. 9 yanvar 1993.

Ərcivan folklor nümunələrini Gövhər Gülməmməd qızının (85 yaş), Dünyamalı Süleyman oğlunun, Ziyad Alagözovun, Mustafa Bədəlovun dilindən toplayan Murtuz Ərcivanlı

8. “Sovet Gürcüstanı” qəzeti. 28 yanvar 1989.

Faxralı folklor örnəkləri. El ağsaqqallarının, ağbirçəklərinin dilindən toplayıb-təqdim edən Rəşid Faxralı (Hüseynov).

9. “Gürcüstan” qəzeti. 22 oktyabr 1991. Loqodeki rayonu Qaracalar kənd folklorunu toplayıb-təqdim edəni Fərman Əliyev.

10. “Sovet Gürcüstanı” qəzeti. 26 avqust 1989. Ərcivan-Sarvan folklor səhifəsi. Söyləyicilər: Zəhra Nəzərli qızı (65 yaş), İmaməli Pirəli oğlu Uznalov (1988-ci ildə 90 yaşında vəfat edib), Əjdər Dəliyəlov (65 yaş), Gövhər Gülməmməd qızı (85 yaş), Şölə Məmmədova, Xəlil Bədəlov. Yazıya alıb təqdim edəni: kənd müəllimi Murtuz Uznalov

11. “Qaraçöp” (ədəbi-etnoqrafik toplu. Bakı: “Dünya” nəşriyyatı, 1996, səh. 180-189) kitabı. Tərtib edəni və nəşrə hazırlayanı Nəriman Əbdürrəhmanlı.

Az yisənə. İndi get düzəl... Yiyək, deyək, yoxsa, deyək yeyək. Get südünə... Yiyif-içif eşşək olmuşux. Cənnətdə yaşamaxdansa. Gəl qaynıyıf-qarışax. Qırxında örgənən gorunda çalar. Çovanın qoltuğundakı. Hörməti qonax çağır. Ölüm çaparı.

Yazıb-yığışdıran Ərdəfil İlham oğlu

**IX. Lətifələr və dodaqqaçdılar.** Söyləyicilər: Mədəd Coşqun (şair, jurnalist). Mustafa İdris oğlu (1989-cu il, Bolnisi rayonu, 56 yaş). Baba Həmid oğlu (1989-cu il, 58 yaş). Sənəm Həsən qızı (Bolnisi rayonu Faxralı kəndi, 1981-ci il, 72 yaş). Fatma Sultan qızı (Bolnisi rayonu, Faxralı kəndi, 2001, 75 yaş). “Sovet Gürcüstanı” qəzeti. “Saraclı folkor səhifəsi”. Toplayıb təqdim edənlər: Əflatun Saraclı, Süleyman Çobanlı. 27 oktyabr 1990.

**X. Nağıllar. Həzrət Əli**. *Söyləyəni:* Vəkil Mərdanov (Marneuli rayonu, Beytərəfçi kəndi, 1981-ci il, 59 yaş). Nurxatının nağılı. *Söyləyəni:* Əhməd Osman oğlu (marneuli rayonu, Keşəli kəndi, 1983-cü il, 87 yaş). Bəhlul Danəndə. *Söyləyəni:* Əfəndi Həmid oğlu Əfəndiyev (Marneuli rayonu Kürüstü Kəpənəkçi kəndi, 1984,

68 yaş). Mahmudun nağılı. *Söyləyəni:* İsmayıl İsmayılov (Bolnisi rayonu Faxralı kəndi, 1999-cu il, 83 yaş). Heç kəsin qaraçuxası yatmasın. *Söyləyəni:* Eyyub Kirəcli (Marneuli rayonu, Kirəcli kəndi, 1979, 65 yaş). Üç qardaş. Cahangir Məmmədov (Dumanisi rayonu Qarabulaq kəndi, 2009-cu il, 67 yaş).

**"Aşıq Qərib" dastanının cənub-qərbi Gürcüstanda aşıq Etodan yazıya alınmış nümunələr. Yazıya alanı: Valeh Hacılar.** 1981-ci il. Aspindza r-nun Toloş kəndi (Gürcüstan)

**XI. Deyişmələr.** Şair Nəbi ilə Şair Abdullanın deyişməsi. *Toplayanı:* Hüseynqulu Məmmədli. Söyləyəni: Rəhim Nəbi oğlu (Bolnisi rayonu Faxralı kəndi, 1956). Ağacanın Türkiyə səfəri. *Söyləyəni:* Aşıq Göyçə Məmmədov (Marneuli rayonu Qaçağan kəndi, 1980-ci il). Aşıq Musanın Azaflı Mikayılla görüşü. Musa eldən aralanmaz (qoşqular, söyləmələr), ("Çinar-Çap" nəşriyyatı, Bakı, 2010, səh. 320-326. ). Aşıq Alxan Qarayazılının Qaraçöplü Aşıq Musa ilə deyişməsi. Təbiət Alxanı bir də yaratmaz. "Çaşıoğlu" nəşriyyatı, Bakı, səh. 23. Faxralı el şairləri Rəhim Nəbi oğlu ilə İsmayıl Güllərin deyişməsi. Söyləyəni: İsmayıl İsmayılov (Bolnisi rayonu Faxralı kəndi, 1966-cı il, 50 yaş).

**XII. Dastanlar.** "Koroğlu" dastanından "Ağcaquzu" qolu. II variant. Söyləyəni: Aşıq Aslan Kosalı (Qardabani rayonu Kosalı kəndi, 2006, 76 yaş). Şəhri-Mehri. Söyləyəni: Aşıq Göyçə Məmmədov (Qaçağan kəndi, 1980). Zərqam şah (yaradıcısı Şair Novruz Təhləli. Şairin əlyazmasından köçürüb təqdim edəni Şair Allahverdi Təhləli. 2012-ci il. Mehdi bəy. (yaradıcısı Şair Nəbi Borçalı. Yaddaşında saxlayan və təqdim edəni Aşıq Hüseyn Saraclı).

## KITABIN İÇİNDƏKİLƏR

**Tərtibçidən** .......................................................... **3**
**Redaktordan** ........................................................ **6**
**Borçalı azərbaycanlılarının soykökü** .................... **11**

**I MİFOLOJİ MƏTNLƏR**
Sən kür, mən kür ........................................... 17
Qara nər ....................................................... 18
Qara nər (II variant) ...................................... 18
Qara nər ocağı (III variant) ............................ 19
Pərvanə gölü ................................................. 22

**II OVSUN VƏ SINAMALAR** ............................... 24
**III ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR** ................. 28
**IV BAYATILAR** .................................................. 48
Təfsilati bayatılar ........................................... 55
Bir-biri ilə bağlı iki bayatı ............................. 56

**V OXŞAMALAR-NAZLAMALAR** ...................... 59
**VI LAYLALAR** .................................................... 62
**VII TAP-TAPMACA** ............................................ 63
Cavabını siz tapın ........................................... 64

**VIII RƏVAYƏTLƏR**
Gəlin-qaynana ................................................ 66
Nənəvay ......................................................... 66
**Söyləmələr**
Hələ axşama çox var ....................................... 67
Deməsinlər itiyi itdi ........................................ 68
Üstüörtülü işarə .............................................. 68
Məntiq ............................................................ 68
Elin özü, elin sözü ........................................... 69
Günlərin bir günü ........................................... 71

Keşəli əhvalatları........................................... 72
Ov yeri, yurd yeri .......................................... 74
Arıxlı arx üstündə.......................................... 75
Görarxı səmti ................................................ 77
Bir el adəti.................................................... 81
Nə gördünüz.................................................. 83
Kökəni kim yesin .......................................... 83
Mənim şəklimi də çəkdir ............................... 84
Nə tökərsən aşına .......................................... 84
Az yisənə ...................................................... 85
İndi get düzəl ................................................ 86
Yiyək deyək, yoxsa, deyək yiyək................... 87
Get südünə .................................................... 89
Yiyif-içif eşşək olmuşux................................ 90
Cənnətdə yaşamaxdansa................................. 91
Qırxında örgənən gorunda çalar..................... 92
Gəl, qaynayıf-qarışax .................................... 93
Çobanın qoltuğundakı ................................... 94
Hörməti qonaq çağır...................................... 95
Ölüm çaparı................................................... 95
Qadın qeyrəti................................................. 97
Kimin ətəyindən yapışmışam......................... 98

**VIII DEYİMLƏR-DÜZGÜLƏR........................... 99**
Toy nəğmələri və əvədə-şəbədələr ........................... 107
Tosoy mahnısı ........................................................ 109

**IX TÜRKƏÇARƏLƏR** ........................................... 110
**X ALQIŞLAR, QARĞIŞLAR, ANDLAR**
Alqışlar ......................................................... 111
Qarğışlar ....................................................... 112
Andlar ........................................................... 114

**XI İNAMLAR, ETIQADLAR** .............................. 115
**ƏFSANƏLƏR**
Xanada qaldı muncuğum .............................. 121
Uçubınıq .............................................. 121
Uçubınığın ölümü ...................................... 122
Maraluçan ............................................. 123

**LƏTİFƏLƏR VƏ DODAQQAÇDILAR ............... 124**
Koxa və Eyyub ......................................... 127
Otmu, bağmı ........................................... 127
Qırxında öyrənən gorunda çalar ..................... 128
Baba və nəvə .......................................... 130
Ölmərəm, o biri ayağını da uzadarsan ............ 131
Hortu bir abbası ...................................... 132
Mən gedirəm, sən də gəl ............................. 132
Bəs mən heç evdə qalmadım ki? .................... 133
Sağ ol, yemirəm ...................................... 134
"Ay it, üzdən, üzdən" ................................ 134
Qaraqaran çürük çıxdı ............................... 135
Lal gəlin .............................................. 136
Hacıqara və çayçı .................................... 139
Hacıqara və təlxək ................................... 140
Sən bölə bilmədin .................................... 141
Mənim də dəliliyim tutuf ............................. 143
He-he elə, gələjək .................................... 144
Qara eşşəyin canı sağ olsun ........................ 145
Qələt eləmə .......................................... 146
Gəlin, qaynana ....................................... 147
Tap gətir, özününkünü apar ......................... 147
"Comuş bağa girdi" çal .............................. 148

**NAĞILLAR**

Həzrət Əli ........................................................ 149
Nurxatının nağılı ............................................ 152
Bəhlul Danəndə.............................................. 156
Mahmudun nağılı ............................................ 158
Heç kəsin qaraçuxası yatmasın ........................ 160
Üç qardaş ....................................................... 162

**“Aşiq Qərib” dastanının cənub-qərbi Gürcüstanda yazıya alınmış variantından poetik parçalar** ...... 168
Ləzgi Əhmədlə deyişmə ................................ 172
Ağca qızla deyişmə ...................................... 176
Şahsənəmlə deyişmə .................................... 179

**DEYIŞMƏLƏR**

Şair Nəbi ilə Şair Abdullanın deyişməsi.................... 182
Ağacanın Türkiyə səfəri............................................ 186
Aşıq Musanın Azaflı Mikayılla görüşü ..................... 198
Aşıq Alxan Qarayazılının Qaraçöplü Aşıq Musa ilə deyişməsi................................................................ 203
Faxralı şairləri Rəhim Nəbi oğlu ilə İsmayıl güllərin deyişməsi................................................................ 207

**DASTANLAR**

“Ağcaquzu” qolu haqqında bir neçə söz.................... 209
“Koroğlu” dastanından “Ağcaquzu” qolu.................. 210
Şəhri-Mehri ............................................................. 238
Zərqam şah.............................................................. 260
Mehdi bəy ............................................................... 289

**Tərtibdə istifadə olunmuş qaynaqlar**.................... 319
**Kitabın içindəkilər**.................................................. 324

**Borçalı folklor örnəkləri,**
**2-ci cild,**
Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013.

Nəşriyyat direktoru:
**Nadir Məmmədli**

Kompyuterdə yığdı:
**Ülviyyə Əliyeva**

Korrektoru:
**Vüsal Abiyev**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Ramin Abdullayev**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 21 ç/v
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab AMEA Folklor İnstitutunun
Redaksiya-Nəşriyyat şöbəsində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" nəşriyyatında hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.